**Fizuli Əziz oğlu MƏMMƏDOV,** i.e.d. prof
Azərbaycan Texnologiya Universiteti

**Şəhla Rauf qızı ABBASOVA**
Gəncə Dövlət Universiteti, İqtisadiyyat kafedrasında müəllim
E-mail: sehla.abbasova.2018@mail.ru

**Yasəmən Kamal qızı QULİYEVA**
Gəncə Dövlət Universiteti, İqtisadiyyat kafedrasında müəllim
E-mail: elvin_168@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASINDA YÜNGÜL SƏNAYE SEKTORUNUN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Hazırda bir çox inkişaf etmiş ölkələrin iqtisadiyyatında yüngül sənaye sektoru potensial imkanları və rəqabətqabiliyyətinə görə xüsusi çəkisinin artırılması vacib olan əsas istehsal sahələrindən hesab olunur. Lakin qloballaşma prosesi dərinləşməsi ilə maliyyə imkanları yetərsiz olan kifayət qədər ucuz işçi qüvvəsinə sahib olan inkişaf etməkdə olan ölkələrində bu sektora olan marağını əhəmiyyətli dərəcədə artırmışdır. Beynəlxalq ticarətdə artan rəqabət səbəbiylə, sahib olduqları bazar paylarını qorumaq istəyən inkişaf etmiş ölkələr, istehsalın miqyasını genişləndirmədən istehsal texnologiyalarının modernləşdirilməsinə istiqamətlənmiş investisiyaların həcmini artırırlar. Bu istiqamətdə digər bir əhəmiyyətli məqamda inkişaf etmiş ölkələr malik olduqları maliyyə imkanları ilə bir tərəfdən istehsal məhsuldarlığında artımı təmin edir, digər tərəfdən isə mütərəqqi texnologiyanın tətbiqi ilə yüngül sənaye məhsullarının dözümlülük, elastiklik, yanğına davamlılıq kimi xüsusiyyətlərini inkişaf etdirərək əlavə dəyəri yüksək məhsulların istehsalına yönəldirlər. Ayrıca texniki-tekstil, bio-tekstil, ekoloji-tekstil kimi istehsal çox daha yüksək məhsullarla məhsul çeşidini zənginləşdirərək, rəqabətədavamlılığı təmin etdirmişlər. Baxmayaraq ki, bu cür istehsal prosesi istehsal xərclərinin artmasına səbəb olur. İstehsal xərcləri yüksək olmaqla birlikdə, mütərəqqi texnologiya və yüksək əmək məhsuldarlığı ilə optimal ölçülərdə istehsal qabiliyyəti nəticəsində əlavə dəyərli yüksək məhsulların istehsalını təmin edən inkişaf etmiş ölkələr dünya toxuculuq ticarətində öz qabaqcıl mövqelərini qoruyurlar. İnkişaf etməkdə olan ölkələr isə son on ildə yeni investisiya axını içərisində olmuşlar.

Dünya iqtisadiyyatının reqresiya mərhələsinə qədəm qoyduğu hazırkı dövrdə yüngül sənaye sektoru ölkələr üçün strateji əhəmiyyətini əvvəlki kimi qoruyub saxlamaqdadır. Baxmayaraq ki, son iki ildə dünyada baş qaldıran COVİD-19 pandemiyası və ondan sonra müşahidə olunan mənfi təzahürlər dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da iqtisadi sahələr üzrə müəyyən neqativ meyillərin ortaya çıxmasına zəmin yaratmışdır. Bütün bu mənfi tendensiyaların fonunda yüngül sənaye sektoru iqtisadiyyatın bir çox mühüm sahəsi ilə müqayisədə bazar tələbini böyük ölçüdə qoruyub saxlamaqla cəmiyyət ehtiyaclarının qarşılanmasında daha da aktiv rol almaqda davam edir. Respublikamızda iqtisadi diversifikasiyanın reallaşdırılmasının aktual olduğu hazırkı iqtisadi şəraitdə yüngül sənaye sahəsinin inkişafı üçün əlverişli şəraitin yaradılması həyata keçirilən iqtisadi siyasətin prioritetini təşkil etməklə ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasına daha çox töhfə verə bilər.

**Açar sözlər:** *yüngül sənaye, rəqabət, dünya iqtisadiyyatı, diversifikasiya, pandemiya, qloballaşma.*

**UOT:** 338
**JEL:** J21

## Giriş

Qloballaşma prosesi ölkələr arasında iqtisadi, siyasi və sosial əlaqələrin genişləndirilməsinə müxtəlif mədəniyyətlərə, inanclara əsaslanan qütbləşmələrin ortadan qalxmasına və ölkələr arasında münasibətlərin intensivləşdirilməsinə zəmin yaradır. Qloballaşma prosesi eyni zamanda rəqabət mühitinin kəskinləşməsinə iqtisadi münasibətlərin dərinləşməsinə təkan verir. Qlobal miqyasda baş verən rəqabət, şirkətlər arasında formalaşan rəqabətdən daha geniş bir anlayışdır. Qlobal rəqabət şəraitində təhsil sistemi, texnoloji infrastruktur, sahibkar-işçi, dövlət-özəl sektor münasibətlərini bir-birinə bağlayır.

Doğrudur, rəqabət məfhumu iqtisadi baxımdan mühüm bir kateqoriya olsa da onun kəskinləşməsi biznes subyektlərinin bazar imkanlarının yetərli potensial olmadıqda zəifləməsinə gətirib çıxarır. İqtisadiyyatın bütün sahələri üçün analoji vəziyyət xarakterik olmaqla yanaşı yüngül sənaye sahəsi üçün bu vəziyyət daha geniş və təsiredici effektə malikdir. Bu sahədə rəqabətə qoşulmaq üçün ən optimal tənzimləmə alətləri isə dəb (moda), marka və texnologiyadır [1].

İqtisadçıların qənaətinə görə moda, marka və təhsil bu sahədə növbəti onillikdə dünya iqtisadiyyatının hərəkət trayektoriyasını müəyyən edəcəkdir. Qeyd olunan elementlərlə sıx bağlılığı olan yüngül sənaye sektoru bu proseslər nəticəsində yaxın gələcəkdə dünya iqtisadiyyatında daha aktiv mövqe qazanacaqdır. Hazırda Azərbaycan iqtisadiyyatında tək yüngül sənaye sektorunda deyil, bütün sahələrdə markalaşma problemi beynəlxalq rəqabət gücünə təsir edən əsas faktorlardan hesab olunur. Hesab edirik ki, vurğulanan meyarlarla yanaşı müasir dövrdə respublikamızda yüngül sənaye sektorunun rəqabət imkanlarının artırılması ilə bağlı aşağıdakı məsələlərə diqqət yetirilməsi əhəmiyyətli ola bilər:

- istehsal infrastrukturunun beynəlxalq səviyyəyə yüksəldilməsi prosesinin ləng getməsi;
- dizaynla bağlı ənənəvi bilgilərin artıq yetərsiz olması;
- beynəlxalq bazarlara çıxışla bağlı marketinq elementlərində kifayət qədər geniş istifadə olunmaması;
- markalaşma, standartlaşma və sertifikasiya ilə bağlı çatışmazlıqlar;
- yüngül sənaye sahəsində müştərək fəaliyyətlə ( bu sahədə kifayət qədər təcrübəli xarici tərəfdaşlar başda olmaqla) bağlı təşəbbüslərin zəif olması və s. [2].

Hazırda rəqəmsal texnologiyaların inkişafı və geniş tətbiqi ilə dünya yeni mərhələyə qədəm qoyur. Belə bir innovativ istehsal mühitinin formalaşması ilk növbədə insan cəmiyyətinin inkişafı üçün yeni perspektivlər yaradır. Təsadüfi deyil ki, artıq ölkələrin iqtisadi inkişaf səviyyəsi ənənəvi metodikalar əsasında müəyyənləşdirilmiş makroiqtisadi göstəricilərlə yanaşı, istehsal sahələrinin avtomatlaşması, insan əməyinin robotlarla əvəz olunması, süni intellektin geniş istifadəsi ilə xarakterizə olunan rəqəmsal texnologiyalardan istifadə səviyyəsi ilə ölçülür. Mövcud iqtisadi şəraitdə qloballaşan dünyada dövlətlərin qarşısında duran ən aktual problemlərdən biri iqtisadiyyatın rəqəmsallaşması və innovativ texnologiyaların istehsal sahələrinin yüksək sürətlə inteqrasiyasının təmin olunması məsələsidir. Bu tendensiya yüngül sənaye sektoru üçün də xarakterikdir [3].

**Mövcud vəziyyət:** Yüngül sənaye sektoru sənayenin bir çox alt sahəsini özündə birləşdirir, bunlardan başlıcası toxuculuq, geyim və ayaqqabı sahələridir. Bu sahələr hazırda inkişaf etməkdə olan yeni sənayeləşmə ölkələrində intensiv olaraq inkişaf edir. Yüngül sənaye emal sənayesinin aparıcı sahələrindən biri olmaqla əsas etibarilə toxuculuq, tikiş, ayaqqabı, xəz-dəri, gön-dəri, qalantereya və s. bu kimi digər sahə və altsahələri özündə cəmləşdirir. Yüngül sənaye maddi istehsalın digər sahələri ilə sıx qarşılıqlı fəaliyyət əlaqəsində fəaliyyət göstərməklə, əsasən kənd təsərrüfatı məhsullarını emal etməklə son məhsul hazırlayır. Azərbaycan Respublikasında yüngül sənaye sektoru tarixən böyük potensiala malik ölkə iqtisadiyyatının əsas sahələrindən olmuşdur. Bunun əsas səbəblərindən biri sahənin inkişafı üçün vacib amillərdən olan xammal istehsalının respublikamızda kifayətedici səviyyədə olmasıdır. Respublikamızda yüngül sənaye sektorunun əsas xammalı hesab olunan pambıq, yun, ipək-barama, gön-dəri, xəz-dəri, quş tükü və s. istehsalı hələ qədim dövrlərdən inkişaf etdirilmişdir. Keçmiş ittifaq dövründə də respublikamızda yüngül sənaye xammalı istehsalı intensiv olaraq həyata keçirilmişdir. Müstəqillik dövründən sonra ilkin mərhələdə digər sahələrdə olduğu kimi bu istiqamətdə də çatışmazlıqlar və nöqsanlar ortaya çıxmışdır. Lakin son illər respublikamızda həyata keçirilən iqtisadi siyasətin tərkib elementi kimi bu istiqamətdə mövcud olan çatışmazlıqlar mərhələli şəkildə aradan qaldırılmış yüngül sənaye xammalı olan pambıq, yun, barama istehsalının artımına nail olunmuşdur. Bu sahədə 2010-2021-ci illəri əhatə edən məlumatlar cədvəl 1-də öz əksini tapmışdır [4].

Araşdırmalardan məlum olur ki, 2010-2020-ci ili əhatə edən dövrdə respublikamızda yüngül sənaye sektorunun əsas xammalı olan pambıq istehsalında 8,8 dəfə artım qeydə alınmışdır. Müvafiq dövrdə yun istehsalında nəzərə çarpacaq səviyyədə artım olmasa da barama istehsalının

unikal göstərici qeydə alınmışdır. Belə ki, 2010-cu ildə respublikamızda 6 min ton barama istehsal olunmuşdursa, 2020-ci ildə bu göstərici 74,4 dəfə artaraq 446,6 tona yüksəlmişdir.

**Cədvəl 1**

**Azərbaycanda yüngül sənaye təbii xammal istehsalı səviyyəsi, 2010-2020-ci illər üzrə**

| | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2010-cu illə müqayisədə 2020-də+-%-lə |
|---|---|---|---|---|---|---|---|
| Pambıq istehsalı min ton | 38,2 | 56,9 | 233,5 | 295,2 | 336,7 | - | 8,8 dəfə |
| Pambıq əkin sahəsi/ha | 30175 | 18684 | 132512 | 100112 | 100295 | - | 3,3 dəfə |
| Pambıq məhsuldarlıq ton/ha | 38,2 | 35,2 | 233,6 | 295,3 | 336,8 | - | 8,8 dəfə |
| Yun (fiziki çəkidə),1000t | 16,0 | 16,5 | 15,8 | 16,1 | 16,1 | - | 1,0 |
| Qoyunlar 1000 ədəd | 7723,9 | 7987,3 | 7821,0 | 7681,7 | 7575,4 | 7483,8 | 98,0 |
| Keçilər 1000 ədəd | 607,3 | 658,1 | 633,3 | 622,4 | 613,8 | 605,9 | 1,0 |
| Barama 1000 t | 6,0 | 0,236 | 513,9 | 643,7 | 446.6 | - | 74,4 dəfə |

Mənbə: www.stat.gov.az cədvəl Azərbaycan Dövlət Statistika Komtəsinin rəsmi saytının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Hazırda respublikamızda yüngül sənaye sektorunun inkişafına təsir edən amillər sırasında insan resursları, investisiya, xammal resursları və istehsal infrastrukturunun mövcud səviyyəsini göstərmək olar. Bundan başqa istehlakçıların zövq və davranışları istehlak bazarında tələbin mövcud səviyyəsində bu aspektdə həlledici rol oynayır. Qeyd edək ki, tələbin səviyyəsi rəqabət potensialına da təsir edir. Qeyd olunanlarla yanaşı bu gün yüngül sənaye məhsulları bazarına təsir edən mühüm amillərdən biri də Çin dövlətinin bu sahədə dominantlığıdır. Təsadüfi deyil ki, bu gün respublikamızda istehsal olunan yüngül sənaye məhsulları keyfiyyət meyarına görə heç də beynəlxalq bazarlara təklif olunan məhsullarla müqayisədə geri qalmır. Lakin ölkəmizdə bu sahə üzrə tələb olunan xammalın nisbətən baha əldə olunması, ixtisaslaşmış kadrların yetərsiz sayda olması və infrastruktur texnologiya sahəsində geriliklər məhsulun qiymətinin yüksəlməsinə təsir göstərir. Bu isə Çin başda olmaqla, Türkiyə, İndoneziya və bu sahədə inkişaf etmiş digər ölkələrlə müqayisədə yerli istehsalın bazarda rəqabət imkanlarına yüksəlməsinə mənfi təsir göstərir. Azərbaycanda yüngül sənaye müəssisələrinin fəaliyyətinə təsir edən digər amillərdən biri də onların maliyyə imkanlarının yetərsizliyidir. Xüsusilə kiçik və orta təsərrüfat kateqoriyasında olan yüngül sənaye müəssisələri böhran və digər müxtəlif səbəblərin təsiri ilə tələbin azaldığı dövrlərdə maliyyə yetərsizliyi səbəbi ilə fəaliyyətlərini qismən azaldır və yaxud tamamilə dayandırır. Bu isə daxili istehlak bazarında yerli alıcıların başqa ölkələrdən idxal olunan məhsullara üstünlük verməsinə səbəb olur [5].

**Nəticə və təkliflər:**

Qənaətimizə görə, Azərbaycan iqtisadiyyatında yüngül sənaye sektorunun dayanıqlı inkişafının təmin olunması məqsədilə onun qarşısında dayanan başlıca vəzifələrə bunları aid etmək olar:

- respublikada mövcud olan yüngül sənaye müəssisələrinin davamlı fəaliyyətini təmin etmək məqsədilə onların istehsal infrastrukturunun yenilənməsinə müəyyən dövlət dəstəyinin verilməsi;
- sahənin investisiya təminatının yaxşılaşdırılması istiqamətində zəruri tədbirlərin görülməsi;
- kənd təsərrüfatının yüngül sənaye sektoru ilə paralel inkişafını təmin edə biləcək mexanizmləri formalaşdırmaq;
- yüngül sənaye sektorunda fəaliyyət göstərən müəssisələrdə innovasiya və yeni texnologiyaların istifadə imkanlarını genişləndirmək;
- yüngül sənaye məhsulları ilə daxili bazarı tam şəkildə təmin etməyə səy göstərmək;
- yüngül sənaye məhsullarının ixrac potensialını yüksəltmək məqsədilə marketinq elementindən aktiv istifadə etmək;
- investorların 4 sənaye inqilabının təzahür elementi kimi rəqəmsal yüngül sənaye müəssisələrinin qurulmasında aktiv rol almalarına təşviq etmək və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Məmmədov S.M. “ Yüngül sənayenin infrastrukturunun inkişaf etdirilməsi məsələləri”. Dövlət büdcəli elmi-tədqiqat işi. Bakı, 2009-2012.

2. Məmmədov S. “Yüngül sənayenin infrastrukturunun inkişaf etdirilməsi məsələləri”. DBETİ. Bakı, 2009

3. Abbasov İ. Əliyev T. “Qeyri-neft sənayesinin iqtisadiyyatı”. Bakı, 2017

4.Nuriyev Ə. “(2007) Regional İdarəetmənin əsasları”. Bakı,Elm, 427 s.

5.www.stat.gov.az

**Физули Азиз оглы МАМЕДОВ ,** Профессор
Азербайджанский Технологический Университет

**Шахла Рауф кызы АББАСОВОЙ**
Гянджинский государственный университет,
E-mail: sehla.abbasova.2018@mail.ru

**Ясеман Камал кызы ГУЛИЕВА**
Гянджинский государственный университет
E-mail: elvin_168@mail.ru

# ОЦЕНКА ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА РАЗВИТИИ СЕКТОРА ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Резюме**

В настоящее время в экономике многих развитых стран отрасль легкой промышленности считается одной из основных производственных сфер, удельный вес которой следует увеличить в связи с ее потенциальными возможностями и конкурентоспособностью. Однако с углублением процесса глобализации значительно возрос интерес к этому сектору в развивающихся странах, имеющих относительно дешевую рабочую силу при недостаточных финансовых возможностях. В настоящий период, когда мировая экономика вступила в стадию регресса, легкая промышленность по-прежнему сохраняет свое стратегическое значение для стран. Однако возникшая в мире за последние два года пандемия COVİD-19 и наблюдаемые после нее негативные проявления создали основу для возникновения определенных негативных тенденций в экономической сфере как в Азербайджане, так и в большинстве стран мира. На фоне всех этих негативных тенденций легкая промышленность продолжает играть еще более активную роль в удовлетворении потребностей общества, поддерживая рыночный спрос в большей степени по сравнению со многими важными областями экономики. В современных экономических условиях, когда в нашей республике актуальна реализация диверсификации экономики, создание благоприятных условий для развития легкой промышленности может в большей степени способствовать повышению конкурентоспособности экономики страны за счет формирования приоритета реализуемой экономической политики.

**Ключевые слова:** *легкая промышленность, конкуренция, мировая экономика, диверсификация, пандемия, глобализация.*

**Fizuli Aziz oglu MAMMADOV** Professor
Azerbaijan Technological University

**Shahla Rauf ABBASOVA**
Ganja State University, Faculty of Economics Lecturer
E-mail: sehla.abbasova.2018@mail.ru

**Yaseman Kamal GULİYEVA**
Ganja State University, Faculty of Economics Lecturer
E-mail: elvin_168@mail.ru

# ASSESSMENT OF FACTORS AFFECTİNG THE DEVELOPMENT OF THE LİGHT INDUSTRY SECTOR İN THE REPUBLİC OF AZERBAİJAN

**Summary**

Currently, in the economy of many developed countries, the light industry sector is considered one of the main production areas, whose specific weight should be increased due to its potential opportunities and competitiveness. However, with the deepening of the globalization process, the interest in this sector has significantly increased in developing countries, which have relatively cheap labor force with insufficient financial opportunities. In the present period, when the world economy has entered the stage of regression, the light industry sector maintains its strategic importance for countries as before. However, the COVİD-19 pandemic that has occurred in the world in the last two years and the negative manifestations observed after it have created the basis for the emergence of certain negative trends in economic fields in Azerbaijan as well as in most countries of the world. Against the background of all these negative trends, the light industrial sector continues to take an even more active role in meeting the needs of society, maintaining the market demand to a large extent compared to many important areas of the economy. In the current economic conditions, where the realization of economic diversification is urgent in our republic, the creation of favorable conditions for the development of light industry can contribute more to increasing the competitiveness of the country's economy by forming the priority of the implemented economic policy.

**Keywords:** *light industry, competition, world economy, diversification, pandemic, globalization*.

**Nigar Pirverdi qızı AŞURBƏYLİ-HÜSEYNOVA** i.f.d. dos.
Azərbaycan Dövlət İqtisad Universiteti

# İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN VALYUTA REJİMİ SEÇİMİNİN XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Bazar iqtisadiyyatı şəraitində valyuta rejiminin seçiminin problemləri qanunauyğun haldır və müəyyən ziddiyyətlərlə şərtləndirilir. Hər bir ölkənin iqtisadi müstəqilliyi, siyasi suverenliyi və milli təhlükəsizliyi məsələləri onun güclü maliyyə sisteminə malik olmasından əhəmiyyətli dərəcədə asılıdır. Valyuta məzənnəsi xarici iqtisadi siyasətin ən mühüm alətlərindən biridir. Onun vəziyyəti və dinamikası sənaye istehsalının həcminə və strukturuna, xarici ticarətə, tədiyə balansının vəziyyətinə və sair mühüm göstəricilərə təsir edir. Məqalədə müasir valyuta rejimləri təhlil olunub. İnkişaf etməkdə olan ölkələrin monetar orqanlarının öz valyutalarını bənd etmək məcburiyyətilə üz-üzə qoyan əsas səbəblər, üzən məzənnə rejiminə keçid qorxusunun səbəbləri və sair məsələlər araşdırılıb.

**Açar sözlər:** *valyuta, monetar orqanlar, böhran, valyuta rejimi, valyuta məzənnəsi.*

**UOT:** 336.773
**JEL***:* F30

## Giriş

Valyuta məzənnəsi xarici iqtisadi siyasətin ən mühüm alətlərindən biridir. Onun vəziyyəti və dinamikası sənaye istehsalının həcminə və strukturuna, xarici ticarətə, ölkədə məşğulluğun strukturuna, ixrac və idxal qiymətlərinin vəziyyətinə, firmaların rəqabət qabiliyyətinə və mənfəətinə mühüm təsir göstərir. Valyuta bazarında vəziyyətin kəskinləşməsi valyuta böhranı ilə təmsil olunur.

Valyuta siyasəti dünya iqtisadi inteqrasiya prosesləri kontekstində iqtisadiyyatın daxili və xarici dinamik tarazlığını təmin edib beynəlxalq ödəmələri müəyyən sistem daxilində yerinə yetirmək, tədiyyə balansını tənzimləmək məqsədilə ölkənin cari strateji məqsədlərinə uyğun həyata keçirilən tədbirlərin məcmusudur. Bu siyasət ölkənin daxili və xarici iqtisadi problemlərinin həllinə yönəlik valyuta tənzimlənməsi nəzarəti olub, bu sahədə bazar, qızıl və valyutadan səmərəli istifadə, beynəlxalq miqyasda müvafiq təşkilatlarda iştirak məsələlərinə aydınlıq, ölkədaxili və ölkəxarici valyuta problemlərinin sistemli formada təhlili kimi ümdə məsələləri özündə birləşdirir [1].

Müasir valyuta rejimləri sistemi kapitalın hərəkətlənməsinin və müxtəlif ölkələrin iqtisadi sistemlərinin bir-birinə qarşılıqlı surətdə nüfuz etməsinin daha da intensiv şəkildə həyata keçirilməsini labüd edir. İqtisadiyyatın investorlar üçün açıqlığı çox vacib və həlledici məqam qismində dəyərləndirilməlidir. Son illərdə baş verən maliyyə böhranları müxtəlif iqtisadiyyatların bir-birinə necə bağlı olduğunu açıq şəkildə nümayiş etdirdi. İnkişaf etməkdə olan ölkələr öz məzənnələrini dünya valyutaları ilə əlaqələndirdilər, bağladılar və özlərinə məxsus qızıl-valyuta ehtiyatlarını doldurarkən inkişaf etmiş ölkələrin valyutalarından fəal surətdə istifadə etdilər. Xarici sərmayələri cəlb etmək üçün geniş imkanlar və inflyasiya ilə mübarizədə uğur qazandığı üçün belə siyasət populyarlaşıb. Bununla yanaşı, belə bir siyasətin aşkar üstünlükləri ilə bərabər, sabit dərəcələr həm bazar iştirakçıları, həm də monetar orqanlar üçün müəyyən risklərə malikdir. Bir valyutaya münasibətdə təsbit edilmə bu gün dünyada o qədər də populyar deyil və əksər ölkələr valyuta səbətinə və ya daha çevik rejimlərə keçid elan ediblər.

Valyuta məzənnəsi rejiminin seçilməsinin nəticələrinin qiymətləndirilməsi beynəlxalq iqtisadiyyatın ən mühüm istiqamətlərindən biridir. Milli valyutanın istər həddindən artıq dəyərləndirilməsi, istərsə də dəyərsizləşdirilməsi ilə bağlı dünya üzrə kifayət qədər tədqiqatlar aparılır. Məzənnə siyasətinin sağlam və neytral siyasət üzərində qurulmağı daha təqdirəlayiqdir.

İnkişaf etmiş ölkələrin sabit valyuta məzənnələri sistemlərindən fərqli olaraq, inkişaf etməkdə olan ölkələrdəki sabit məzənnələr sisteminin mahiyyəti hər hansı sabit valyutaya münasibətdə valyuta məzənnələrinin birtərəfli əlaqələndirilməsindən, bağlanmasından ibarətdir. Müxtəlif bağlanma üsulları mövcuddur.

Məzənnənin daha dəqiq müəyyən edilməsi Valyuta Şurası (CurrencyBoard) tərəfindən müəyyən olunur. Bununla bərabər, milli valyutanın emissiyası yalnız xarici valyuta mübadiləsi hesabına baş verir. Dövriyyədə olan pulun miqdarı həmişə xarici ehtiyatlarla təmin olunur. Müstəqil pul siyasəti Valyuta Şurası tərəfindən həyata keçirilməmişdir, çünki tədavüldə olan pulun miqdarı yalnız xarici valyutanın daxil olma və ya çıxma axınları ilə tənzimlənirdi. Üstünlük ondan ibarətdir ki, valyuta ehtiyatlarının azalması həmişə sabit məzənnələrin ləğvinə səbəb olmur. Təbii ki, maliyyə böhranları da istisna edilmir. Valyuta Şurasının təcrübəsinin ən bariz nümunələri Honq Konq, Argentina və Estoniyadır. Valyuta məzənnəsinin müəyyənləşdirilməsinin digər formaları sabitlik və çeviklik arasında kompromis təşkil edir. Bu zaman təyinedici parametrlər paritetlər və dalğalanma dəhlizidir. Nisbət nə qədər möhkəm, dalğalanma diapazonu isə nə qədər kiçik olursa, məzənnə rejimi bir o qədər də daha aşağı çeviklik nümayiş etdirir. Nəhayət, məzənnənin formal olaraq müəyyənləşdirilməsi və ya elə pul siyasətinin aparılması imkanı da var ki, məzənnənin istənilən səviyyəsinə nail olmaq mümkün olsun [1].

Asiyanın inkişaf etməkdə olan ölkələrində milli valyutaların ABŞ dollarından asılılığı uzun tarixə malikdir. Bu, "dörd Asiya əjdahası" olan YİÖ-in birinci qrupu (Tayvan, Cənubi Koreya, Honq-Konq, Sinqapur), sonra isə onların davamçıları (Malayziya, Tailand, Filippin, İndoneziya) üçün böyük əhəmiyyət kəsb edirdi. İstisna olaraq, bu halda Honq-Konqda Valyuta Şurası və Taylandda sabit məzənnə sistemi (1997-ci ilin iyul ayından) xətti boyunca açıq-aşkar bağlanmalar baş verdi.

Sabit valyuta məzənnəsi iqtisadi artımı dəstəkləyir ki, bu da Asiyanın yeni sənayeləşmiş ölkələri tərəfindən təqib olunur. Bundan əlavə, sabit məzənnənin olması xarici kapitalı cəlb edir.

Mübadilə məzənnəsinin birtərəfli təsbit edilməsi hər zaman möhkəm valyuta məzənnəsinin asimmetrik sisteminə gətirib çıxarır. Məsələ burasındadır ki, uyğunlaşma yükü tam şəkildə öz mübadilə məzənnəsini təsbit etmiş ölkənin üzərinə düşür.

1997-ci ildə Taylandda baş verən Asiya böhranı bu uyğunlaşmanın real ölçülərini göstərdi. Böhran zamanı riskləri və böhranın səbəblərini ayırd etmək, fərqləndirmək lazımdır. Risk kapital axınından artan asılılıq kimi müəyyən edilir. Tayland kimi inkişaf etməkdə olan ölkədə kapital məhduddur və buna müvafiq olaraq kreditlər üzrə faizlər yüksəkdir. Bundan əlavə, məzənnə ABŞ dollarına münasibətdə təsbit edilir ki, bu da xarici investorun kapitalını bura yatırması üçün güclü stimuldur. Taylandda bu hadisə kifayət qədər böyük və əhəmiyyətli ölçülərə çatmışdır. Mallara tələbatın artması və yerli istehsal olan əmtəələrin qiymətinin yüksəlməsi (yenidən real revalvasiya səbəbindən) ticarət balansının ÜDM-in 8%-i qədər artmasına gətirib çıxarmışdır.

Kiçik miqyaslı açıq iqtisadiyyat üçün başlıca problem ondan ibarətdir ki, xarici kapital axınının kəskin azalması halında valyutanın dəyəri həddindən artıq aşağı düşür və devalvasiya ehtiyacı sərmayə yatırmaq istəyini yanlış qərara çevirir. Belə bir kritik məqamda Taylandda 1996-cı ildə daşınmaz əmlak bumu onu maliyyələşdirən maliyyə institutlarını böhrana sürüklədi. Tayland hökumətinin məqsədi çətin vəziyyətə düşən maliyyə institutlarını likvidliklə təmin etmək idi.

**İnkişaf etməkdə olan ölkələrdə mövcud problemlərin həlli kimi məzənnənin təsbit edilməsi.**

Milli valyutaların böyük əksəriyyəti ABŞ dollarına nisbətdə ticarət edilir. Dünyanın əksər agentləri bu məqsədlər üçün məhz Amerika dollarına üstünlük verirlər. Əgər inkişaf etmiş ölkələrin əksəriyyəti üzən rejimdən istifadə edirsə, inkişaf etməkdə olan ölkələr isə daha çox məzənnəni sabitləşdirməyi üstün tuturlar. Təsbit edilmiş məzənnə rejimi o deməkdir ki, mərkəzi bank birbaşa olaraq müəyyən diapazonda məzənnəni təyin edir. Əgər məzənnə müəyyən diapazonda sərt şəkildə müəyyən edilirsə və bu məzənnə ilə valyutanın alqı-satqısına zəmanət verilirsə, belə rejim sərt təsbitedilmə adlanır. Əgər mərkəzi bank üzən rejimdə olduğu məzənnənin dəyişməsi üçün müəyyən sərhədlər qoyursa və agentlərə məzənnənin bu hüdudlardan kənara çıxmayacağına zəmanət verirsə, o zaman belə məzənnə rejimi məzənnə dəhlizi adlanır [2].

İnkişaf etməkdə olan ölkələrin monetar orqanlarını öz valyutalarını bənd etmək məcburiyyətilə üz-üzə qoyan əsas səbəblərə nəzər salaq.

1. İnflyasiya ilə mübarizə. Sabit məzənnə rejiminə keçməklə mərkəzi bankın özü pul kütləsinin artırılması məsələlərini müstəqil həll edə bilməz. Çox vaxt yüksək inflyasiyanın səbəbi hakimiyyətin büdcə kəsirini maliyyələşdirmək istəyidir. Adətən, dünya maliyyə bazarlarına zəif daxil olan və yüksək risklərə görə beynəlxalq kreditlərə çıxışı olmayan bir ölkə üçün büdcə kəsirinin maliyyələşdirilməsinin yeganə yolu onu monetizasiya etməkdir. Belə siyasət hökumətə vergi ödəyiciləri bu ölkənin iqtisadi agentləri olduqları “inflyasiya” adlanan vergi hesabına mövcud olmağa imkan verir. Beləliklə, məcburi monetar nizam-intizamı hiperinflyasiya təhlükəsini minimuma endirir.

2. Makroiqtisadi sabitliyin pozulması təhlükəsi. Möhtəkirlər öz hərəkətləri ilə üzən məzənnənin dəyişməsinə gətirib çıxara bilər ki, bu da ticarət və investisiyaların sabitliyinin pozulması ilə nəticələnəcək. Sabit məzənnə şəraitində iqtisadiyyat möhtəkirlərin hərəkətlərindən azad olur, çünki mərkəzi bank valyuta məzənnəsinin müəyyən dəyərinə zəmanət verir ki, bu da forvard müqavilələrinin və investisiyaların istifadəsini asanlaşdırır.

3. ÜDM artımının aşağı və ya mənfi templəri. Yuxarıda sadalanan problemlər ölkənin ÜDM-in həcminə birbaşa təsir göstərir. Məlumdur ki, inflyasiya əmtəə və xidmətlərin dəyərinin ucuzlaşmasına gətirib çıxarır və iqtisadiyyatın sabitliyinin pozulması təhlükəsi iqtisadiyyata investisiyaların cəlb edilməsinə imkan vermir.

4. İnkişaf etməmiş kapital bazarları. Bu fenomeni öyrənmək üçün tez-tez originalsin (“başlıca günah fərziyyəsi”) termini istifadə olunur, yəni milli valyutanın həm xaricdə, həm də ölkə daxilində uzun müddət borc alına bilmədiyi zaman üzən məzənnələrlə bağlı vəziyyət. Bu ona görə baş verir ki, milli banklar başqa ölkələrdən xarici valyutada kredit götürərkən və daxili valyutada kredit verərkən valyuta məzənnələrinin dəyişməsi riskinə məruz qalırlar. Bunun nəticəsində, əksər inkişaf etməkdə olan ölkələr əsas valyutalara nəzərən (ABŞ dolları, avro və s.) öz mübadilə kurslarını təsbit edirlər ki, bu da onlara qısa müddətdə makroiqtisadi sabitliyə nail olmağa imkan verir.

İnkişaf etməkdə olan ölkələrdə üzən dərəcələrin qorxusunu izah edən iki aspekt var. Onların hər ikisi makroiqtisadi təbiətə malikdir. Birincisi, inkişaf etməkdə olan iqtisadiyyatlarda, bir qayda olaraq, kapital axınında güclü volatillik meylləri mövcuddur. Kapitala nəzarətin və üzən məzənnənin mövcud olmadığı bir şəraitdə o, nominal məzənnəyə güclü təsir göstərir və ölkədə qiymət səviyyəsinin məzənnədən çox asılı olması səbəbindən kapital axınının qeyri-sabitliyi sonradan mübadilə məzənnəsində böyük dəyişikliklərə səbəb olur. Beləliklə, ölkənin dünya bazarında rəqabətqabiliyyətliliyi aydan-aya nəzərəçarpacaq dərəcədə dəyişir. Bunun qarşısını almaq üçün ölkələr milli valyutanın məzənnəsini intervensiyaların köməyi ilə dəstəkləyirlər. İkincisi, milli valyutanın məzənnəsinin müəyyən bir ölkənin idxalçı və ixracatçılarının hesab-fakturalarının çoxunun verildiyi valyutaya aşağı tezlikli bağlanması inflyasiyanı nominal lövbərə çevirmək məqsədi daşıyır.

Beləliklə, inkişaf etməkdə olan ölkələrin milli valyutalarının dünya valyutalarından birinə bənd edilməsi əksər hallarda (xüsusən də qısa müddətdə) zəruri hesab olunur. Bu, valyuta məzənnələrinin dəyişməsi ilə bağlı rəqabətqabiliyyətlilik şokları, yüksək inflyasiya, valyuta məzənnələrinin dəyişməsi risklərinə qarşı hedc etmənin qeyri-mümkünlüyü kimi problemlərin həllinə kömək edir. Milli banklar tərəfindən spekulyasiyaların əhatə dairəsini məhdudlaşdırmaq üçün yadda saxlamaq lazımdır ki, valyutanın bənd edilməsi kapital axınına nəzarət tədbirlərinin həyata keçirilməsi ilə müşayiət olunmalıdır.

İnkişaf etməkdə olan ölkələr “ekstremal” qərarlar qəbul etməkdən çəkinirlər (iqtisadi dollarlaşmaya və ya üzən məzənnəyə keçid). Üzən məzənnə rejiminə keçid qorxusunun səbəbləri aşağıdakılardır:

1) inkişaf etməkdə olan ölkələrin bazarlarına inamın kifayət edə biləcək qədər olmaması;

2) inkişaf etməyən ölkələrin bazarlarına inamsızlığın artması səbəbindən xarici kapital bazarlarına əlçatanlığın və çıxışın itirilməsi;

3) idxal olunan malların qiymətlərinə, habelə daxili inflyasiyaya nominal valyuta məzənnəsinin güclü təsiri;

4) inkişaf etməkdə olan ölkələrin “son hədd” (“ekstremal”) hallərdən istifadə təcrübəsinin olmaması. Buna görə də, bu qərarların öz ölkəsinin iqtisadiyyatına təsirinin təhlilinin mümkün olmaması [2].

İnkişaf etməkdə olan ölkələrdə kapital bazarlarının inkişaf etməmiş bazarlar kimi qəbul edilməsinin əsas səbəblərini nəzərdən keçirək:

1. Sabit faiz dərəcələri olan qiymətli kağızlar bazarı mövcud deyil;

2. Əksər inkişaf etməkdə olan ölkələrdə dollara və ya hər hansı digər valyutaya qarşı fyuçers valyuta bazarı yoxdur.

Beləliklə, valyuta risklərinin azaldılması üçün ən neytral və ən şəffaf strategiya gündəlik və ya həftəlik müdaxilə tezliyi ilə milli valyutanın dollara bənd edilməsidir.

Üzən məzənnədən istifadə edən ölkələrdə iqtisadi artım sabit məzənnədən istifadə edən ölkələrlə müqayisədə orta hesabla daha yüksəkdir. Dollarlaşma iqtisadiyyata heç bir fayda gətirmir, baxmayaraq ki, uzun müddət balanssızlıq və qeyri-sabitlik tarixi olan ölkələr üçün faydalı ola bilər.

3. Sabit fiskal siyasət və mərkəzi bankın müstəqilliyi şəraitində milli valyutanın üzən məzənnəsi iqtisadiyyatı yüksək inflyasiyaya doğru aparmır.

Çox vaxt inkişaf etməkdə olan ölkənin real məzənnə rejimi BVF təsnifatında rəsmi elan edilmiş və müəyyən olunmuş rejimdən fərqlənir. Maraqlı fakt ondan ibarətdir ki, uzunmüddətli perspektivdə üzən məzənnələr tətbiq olunan ölkələrdə sabit olan məzənnələr tətbiq edilən ölkələrlə müqayisədə daha yüksək ÜDM artımı olur. Sabit rejimləri tənqid etməyə davam etsək, görə bilərik ki, üzən məzənnə xarici şoklara daha tez uyğunlaşmağa kömək edir və böhranların təsirlərini yumşaldır, məsələn, Çilidə (1982), Meksikada (1994-1995) valyuta böhranları, Şərqi Asiya regionu ölkələri (1997-1998), Argentina (2001) [3].

Asiya böhranından sonra BVF valyuta böhranının aşağıdakı səbəblərini göstərdi [5].

1. Yüksək risk mükafatına görə Şərqi Asiya iqtisadiyyatlarında kreditlər üzrə faiz dərəcələri dollar və yen ilə ifadə olunan depozitlər üzrə faiz dərəcələrindən xeyli yüksək idi. Məhz bu səbəbə görə də, həmin ölkələrdə fəaliyyət göstərən banklar üçün milli valyutada daha bahalı əmanətlərdən daha aşağı faiz dərəcəsi dollar və ya yen ilə ifadə edilən əmanətlərə üstünlük verilirdi. Bu üstünlüklər, Şərqi Asiya ölkələrinin milli valyutalarının məzənnələri dollara bənd edildiyindən bankların valyuta məzənnələrindəki mümkün dalğalanmalardan zərər görməməsi ilə şərtləndirilib. Milli valyutanın məzənnəsinin təsbit olunduğu mərkəzi paritet ətrafında müəyyən hədlər daxilində dəyişdiyi softpeg rejimindən istifadə edilmişdir. Banklar bu vəziyyətdən istifadə etməklə və aşağı faizlər üzrə əmanətlər götürməklə, külli miqdarda borc götürməklə və ölkə daxilində daha yüksək faizlə kredit verməklə istifadə edirdilər. Nəticədə ölkənin xarici borcu ifrat həddə qədər yüksəldi [2].

2. Maliyyə sektoru zəif inkişaf etmiş ölkələr iqtisadi problemlərin nə olduğunu öz üzərində yaşayır. Bu da, öz növbəsində, valyuta böhranlarına və milli valyutanın güclü devalvasiyasına gətirib çıxarır ki, nəticədə həmin proselsər valyuta möhtəkirlərini cəlb edir və böhranın fəsadlarını ağırlaşdırır. Daha çevik valyuta məzənnəsinin tətbiqindən sonra həmin məzənnədə iri diskret dəyişikliklər (devalvasiya) ehtimalı azalır.

Latın Amerikası ölkələrində valyuta məzənnəsinin birtərəfli qaydada təsbit edilməsi Asiya ölkələrindəkindən bir qədər fərqli bir şəraitdə baş verdi. Latın Amerikası ölkələrinin qarşısında dayanan məsələlərin ön sıralarında inteqrasiya strategiyaları deyil, hiperinflyasiya adlanan xroniki yüksək inflyasiya ilə mübarizə dayanırdı. Stabilləşdirmə cəhdləri uğursuzluqla nəticələndi, bu da öz valyutasını daha sabit valyutaya bağlamaq və onların monetar siyasətinə riayət etməyi zəruri etdi. Ancaq asimmetrikin, yəni, valyuta məzənnəsinin birtərəfli qaydada bənd olunmasının böyük çatışmazlığı valyutaları baza valyutaya münasibətdə sabitləşən ölkələrdə pul siyasətinin həyata keçirilməsində bu və ya digər müstəqilliyin, muxtariyyətin azaldılmasıdır.

Xroniki və yüksək inflyasiyaya malik inkişaf etməkdə olan ölkələr dilemma ilə üz-üzə qalırlar. Nəyə üstünlük verilməli: inflyasiya ilə mübarizəyə yaxud real iqtisadi tarazlıq və real məzənnənin tənzimlənməsinə, korrektələrin aparılmasına? İnflyasiya yüksək olduqda (əgər inflyasiya "lövbər"li, baza valyutasının təsiri ilə birbaşa aşağı düşmürsə) təsbit olunmuş valyuta məzənnəsi real revalvasiyaya doğru aparır. Ancaq real revalvasiya tədiyyə balansının kəsirinin artmasına gətirib çıxarır ki, bu da müvafiq kapital axını ilə maliyyələşdirilməlidir. İslahat proqramının bir hissəsi çərçivəsində valyuta məzənnəsinin təsbit edilməsi həqiqətən də xarici kapitalı cəlb etmək xüsusiyyətinə malikdir və bunu həyata keçirmək iqtidarındadır. Bunun nəticəsində, Asiya ölkələrinə xas olan risk ele-

mentləri meydana çıxa bilər, yəni ümumi iqtisadi tarazlıq kapital axınının sabitliyindən asılıdır, kapital axını baş verir və valyuta böhranı artıq özünü büruzə verməyə başlayır. 1981-1982-ci illərdə Çili və Argentina, 1994-cü ildə Meksika və 1999-cu ildə Braziliyadakı hadisələr də məhz həmin ssenari üzrə cərəyan edirdi. Argentinada bank böhranlarının aradan qaldırılmasına dövlət xərclərinin səviyyəsi ÜDM-də 55.3%, ÜDM-də 20 % təşkil etmişdi [4]. Meksikada valyuta məzənnəsinə əsaslanan sabitləşmənin real uğur əldə etməsi qismində biz Argentinadakı valyuta idarəçiliyini göstərə bilərik. Argentina nümunəsi göstərdi ki, iqtisadi xaos və sabitləşdirmə siyasətinə dair inamın olmaması şəraitində sabit möhkəm valyuta məzənnəsinin olmasının mənası və yeri var. Həmin səbəblərə nəzər salmağımız məqsədəuyğun olardı.

1. Vəziyyət bilavasitə sabitləşir və məsələn, Meksika böhranı zamanı baş vermiş kapitalın xaricə axını isə valyuta böhranına səbəb olmur, əksinə, qiymətlərin tam sabitləşməsinə kömək edir, hansı ki, indiki zamanda da mövcuddur.

2. Valyutanın təsbit edilməsindən sonra real revalvasiya həyata keçirilir. Sabit valyuta məzənnələri şəraitində real devalvasiyanın baş verməsi də mümkündür.

3. İqtisadi artım səviyyəsinin göstəriciləri hər hansı digər sabitləşdirmə proqramları ilə müqayisədə xeyli yüksəkdir.

Bununla belə, Argentinada valyuta siyasətinin uğurunu təkcə valyuta idarəçiliyi ilə izah etmək çətindir və doğru olan yanaşma deyil. Argentinada pul siyasətinin uğuru monetar idarəetmənin əsas hissəsi olan bütün islahat proqramının təhlili ilə izah edilə bilər, yəni burada söhbət valyutanın tam dönərliyindən, ABŞ dollarının paralel valyuta qismində dövriyyəyə buraxılmasından, dövlət büdcəsinin konsolidasiyasından, ticarət maneələrinin aradan qaldırılmasından və dövlət təşkilatlarının köklü, radikal özəlləşdirilməsindən gedir.

Argentinada valyuta idarəçiliyinin danılmaz uğuruna baxmayaraq, bu ölkə ikinci kapital axını yaşamalı oldu, bu da, öz növbəsində, ciddi tənəzzülə və işsizliyin artmasına gətirib çıxarmışdı. Çilidə isə əksinə, kapital axını sabit qalmışdı.

Beləliklə, Argentina nümunəsi sübut etdi ki, radikal bazar islahatları proqramı çərçivəsində təsbit olunmuş məzənnənin tətbiqi sayəsində inflyasiya ilə mübarizə aparmaq realdır və mümkündür [5].

İnflyasiya ilə mübarizə, sabit makroiqtisadi vəziyyət, xarici sərmayələrin cəlb edilməsi - bu, hakimiyyətin sabit məzənnə rejimini seçərək, müstəqil pul siyasətindən faktiki imtina edərək gözlədiyi nəticələrdir.

Daha sərbəst de-yure üzmə rejimlərinə baxmayaraq, bir çox ölkələr öz valyutalarını sərbəst üzməyə buraxmaq iqtidarında deyil: tələb olunan səviyyədə inkişaf etməmiş kapital bazarları, iqtisadiyyatda yüksək risk narahatlıqları və yüksək inflyasiyaya qayıtmaq təhlükəsi "üzmə qorxusu" kimi tanınan effektə gətirib çıxarır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Z.F.Məmmədov. "Beynəlxalq valyuta-kredit münasibətləri". Bakı, 2012.

2.Hawkins J. Klau M. "Measuring potential vulnerabilities in emerging market economies". BIS Working Paper, 2008.

3. Bussier M. Mulder C. "External vulnerability vulnerabilities in emerging market economies". IMF Working Paper. N 8. 2012.

4. V.Zeynalov. "Maliyyə böhranı: tarix, nəzəriyyə və antiböhran siyasət". Bakı, 2012.

5. www.imf.org

**Н.П. АШУРБЕЙЛИ-ГУСЕЙНОВА** д.ф.э., доц.
Азербайджанский Государственный Экономический Университет

# ОСОБЕННОСТИ ВЫБОРА ВАЛЮТНОГО РЕЖИМА СТРАНАМИ С РАЗВИВАЮЩИМИСЯ ЭКОНОМИКАМИ

**Резюме**

В условиях рыночной экономики проблемы выбора валютного режима правомерны и обусловлены определенными противоречиями. Экономическая независимость, политический суверенитет и вопросы национальной безопасности любой страны в значительной степени зависят от наличия сильной финансовой системы. Валютный курс является одним из важнейших инструментов внешнеэкономической политики. Его состояние и динамика влияют на объем и структуру промышленного производства, внешней торговли, состояние платежного баланса и другие важные показатели. В статье анализируются современные валютные режимы. Исследованы основные причины, по которым монетарные власти развивающихся стран вынуждены привязывать свои валюты, причины боязни перехода к режиму плавающего валютного курса и другие вопросы.

**Ключевые слова**: *валюта, монетарные власти, кризис, валютный режим, валютный курс.*

**Nigar ASHURBAYLİ-HUSEYNOVA** PhD in economics ,
Azerbaijan State Economic University

# FEATURES OF THE CHOİCE OF CURRENCY REGİME OF DEVELOPİNG COUNTRİES

**Summary**

In the conditions of the market economy, the problems of the choice of the currency regime are legitimate and conditioned by certain contradictions. Economic independence, political sovereignty and national security issues of any country depend significantly on having a strong financial system. Exchange rate is one of the most important tools of foreign economic policy. National currency is the basis of market economy development. Its situation and dynamics affect the volume and structure of industrial production, foreign trade, the state of the balance of payments and other important indicators. Modern currency regimes are analyzed in the article. The main reasons why the monetary authorities of developing countries are forced to peg their currencies, the reasons for the fear of transition to a floating exchange rate regime, and other issues have been investigated.

**Keywords:** *currency, monetary bodies, crisis, currency regime, exchange rate*

**Yaqub Feyzulla oğlu ƏLİFOV,** dos.
E-mail: yaqubalifov @ qmail.com,

**Vüsal Yaqub oğlu ƏLİFOV i.f.d.**
E-mail: alifovvüsal @ qmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti
Gəncə şəhəri, Atatürk prospekti 450

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİ VƏ İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə**

Məqalədə ölkənin ərzaq asılılığının ilk növbədə onun milli aqrar-ərzaq kompleksinin aşağı səmərəliliyi nəticəsində yaranması, ərzaq təhlükəsizliyi təkcə dövlətin iqtisadi təhlükəsizliyinin deyil, həm də milli təhlükəsizliyinin təmin edilməsində aparıcı rol oynaması, ərzaq məhsullarına olan tələbatın ödənilməsində yerli sahibkarlıq qurumlarının rolunun artırılmasının zəruriliyi, ərzaq təhlükəsizliyində ik növbədə ərzaqlıq buğdaya olan tələbatının ödənilməsinin vacibliyi acıqlanır. Həmcinin bu sahədə idxaldan asılılıq səviyyəsini azaltmaq üçün görüləsi vacib olan tədbirlər açıqlanır. İşğaldan azad olmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının inkişafina əngəl yaradan problemlərdən biri kimi suvarma suyunun catışmazlığı göstərilir, bu ərazilərdə yerli və xarici investorların iqtisadiyyatın bütün sahələrinə, o cümlədən aqrar sahəyə investisiya qoyuluşlarına marağının yaradılmasının vacibliyi əsaslandırılır.

Bu ərazilərə yerli və xarici investorların cəlb edilməsi gələcəkdə məşğulluğu da təmin etməklə yanaşı, ərzaq təhlükəsizliyinin təmin edilməsində də mühüm əhəmiyyət kəsb edəcəkdir. Müəlliflər işğaldan azad olmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının heyvandarlığın və bitkiciliyin inkişafı üçün cox əlverişli olduğunu əsaslandırmışlar.

*Tədqiqatın nəticələri* – dünyada ərzaq təhlükəsizliyinin qlobal xarakter aldığı bir şəraitdə işğaldan azad olmuş ərazilərin perspektivləri nəzərə alınmaqla bu sahədə təklif və tövsiyələrin hazırlanması.

**Acar sözlər:** *məhsuldarlıq, özünü təminetmə, idxal, ixrac, ərzaq problemi, ərzaq təhlükəsizliyi, investor.*

**UOT:** 330.13.6
**JEL:** Q 18

**Giriş**

Yerli kənd təsərrüfatı məhsulları istehsalı ərzaq təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayır. Bu baxımdan aqrar sahənin dinamik innovativ inkişafına, kənd yerlərinin davamlı inkişafı, iqtisadi subyektlərin müstəqilliyinin artması kontekstində əhalinin ərzaqla tam şəkildə təmin edilməsi ölkənin ərzaq təhlükəsizliyinin ümumi probleminin həlli kimi qiymətləndirilməlidir. Qeyd edilən istiqamətlərdə ərzaq bazarlarının rolu əhəmiyyətli dərəcədə artmaqdadır. Ərzaq bazarı əhalinin fizioloji standartlara uyğun keyfiyyətli ərzaq məhsullarına fiziki və iqtisadi əlçatanlığını təmin etməklə qida təhlükəsizliyi meyarlarını da müəyyənləşdirir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsində işğaldan azad olmuş ərazilərdə aqrar sahənin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

“Azərbaycan Respublikasında iqtisadi rayonların yenidən bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 iyul tarixli fərmanı ilə Qarabaq və Şərqi Zəngəzur rayonlarının yaradılması Respublikamızın iqtisadiyyatının qeyri-neft sektoru hesabına daha da inkişaf etməsi imkanlarını artıracaqdır. Belə ki, işğaldan azad olmuş ərazilər iqtisadiyyatın müxtəlif sahələrinin: sənayenin, kənd təsərrüfatının, o cümlədən bitkicilik və heyvandarlığın, turizmin inkişaf etdirilməsi üçün böyük təbii və iqtisadi potensiala malikdir. 2019-cu ilin məlumatlarına əsasən Qarabağ iqtiadi rayonunun ərazisi 7,33 kv.km, Şərqi Zəngəzurun ərazisi isə 6,42 kv.km., əhalinin xüsusi cəkisi isə uğun olaraq 6,8% və 2,5% olmuşdur.

**Mövzunun aktuallığı.** Ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin prioritetlərindən hesab edilir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi problemini səmərəli şəkildə həll etmək üçün kifayət qədər resurslara malik olmaq lazımdır. Ərzaq təhlükəsizliyinin təmini dövlət

tərəfindən milli maraq və imkanlara əsaslanaraq həll olunur, məhsulların keyfiyyətinin yaxşılaşdırılmasını və çeşidinin genişləndirilməsini nəzərdə tutur. Yerli kənd təsərrüfatı məhsulları istehsalı ərzaq təhlükəsizliyinin təmin edilməsində həlledici rol oynayır. Bu baxımdan aqrar sahənin dinamik innovativ inkişafı, kənd yerlərinin davamlı inkişafı ərzaq təhlükəsizliyinin ümumi probleminin həlli kimi qiymətləndirilməlidir. Bu sahədə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının iqtisadi və təbii imkanlaından istifadə etməklə heyvandarlığın və bitkiçiliyin inkişaf etdirilməsi də xüsusi əhəmiyyət kəsb edir.

*Tədqiqatın məqsədi.* İşğaldan azad olunnmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təbii və iqtisadi potensial imkanlarından səmərəli istifadənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əhəmiyyəti ilə bağli təklif və tövsiyələrin hazırlanması.

*Tədqiqatın obyekti.* İşğaldan azad olmuş Qarabaq və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatı sistemi.

*Tədqiqatın metodları.* Tədqiqat zamanı müşahidə, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, məqsədli sistemli yanaşma, qruplaşdırma və digər üsullardan istifadə olunmuşdur.

## MATERİALLAR VƏ MÜZAKİRƏLƏR

Aqrar siyasətin müəyyən edilmiş hədəfləri ilə kənd təsərrüfatı istehsalının inkişafındakı real tendensiyalar, bazarın vəziyyəti və istehlakçıların mövqeyi, dünya ərzaq bazarından asılılıq səviyyəsi müəyyən edilir. Bunların əsasında dövlət strategiyası nəzərə alınaraq aqrar sahəyə dəstək tədbirləri sistemli şəkildə tətbiq olunur, ərzaq təhlükəsizliyini təmin etmək üçün daxili və xarici amillər qiymətləndirilməklə əsas hədəflər müəyyənləşdirilir.

Araşdırmalar göstərir ki, hər bir ölkənin ərzaq asılılığı ilk növbədə onun milli aqrar-ərzaq kompleksinin aşağı səmərəliliyi nəticəsində yaranır, bu isə iqtisadi artımdakı azalmaya, xarici borc probleminin kəskinləşməsinə, milli valyutanın qeyri-sabitliyinə gətirib çıxarır. E.Quliyev haqlı olaraq qeyd edir: "*Qida məhsulları ehtiyatlarının yaradılmasında da yerli istehsalın planlaşdırılması və proqnozlaşdırılması daha cox səmərə verə bilər,cünki bu hallarda kənar amillərin təsiri minumuma enir və ölkənin valyuta ehtiyatlarına qənaət olunur*" [2, s.370]. Ölkənin ərzaq təhlükəsizliyi bir çox iqtisadi amillərlə, o cümlədən aqrar-sənaye sahələrinin inkişafı ilə birbaşa əlaqəli olmayan amillərlə müəyyənləşdirilir. İqtisadi təhlükəsizlik sistemində ərzaq təhlükəsizliyi probleminin əhəmiyyəti ondadır ki, o ətraf mühitin təhlükəsizliyi ilə də sıx əlaqəlidir. Çünki qeyri-sabit kənd təsərrüfatı fəaliyyəti bir tərəfdən kənd təsərrüfatı istehsalının artımına mane olan ekoloji vəziyyəti pisləşdirir, digər tərəfdən müxtəlif zəhərli maddələrlə çirklənmiş ərzaq məhsulları istehsalına səbəb olur. Bu onu göstərir ki, ərzaq problemi ya əhalinin qida ilə təminatında azalma, ya da onun sağlamlığına, ömür müddətinə mənfi təsir göstərməsi səbəbindən mürəkkəbliyi ilə özünü büruzə verir [6, s.29].

Beləliklə, ərzaq təhlükəsizliyi təkcə dövlətin iqtisadi təhlükəsizliyinin deyil, həm də milli təhlükəsizliyinin təmin edilməsində aparıcı rolunu müəyyənləşdirən siyasi və ekoloji təhlükəsizliyin vacib elementidir. Ərzaq təhlükəsizliyinin məqsədi əhalinin qidaya olan tələbatını əsasən yerli məhsullar hesabına kifayət qədər səviyyədə təmin etməkdən ibarətdir. Bu sahədə işğaldan azad olunan ərazilərin yaxın gələcəkdə kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi mühüm əhəmiyyət kəsb edəcəkdir. Bu isə həmin sahələrdə sahibkarlığın inkişaf etdirilməsindən bilavasitə asılıdır. Beləliklə, müasir şəraitdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin ən mühüm amili kimi ərzaq məhsullarına olan tələbatın ödənilməsində yerli sahibkarlıq qurumlarının rolunun artırılmasına nail olmaq mühüm vəzifələrdən biridir [1, s.16].

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin ərzaq təyinatlı buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsində rolu.**

Hazırda dünya bazarında ərzaq məhsullarının, o cümlədən buğdanın qiymətində artım müşahidə olunur. Buna səbəb isə əlverişsiz hava şəraiti, iqlim dəyişiklikləri, protoksionist siyasət, dəyişən xərclərin artımı, böhran, müharibə təhlükəsi, dünyada buğdaya olan təklifin tələbi ödəmək üçün kifayət etməməsi və s. kimi amilləri göstərmək olar. Dünyada buğda istehsalının 52%-i əsas buğda istehsalçısı olan Cin, Hindistan, Rusiya, ABŞ və Fransanın payına düşür. Rusiya isə ərzaq təhlükəsizliklərini riskə atmamaq üçün bazara müdaxilə edir, buğda ixracını məhdudlaşdıran siyasət aparır, buğda ixracına vergi

tətbiq edir. Cin dövləti isə 2021-ci ildən buğda ehtiyatı yığmaq qərarına gəlməklə yanaşı, öz fermerlərindən aşağı qiymətlə buğdanı tədarük edərk öz ərzaq ehtiyatını artırmaq üçün istifadə edir. Buğdanın qiymətinin qalxmasının səbəblərindən biri də buğda istehsalına cəkilən xərclərin, əsasən də gübrələrin, toxumun, yanacağın, məhsulun saxlanması ilə əlaqədar xərclərin və s. artmasıdır. Dünya bazarında buğdanın qiymətinin bahalaşması prosesi ona olan tələbatın müəyyən bir hissəsini idxal hesabına ödəyən ölkələrdə buğda və un məmulatlarının qiymətlərinin bahalaşmasına gətirib cıxarmışdır. Dünyada 30 ölkə buğdaya olan daxili tələbatından cox məhsul istehsal edir, 170 ölkə isə, o cümlədən Azərbaycan tələbatın müəyyən hissəsini idxal hesabına ödəyir. Bu isə həmin ölkələrin ixrac edən ölkələrdən asılılığına səbəb olur. 2022-ci ilin fevral ayından Rusiyanın Ukraynaya qarşı apardığı və hələ də davam edən işğalcı müharibəsi də nəinki Azərbaycanda, habelə dünyada ərzaq buğdasının təminatında çətinliklər yaratmışdır.

Buğdanın ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas kənd təsərrüfatı məhsulu olmasını nəzərə alsaq onun istehsalının nə qədər vacib olduğunu başa düşmək olar. Ona görə də, ərzaq buğdasının istehsalına üstünlük verilməsi başlıca şərtdir. Bu səbəbdən dövlətin aqrar siyasəti daima göstərilən problemin həll edilməsinə yönəldilməklə yanaşı, aqrar sahənin inkişafına da diqqət və qayğısı artırılmışdır. Buğdaya olan tələbatının əsasən yerli istehsal hesabına ödənilməsinə nail olmaq üçün buğda istehsalının həcminin artırılması vacibdir.

2020-ci ildə əvvəlki təsnifata uyğun olaraq Yuxarı Qarabağ iqtisadi rayonun bizim nəzarətimizdə olan və digər bölgələrdə məskunlaşan müəssisələrdə 637 milyon 70 min manatlıq, Kəlbəcər-Lacın iqtisadi rayonunda isə 97 milyon 838 min manatlıq məhsul istehsal edimişdir. Beləliklə, Yuxarı Qarabağın ölkə iqtisadiyyatında məhsul istehsalında xüsusi cəkisi 0,7%, Kəlbəcər-Laçın iqtisadi rayonunda isə 0,1% olmuşdur [10].

2020-ci ildə respublikamizda cəmi əkin sahəsi 1,6 mln. hektar olmuşdur. Cəmi əkin sahəsində dənli və paxlalı bitkilər 989,1 min hektar olmuş, onun da 588,4 min hektarında buğda əkilmişdir. Göründüyü kimi cəmi əkin sahələri içərisində dənli və paxlalı bitkilərin payı 60,6 %, dənli və paxlalı bitkilərdə buğda istehsalının payı 59,5 % təşkil etmişdir. Cəmi əkin sahəsində buğda istehsalı 36,1% təşkil etmişdir [8 ,s.73]. Əkin sahələrinin proqnozlarına əsasən bölgədə taxıl istehsalını 486,5 min tona catdırmağı proqnozlaşdırmaq olar. Beləliklə, işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatına yararlı torpaqları əkin dövriyyəsinə cəlb etməklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ölkə üzrə taxil istehsalını 12,6 % artırmaq mümkün olacaq [9].

Ölkəmizdə 2016-cı illə müqayisədə 2020-ci ildə buğda ilə özünü təminetmə aşağı səviyyədədir. 2021-ci ilin yanvar ayından başlayaraq dünya bazarında bir ton buğdanın qiyməti 240 dollardan 286 dollaradək, Rusiyada isə 300 dollardan cox artmışdır.

Respublikamizda 2021-ci ildə buğdaya olan illik tələbatın təqribən 3.1 mln.ton olduğunu nəzərə alsaq, onun yalnız 1,9 mln.tonu daxili istehsal, 1,3 mln.tonu isə idxal hesabına ödənilmişdir. Respublikamizda ərzaq buğdası ilə özünütəminetmə səviyyəsi orta hesabla 59,5% təşkil edir, tələbatın 40-45%-i isə idxal hesabına ödənilir. Azərbaycan buğdanı əsasən Rusiya, Qazaxıstan və Ukraynadan idxal edir.

Hökumət tərəfindən beynəlxalq bazarlarda baş verən proseslərin daxili bazara təsirini azaltmaq məqsədi ilə bir sıra tədbirlər həyata kecirilməsinə baxmayaraq hələ ərzaq buğdası sahəsində idxaldan asılı vəziyyətdəyiq. Fikrimizcə, bu sahədə idxaldan asılılıq səviyyəsini azaltmaq üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

-buğda istehsalında məhsuldarlığın yüksəldilməsi; Buğda istehsalının məhsuldarlığı 2016-cı ildə orta hesabla 31,3sen/ha, 2017-ci ildə 30,5 sen/ha, 2018-ci ildə 30,0 sen/ha, 2019-ci ildə 32,1sen/ha və 2020-ci ildə 31,8sen/ha olmuşdur. Göründüyu kimi orta məhsuldarlıq səviyyəsi cox aşağıdır [8,483]. Məhsuldarlığın artırılması ölkənin ərzaq buğdasına olan tələbatını əsasən daxili istehsal hesabına ödənilməsində mühüm əhəmiyyət kəsb edir. Buğda istehsalında yüksək məhsuldarlığa nail olmaq üçün daha məhsuldar sortların yetişdirilməsi vacibdir. Respublikamizda seleksiya işlərinin zəif olması məhsuldarlığın aşağı düşməsinə səbəb olur ki, bunun nəticəsində buğda istehsalı azalır. Ərzaq təyinatlı buğda istehsalı sahəsində də idxaldan asılılıq səviyyəsini azaltmaq üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur:

-istehsal olunan buğdanın keyfiyyətini yüksəltməklə ərzaq təyinatlı buğda istehsalına üstünlük verilməsini;

-əkin sahələrinin suvarma suyu ilə davamlı təminatının yaxşılaşdırılmasını;

-torpağın münbitliyinin yaxşılaşdırılmasını;

-yerli keyfiyyətli ərzaqlıq buğda istehsalının stimullaşdırılmasını;

-taxıl istehsalı ilə məşğul olan fermerlərin, fərdi sahibkarların aqrotexniki qaydalara əməl edilməsi üçün maarifləndirilməsini;

-öz tələbatımızı ödəyəcək həcmdə buğda istehsal etmək üçün torpağın az olmasını;

İşğaldan azad edilmiş ərazilərin kənd təsərrüfatı təyinatlı münbit torpaqlar olmasını nəzərə alsaq bu sahədə gələcəkdə böyük uğurlar əldə edə bilərik. Belə kı, 1990-cı ilədək respublikamızda istehsal olunan kənd təsərrüfatı məhsullarının 40 faizə qədəri Qarabağ iqtisadi rayonunun payına düşürdü. 250 min hektardan cox məhsuldar torpaqların böyük hissəsi taxılcılıq üçün istifadə edilirdi [3,35]. Respublikada taxıl istehsalının 14,3 %-i bu torpaqların payına düşürdü. Azad olunmuş ərazilərdə dövlətin həyata kecirdiyi geniş tədbirlər nəticəsində gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ənənəvi və müasir aqrar təsərrüfatların yaradılması nəticəsində bu ərazilərdə buğda istehsalının 200 min tona çatdırılması nəzərdə tutulmuşdur ki, bunun nəticəsində ölkənin buğdaya olan tələbatının 6,7 faiz artırmaq mümkün olacağını proqnozlaşdırmaq olar. Beləliklə, yaxın gələcəkdə təkcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını da nəzərə alsaq ərzaq buğdası ilə özünütəminetmə səviyyəsini 65.7 %-ə catdırmaq mümkündür. Göstərilən bütün amilləri nəzərə almaqla gələcəkdə ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsini 85 faizə catdırmaq olar.

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bitkiçilik və heyvandarlığın inkişafı imkanları.**

Bitkiçilik məhsulları ilə təminatda idxaldan asılılıq səviyyəsi göstəricisinin təhlilindən aydın olur ki, son 5 ildə ölkəmizdə bəzi növ bitkiçilik məhsulları üzrə idxaldan asılılıq azaldığı halda müəyyən məhsullarda əks proses baş vermişdir. Belə ki, 2016-cı ilə nisbətən 2020-ci ildə idxaldan asılılıq səviyyəsi cəmi dənlilər üzrə 36,2%-dən 31,9%-ə, buğda üzrə 47,1%-dən 42,9%-ə, qarğıdalı üzrə 28,9%-dən 13,4%-ə, paxlalılar üzrə 31,6%-dən 39,7%-ə, üzüm üzrə 10,8%-dən 4,2%-ə, kartof üzrə 14,5%-dən 9,4%-ə düşmüşdür. Müqayisə aparılan dövrdə yalnız paxlalılar üzrə idxaldan asılılıq səviyyəsi 31,6%-dən 39,7%-ə yüksəlmişdir [9].

Torpaq balansı məlumatlarına əsasən işğaldan azad olunmuş ərazilərdə 200 min hektardan cox torpaq sahəsinin əkin ucun istifadə ediləcəyini proqnozlaşdırmaq olar. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 1980-ci illərdə bölgədə 139,8 min hektar əkin sahəsi mövcud olmuşdur ki, onun da 55%-i taxılın, 35%-i isə üzümün payına düşmüşdür. 1980-ci illərin statistikası əsas götürülməklə gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 232,3 min hektar sahədə əkinlərin olacağını, taxıl əkini sahəsinin 149,6 min hektar, kartof, tərəvəz və bostan sahələrinin 15,1 min hektar, meyvə və giləmeyvə istehsalının 13,4 min hektar, üzüm istehsalının isə 6,2 min hektar olacağını proqnozlaşdırmaq olar [8].

Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsinin təhlilindən aydın olur ki, respublikamızda 2016-ci illə müqayisədə 2020-ci ildə bütün növ mal-qara və quş əti üzrə özünütəminetmə səviyyəsi 87,9%-dən 84,5%-ə düşmüşdür. Müqayisə aparılan dövrdə mal əti və ət məhsulları ilə özünütəminetmə səviyyəsi 93,5%-dən 87,4%-ə, qoyun əti və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 98,7%-dən 97,3%-ə, quş əti və ət məhsulları üzrə 79,1%-dən 79,0%-ə, süd və süd məhsulları üzrə özünütəminetmə səviyyəsi 87,7%-dən 83,5%-ə, balıq və balıq məhsulları üzrə isə 82,3%-dən 81,7%-ə geriləmişdir. Müqayisə olunan dövrdə yalnız yumurta üzrə özünütəminetmə səviyyəsində 98,8%-dən 100,0%-ə qədər artım olmuşdur [9].

İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da heyvandarlığın inkişafı üçün cox əlverişlidr. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 1980-ci illərdə bölgədə 321 min baş iribuynuzlu heyvan və 1,1 milyon baş xırdabuynuzlu heyvan mövcud olmuşdur. Gələcəkdə bu sayı iribuynuzlu heyvanlar üzrə 430 min başa və xırdabuynuzlu heyvanlar üzrə isə 1,6 milyon başa catdırmaq imkanları vardır. Heyvandarlığın inkişafının ölkənin ət və süd məhsulları ilə təminatında xüsusi önəmi vardır. Gələcəkdə işğaldan azad olmuş ərazilərdə təqribən 45 min ton ət və 240 min ton süd məhsulları istehsal ediləcəyi gözlənilir. Bütün bunlar idxalın əvəzedilməsi və ərzaq təhlükəsizliyinin

gücləndirilməsi baxımından regionun böyük əhəmiyyətə malik olmasını göstərir [9]. Professor İ.H.İbrahimov qeyd edir ki, *"işğaldan əvvəlki dövrdə respublika üzrə iribuynuzlu mal-qaranın 15,8 faizi, xırda buynuzluların isə 19,2 faizi həmin ərazilərin payına düşürdü"* [3, s.43]

Bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsində işğaldan azad olmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edəcəkdir. İşğaldan azad olmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının inkişafına əngəl yaradan problemlərdən biri də suvarma suyunun catışmamasıdır. Bu isə məhsuldarlığa mənfi təsir göstərir. *"Kənd təsərrüfatı başlıca olaraq dəmyə əkinciliyə əsaslanır, kənd təsərrüfatı üçün yararlı torpaqların 1/10 hissəsindən bir qədər coxu suvarılan sahələrdir"* [4, s.43]. Torpaqlarımızın işğaldan azad olması bu problemin həllində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, hazırda bu ərazilərdə 9 su anbarı mövcuddur. Onu da qeyd etmək lazımdır ki, Respublikamızın mineral və suvarma su ehtiyatlarının 25%-i işğaldan azad olmuş ərazilərdə yerləşir.

İşğaldan azad olunmuş ərazilərdə başlıca vəzifələrdən biri də yerli və xarici investorların iqtisadiyyatın bütün sahələrinə, o cümlədən aqrar sahəyə investisiya qoyuluşlarına marağının yaradılmasıdır. 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında iqtisadiyyatın şaxələndirilməsi və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində işğaldan azad olunmuş ərazilərin inkişafı üçün vergi güzəştlərinin tətbiq olunması, yeni istehsal sahələrinə kapital qoyuluşuna görə mənfəət vergisinə güzəştlərin edilməsi, turizmin inkişafı üçün vergi təşviqlərinin edilməsi nəzərdə tutulmuşdur.

İşğaldan azad olunmuş ərazilərə beynəlxalq investisiyaların cəlb edilməsi ilk növbədə bu regionda makroiqtisadi sabitliyin təmin edilməsini, şəffaf özəlləşdirmə prosedurlarının olmasını, səmərəli liberallaşdırma səviyyəsini, ixtisaslı işçi qüvvəsinin və inkişaf etmiş infrastrukturun mövcud olmasını tələb edir. İnvestorların iqtisadiyyatın ən vacib sahələrinə investisiya qoyuluşlarını maliyyə-kredit üsulları ilə də stimullaşdırmaq mümkündür. İnvestorlar üçün başlıca məqsəd az risk etməklə çox mənfəət əldə etmək olduğu üçün bu da öz növbəsində daxili bazarın qiymətlərinin səviyyəsindən, vergi dərəcələrindən, bazarın tutumundan, milli valyutanın sabitliyindən asılıdır.

İşğaldan azad olunmuş rayonların böyük təbii və iqtisadi ehtiyatlara malik olduğunu nəzərə alsaq bu sahəyə yerli və xarici investorların cəlb edilməsi gələcəkdə məşğulluğu təmin etməklə yanaşı, ərzaq təhlükəsizliyinin təmin edilməsində də mühüm əhəmiyyət kəsb edəcəkdir.

2021-2024-cü illər üçün dövlət investisiya proqramının əsas istiqamətləri layihəsinə əsasən 2022-ci ildən başlayaraq kapital qoyuluşu layihələrinə hər il 1,5 milyard manat vəsait ayırmaq planlaşdırılmışdır [7, s.140].

**Tədqiqatın elmi yeniliyi.** İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatının inkişafı üçün zəngin təbii və iqtisadi resurslara malik olması, bərpa işlərindən sonra həmin ərazilərdən səmərəli istifadə etməkə ərzaq təhükəsizliyinin təmin edilməsində əhəmiyyəti açıqlanır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti.** Alınmış nəticələrdən, irəli sürülmüş təklif və tövsiyələrdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında gələcəkdə kənd təsərrüfatının inkişaf etdirilməsində və eləcə də, ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsələlərin həllində istifadə edilə bilər.

**Tədqiqat işinin iqtisadi səmərəsi.** İşğaldan azad olmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların ərazilərindən səmərəli istifadə etməklə heyvandarlıq və bitkiçiliyi də yüksək məhsuldarlıq əldə edilməsinə nail olmaqla Azərbaycan Resrublikasının ərzaq təhlükəsizliyinin təmin olunmasına nail olmaq.

**Nəticə**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları Respublikamızın iqtisadi inkişafında əhəmiyyətli yer tutmaqla gələcəkdə bərpa proseslərindən sonra ÜDM istehsalını 8 faizədək artırmaq mümkün olacaqdır. Ərzaq təyinatlı buğda istehsalı sahəsində də idxaldan asılılıq səviyyəsini azaltmaq üçün aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur: buğda istehsalında məhsuldarlığın yüksəldilməsi; istehsal olunan buğdanın keyfiyyətini yüksəltməklə ərzaq təyinatlı buğda istehsalına üstünlük verilməsi; əkin sahələrinin suvarma suyu ilə davamlı təminatının yaxşılaşdırılması; torpağın münbitliyinin yaxşılaşdırılması; yerli keyfiyyətli ərzaqlıq buğda istehsalının stimullaşdırılması; taxil istehsalı ilə məşğul olan

fermerlərin, fərdi sahibkarların aqrotexniki qaydalara əməl edilməsi üçün maarifləndirilməsi; öz tələbatımızı ödəyəcək həcmdə buğda istehsal etmək üçün torpağın az olması. Bitkicilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsində işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edəcəkdir.

Bu ərazilərə yerli və xarici investorların cəlb edilməsi gələcəkdə məşğulluğu da təmin etməklə yanaşı, ərzaq təhlükəsizliyinin təmin edilməsində də mühüm əhəmiyyət kəsb edəcəkdir. Müəlliflər işğaldan azad olmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının heyvandarlığın və bitkiçiliyin inkişafı üçün cox əlverişli olduğunu əsaslandırmışlar. İşğaldan azad olunan iqtisadi rayonlarda iqtisadi inkişafa nail olmaq üçün bu sahəyə yerli və xarici investorların cəlb edilməsi məqsədə uyğundur. Bu da öz növbəsində gələcəkdə məşğulluğu təmin etməklə yanaşı, ərzaq təhlükəsizliyinin təmin edilməsində də mühüm əhəmiyyət kəsb edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1.“Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli fərmanı.

2.Quliyev E.A. “Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri”. Monoqrafiya. Bakı, “Kooperasiya” nəşriyyatı. 2020, 463 s.

3.İbrahimov İ.H. “Regionların və işğaldan azad edimiş ərazilərin inkişaf istiqamətləri”. Monoqrafiya. Bakı, “Kooperasiya” nəşriyyatı, 2022, 240 s.

4.Səmədzadə Z. “Dağlıq Qarabağ: naməlum həqiqətlər”. Bakı,Vətən nəşriyyatı,1995.

5. Власов М.К. Основы экономической безопасности: учебное пособие. М. П. Власов, А. К. Моденов. Санкт-Петербург, СПбГАСУ, 2017, 220

6.Киселева Е.Н. “Рынок продовольственных товаров”. учеб. Пособие.

7.Kərimli İrşad. “Qarabağ və Şərqi Zəngəzurun inkişafında investisiyaların rolu. Azərbaycan Dövlət İqtisad Universiteti.

8. “Azərbaycanın kənd təsərrüfatı”. Statistik məcmuə. Bakı, 2021, 775 s

9.”Azərbaycanın statistik göstəriciləri”. Bakı, 2021.

10. azvision.az > mobile >nevs

11.https://agroeconomics.az/az/article/34/isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/

12.https://aqroekonomiks.a..

**Алифов Я.Ф**
**Алифов В.Я.**

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ ТЕРРИТОРИЙ И ПРОДОВОЛЬСТВЕННАЯ БЕЗОПАСНОСТЬ

### Резюме

В статье продовольственная зависимость страны не обусловлена в первую очередь низкой эффективностью ее национального агропродовольственного комплекса, продовольственная безопасность играет ведущую роль в обеспечении не только экономической безопасности государства, но и национальной безопасности, роль местных предпринимательских институтов в обеспечении спроса на продовольственную продукцию, подчеркивается необходимость повышения продовольственной безопасности, в первую очередь, важность удовлетворения спроса на продовольственную пшеницу, а также меры, которые необходимо принять для снизить уровень зависимости от импорта в этой сфере. В качестве одной из проблем, сдерживающих развитие сельского хозяйства в освобожденных от оккупации экономических районах Карабаха и Восточного Зангезура, указывается нехватка поливной воды, а также важность создания заинтересованности местных и иностранных инвесторов во всех сферах экономики, в том числе аграрного сектора. Помимо обеспечения занятости в будущем, это будет иметь большое значение в обеспечении продовольственной безопасности. Авторы также рассудили, что экономические районы

Карабах и Восточный Зангезур, освобожденные от оккупации, также очень благоприятно для развития животноводства.

***Ключевые слова:*** производительность, самообеспечение, импорт, экспорт, продовольственная проблема, продовольственная , безопасность, инвестор.

**Alifov Y.F.**
**Alifov V.Y**

## DEVELOPMENT PERSPECTIVES OF THE TERRITORIES FREED FROM OCCUPATION AND FOOD SECURITY

**Summary**

İn the article, the country's food dependence is not caused primarily by the low efficiency of its national agro-food complex, food security plays a leading role in ensuring not only the economic security of the state, but also national security, the role of local entrepreneurial institutions in meeting the demand for food products the necessity of increasing food security, first of all, the importance of meeting the demand for food wheat is highlighted. Also, the measures that must be taken to reduce the level of dependence on imports in this area are highlighted. The shortage of irrigation water is indicated as one of the problems that hinders the development of agriculture in the economic regions of Karabakh and Eastern Zangezur, freed from occupation, and the importance of creating the interest of local and foreign investors in all areas of the economy, including the agricultural sector, is justified. In addition to ensuring employment in the future, it will be of great importance in ensuring food security. The authors also reasoned that the economic regions of Karabakh and East Zangezur, freed from occupation, are also very favorable for the development of animal husbandry.

***Keywords:*** productivity, self-sufficiency, import, export, food problem, food security, investor.

**Çingiz Allahyar oğlu İBRAHİMLİ,** i.ü.f.d., dosent
Azərbaycan Kooperasiya Universitetinin Kommersiya" kafedrasının müdiri
E-mail: ch.ibrahimli@yahoo.com;
ORCİD: 0000-0002-3724-9999

# ELEKTRON TİCARƏT LOGISTIKASININ İQTİSADİ ARTIMA TƏSİRİ

**Xülasə**

Məqalədə elektron ticarət logistikasının mahiyyəti, tərkib elementləri açılır, müasir şəraitdə elektron ticarət logistikası bazarının inkişafını şərtləndirən amillər tədqiq olunur. Eyni zamanda, bir sıra elmi mənbələr tədqiq edilməklə elektron ticarət logistikasının inkişaf perspektivləri və mövcud risklər araşdırılır. Tədqiqatda Azərbaycan Respublikasında elektron ticarət logistikasının inkişafının zəruriliyi əsaslandırılır və sonda bu istiqamətdə bir sıra təkliflər irəli sürülür.

**Açar sözlər:** *e-ticarət, e-ticarət logistikası, iqtisadi artım, tədarük zənciri.*

**UOT:** 330.35
**JEL:** L91

**Giriş**

Müasir dövrdə iqtisadiyyatın qloballaşmasının və rəqəmsallaşmasının vacib amili kimi qəbul edilən elektron ticarət (e-ticarət) bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin beynəlxalq bazarlara çıxışı üçün də güclü bir vasitə, yekun nəticədə isə iqtisadi artımın başlıca hərəkətverici qüvvəsi kimi çıxış edir.

İstehlakçılar üçün yeni davranış modelini, sadə alış-veriş təcrübəsini formalaşdıran e-ticarətin gələcək inkişafı daha çox rəqəmsallaşan iqtisadi münasibətlərin yeni tələblərinə müvafiq logistika infrastrukturunun yaradılmasından asılıdır. Təsadüfi deyil ki, son on il ərzində iqtisadi inkişafın aparıcı trendi kimi korporasiyaların logistik proseslərinə Sənaye 4.0. konsepsiyasının tətbiqinin çıxış etdiyi bildirilir [7, s.253].

E-ticarətin inkişafının təsiri ilə çoxsaylı mal göndərmə variantlarının təkamülü həm də fiziki paylama şəbəkəsi və təchizat zəncirinin idarə edilməsi sahələrində elektron ticarət logistikasının (e-ticarət logistikası) ən son texnoloji imkanlarının tətbiqini şərtləndirir. Bununla belə, həm də nəzərə alınmalıdır ki, e-ticarət logistikası modellərinin yaratdığı yeni tələblər yalnız rəqəmsallaşma yolu ilə həll edilə bilən yeni logistik problemlər meydana gətirdi [20].

Tədqiqatlara görə, *"...inkişaf etmiş nəqliyyat və logistika sistemi ÜDM-də 3%-dək birbaşa artıma imkan verir"* [1, s. 5]. Son illərdə qlobal siyasi-iqtisadi səviyyələrdə müşahidə edilən təhdid və çağırışlar ayrı-ayrı milli iqtisadiyyatların mövcud şəraitdən irəli gələn adekvat siyasət və strategiyalarının hazırlanmasını vacib bir problem olaraq qarşıya qoymuşdur. Məsələn, 2020-ci ildə Hindistan "Spire Research and Consulting"in direktoru S.Sharma tərəfindən "Hindistanın Elektron Ticarət Logistika Sənayesi: Qəfəssiz və böyüməyə hazırdır" (Saurabh, Sharma. India's E-Commerce Logistics Industry, White Paper, April 2020. pp. 22.) hesabatı təqdim olunmuşdur.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbir və layihələrin bəziləri məhz ölkədə e-ticarətin inkişafı, onun əhatə dairəsinin genişlənməsi, habelə logistik infrastrukturun rəqəmsallaşmasının təmin edilməsinə yönəlmişdir [2; 3]. Lakin təhlil göstərir ki, hazırda Azərbaycanda e-ticarət logistikasının nəzəri əsaslarının öyrənilməsi ilə bağlı tədqiqatlara ehtiyac böyükdür. Bütün qeyd olunanlar e-ticarət logistikasının iqtisadi artıma təsirinin öyrənilməsinin xüsusi aktuallığa malik olduğunu göstərir.

**E-ticarət logistikasının mahiyyəti və tərkib elementləri.**

Məlum olduğu kimi, müasir dövrdə rəqəmsallaşmanın, internet şəbəkəsinin yaratdığı əlavə üstünlüklər şəraitində şirkətin rəqabət qabiliyyətinin əsas amili kimi malların çatdırılma sürəti və əldə olunmasının rahatlığı çıxış edir. Məhz bu iki amil, xüsusilə də onlayn biznesin geniş istehlakçı şəbəkəsi ilə işləyən

seqmentlərində müştərilərin sadiqliyinə və sayının artmasına kömək edir. Bütün bunlar isə, e-ticarət logistikasının mahiyyətinin açılmasının vacibliyini ön plana çıxarır.

Hazırda, xüsusilə də xarici elmi-iqtisadi ədəbiyyatlarda "rəqəmsal logistika", "İnternet logistikası", "elektron ticarət logistikası", "e-ticarət logistikası" və ya "e-logistika" anlayışlarından geniş istifadə edilməkdədir.

E-ticarət logistikası e-ticarət biznesinin müştərilərə mal çatdırmaq üçün istifadə etdiyi proses kimi təqdim olunur [16]. E-ticarət logistikası bir sıra müxtəlif prosesləri əhatə edir:

- inventarı (malları) idarəetmə;
- anbarlaşdırma;
- qablaşdırma;
- etiketləmə;
- faktura;
- göndərmə;
- ödənişlərin toplanması;
- malların qaytarılması;
- malların dəyişdirilməsi [17].

Ümumilikdə müasir milli elektron iqtisadi sisteminin bazar infrastrukturunun mühüm tərkib elementi olan logistik infrastrukrura poçt, nəqliyyat şəbəkələri, anbar təsərrüfatı, informasiya logistik xidmətləri aid edilir. Eyni zamanda, e-ticarət logistikası malların daha sürətli çatdırılması üçün ərazilər, yollar və yol şəraiti, malların hərəkəti ilə bağlı qaydalar və nəqliyyat qanunları haqqında ətraflı məlumatlara əsaslanır [6, s. 27; 17].

O.M.Dyukova (2022) onlayn mağazaların logistika infrastrukturuna bir qayda olaraq, anbar, malların daşınması üçün şəxsi nəqliyyat vasitələri, ilk növbədə avtomobil parkı və malların müştərilərə çatdırılması üçün öz imkanlarının (kuryerlər, sifarişlərin verilməsi məntəqələri, bağlama terminalları) aid olduğunu bildirir [8, 112]. Bununla belə, əksər onlayn mağazalar tərəfindən tez-tez logistika xidmətlərinin bir hissəsinin yerinə yetirilməsi məqsədilə daimi və ya dövri olaraq üçüncü tərəf kuryer xidmətləri cəlb olunur, malların müştərilərə çatdırılması sahəsini genişləndirmək üçün sifarişlərin verilməsi üzrə tərəfdaş məntəqələr və bağlama terminalları ilə müqavilələr bağlanır [8, s.113].

E-ticarətdə paylama şəbəkələrində əsas halqa kimi çıxış edən "paylayıcı mərkəzlər" (distribution center) mal tədarükçüləri ilə münasibətlərdə tam dövriyyə podratçısı kimi çıxış edirlər (Cədvəl 1.).

**Cədvəl 1**

**Ənənəvi ticarətdə və e-ticarətdə paylama formalarının müqayisəli xüsusiyyətləri**

| Parametrlər | Ənənəvi əmtəə dövriyyəsində anbar | E-ticarətdə paylayıcı mərkəz |
|---|---|---|
| Başlıca təyinatı | Ehtiyatların saxlanması | Sifarişlərin emalı |
| Xidmətlərin ünvanı | Topdan-pərakəndə ticarət | Son alıcılar və təchizatçılar |
| Saxlanmanın xarakteri | Daimi | Əməliyyata görə |
| Istehsal dövrəsi | Qəbul, saxlama, dəstləşdirmə, göndərmək üçün yükləmə | Qəbul, sortlara ayırma, emal, göndərmək üçün yükləmə |
| Əlaqəli xidmətlər | Yoxdur | Maksimal, yığılmaya/sökülməyə qədər |
| Məlumatların toplanması və işlənməsi | Əmtəə hissələri (partiyalar) üzrə | Real vaxt rejimində |
| Yönlənmə | Əməliyyat xərclərinin azaldılması | Sifarişçilərin tələblərinin təmin olunması |

Mənbə: [9, s. 265-266].

Paylayıcı mərkəzlər təkcə ənənəvi anbar logistikasını deyil, həm də sifarişlərin emalı, müştərilərə çatdırılması ilə bağlı bütün xidmət funksiyalarını, habelə əlavə məsləhətlərin təminini, daşınmaların izlənməsini və əmtəə tədarükü ilə bağlı ixrac-idxal əməliyyatlarını həyata keçirirlər. Ümumiyyətlə, paylayıcı provayderlər iqtisadiyyatda nəqliyyat və paylayıcı logistika sistemlərinin təkamülü prosesinin ən yüksək zirvəsini təmsil edir. Logistikanın inkişafının beş səviyyəsindən (ingiliscə, Party Logistic) üçüncüsü olmaqla 3PL (üçüncü tərəf logistikası) - malların sadə daşınmasını (anbar, yenidən yükləmə, əlavə xidmətlər), əlavə digər logistik

xidmətlərin göstərilməsini, həmçinin subpodratçıların cəlb edilməsini (müqavilə logistikası) nəzərdə tutur [9, s. 195-196].

Qlobal çağırışlar e-ticarətdən getdikcə daha çox sürət və səmərəlilik tələb edir. Bu, həm də onunla izah olunur ki, mütərəqqi texnologiyalardan daha çox xəbərdar olan istehlakçılar ildən-ilə daha sürətli texnikaya və daha tez çatdırılma şərtlərinə malik olmağa çalışırlar. Belə şəraitdə ənənəvi logistikanın imkanlarından istifadə etməklə müştəri məmnuniyyətini təmin etmək çətinləşir. Bu baxımdan e-ticarət logistikası səmərəli biznes artımı, dəyərli anlayışlar və miqyaslılıq kimi bir sıra üstünlüklər təklif edir [17].

**Müasir şəraitdə e-ticarət logistikası bazarının inkişafını şərtləndirən amillər.**

Hal-hazırda, fərdlərin hər nəfərə düşən gəlir səviyyəsinin yüksəlməsi, xarici brendlərə asan çıxış sayəsində transsərhəd e-ticarət əməliyyatlarının və e-ticarət startaplarının artması bütün dünyada e-ticarət logistikasına tələbi sürətləndirir [17; 21].

"Future Market İnsights" şirkəti tərəfindən həm ayrı-ayrı biznes strukturları, həm də müxtəlif ölkələr səviyyəsində e-ticarət logistikasının inkişaf xüsusiyyətlərini şərtləndirən amillər göstərilmişdir. Bu amillər ayrı-ayrı şirkətlərə rəqəmsallaşan iqtisadiyyatda öz biznes modellərini yenidən nəzərdən keçirmək, yeni strateji istiqamətlərini müəyyənləşdirmək üçün böyük imkanlar təklif edə bilər [19].

**Cədvəl 2**

**"Future Market İnsights" şirkətinin proqnozlarına görə 2022-2032-ci illər ərzində bəzi ölkələrdə e-ticarət logistikası bazarının inkişafına təsir edən və tələbi stimullaşdıran amillər**

| Ölkələr | Amillər | Başlıca inkişaf istiqaməti |
|---|---|---|
| **Asiya Sakit Okean hövzəsi ölkələri** | - İstehlakçıların sayı;<br>- Smartfonlar və internet kimi qabaqcıl texnologiyaların ortaya çıxması;<br>- E-ticarət sahəsində yeni iştirakçıların (şirkətlərin) meydana çıxması;<br>- Mövcud logistika variantlarının artması. | Miqyas effekti, texnologiya logistika. |
| **ABŞ** | - Bulud əsaslı həllərdən istifadənin, internetdən istifadə və bazarda artan onlayn ticarətçilərin sayının artması;<br>- Avtonom daşınma nəqliyyat vasitələrinin inkişafı sahəsində texnoloji nailiyyətlərin artması;<br>- Müxtəlif Qiuck ev çatdırılması xidmətləri üçün istifadə edilən süni intellektlə inteqrasiya olunmuş texnologiyaların və onlayn tətbiqlərin sayının artması. | Miqyas effekti, texnologiya (süni intellekt). |
| **Böyük Britaniya** | - E-ticarət müəssisələrinin, eləcə də anbarların sayının artması;<br>- E-ticarət artımı ilə, avtonom "son mil" çatdırılma şirkətlərində artım sayəsində sərmayə qoymaq və inkişaf etdirmək üçün fürsətlərin mövcudluğu. | Miqyas effekti, sərmayə qoyuluşu. |
| **Çin** | - Yollar, körpülər, dəmir yolu xətləri və limanlar kimi regional əlaqə sektorunun infrastrukturuna yerli sərmayələr. | İnfrastruktura yerli sərmayələr. |
| **Hindistan** | - E-ticarət iştirakçıları (şirkətlər) arasında iş axınının sadələşdirilməsinə və xərclərin azaldılmasına artan diqqət;<br>- Dəmir yolu və avtomobil yolu kimi nəqliyyat xidmətlərinin genişlənməsi. | Xərclərin azaldılması, nəqliyyat Infrastrukt unun inkişafı. |
| **Yaponiya** | - Evə çatdırılma xidmətlərinin istehlakçılar arasında populyarlığı;<br>- İlkin çatdırılma, təkrar çatdırılma və təyin edilmiş çatdırılma yerlərindən tutmuş hər şeyi təmin edən və paketləri xüsusi yerlərdən, məsələn, mağazalardan götürmək imkanı verən çatdırılma xidməti.<br>- Növbəti gün çatdırılmanın ümumi mövcudluğu;<br>- Çatdırılma zamanı ödənişin götürülməsi seçimi;<br>- Asan qaytarma və mübadilə siyasətləri və paketi tamamlayan müştəri xidmətlərinin geniş çeşidi. | Çatdırılma xidmətlərinin inkişafı. |

Mənbə [19] əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təhlil göstərir ki, e-ticarət infrastrukturunun inkişaf səviyyəsi baxımından müxtəlif ölkələrdə e-ticarət logistikası bazarının inkişafına təsir edən və tələbi stimullaşdıran amillər fərqli ola bilir. Məsələn, "Future Market İnsights" şirkəti tərəfindən təqdim edilən bu amillər aşağıdakı Cədvəl 2-də qruplaşdırılmışdır.Ümumilikdə, müasir dövrdə e-ticarət logistika bazarının inkişafını şərtləndirən amillərə aşağıdakılar aid edilir:

- müştərilərə daha sadələşdirilmiş və sərfəli əməliyyatlarla etibarlı izləmə məlumatı əldə etmək üçün blokçeyn texnologiyasının tətbiqinin artması;
- e-ticarətin göndərmə xərclərini azaltmaq üçün texnologiyanın tətbiqində artım;
- avtomatlaşdırılmış identifikasiya və məlumatların yoxlanılması texnologiyalarının artan istifadəsi;
- e-ticarət logistika xidmətlərinin fərdiləşdirilməsinin artımı;
- e-ticarət saytlarının sayında artım;
- bütün dünyada ucuz yüklərin mövcudluğu;
- sənaye investorlarına gəlirli artım imkanları;
- təchizat zəncirində səmərəli çatdırılmaları planlaşdırmaq üçün e-ticarət logistikasına nəqliyyatın idarə edilməsi proqramının (TMS) inteqrasiyası;
- texnoloji irəliləyişlər;
- müştərilər və təchizatçılar arasında əlaqələrin təkmilləşdirilməsi;
- internetdən istifadənin artması [17].

Yuxarıdakılarla bərabər, qeyd olunmalıdır ki, COVID-19 pandemiyası onlayn ödənişlərin genişlənməsi və dronlardan istifadə də e-ticarət logistikasının inkişafına imkan verən əsas amillərə aid edilə bilər, çünki müştərilər getdikcə təmassız və etibarlı əməliyyatlara daha çox üstünlük verirlər.

**E-ticarət logistikasının inkişaf perspektivləri.**

Qlobal e-ticarət logistika bazarının həcmi müxtəlif mənbələrdə fərqli rəqəmlərlə qiymətləndirilir. Belə ki, "Market Research Future"nin məlumatlarına görə, e-ticarət logistikası bazarının həcminin 2022-2030-cu illər ərzində 2,618,3 milyard ABŞ dollarına qədər artacağı proqnozlaşdırılır [18]. "Future Market İnsights" şirkəti tərəfindən qlobal e-ticarət logistika bazarının həcmi 2021-ci ildə 439,8 milyon ABŞ dolları dəyərində qiymətləndirilib və 2022-ci ildəki 531,6 milyard ABŞ dollarından 17,8%-lik illik artım tempi ilə 2032-ci ilə qədər 2,7346 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır [19].

Bəzi mənbələrdə cari qlobal bazar ssenarisi, ən son meyllər və ümumi bazar mühitinin təhlili əsasında transsərhəd e-ticarət logistika bazarının təkcə 2022-2026-cı illər ərzində 55,47 milyard dollar və ya illik 11,71% artacağı bildirilir. Qeyd olunur ki, blokçeyn texnologiyasının tətbiqi, həmçinin, logistikada rəqəmsal transformasiya və çatdırma mərkəzlərinə artan tələbat növbəti bir neçə il ərzində sərhədyanı e-ticarət logistikası bazarının böyüməsinə təkan verən əsas səbəblərdəndir [21].

Logistika, habelə müasir rəqəmsallaşma şəraitində e-ticarət logistikası xidmətlərinin səmərəliliyi istər ölkə daxilində, istərsə də beynəlxalq onlayn alışlarda malların son istehlakçılara çatdırılması, son nəticədə iqtisadi artımın təmin olunmasında vacib əhəmiyyətə malikdir. M.L.Kalujski (2014) şirkətdaxili logistika funksiyalarını əvəz edən e-ticarətin logistika infrastrukturunun inkişaf səviyyəsinin getdikcə daha çox milli iqtisadiyyatların inkişaf istiqamətlərini müəyyən etdiyini bildirir [9, s. 7-8].

**Cədvəl 3**

**2022-2032-ci illər ərzində bəzi ölkələrdə e-ticarət logistikası bazarının proqnozlaşdırılan orta illik artım tempi, faizlə**

| Ölkə | Proqnozlaşdırılan orta illik artım tempi |
|---|---|
| Amerika Birləşmiş Ştatları | 17.5% |
| Birləşmiş Krallıq | 18.5% |
| Cin | 19.6% |
| Yaponiya | 18.5% |
| Hindistan | 20.8% |

Mənbə [19].

Qeyd edilməlidir ki, “Future Market İnsights” şirkəti tərəfindən 2022-2032-ci illər ərzində Çinin qlobal bazar dəyərinin 278,3 milyard, Hindistanın 230,5 milyard ABŞ dollarına çatacağı, habelə bir sıra ölklərdə də e-ticarət logistikası bazarının orta illik artım tempinin yüksək olacağı gözlənilir (Cədvəl 3).

Bir sıra tədqiqatlarda da Latın Amerikası ölkələrinin (Braziliya, Meksika, Argentina, Kolumbiya, Çili, Peru və digər) e-ticarət logistika bazarında 2022-2027-ci illər ərzində 13%-dən çox orta illik artımın qeydə alınacağı proqnozlaşdırılır [23].

Göründüyü kimi, yaxın gələcəkdə e-ticarət logistikası bazarında sabit artımın müşahidə olunacağı danılmazdır. Bütün bunlar artıq bir çox ölkələrdə e-ticarət logistikası ilə bağlı statistik məlumatların toplanması və ictimailəşdirilməsinə ciddi diqqət yetirilməsini şərtləndirmişdir. Eyni zamanda, belə bir cəhəti də nəzərə almaq lazımdır ki, e-ticarət tətbiqləri logistika və təchizat zənciri əməliyyatlarına davamlı şəkildə təsir etsə də mümkün əsas dəyişikliklərin baş verməsinin daha uzun bir dövrü əhatə edə biləcəyi gözlənilir [20]. Bu isə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə e-ticarət logistikasının inkişafı üçün kifayət qədər böyük perspektivlərin olduğunu sübut edir. Məsələn, ÜDM-nin həcmi, geniş ərazisi, əhalisinin sayı və yüksək alıcılıq qabiliyyəti, neft-qazın, mineral və metal aktivlərinin mövcudluğu ilə qonşu ölkələrdən fərqlənən Səudiyyə Ərəbistanında əhalinin 70%-i onlayn alış-verişlə məşğuldur. Ölkədə e-ticarət bazarının həcmi 2015-ci ildə 2 milyard ABŞ dollarından 2020-ci ildə 9,8 milyard ABŞ dollarına qədər artdı və 2025-ci ilin sonuna kimi bu bazarın həcminin 21 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır. Səudiyyə Ərəbistanında e-ticarətin iqtisadiyyata təsirinin müsbət amillərinə həm də logistika şəbəkələrinin təkmilləşdirilməsi misal göstərilir. Lakin indiyə qədər logistika müəssisələrinin ~1%-dən azının rəqəmsal həllərdən istifadə etməsi Səudiyyə Ərəbistanında rəqəmsallaşmanın artım potensialının böyük olduğunu göstərir [24].

V.V.Dıbskaya, V.İ.Sergeyev, N.N.Lıçkina və b. (2020) apardıqları təhlillərin nəticəsi kimi dünya üzrə logistika və təchizat zəncirinin idarə edilməsinin gələcək inkişafı və rəqəmsallaşması istiqamətlərində aşağıdakı meylləri sistemləşdirmişlər:

1. İstehlakçılar daha sürətli vaxt qrafikləri və müxtəlif “son mil” çatdırılma variantlarını tələb edəcəklər.
2. Şirkətlər anbarların tikintisini lokallaşdırırlar.
3. Nəqliyyat infrastrukturunun dövlət tərəfindən təkmilləşdirilməsi rəqəmsal logistikanın inkişafına təkan verəcək.
4. Alış-veriş mövsümündə zirvə həddini müəyyən edən sərhədlər aradan qalxır və bu, proqnozlaşdırıcı təhlil və qabaqcıl proqnozlaşdırma hesabına logistikadan daha çox çeviklik tələb edəcək.
5. Şirkətlər 3PL provayderləri ilə əlaqələri yaxşılaşdırmağa çalışacaqlar.
6. Dəyişən logistik əməliyyatlar standart halına gələcək.
7. “NEW Waves” texnologiyaları (blokçeyn, əşyaların interneti, süni intellekt, virtual reallıq, maşınların öyrənməsi) logistik strategiyanın yenidən qiymətləndirilməsini tələb edəcək.
8. İxtisaslaşdırılmış mağazalar aktuallığını qoruyacaq.
9. Müştərilər logistika əməliyyatlarında getdikcə daha çox şəffaflıq tələb edəcəklər.
10. Logistikanın yeni rəqəmsal texnologiyalara açıqlığı artacaq [10, s. 9-12].

Qeyd olunmalıdır ki, COVID-19 pandemiyası dövründə dünyanın müxtəlif bölgələrində əsasən e-ticarət və logistika sahəsində əhəmiyyətli nailiyyətlər əldə edən ayrı-ayrı ölkələrin iqtisadi artımı daha davamlı xarakter alır. Məsələn, Covid-19-un səbəb olduğu görünməmiş qeyri-müəyyənliyə baxmayaraq 2021-ci il ərzində İndoneziyanın ofis, pərakəndə satış və s. bazarlarında tələb nisbətən azalsa da, bəzi sektorlar, xüsusən də müasir logistika anbarları böhran şəraitində dayanıqlı olduqlarını sübut etdilər. Belə ki, müasir logistika anbarlarına tələb 3PL provayderləri və e-ticarət firmalarının əsas hərəkətverici qüvvəsi olmaqda davam etdi. Sosial-iqtisadi potensialına görə ölkədə bu iki sektorun gələcəkdə də cəlbedici qalacağı gözlənilir. İqtisadi artımın bu il daha da genişlənəcəyi təqdirdə e-ticarət və logistika firmaları, soyuducu anbar operatorları, həmçinin “son mil” alətlərinə ehtiyacı olan operatorlardan daxil olan tələb səviyyələri daha da arta bilər [22].

Bütün müsbət perspektivlərlə bərabər e-ticarət logistikasının inkişafının bir sıra risklərlə də müşaiyət olunacağı ehtimal olunur. Belə ki, "McKinsey" şirkətinin mütəxəssisləri K.Snider və Ş.Sinqhalın (2020) fikrincə, gələcəkdə biznes strukturları tərəfindən nəzərə alınması qaçılmaz olacaq amillərin biri "məsafənin geri dönməsi" ilə əlaqədardır [25]. Belə ki, pandemiya dövründə demək olar ki, bütün dünya dövlətləri onilliklər ərzində görünməmiş məhdudiyyətlər (sərhədlərdə əlavə məhdudiyyətlər, qlobal məhsul və xidmətlərə nisbətən yerli analoqlara üstünlük verilməsi, təchizat mənbələrinin son bazarlara yaxınlaşmasının zəruriliyi) tətbiq etdilər. Bu isə, yerli bizneslər üçün bir sıra üstünlüklər vəd etsə də, texnologiyaların fiziki məsafəni azaltması istisna olmaqla, digər münasibətlərdə məsafə geri qayıda bilər. Odur ki, e-ticarətin Covid-19 pandemiyası dövründə ayrı-ayrı ölkələrdə iqtisadi geriləmənin yumşaldılmasında xüsusilə əhəmiyyətli rol oynamasına rəğmən, qlobal çağırışlar bir çox ölkələrin təcrübəsinə əsaslanaraq perspektivdə iqtisadi artımın təmin edilməsi üçün e-ticarət logistikası infrastrukturunun təkmilləşdirilməsini zəruri edir.

**Azərbaycan Respublikasında e-ticarət logistikasının inkişafının zəruriliyi.**

Azərbaycanda son illərdə e-ticarətin ölkə iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilməsi istiqamətində konkret addımlar atılmaqdadır. Dövlət tərəfindən həyata keçirilən bu fəaliyyətin bir qismi bilavasitə və dolayı yolla logistika infrastrukturunun inkişaf etdirilməsi ilə əlaqədardır. Eyni zamanda, Azərbaycanda e-ticarət logistikasının inkişafını zəruri edən bir sıra mühüm cəhətlər mövcuddur.

İlk növbədə qeyd olunmaldır ki, e-ticarətin iqtisadiyyatın prioritet sahələrindən birinə çevrilməsi onun vacib tərkib elementlərindən biri kimi logistika infrastrukturunun inkişafını tələb edir. Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə 2020-ci ilədək olan dövr üçün müəyyən edilmiş strateji məqsədlərə nail olunması ilə Azərbaycanda 2020-ci ildə real ÜDM-nin 400 milyon birbaşa və 205 milyon dolayı olmaqla, ümumilikdə 605 milyon manat artacağı proqnozlaşdırılmışdır [1, s. 6]. Lakin 2017-2020-ci illər ərzində müvafiq Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin 69% icra olunması məlumdur [12,s. 9].

Halbuki bir sıra tədqiqatlara görə *"...daha yaxşı logistika xidmətləri daha çox bazarlara çıxış və ticarətin inkişafı deməkdir"*[13, s. 6].

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 508 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda (5.3.2. Prioritet 3.2. Elektron ticarətin inkişaf etdirilməsi) internetin hazırkı yayılma səviyyəsində Azərbaycanda pərakəndə satışlarda e-ticarətin nisbətən zəif inkişafının səbəblərindən biri kimi logistika infrastrukturunun zəif olması göstərilir. Bu səbəbdən Dövlət Proqramında (Tədbir 3.2.1. Elektron ticarət infrastrukturunun genişləndirilməsi) "*...müasir tələblərə cavab verən logistika infrastrukturunun yaradılması, elektron ticarət şəbəkələrindən alınmış malların istehlakçılara dəqiq və vaxtında çatdırılması üçün "Azərpoçt" MMC-nin potensialının artırılması"* nəzərdə tutulmuşdur [4].

Qeyd etməliyik ki, 2021-ci ilin məlumatlarına görə ölkə ərazisində "Azərpoçt"un 1500-dək poçt şöbəsi tərəfindən müxtəlif poçt xidmətləri təqdim olunur və bu cəhət şübhəsiz ki, e-ticarət sahəsinin şaxələnməsinə öz müsbət təsirini göstərir. Bununla bərabər, ölkəmizdə e-ticarət platformalarına xidmət göstərəcək vahid logistika mərkəzinin qurulması sahəsində də addımların atılmasının planlaşdırılması bu istiqamətdə fəaliyyətə xüsusi diqqət yetirildiyini sübut edir [11].

Şübhəsiz ki, Azərbaycanın yerləşdiyi coğrafi mövqeyi, ildən-ilə genişlənən və böyük perspektivlər vəd edən tranzit və logistika imkanları da beynəlxalq e-ticarət məhsullarının poçt vasitəsilə daşınma və çatdırılması üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "e-KOB evi" portalı haqqında Əsasnamədə "Bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərəcək "e-KOB evi" portalının "Biznes naviqator" altsistemi bu sahədə yenilik olmaqla KOB-ların müştərilərlə qarşılıqlı əlaqələrinin, təchizat zəncirlərinin, informasiya və sənədlərin idarə edilməsi, sahibkarlıq sahəsində müxtəlif

informasiya sistemlərinin tətbiqini nəzərdə tutur [14].

İ.e.d. prof. V.Qasımlı qeyd edir: *"... İqtisadi artımın sürətlənməsi üçün qlobal dəyər zəncirlərinə qoşulma və ixrac yönümlülüyün təmin edilməsi zəruridir"*[5, 166]. Təqdirəlayiq haldır ki, ölkəmizdə qlobal çağırışlardan irəli gələn strateji sənədlərin qəbulu istiqamətində ardıcıl işlər görülür. Belə ki, ölkə Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda dünyada gedən sürətli rəqəmsallaşma meyilləri və bu əsasda məhsuldarlığın əhəmiyyətli artımının keyfiyyətli inkişaf üçün yaratdığı fürsətlər (davamlı texnoloji inkişafın qlobal dəyər zəncirini sürətlə genişləndirməsi və onun coğrafiyasını böyütməsi, qlobal əmtəə və xidmətlərin son istehlakçıya vaxtında, keyfiyyətli və aşağı qiymətə çatdırılması, istehlakçıların sifariş etdikləri məhsulları bütün dəyər zənciri üzrə izləmə imkanı) vurğulanır. Qeyd olunur ki, bu meyillərdən faydalanma ölkə iqtisadiyyatının qısa müddət ərzində qlobal dəyər zəncirinə inteqrasiyasına dəstək olacaqdır [3, s. 9].

Strategiya çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbir və layihələrin bəziləri məhz ölkədə e-ticarətin inkişafı, onun əhatə dairəsinin genişlənməsi, habelə logistik infrastrukturun rəqəmsallaşmasının təmin edilməsinə yönəlmişdir. Bunlara aşağıdakıları misal göstərmək olar:

- Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində potensial roluna əsaslanan tranzit daşımaların inkişafına hədəflənən Vahid Nəqliyyat və Logistika Strategiyasının həyata keçirilməsi;
- Azərbaycanın regional qovşağa (hab) və e-ticarət mərkəzinə çevrilməsi;
- Tranzit daşıma və logistika işinin təkmilləşdirilməsi üçün rəqəmsal texnologiyadan istifadənin genişləndirilməsi;
- Nəqliyyat əməliyyatlarının 24/7 formatında sürətli həyata keçirilməsi məqsədilə dövlət tərəfindən yaradılacaq rəqəmsal platformaya inteqrasiyası (rəqəmsal gömrük, hesablaşma, saxlama);
- "AYNA" informasiya sisteminin və Elektron Tranzit Portalının müxtəlif modullarının istifadəyə verilməsi;
- Nəqliyyat və logistika sahəsi üzrə effektivliyin və proqnozlaşdırma keyfiyyətinin artırılması, həmçinin axınların "ağıllı" idarə edilməsi məqsədilə sahənin tam rəqəmsallaşmasına (infrastruktur və proqram təminatı, o cümlədən IoT, M2M, AI) subsidiya və güzəştli kreditlərin ayrılması.

E-ticarət logistikasının inkişafı Azərbaycanın tranzit və logistika imkanlarının daha da genişlənməsi baxımından müsbət rol oynaya bilər. E-ticarət logistikasının inkişafı e-ticarətin həcmi ilə birbaşa asılılıqdadır. Məlumdur ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən ölkəmizdə e-ticarətin həcmində artım müşahidə olunur. Belə ki, ölkəmizdə elektron pərakəndə ticarət (B2C) dövriyyəsinin həcmi faktiki olaraq 2017-2021-ci illər ərzində 46,3 min manatdan 117,9 min manata qədər və ya təqribən 2,5 dəfə artmışdır. Bununla belə, hesablamalarımıza görə elektron pərakəndə ticarətin ÜDM-də xüsusi çəkisi 2017-ci ildəki 0,06%-dən 2020-ci ildə 0,13%-dək artsa da, 2021-ci il ərzində bu göstərici 0,12%-ə qədər azalmışdır. Nəzərə alınmalıdır ki, Covid-19 pandemiyasının beynəlxalq pərakəndə ticarətdə bir sıra məhdudiyyətlər yaratması ilə xarici ticarət əməliyyatlarında qlobal elektron ticarətin həcmi ildən-ilə yüksəlir və ölkəmizin əhalisinin əsasən ölkə xaricindəki internet mağazalarına üstünlük verməsi təsadüfi deyil. Qeyd edilməlidir ki, bu artımda həm də Dövlət Gömrük Komitəsinin hazırladığı səmərəli mexanizmlərin, müasir texnologiyaların tətbiqi ilə "e.customs.gov.az" portalı və "Smart Customs" mobil tətbiqi üzərindən xaricdən mal sifarişlərinin, yüksək tələbatın nəticəsi olaraq yaradılmış çoxsaylı karqo şirkətlərinin də böyük rolu olmuşdur [15].

Azərbaycan əhalisinin sayına, coğrafi mövqeyinə və iqtisadi potensialına görə Cənubi Qafqaz ölkələri arasında lider mövqedə olmasına baxmayaraq perspektivdə əhəmiyyətli iqtisadi artıma nail olmaq üçün və qlobal bazarlara çıxış üçün e-ticarət logistikasının imkanlarından da istifadə etməlidir.

**Nəticə**

Qlobal miqyasda rəqəmsallaşmanın mikrosəviyyədə ayrı-ayrı şirkətlərin biznes modelləri və strategiyalarına, strukturuna, makrosəviyyədə isə iqtisadiyyatın müxtəlif sektorlarına təsirinin dəyişikliklər yaratdığı danılmazdır. Rəqəmsal

iqtisadiyyata, o cümlədən e-ticarətə keçid qlobal dəyər zəncirinin idarə edilməsi istiqamətində logistika və təchizat prosesinə yenidən nəzər salmağı və perspektivdə tədricən kompüterləşdirilmiş sənaye istehsalına keçid prosesinin təsiri altında bu istiqamətdə baş verməli olan dəyişiklikləri əvvəlcədən müəyyən etməyi zəruri edir.

Covid-19 pandemiyası dövründə qarşıya çıxan problemlərin həlli istiqamətində qazanılmış qlobal təcrübə, habelə şəbəkə iqtisadiyyatında məcburən çox sürətlə genişlənən institusional proseslər e-biznesin logistik infrastrukturunun yeni çağırışlara uyğun təşkili sahəsində həlledici qərarların qəbulunun həyati əhəmiyyətə malik olmasını göstərdi.

Bütün bunlar isə, qlobal dəyər zəncirinə çıxış üçün geniş imkanlar yaradan e-təchizat logistikasının inkişafı məsələsinə ölkəmizin mənafeyi nöqteyi-nəzərindən strateji yanaşmanın formalaşmasını tələb edir. Müasir dövrdə Azərbaycan üçün e-ticarət logistikasının inkişafının başlıca prioritetlərindən biri də onun real həcminin müəyyənləşdirilməsi və səmərəliliyinin qiymətləndirilməsi ilə bağlıdır.

Beləliklə, Azərbaycan Respublikasında e-ticarət logistikasının inkişafı məqsədilə ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- E-ticarət logistikasının inkişafı üzrə müvafiq strategiyanın hazırlanması.
- E-ticarət logistikası üzrə statistik məlumatların toplanması və statistik göstəricilər şəklində təqdim olunması.
- Logistikanın və e-ticarət logistikasının ÜDM-də xüsusi çəkisinin statistik göstəricilərdə əks olunması.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”. 67 s.

2. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli, 3378 saylı Sərəncamı.

3. Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 508 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı”.

5. Qasımlı V.Ə. “İqtisadi artım”. Bakı, 2021, “AzPrint MMC” Nəşriyyatı, 234 səh.

6. Беляцкая Т.Н. Формирование и развитие национальной электронной экономической системы (теория, методология, управление), автореферат диссертации на соискание ученой степени доктора экономических наук по специальности 08.00.05 – Экономика и управление народным хозяйством (специализация – экономика, организация и управление предприятиями, отраслями, комплексами) Минск, 2019. 50 стр.

7. Гвилия Н.А. Цифровая трансформация корпоративной логистики в условиях устойчивого развития. Специальность 08.00.05 – Экономика и управление народным хозяйством (логистика), Диссертация на соискание ученой степени доктора экономических наук, Санкт-Петербург – 2022, 440 стр.

8. Дюкова О.М. Эволюционное развитие логистики электронной торговли: от интернет-магазинов к маркетплейсам // Известия Санкт-Петербургского Государственного Экономического Университета, Периодический научный журнал № 3 (135), Санкт-Петербург 2022, с. 111-115.

9. Калужский М.Л. Электронная коммерция: маркетингоые сети и инфраструктура рынка. – Москва: Экономика, 2014. – 328.

10. Цифровые технологии в логистике и управлении цепями поставок: аналитический обзор [Текст] / В. В. Дыбская, В. И. Сергеев, Н. Н. Лычкина и др. ; под общ. и науч. ред. В. И. Сергеева ; Нац. исслед. ун-т «Высшая школа экономики». — М. : Изд. дом Высшей школы экономики, 2020. — 190 с.

**İnternet resursları:**

11. Azərbaycanda elektron ticarət platformalarına xidmət göstərəcək vahid logistika mərkəzi

yaradılacaq 5 aprel 2021, https://vergiler.az/news/economy/12498.html

12. Azərbaycan Respublikasında milli iqsadiyyat və iqsadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin 2017-2020-ci illər üzrə monitorinq və qiymətləndirmə hesabatı. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi.122 s. https://monitoring.az/assets/upload/files/20211222111501_pdfhD1vCa.pdf

13. Bilalzadə P. "İpək Yolu" layihəsində Azərbaycanın logistika infrastruktunun potensialının artırılması imkanları və mövcud problemlər. Araşdırma sənədi. Demokratik Təşəbbüslər İnstitutu (IDI). Bakı 2021, 38 s. http://www.idi-aze.org/files/pdf/2021-11-28/zP9vAQB2t8KKnn-KAyzpa0Q6ezKJfb7mKJgLApK2o.pdf

14. "e-KOB evi" portalı haqqında Əsasnamə təsdiq edilib 09.08.21 https://smb.gov.az/az/all-news/e-kob-evi-portali-haqqinda-esasname-tesdiq-edilib

15. E-ticarətin "yükü"nü kim və necə daşıya bilər? 19-02-2022 https://azerforum.com/az/e-ticaretin-yukunu-kim-ve-nece-dashiya-biler

16. Ecommerce Logistics: How to Diversify and Future-Proof Your Supply Chain, by Elise Dopson, Ecommerce Logistics, Back Office Jun 22, 2021. https://www.shopify.com/enterprise/ecommerce-logistics-at-scale

17. E-Commerce Logistics Market: Global Industry Trends, Share, Size, Growth, Opportunity and Forecast 2022-2027. IMARC Group, June 2022, https://www.reportlinker.com/p06287538/E-Commerce-Logistics-Market-Global-Industry-Trends-Share-Size-Growth-Opportunity-and-Forecast.html

18. E-Commerce Logistics Market Worth USD 2,618.3 Billion by 2030 at 16.38% CAGR - Report by Market Research Future (MRFR). June 13, 2022, Market Research Future. https://www.globenewswire.com/en/news-release/2022/06/13/2461126/0/en/E-Commerce-Logistics-Market-Worth-USD-2-618-3-Billion-by-2030-at-16-38-CAGR-Report-by-Market-Research-Future-MRFR.html

19. E-commerce Logistics Market by Service Type, Operational Area & Region - Forecast 2022 – 2032. https://www.futuremarketinsights.com/reports/e-commerce-logistics-market

20. Kayikci, Yasanur (2019). E-Commerce in Logistics and Supply Chain Management. In book: Advanced Methodologies and Technologies in Business Operations and Management (pp.1015-1026) Chapter: 76, Publisher: IGI Global DOI:10.4018/978-1-5225-7362-3.ch076 https://www.researchgate.net/publication/314093962_E-Commerce_in_Logistics_and_Supply_Chain_Management

21. Global Cross border eCommerce Logistics Market 2022-2026. Infiniti Research Limited, May 2022 https://www.reportlinker.com/p06045358/Global-Cross-border-eCommerce-Logistics-Market.html

22. Landed residential and logistics warehouses in Greater Jakarta remain resilient December 17, 2021 / By Yunus Karim https://research.jllapsites.com/landed-residential-and-logistics-warehouses-in-greater-jakarta-remain-resilient/

23. Latin America e-commerce logistics market – growth, trends, covid-19 impact, and forecasts (2022–2027). https://www.mordorintelligence.com/industry-reports/latin-america-e-commerce-logistics-market

24. The Effects of E-Commerce on Saudi Arabia's Logistics Industry. October 2021, by Alexandra Santiago https://ycpsolidiance.com/article/the-effects-of-e-commerce-on-saudi-arabias-logistics-industry

25. The future is not what it used to be: Thoughts on the shape of the next normal. April 14, 2020. Article By Kevin Sneader and Shubham Singhal https://www.mckinsey.com/featured-insights/leadership/the-future-is-not-what-it-used-to-be-thoughts-on-the-shape-of-the-next-normal

**Чингиз Аллахьяр оглы ИБРАГИМЛИ,** д. ф. э., доц.,
Зав. кафедрой «Коммерция» Азербайджанского Университета Кооперации,
E-mail: ch.ibrahimli@yahoo.com;
ORCİD: 0000-0002-3724-9999

## ВЛИЯНИЕ ЛОГИСТИКИ ЭЛЕКТРОННОЙ ТОРГОВЛИ НА ЭКОНОМИЧЕСКИЙ РОСТ

**Резюме**

В статье раскрыты сущность и составные элементы логистики электронной торговли, изучены факторы, определяющие развитие рынка логистики электронной торговли в современных условиях. При этом путем изучения ряда научных источников исследуются перспективы развития и существующие риски логистики электронной торговли. В исследовании обосновывается необходимость развития логистики электронной торговли в Азербайджанской Республике, и в конце выдвигается ряд предложений в этом направлении.

***Ключевые слова:*** *электронная торговля, логистика электронной торговли, экономический рост, цепочка поставок.*

**Chingiz Allahiar IBRAHİMLİ,** Ph.d. in Economics, Associate Professor,
head of the “Commerce” chair, Azerbaijan Cooperation University,
E-mail: ch.ibrahimli@yahoo.com;
ORCİD: 0000-0002-3724-9999

## IMPACT OF E-TRADE LOGISTICS TO THE ECONOMIC GROWTH

**Summary**

The article reveals the essence and constituent elements of e-commerce logistics, studied the factors that determine the development of the e-commerce logistics market in modern conditions. At the same time, by studying a number of scientific sources, the development prospects and the existing risks of e-commerce logistics are investigated. The study substantiates the need to develop e-commerce logistics in the Republic of Azerbaijan, and at the end puts forward a number of proposals in this direction.

**Key words:** *e-commerce, e-commerce logistics, economic growth, supply chain.*

**Fazil İsmayıl oğlu İSMAYILOV** i.f.d., dos.
Azərbaycan Texnologiya Universiteti “Menecment kafedrası”
E-mail: t.x.gdptm@mail.ru

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ QİYMƏT MEXANİZMİNİN ROLU

**Xülasə**

Müasir dövrdə qərb ölkələrində dövlət iqtisadiyyatın önəmli bir sahəsi olan kənd təsərrüfatını davamlı olaraq dəstəkləyir. İstehsalatın bu sahəsində azad bazarın əsas prinsipi olan tələblə təklif arasında olan nisbət mütəmadi olaraq dövlət tənzimlənməsi ilə tamamlanır.

Mühüm kənd təsərrüfatı məhsullarının qiyməti dövlət tərəfindən müəyyən edilir və lazım gəldikdə yenidən baxılır. Bununla istehsalçılar qiymətlərin kəskin aşağı düşməsindən müdafiə olunur. Həmçinin daxili bazar ucuz idxal məhsullarından və qiymətlərin kəskin aşağı düşməsindən idxal rüsumlarının köməyi ilə mühafizə olunur. Məhz məqalədə bu qəbildən olan və eləcə də digər məsələlər araşdırılır.

**Açar sözlər:** *sərbəst bazar qiymətləri, qiymətlərin tənzimlənməsi, ərzaq təhlükəsizliyi, beynəlxalq təcrübə, istehsalçıların stimullaşdırılması.*

**UOT** 368
**JEL:** D40

**Giriş**

Qiymətlərin tənzimlənməsi kənd təsərrüfatı, o cümlədən ərzaq mənşəli məhsullar istehsalının artırılmasının əsas yollarından biridir. Odur ki, bu sahədə dövlət siyasətinin əsas istiqamətlərindən biri iqtisadi cəhətdən əsaslandırılmış qiymətlərin müəyyən edilməsi və sabit saxlanması, lakin ehtiyac olduqda (məsələn, idxal olunan kənd təsərrüfatı texnikasının, müxtəlif növ gübrələrin, ölkə daxilində enerji daşıyıcılarının qiymətlərində, yük daşımaların taariflərində dəyişikliklər olduqda) təshih edilməsi olduqca vacibdir. Kənd təsərrüfatı məhsullarının qiymətlərinə tənzimləmə sahəsində dövlət siyasəti, dövlətin aqrar sahədə əmtəə istehsalçılarına maliyyə dəstəyi, kreditləşdirmədə edilən güzəştlər də təsir göstərir. Həm də dövlət siyasətinin bu istiqamətləri qiymətlərin əmələ gəlməsi ilə yanaşı, kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinə də əhəmiyyətli dərəcədə təsir göstərir.

**Qiymətlərin tənzimlənməsi**

Aqrar iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas məqsədi strateji maraqların qorunmasına nail olmaqdan, əhalinin ərzaq məhsulları ilə təminatının daha da yaxşılaşdırılmasında çox mühüm rol oynayan sahibkarlığın inkişaf etdirilməsini stimullaşdırmaq üçün zəruri tədbirləri həyata keçirməkdən ibarətdir. Aqrar iqtisadiyyatın dövlət tənzimlənməsinin zəruriliyi onun digər sahələrlə müqayisədə bir sıra spesifik xüsusiyyətlərə – istehsalın nəticələrinin təbii-iqlim şəraitindən asılı olması ilə əlaqədar riskli və mövsümi xarakter daşıması, iş vaxtı ilə istehsal vaxtının bir-birinə uyğun gəlməməsi, daxili və xarici rəqabətdən asılılığı və i.a. – malik olması ilə əlaqədardır. Qiymətlərin tənzimlənməsində müxtəlif metodlardan istifadə olunur. Aqrar iqtisadiyyatın dövlət tənzimlənməsinin dünya təcrübəsində istifadə olunan metodlarından biri isə qiymətlərin tənzimlənməsidir.

Bu sahədə qarşıya qoyulan məqsədə nail olmaq üçün əvvəlcə qiymətlərin formalaşmasına təsir edən amilləri nəzərdən keçirmək lazımdır. İqtisadçıların fikrincə aqrar iqtisadiyyatda qiymətlər aşağıdakı amillərin təsiri ilə formalaşır:

1. Tələb və təklif
2. İstehsal və istehlak olunan məhsulların keyfiyyəti
3. Məhsulların daşınması şərtləri
4. Bazar infrastrukturunun mövcud vəziyyəti
5. Nəqliyyat xərcləri
6. Məhsul vahidinin maya dəyəri
7. Bazarın inhisarlaşdırılması səviyyəsi
8. Rəqabət mühiti
9. Dövlətin iqtisadi tənzimləmə vasitələri
10. Beynəlxalq bazarlarda qiymətlərin mövcud vəziyyəti

Qeyd etmək lazımdır ki, bu amillər son nəticədə ölkənin ərzaq təhlükəsizliyinin səviyyəsinə ya birbaşa, yaxud da dolayısı ilə təsir göstərir.

Deməli, dövlət kənd təsərrüfatı məhsullarının qiymətlərini tənzimləyərkən əslində iqtisadi vasitələrlə qiymət əmələ gətirən amillərə təsir etməlidir. Məlum olduğu kimi, bazar münasibətləri şəraitində qiymətlər tələb və təklif, azad rəqabət mühitinin təsiri altında formalaşsa da zəruri hallarda onun səviyyəsini tənzimləmək üçün iqtisadi və inzibati metodlardan istifadə olunması istisna edilmir. Qiymətlərin liberallaşdırılması bazar münasibətlərinin formalaşmasının mühüm tərkib hissəsi hesab olunsa da, bu, o demək deyildir ki, qiymətlərin əmələ gəlməsi bütövlükdə bazar özünütənzimləməsinin öhdəsinə buraxılmalı və dövlətin müdaxiləsinə yol verilməməlidir. Sərbəst qiymətlər azad rəqabət mühitinin yaradılmasında əhəmiyyətli rol oynasa da, təcrübədə təkmil bazarın olmaması, bəzi təsərrüfat subyektlərinin inhisarçılığı və prosesə dövlətin müdaxiləsini zəruri edir. Həm də bazar mexanizmi iqtisadi inkişafa mənfi təsir göstərdiyi hallarda dövlətin qiymətqoyma prosesinə müdaxiləsi daha çox aktuallıq kəsb edir.

Qiymətlərin səviyyəsinə dövlət müdaxiləsinin əsas məqsədi bazarda konyuktur dəyişiklikləri nəticəsində meydana çıxan uyğunsuzluqların aradan qaldırılmasına nail olmaqdan, bu prosesin istehsala və ölkənin milli təhlükəsizliyinə mənfi təsirini aradan qaldırmaqdan ibarətdir. Kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsi tələb və təklif əsasında formalaşan bazar mexanizminin prinsiplərinə zidd olmamalıdır.

Bazar iqtisadiyyatının ən mühüm prinsiplərindən biri sərbəst bazar qiymətlərinin formalaşmasıdır. Bu qiymətlər konkret məhsul növü üzrə tələb və təklif bir-birinə uyğun gəldikdə formalaşır. Lakin təcrübə göstərir ki, bu və ya digər məhsul üzrə tələblə təklifin bir-birinə uyğun gəlməsinə nadir hallarda rast gəlinir. Buna müxtəlif amillər təsir göstərir ki, onlardan biri də inhisarçılıqdır. İnhisarçılıq tələb və təklif arasında sərbəst bazar qiymətlərinin formalaşmasına mənfi təsir göstərən başlıca səbəblərdən biridir.

İqtisadçıların fikrincə kənd təsərrüfatı məhsullarının qiymətləri tənzimlənərkən aşağıdakı üç prinsipə əməl olunmalıdır:

- aqrar sahədə ölkənin strateji maraqlarının təmin edilməsi, ərzaq bazarının ən səmərəli metodlarla qorunması;
- aqrar sahədə islahatın artırılması və səmərəliliyinin yüksəldilməsi üçün stimullaşdırma vasitələrindən istifadə olunması;
- məhsul vahidinə sərf olunan xərclərin azaldılmasına nail olmaqla, istehlakçıların sərfəli qiymətlərlə kənd təsərrüfatı, o cümlədən ərzaq məhsulları əldə edə bilmələrinin təmin olunması.

Kənd təsərrüfatı məhsullarının qiymətləri onların istehsal prosesindən istehlak olunduqları vaxta qədər olan bütün mərhələlərdə, zəruri hallarda tənzimlənməlidir. Buna istehsalçıların enerji daşıyıcılarına və yanacağa, toxuma və maddi-texniki resurslara olan tələbatının ödənilməsi zamanı xüsusi diqqət yetirilməlidir. Məhsulların reallaşdırılması üçün qiymətlərin tənzimlənməi xüsusilə vacibdir. Odur ki, məhsul reallaşdırılarkən istehsalçılarla istehlakçıların maraqlarının nəzərə alınması və uyğunlaşdırılması qiymətlərin tənzimlənməsinin başlıca hədəfinə çevrilməlidir.

Kənd təsərrüfatı məhsullarının qiymətlərinin yuxarıda göstərilən prinsipləri əsasında tənzimlənməsi aqrar iqtisadiyyatda davamlı inkişafın təmin olunmasının əsas amillərindən biridir. Bununla yanaşı, istehsalın davamlı xarakter daşımasına digər amillər də təsir göstərir. Lakin ərzaq təhlükəsizliyinin təmin olunmasında qiymət amilinin təsirinin öyrənilməsi ilə də kifayətlənmək olar. Çünki bu amil həlledeci olmaqla, məhsul istehsalçılarının stimullaşdırılmasında çox mühüm rol oynayır. Odur ki, bu sahədə dövlət tərəfindən zəruri və təxirəsalınmaz tədbirlər görülməli, bu məqsədlə inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməlidir.

**Qiymət mexanizminin tənzimlənməsində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə**

Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq və bütövlükdə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını stimullaşdırmaq məqsədilə inkişaf etmiş ölkələrdə – ABŞ-da, Fransada, Yaponiyada, Böyük Britaniyada, Kanadada, Skandinaviya ölkələrində, Almaniyada qiymətlərin səviyyəsi davamlı olaraq dövlətin diqqət mərkəzində saxlanılır. Bu ölkələrin iqtisadiyyatında xüsusi mülkiyyət və azad rəqabət hakim mövqe tutsa da, dövlətin iqtisadiyyata müdaxiləsində qiymət amilinə xüsusi əhəmiyyət verilir. Bu ölkələrdə qiymət siyasəti elə

qurulmalıdır ki, kənd təsərrüfatı məhsulları istehsalçıları aid olduqları mülkiyyətdən asılı olmayaraq bütün maliyyə kanalları vasitəsilə əldə etdikləri gəlir hesabına geniş təkrar istehsalı yüksək səviyyədə təşkil edə bilir və onların gəlirlərinin müdafiəsinə dövlət tərəfindən təminat verilir.

Qərb ölkələrində iqtisadiyyatın mühüm sahələrindən biri olan kənd təsərrüfatı müdafiə olunur. Belə ki, hər il dövlət tərəfindən ən mühüm kənd təsərrüfatı məhsullarının qiymətləri müəyyən edilir və lazım gəldikdə yenidən nəzərdən keçirilir. Bununla da, istehsalçılar qiymətlərin kəskin surətdə aşağı düşməsindən müdafiə edilir, bir o qədər də zərər çəkmirlər. Digər tərəfdən, daxili bazar ucuz idxal məhsullarından qorunur.

Həmin ölkələrdə digər aqrar siyasətlə əlaqədar olan xərclər dövlət büdcəsindən ödənilir və inkişaf etmiş ölkələrdə bazar iqtisadiyyatı şəraitində aqrar iqtisadiyyatın tənzimlənməsi çoxcəhətli xarakter daşımaqla bütün kənd təsərrüfatı məhsulları istehsalçıları dövlət tərəfindən müdafiə edilmiş olur. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalına çəkilən xərclərin Almaniyada, Kanadada, ABŞ-da və Fransada 42-52%-i, Skandinaviya ölkələrində isə 60-80%-i dövlət payına düşür. Avropa İttifaqına üzv olan ölkələrdə büdcədən ayrılan subsidiyalar fermer təsərrüfatları gəlirlərinin 50%-dən çoxunu təşkil edir.

İnkişaf etmiş ölkələrdə bu və ya digər məhsul növü üzrə daha çox ixtisaslaşmış fermer təsərrüfatlarının göstəriciləri əsas götürülməklə təminatlı qiymətlər müəyyən edilir. Bazar qiymətləri təminatlı qiymətlərdən aşağı düşdükdə fermerlər bu iki qiymət arasında fərqi təminat şəklində alırlar.

Qiymət mexanizminin düzgün qurulması, onun həm istehsalçıların, həm də istehlakçıların maraqlarına bilavasitə uyğunlaşdırılması bir tərəfdən çox mühüm əhəmiyyət kəsb edir, digər tərəfdən isə olduqca mürəkkəb bir məsələdir. Buna istər sahələrin, istərsə də təsərrüfat subyektlərinin maraqları baxımından yanaşdıqda yalnız bazar konyukturunu və mövcud iqtisadi reallıqları özündə əks etdirməklə formalaşan qiymət səviyyələri ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir və müəyyən dərəcədə həm istehsalçıların, həm də istehlakçıların mənafelərinə uyğun gəlir.

Lakin hazırda daxili ərzaq bazarlarında formalaşan qiymətlər kənd təsərrüfatı məhsulları istehsalına stimullaşdırıcı təsir göstərmir. Bu baxımdan ölkənin ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə qiymətlərin dövlət tərəfindən tənzimlənməsi vaxtaşırı nəzərdən keçirilməli və ona müəyyən düzəlişlər edilməlidir. Bunun üçün ilk əvvəl aqrar sahədə qiymət sistemi düzgün müəyyənləşdirilməli, milli iqtisadiyyatda qiymət əmələgəlməsinin vahid mexanizmini formalaşdırmalıdır. Yalnız bu zaman kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılmasına, daxili ərzaq bazarının xarici rəqabətdən qorunmasına nail olmaq mümkündür. Kənd təsərrüfatı məhsulları qiymətlərinin dövlət tərəfindən tənzimlənməsində təminatlı qiymətlərə üstünlük verilməsi məqsədəuyğundur. Çünki bu qiymətlər ilk növbədə kənd təsərrüfatı məhsulları istehsalçılarının bazar konyukturundakı dəyişikliklərə müqavimət göstərmək imkanlarının reallaşdırılmasına xidmət edir.

Kənd təsərrüfatı məhsulları qiymətlərinin tənzimlənməsinin əsas vəzifəsi yerli əmtəə istehsalçılarının gəlir əldə etməklə fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradılmasından, sahələrarası iqtisadi münasibətlərdə ekvivalentliyin təmin edilməsindən, təsərrüfat subyektlərinin xarici bazara çıxmaq imkanlarının artırılmasından və xarici rəqabətin səmərəli şəkildə bitərəfləşdirilməsindən ibarətdir.

**Qiymətlərin dövlət tənzimləməsinin təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi**

Uzunmüddətli perspektivdə kənd təsərrüfatı qarşısında qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə təsir göstərə biləcək amillərin içərisində qiymətlərin tənzimlənməsinə dövlətin müdaxiləsi, yəni elmi cəhətdən əsaslandırılmış qiymət siyasətinin yeridilməsidir. Bunun zəruriliyi onunla əlaqədardır ki, kənd təsərrüfatı məhsulları qiymətlərinin əmələ gəlməsinə tələb və təklif, istehlak olunan məhsulların keyfiyyəti, çeşidi və daşınması şərtləri, bazar infrastrukturunun mövcud vəziyyəti, nəqliyyat xərcləri, məhsul vahidinin istehsal maya dəyəri, rəqabət mühiti, bazarın inhisarlaşdırılması səviyyəsi, dövlətin iqtisadi tənzimləmə vasitələri, xarici bazarlarda qiymətlərin mövcud durumu və s. kimi çox saylı amillər təsir edir. Odur ki, dövlət kənd təsərrüfatı məhsullarının qiymətlərini

tənzimləyərkən bütün bu amillərin təsirini nəzərə almalıdır.

Qiymətlərin tənzimlənməsinə dövlətin müdaxilə etməsinin başlıca məqsədi onun (yəni qiymətlərin) istehsala mənfi təsirini aradan qaldırmaqdan ibarətdir. Qiymətlərin dövlət tərəfindən vaxtaşırı yenidən nəzərdən keçirilməsi və tənzimlənməsi aqrar iqtisadiyyatda xüsusilə böyük əhəmiyyətə malikdir. Bu, ölkənin aqrar iqtisadiyyatının inkişaf etdirilməsinə xidmət etməklə aşağıdakılarla əlaqədardır: 1) ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına hələ ödənilə bilməməsi; 2) emal müəssisələri və tədarük təşkilatlarının kənd təsərrüfatı üzərində inhisarçı fəaliyyətlərinin davam etməsi; 3) kənd təsərrüfatının sənayenin istehsal vasitələri istehsal edən sahələrinin təzyiqinə məruz qalması; 4) kənd təsərrüfatı məhsulları istehsalçıları gəlirlərinin eyni məbləğdə qoyulan kapitala görə iqtisadiyyatın digər sahələrinə nisbətən aşağı olması; 5) istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün elm və texnikanın ən yeni nailiyyətlərindən, mütərəqqi texnologiyalardan kifayət dərəcədə istifadə edilməsinin mümkün olmaması; 6) yerli kənd təsərrüfatı məhsulları istehsalçılarının xarici bazarlara çıxışının təmin edilməməsi və i.a.

Bütün bunlar onu deməyə əsas verir ki, kənd təsərrüfatı məhsulları qiymətlərinin tənzimlənməsi, bu qiymətlərin istehsal xərclərini ödəyə bilməsinin təmin olunması və məhsul istehsalçıları gəlirlərinin artırılması üçün tədbirlər görülməsi dövlət siyasətində nəzərə alınmalı, bu məqsədlə təminatlı qiymətlərin səviyyəsi müəyyənləşdirilməlidir. Çünki, hazırda daxili bazarda formalaşan qiymətlər kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına stimullaşdırıcı təsir göstərmir.

Bizə elə gəlir ki, aqrar sahədə yeridilən qiymət siyasətində aşağıdakıların nəzərə alınması məqsədəuyğundur:

- geniş təkrar istehsalın təmin edilməsi və vaxtı çatmış sosial-iqtisadi problemlərin həll olunması üçün rentabelliyin lazımi səviyyəyə çatdırılması, tələb və təklifdən asılı olaraq sərbəst bazar qiymətlərinin təminatlı qiymətlərlə əlaqələndirilməsinin təmin olunması;
- ayrı-ayrı kənd təsərrüfatı məhsullarının, birinci növbədə təbii-iqlim şəraiti əlverişsiz olan regionlarda əkilib-becərilən bitkiçilik məhsulları qiymətlərinin tənzimlənməsinə xüsusi diqqət yetirilməsi;
- əsas maddi-texniki resurs növlərinin və enerji daşıyıcıları qiymətlərinin son həddinin dövlət tərəfindən tənzimlənməsi;
- müasir texnika və avadanlıqların, elmi-texniki məhsulların, gübrə və cins heyvanların, toxum və əkin materiallarının əldə edilməsi üçün lizinq xidməti və subsidiyalardan istifadənin daha da genişləndirilməsi.

Kənd təsərrüfatında aparılan struktur siyasətinin elmi cəhətdən əsaslandırılmış strategiya əsasında həyata keçirilməsinin çox böyük əhəmiyyəti vardır. Hazırda aqrar sahədə Azərbaycan dövlətinin apardığı struktur siyasətində ölkənin malik olduğu əlverişli təbii-iqlim şəraitindən istifadə olunmaqla bütün sahələrdə tələbatın ödənilməsi və daxili bazarın qorunması ön plana çəkilir. Bununla əlaqədar olaraq i.e.d. prof. H.A.Xəlilov yazır: "Dövlət müstəqilliyi şəraitində aqrar bölmədə struktur siyasəti idxalı əvəz edən istiqamətlə ixrac potensialının artırılmasının optimal əlaqələndirilməsi prinsipinə ardıcıl surətdə əməl edilməsi əsasında qurulmalıdır" [5].

Azərbaycanda aqrar iqtisadiyyatın inkişaf etdirilməsinin strateji məqsədi ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Başqa sözlə, respublikamız özünü doqquz ən mühüm ərzaq məhsulları qrupu üzrə daxili istehsal hesabına təmin etməli və bu, ümumi tələbatın ən azı 85%-ni təşkil etməlidir. Strateji məqsədə isə bir sıra tədbirlərin həyata keçirilməsi yolu ilə nail olmaq mümkündür. Bunlar kənd təsərrüfatının sahələri arasında optimal nisbətin yaradılması, texniki cəhətdən yenidən qurulması, təbii-iqtisadi potensialdan daha səmərəli istifadə olunması, əkinçilik və heyvandarlığın daha da inkişaf etdirilməsi və s. ibarətdir.

Bizə elə gəlir ki, ölkəmizdəki iqtisadi şərait nəzərə alınmaqla strateji məqsədə çatmaq və artımı təmin etmək üçün bir neçə mərhələni keçmək lazım gələcəkdir.

Beləliklə, ölkəmizdə sağlam bazar münasibətlərinin formalaşmış olduğu müasir dövrdə aqrar bölmədə dövlət tənzimlənməsinin maliyyə, kredit, büdcə, vergi, qiymət, gömrük, sığorta və s. kimi iqtisadi vasitələrindən istifadə edilməsi məqsədəuyğundur. İqtisadi tənzimləyicilərin qarşılıqlı əlaqə və asılılıq şəraitində

istifadə edilməsi qarşıya qoyulmuş strateji məqsədə nail olunmasının əsas vasitəsidir.

**Nəticə**

Beləliklə, bütün bunları ümumiləşdirərək belə bir qənaətə gəlmək olar ki, ölkəmizdə kənd təsərrüfatı məhsullarının dövlət alış qiymətlərinin vaxtaşırı nəzərdən keçirilməsi və konkret şəraitlə əlaqədar təshih edilməsinə ehtiyac vardır. Çünki dövlət satınalma qiymətləri bəzi hallarda istehsal xərclərini ya ödəmir, ya da gücbəla ilə ödəyir ki, bu da istehsalçıların bu və ya digər məhsulu əkib-becərməsinə əngəl törədir. Bizə elə gəlir ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına motor yağının, yaxud da yanacağın, gübrənin dəyərinin bir hissəsinin güzəşt edilməsi formasında maliyyə yardımı göstərməkdənsə, məhsulların satınalma qiymətlərinin yüksəldilməsi daha yaxşı stimullaşdırıcı amildir. Bundan başqa, məlum olduğu kimi, Azərbaycanın 60-a yaxın rayonunda dənli bitkilər əkilib-biçilir. Lakin torpaq sahələrinin münbitliyindəki fərqlər istehsal xərclərində və deməli, istehsalçıların gəlirərində müxtəlifliyə səbəb olur. Qiymətlərin tənzimlənməsi kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının əsas yollarından biridir. Bu, həm də aqrar iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və optimallaşdırılmasında çox mühüm rol oynaya bilər. Odur ki, ölkəmizin müxtəlif iqtisadi rayonlarında istehsal olunan eyni istehlak dəyərinə malik olan kənd təsərrüfatı məhsullarının bölgənin təbii-iqlim şəraiti nəzərə alınmaqla fərqli dövlət satınalma qiymətlərinin müəyyən olunması məqsədəuyğun olardı.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Anar Abbasov. “Ərzaq təhlükəsizliyi”. “Nasir” nəşriyyatı, Bakı, 2007-ci il. 602 s.
2. Oqtay Məmmədli, Mürsəl İsmayılov, Fazil İsmayılov. “İqtisadi nəzəriyyə”. Ali məktəblər üçün dərs vəsaiti. “MBM” nəşriyyatı, Bakı, 2010-cü il, 880 s..
3. O. Məmmədli, M. İsmayılov, F. İsmayılov. “Milli iqtisadiyyatın tənzimlənməsi”. “MBM” nəşriyyatı, Bakı, 2014-cü il, 560 s.
4. Z.Ə.Səmədzadə. “Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzəsi”. 2001.
5. H.A.Xəlilov “Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri”. Bakı, 2001-ci il, 176 s.

**Fazil İsmayıl İSMAİLOV**

## THE ROLE OF THE PRICE MECHANISM IN ENSURING FOOD SECURITY

### Summary

In modern Western economy agriculture as one of the most important sectors of the economy has actively supported the state. In this production the main principle of the free market, namely supply and demand, is supplemented by active government regulation.

State shall be assessed and reviewed annually by the lowest prices on the most important agricultural products. Thus, producers are protected from a sharp fall in prices. At the same time the domestic market protected from cheap imports and excessive fluctuations of the chain through a system of additional import duties.

All these and other issues discussed in detail in the article.

**Key words:** *Price controls, free-market price, food security, international practice, promoting producers*

**Фазил Исмаил оглы ИСМАИЛОВ**

# РОЛЬ ЦЕНОВОГО МЕХАНИЗМА В ОБЕСПЕЧЕНИИ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ

**Резюме**

В современной западной экономике сельское хозяйство как одну из важнейших сфер экономики активно поддерживает государство. В этой области производства главный принцип свободного рынка, а именно соотношение спроса и предложения, дополняется активным государственным регулированием.

Государственном устанавливаются и ежегодно пересматриваются минимально цены на важнейшие сельскохозяйственные продукты. Тем самым производители защищаются от резкого падения цен. В то же время внутренний рынок ограждается от дешевого импорта и чрезмерных колебаний цен с помощью системы дополнительных ввозных пошлин.

Все эти и другие вопросы подробно рассматривается в статье.

**Ключевые слова:** *Регулирование цен, свободная рыночная цена, продовольственная безопасность, международная практика, стимулирование производителей.*

**Məsoud BADİN**
Azərbaycan Milli Elmlər Akademiyası
İqtisadiyyat İnstitutunun doktorantı

# İRAN İSLAM RESPUBLİKASINDA SƏYAHƏT SIĞORTASININ PROBLEMLƏRİNİN ARAŞDIRILMASI VƏ OPTİMAL HƏLL YOLLARI

**Xülasə**

*Tədqiqatın məqsədi* – Hal-hazırda İran da daxil olmaqla turizm sənayesi və əlaqəli sənaye sahələri dünyanın bütün ölkələrində iqtisadiyyatın əsas təməllərindən biri kimi tanınır. Tədqiqatın məqsədi səyahət sığortası sisteminin təkmilləşdirilməsi istiqamətində yeni elmi yanaşlamaların işlənib hazırlanmasından ibarətdir.

*Tədqiqatın metodologiyası* – Məqalədə turizm sənayesinin rolu və İran sığorta sənayesi ilə qarşılıqlı əlaqələri araşdırılarkən, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz və sintez metodlarından istifadə edilmişdir.

*Tədqiqatın tətbiqi əhəmiyyəti* – müəllif tərəfindən irəli sürülən təklif və tövsiyyələrdən İran İslam Respublikasında səyahət sığortası problemlərinin həll edilməsinə yardımçı ola bilər.

*Tədqiqatın nəticələri* – İranda yerli sığorta şirkətlərindəki problemlərin təhlili, habelə sanksiyalardan təsirlənən təşkilatlar arasındakı əlaqələri tənzimləyən tədbirlərin hazırlanması, səyahət sağlamlıq sığortasını genişləndirmək üçün bəzi strategiyaların hazırlanması.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – Bu istiqamətdə müəllif tərəfindən irəli sürülən yeni elmi yanaşmalar orijinallığı ilə fərqlənir və səyahət sığortasının səmərəsinin yüksəldilməsinə yönəlmişdir.

**Açar sözlər:** *turizm, sənaye, sığorta, səyahət sağlamlığı sığortası, turizm potensialı, sığorta şirkətləri, sığorta siyasəti*

**UOT** 338.43
**JEL:** G22

## Giriş

Açıqlanan statistikaya görə, turizm qlobal ÜDM-in 10,4%-ni və dünyada məşğulluğun 10%-ni əhatə edir [1]. Turizm Təşkilatının məlumatına görə, İranda turizm sənayesinin ÜDM-dəki payı təxminən 119 milyon dollardır (2,4 %-ə bərabərdir) və bunun 2023-cü ildə 4,0%-ə yüksələcəyi proqnozlaşdırılır [2]. Artan tendensiyası və hər hansı bir ölkənin məşğulluğunda və infrastrukturunun yaxşılaşdırılmasında oynadığı rola görə Turizm dünyada "sənaye" olaraq tanınır. Bu arada, İranda böyük turizm potensialına baxmayaraq, bu sənayenin dünya turizm gəlirlərindəki payının təxminən 0,5% olduğu bildirilir. Bununla birlikdə turizm sənayesinin və əlaqəli sənayelərin, xüsusən də hər bir ölkənin əl işlərinin milli təhlükəsizliyə və siyasi faydalarına təsiri digər nailiyyətlərdən az deyil. İran coğrafi ərazisindəki turizm, təbii - insani ekologiyasına görə potensialı olan ölkələrdən biridir və müxtəliflik, regional inkişaf perspektivini həyata keçirmək qabiliyyətini iki qat artırdı. Turizm sənayesi digər iqtisadi və sosial sektorlarla geniş əlaqələri olan bir sistem hesab edilə bilər [3]. Turistlərin xüsusiyyətlərindən və onların çoxsaylı ehtiyaclarından qaynaqlanan bu geniş qarşılıqlı əlaqə, müxtəlif iqtisadi sektorlarda balanslaşdırılmış və əlaqələndirilmiş inkişaf üçün bir fürsət ola bilər və davamlı sənaye inkişafında əhəmiyyətli bir rol oynayır. Bu sənaye daxili və xarici qaynaqların birləşməsi və eyni vaxtda istifadəsi ilə bir çox sosial, iqtisadi, ekoloji və mədəni qaynaqlar gətirir [4].

Turizm, milli səviyyədə gəlir və iş yerlərinin açılması kimi, milli ərazinin iqtisadi inkişafına bir yanaşma ola bilər. Turizm, xüsusilə digər iqtisadi sektorların mənfəəti azaldıqda yaxşı bir alternativ və inkişaf strategiyasıdır. Bu əsasda turizm sığortasının inkişafının əsas səbəbi, turist olan və iqtisadi artıma səbəb olan daha çox auditoriya cəlb etmək üçün böyük köməkçi ola bilər. Turist sayının artması biznesin inkişafına və bu sahədə fəaliyyət göstərən şirkət və təşkilatların gəlirlərinin artmasına səbəb olacaq. Xüsusilə az inkişaf etmiş ölkələrdə turizmin inkişafı yoxsulluqla mübarizədə təsirli bir faktordur, müxtəlif qrupların gəlirlərini artırır,

işsizliyi azaldır, iqtisadi və sosial rifahı yaxşılaşdırır.

İran iqtisadiyyatının xidmət sektoru köklü dəyişikliklər dövrünə doğru irəliləyir. Özəlləşdirmə, texniki təşəbbüslər və paylama şəbəkələrinin böyüməsi səbəbindən rəqabətin artdığı İranda xidmət sahələrindən biri də sığorta sənayesidir [5].

Sığorta sənayesinin turizm sahəsində göstərdiyi xidmətlər səyahət hadisələri zamanı turistlər üçün güvən və rahatlıq yaratmasına tələbatın artmasında əhəmiyyətli rol oynayır. Turistlərin təhlükəsizliyi üçün bir çox, xəstəlik və ya təhdidə diqqət yetirmək lazımdır. Bu məsələ əhəmiyyətli bir amil olaraq sığorta sənayesinin ehtiyaclarına uyğun olaraq arzu olunan turizm sığortası xidmətlərinin dizaynına və tətbiqinə səbəb olur.

Son illərdə sığortaçılar turizm və səyahət sığortası sahəsində müxtəlif xidmətlər göstərmişlər. Lakin vacib olan məsələ bir tərəfdən sığorta şirkətlərinin tələbləri, digər tərəfdən turist qrupları və onların ehtiyacları arasında ümumi anlayışın olmamasıdır. Hazırda İranın sığorta sənayesi, dünyada ümumi istehsal gəliri 0,1%-dən az pay ilə, adambaşına düşən gəliri 57,9 dollar olmaqla dünyada inkişaf etmiş ölkələrdən daha aşağı olan 48 -ci yerdədir [6]. Bunun əsas səbəblərindən biri Covid-19 virusunun ortaya çıxması və yayılması ilə yanaşı, sanksiyaların olmasıdır. İranın Altıncı İnkişaf Planının 11-ci maddəsinin 3-cü bəndinə əsasən, Mərkəzi Sığorta, istehsal və ticarət sektorunda sığorta sahələrini artırmalı və genişləndirməlidir. Lakin təəssüf ki, İranda Turizm və sığorta sahəsindəki məsul təşkilat olan Mədəni İrs, Turizm və Sənət Nazirliyi bunu dəstəkləmir və turizm üzrə sığorta sənayesinə tələbatın olmamasının şahidi oluruq. Digər tərəfdən, hazırda İran sığorta şirkətləri tərəfindən yerli və xarici turistlər üçün hərtərəfli və tam əhatə dairəsi tətbiq edilməmişdir və turizm sektoruna daha çox diqqət yetiriləcəyi təqdirdə, bu növ sığorta təminatının boşluğu yaxın gələcəkdə də özünü büruzə verəcəkdir.

**Turizm sənayesi ilə sığorta sənayesi arasında qarşılıqlı əlaqə.**

İranda turizm kənd təsərrüfatı, sənaye və xidmətlərdən sonra dördüncü insan fəaliyyətidir. Turizm elə bir sənayedir ki, onun inkişafı hər bir bölgədəki iqtisadi, sosial və mədəni məsələlər və faktorlar haqqında kifayət qədər bilik və məlumatlılıq tələb edir [7]. Bu günün ehtiyaclarına uyğun olaraq turistik məkanların istifadəsinə və gələcəkdə bu qaynaqların qorunmasına doğru irəliləmək üçün texniki, sosial, mədəni, siyasi, iqtisadi, tarixi və ekoloji ölçülərə sistemli diqqət tələb olunur [8].

Digər tərəfdən, son illərdə qlobal tibbi turizmin artması bir çox hökumətin bu sahədə sərmayə qoymasına səbəb oldu. Müasir rəqabət bazarında turistlərin gözləntilərini və ehtiyaclarını ödəmək, tibbi turizm sənayesinin uğurlu inkişafını təmin etməkdə birinci prioritetdir [9].

Tibbi turizmə olan inamın artması turistlərin cəlb olunmasına çox əhəmiyyətli təsir göstərəcək. Turistlərin məmnuniyyətini və inamını artırmağın yollarından biri də sığorta xidmətlərindən istifadə etməkdir. Sığorta şirkətindən təzminat alaraq bir insana maliyyə itkilərini və potensial problemləri azaltmağa kömək edən bir vasitə sığortadır [10].

Sığorta xəsarət alan, itki verən və ya qəza keçirmiş insanlara bu bədbəxt hadisələrin nəticələrini kompensasiya etməyə imkan verir. Belə insanlara kompensasiya olan zərərlər sığorta məbləğini almaq üçün ödədikləri pulla əvəzlənir və onu ödəməklə bir-birilərinə dəstək verməkdə iştirak edirlər. Başqa sözlə, özlərini sığortalayanların hamısı bütün sığorta alıcılarına aid olan sərmayədə iştirak edərək hər bir sığortalıya dəymiş ziyan və itkilərin ödənilməsində iştirak edirlər. Sığortaçılar potensial riskləri və onların baş vermə ehtimalını yaxşı bilirlər. Buna görə də, hər bir şəxsin ödəməli olduğu sığorta məbləğini hesablaya bilirlər ki, toplanan məbləğ baş verəcək zərərləri ödəmək üçün kifayət etsin. Aydındır ki, özlərini sığortalayanların yalnız az bir qisminə toplanan məbləğin geri qaytarılması lazım olur. Müvafiq olaraq, sığorta üçün müraciət edən hər bir şəxsə sığorta haqlarının miqdarı iki vacib amilə görə hesablanır: birincisi, ümumiyyətlə gələcəkdə zərər vurmanın məbləğini aydınlaşdırmaq üçün, ikincisi, sığortaçı üçün qəza ehtimalının orta riskdən az-çox olduğu halda. Ən sadə tərifdə sığorta baş verə biləcək riski ötürmək üçün etibarlı bir vasitədir.

İran Sığorta Qanununun 1-ci maddəsində deyilir ki, sığorta, bir tərəfin (sığortaçı) qəza zamanı digər tərəfə (sığortalı) dəymiş ziyanı

ödəməyi və ya müəyyən bir məbləği ödəməyi üzərinə götürdüyü bir öhdəlikdir. Öhdəlik qəbul edən sığortaçıdır, öhdəliyin tərəfi sığortalıdır və sığortalının sığortaçıya ödədiyi məbləğ isə sığorta haqqı adlanır, Sığorta fəaliyyətinin iki əsas-qrupu sosial sığorta və kommersiya sığortası olan müxtəlif növləri vardır [11]. Kommersiya sığortası üç əsas qrupa bölünür: əmlak, şəxs və məsuliyyət sığortası. Turizm sektorunda tələb olunan əsas sığorta şəxsi və tibb sahələrindədir. Hal-hazırda turisti mümkün kompensasiya ilə təmin etmənin ən etibarlı yolu qəza sığortası, sərnişin sağlamlığı sığortası, habelə səyahət sığortasıdır.

Ən çox turistə ev sahibliyi edən Avropa və Şərqi Asiya ölkələri bu sənayedə çox inkişaf etmişlər. İranda turizm sənayesi yeni formalaşan bir sahə olduğundan, turizm sığortası hələ də bu sənayedə öz yerini tapmayıb. 2007-ci ilin dekabrında təsdiq edilmiş Dördüncü Plan Qanununun 91-ci İcra Əsasnaməsinin 1-ci maddəsinin J bəndində xarici vətəndaşlar üçün sığorta polisi aşağıdakı kimi müəyyən edilmişdir:

Xarici milli sığorta xarici vətəndaşların İran İslam Respublikası Hökuməti tərəfindən təsdiq edilmiş İran və ya xarici sığorta təşkilatlarından biri ilə bağladıqları sığorta müqaviləsinə əsaslanır. Yuxarıda göstərilən əsasnamənin 13-cü və 14-cü maddələrində bu qanunun təlimatlarına riayət etmək üçün məsul təşkilatlar olaraq Mədəni İrs, Turizm və Əl İşləri Təşkilatı göstərilmişdir və bu təşkilat isə fəaliyyət göstərən sığorta şirkətlərinə bu tənzimləməni tətbiq etmək üçün çağırış göndərmiş və hər birinin sığorta payını təklif etmişdir. Sözügedən təşkilatın hərəkətlərində xəstəliklərin bir hissəsinin xərcləri, təbii və gözlənilməz fəlakətlərin bir hissəsinin təmin edilməsi xərcləri nəzərə alınmışdır. Bu baxımdan, turistlərə sığorta xidməti göstərmə üsulu, turistlərin hüquqlarının təmin edilməsi məqsədi ilə Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatı tərəfindən hazırlanaraq ölkənin bütün əyalətlərinə çatdırılmışdır. İranın Mərkəzi Sığortası və Sığorta Təşkilatının Qanununun (1970-ci ildə təsdiqlənmiş) 5-ci maddəsinin 1-ci bəndinə əsasən, Mərkəzi Sığorta ölkədə sığorta şirkətlərinə rəhbərlik və nəzarət etməkdə məsuldur. İran İslam Respublikasının İqtisadi, Sosial və Mədəni İnkişafının Dördüncü İnkişaf Planı Qanununun 7-ci Fəslinin 91-ci maddəsinin d bəndində bütün xarici vətəndaşların ölkəyə girən kimi sığortalanması və ya tibbi sığortaya məcburi sığortalanması nəzərdə tutulmuşdur. İranda Hökumətin sosial komissiyası tərəfindən təsdiqlənən və elan edilən sözügedən maddənin qaydalarına görə, İrana daxil olan hər bir xarici səyahətçinin tibbi sığortası olmalıdır. Xarici bir vətəndaşın daxili sığorta təşkilatları tərəfindən qəbul edilən sığortası varsa, həmin sığorta polisini təqdim edə bilər, əks halda İranda sığortalanmalıdır. Rezident əcnəbilər Daxili İşlər Nazirliyi və ya Xarici İşlər Nazirliyi tərəfindən yerli sığorta təşkilatlarından birinə tanıdılaraq sığortalanırlar. Həmin şəxslərin İran vətəndaşları ilə fərqi bundan ibarətdir ki, onun bütün sığorta haqqı özü tərəfindən sığortaçıya ödənilir və dövlət heç bir pay onun tərəfindən dərman üçün ödəmir. İnkişaf etmiş ölkələrdən gələn xarici turistlər öz mədəniyyətlərinə və sığortaya inamlarına görə səyahətlərini könüllü və heç bir öhdəlik olmadan sığortalayırlar. İrana gələn turistlərin əksəriyyəti BƏƏ, Bəhreyn, Tacikistan, Azərbaycan, İraq, Əfqanıstan, Pakistan kimi qonşu ölkələrdən və Mərkəzi, Uzaq Asiyanın bəzi ölkələrindən gələn turistlərdir. İranda bu sahədə mövcud olan sığortalar aşağıda sadalanır:

**Səyahət sağlamlıq sığortası və onun əhatə etdiyi risklər.**

Səyahət sağlamlıq sığortası sığorta şirkətlərinin təklif etdiyi sağlamlıq sığortası növlərindən biridir. Bu sığorta növünə daxildir:

1. İrana daxil olmaq üçün müraciət edən xarici vətəndaşlar üçün səyahət sığortası
2. Ölkəni tərk etmək üçün sərnişin sığortası.

77 saylı Nizamnaməyə və onun əlavəsinə (1/77 qaydalarına) əsasən, İran İslam Respublikası ərazisinə daxil olmaq üçün müraciət edən xarici vətəndaşların səyahət sığortasının şərtləri Ali Sığorta Şurası tərəfindən təsdiq edilmişdir. Ölkəni tərk etməyə gedən həmvətənlərin səyahət sığortası ilə əlaqədar olaraq Ali Sığorta Şurası tərəfindən təsdiq edilmiş heç bir şərt yoxdur və yerli sığorta şirkətlərinin hər biri şərtləri ayrıca təyin edir. Səyahət sağlamlıq sığortasının ən vacib cəhətlərini üç xüsusi hissəyə bölmək olar:

**A) Şəxsi əhatə və faydalar:**

- Müalicə və xəstəxanaya yerləşdirmə xərcləri;

- Sığortalıların xəstəlik və ya qəza səbəbi ilə səyahət zamanı ölkəyə köçürülməsi və ya geri qaytarılması;
- Təcili diş və stomatologiya xərci;
- Sığortalı ilə ailə üzvlərinin dərhal ölkəyə qayıtması;
- Mərhumun cəsədinin qaytarılması;
- Ailə üzvlərindən birinin təcili səfəri;
- Yaxın bir ailə üzvünün ölümü səbəbindən təcili olaraq ölkəyə qayıtması;
- Dərman çatdırılması;
- Fövqəladə hallarda tibb orqanlarına mesaj və məlumat göndərilməsi;
- Zəmanətli pul köçürmələri;
- Xaricdə pasport, sürücülük vəsiqəsi və şəxsiyyət vəsiqəsinin itirilməsi;

**B) Sərnişinə aid olan (yük) - buraya daxildir:**

- Təyyarəyə çatdırılan yükün itməsi üçün kompensasiya.
- Yükün sərnişinlə gəlməsini gecikdirmək üçün kompensasiya.
- Şəxsi yük və ləvazimatların tapılıb göndərilməsi.

**C) Gedişin gecikdirilməsi - buraya aşağıdakılar daxildir:**

Sığortalının istifadə etdiyi ümumi nəqliyyat vasitəsinin ən azı 6 saat gecikmə halında, müvafiq hesab -fakturaların əsl nüsxəsi təqdim edilmək şərti ilə ictimai və şəxsi şərtlərdə göstərilən məbləğlər daxilində çəkilmiş əlavə xərclər ( şərtlərə riayət etməklə).

**Dünyada və İranda səyahət sağlamlıq sığortası sahəsində mövcud vəziyyətin problemlərinin səbəblərini araşdıraq.**

Əlbəttə ki, dünyada və İranda Covid-19 xəstəliyinin yayılmasında turizm sənayesinə və dolayısı ilə səyahət sağlamlıq sığortasına ən böyük ziyan 2020-ci ilin yanvar ayının sonlarında başlayan qlobal Covid-19 pandemiyasına görə beynəlxalq maliyyə bazarlarında, xüsusən də böyük hava yolları, nəqliyyat və turizm şirkətlərinin səhmlərində baş verməsidir. Ölkələr tərəfindən 2020 və 2021-ci illərdə elan edilən beynəlxalq tədbirlərin, müəssisə və təşkilatların fəaliyyətlərinin məhdudlaşdırılması, vizaların ləğv edilməsi, səyahət tələbinin kəskin azalması səbəbindən uçuş tələbatının aşağı düşməsi turizm sənayesinin gəlirlərini 2019-cu ilə nisbətən orta hesabla 44% azaltmışdır. Bu məlumat Beynəlxalq Hava Nəqliyyatı Birliyi (IATA) [12] tərəfindən açıqlanmışdır [13]. Bu, turizm sənayesinə və dolayısı ilə səyahət sığortası sahəsində dünya sığorta sənayesinə ən böyük mənfi təsirini göstərmişdir. Səyahətlərin tibbi sığortası sahəsində sığorta şirkətləri (o cümlədən AXA, AIG AIA, Allianz Travel) tərəfindən açıqlanan statistik məlumatlar, sığorta polislərinin buraxılışının azaldığını və həmçinin bu sığorta polislərində əhatəyə yanaşmanın dəyişdiyini göstərir. Məsələn, AXA şirkəti, 27 Yanvar 2020-ci il tarixdən sonra alınan sığorta polisində Covid-19-u əhatə etmir. İranda da sığorta şirkətlərinin məlumatlarına görə, Mərkəzi Sığortanın elanına əsasən, son iki ildə və Covid-19 pandemiyasından sonra fiziki şəxslərin səyahət tələbatının azalması səbəbindən bu sığorta polisinin verilməsində əhəmiyyətli dərəcədə azalma olduğunu göstərir. Ancaq qeyd etmək lazımdır ki, bu fenomenin potensial təsirinin qiymətləndirilməsi məlumatların təhlili üçün daha çox vaxt tələb edir.

Dünyada, o cümlədən İranda sığorta şirkətləri tərəfindən sığorta polisinin satışını dayandırmaqla yanaşı, mövcud vəziyyətdə səyahət sığortasındakı digər məsələlər də bu sığorta polisinin əhatə dairəsini nəzərdən keçirmək üçün sığorta bazarının yanaşmasını və onun şərtlərini dəyişə bilər. Məsələn, beynəlxalq sığorta şirkətləri tərəfindən "hər hansı bir səbəbdən səyahətin ləğvi"(bu sığorta İranda təmin edilmir və bəzən sığorta şirkətləri tərəfindən səyahətin dayandırılması sığortası və səyahətin gecikməsi sığortası başlığı altında təklif olunur) sığortanın satışını dayandırması kimi qeyd edə bilər.

Həmçinin, bu sığorta növü üçün müraciət edən kanallardakı dəyişikliklər mövcüd şərtlərə uyğun olaraq elektronlaşmaya doğru sürətləndi. O cümlədən, bəzi ölkələrdə hərtərəfli peyvənd proqramının həyata keçirilməsi ilə Covid-19-un ağır mərhələsinin çəkilməsi, bu sığorta növünün tədarükçüsü və təminatçısının coğrafiyasında dəyişikliyə səbəb olmuşdur. Belə ki, yoluxma nisbətinin azaldığı və ya sıfıra endirildiyi ölkələrdə səyahət tələbinə və bununla bağlı səyahət sığortasına meyil artmışdır.

**Nəticələrin təhlili və həll yollarının təqdimatı:**

Yerli sığorta şirkətlərindəki problemlərin səbəbi və şərtləri, habelə sanksiyalardan təsirlənən hökumətlər və təşkilatlar arasındakı əlaqələri tənzimləyən beynəlxalq şərtləri nəzərə alaraq, səyahət sağlamlıq sığortasını genişləndirmək üçün bəzi strategiyaları ifadə etmək mümkündür. Bunlardan ən əhəmiyyətlisi bunlardır:

1. 77-ci qaydanın və tamamlayıcısının şərtlərinə günün tələblərinə uyğun olaraq yenidən baxılması.

2. Ölkəni tərk etmək üçün müraciət edən həmvətənlər üçün xüsusi səyahət qaydalarının tərtib edilməsi və təqdimatı.

3. Mərkəzi Sığorta və Sığortaçılar Sindikatının potensialını artıran görkəmli regional və beynəlxalq səyahət sığorta şirkəti ilə konstruktiv qarşılıqlı əlaqə yaratmaq.

4. Sığorta şirkətləri arasında səyahət sağlamlıq sığortası sektorunda mərkəzi sığortanın nəzarəti altında sığortaçılar, maraqlı tərəflər və s. daxil olmaqla ortaq bir məlumat sisteminin yaradılması.

5. Mərkəzi Sığorta və Sığortaçılar Birliyi ilə birlikdə sığorta şirkətləri arasında bütün səyahət sağlamlıq sığortası proseslərinin rəqəmsallaşdırılmasına kömək etmək.

6. Turizm sahəsində yeni bir sığorta siyasəti hazırlamaq və yaratmaq üçün Mərkəzi Sığorta ilə Sığortaçılar Sindikatı arasında Mədəni İrs, Turizm və Əl İşləri Nazirliyi ilə daha çox qarşılıqlı əlaqə.

## ƏDƏBİYYAT SİYAHISI:

1. World Economıc Fourm – a 2020

2. Mədəni İrs, Turizm və Əl İşləri Nazirliyinin veb saytı

3. Mills, E. (2009). A global review of insurance industry responses to climate change. *The Geneva Papers on Risk and Insurance-Issues and Practice*, 34(3), 323-359.

4. Bramwell B., Higham J., Lane B., & Miller G. (2017). Twenty-five years of sustainable tourism and the Journal of Sustainable Tourism: looking back and moving forward.vol. 25, pp. 1-9

5. Badin və digərləri, 2014, Sığorta Şirkətlərində Marketinq İdarəçiliyinin Konsep-tual Modeli, 21-ci əsrdə Birinci Beynəlxalq İdarəetmə Konfransı, Tehran

6. Mills, E. (2009). A global review of insurance industry responses to climate change. *The Geneva Papers on Risk and Insurance-Issues and Practice*, 34(3), 323-359.

7. Naderi və s. 2013, Abyaneh Kəndində Turizm Təsirlərinin Analizi SWOT Texnikası, Coğrafiya Araşdırması jurnalı.

8. Andriotis, K., & Vaughan, R. D. (2003). Urban residents' attitudes toward tourism development: The case of Crete. *Journal of travel research*, 42(2), 172-185.

9. Wong, K. M., Velasamy, P., & Arshad, T. N. T. (2014). Medical tourism destination SWOT analysis: A case study of Malaysia, Thailand, Singapore and India. In SHS Web of Conferences (Vol. 12, p. 01037). EDP Sciences.

10. Vanhove, N. (2017). *The Economics of Tourism Destinations: Theory and Practice*. Routledge.

11. Rahmati və digərləri, 2015, Sığortanın prinsipləri və ümumi cəhətləri, Farhang Gostaresh Ketab Nəşrləri, Tehran.

12. The International Air Transport Association

13. IATA,2020. Deeper Revenue Hit from COVID-19 S. :.iata .Insuremytrip 2020 (Online)

**Масоуд Бадин,**
Докторант Института экономики
Азербайджанской Национальной Академии Наук

## ИССЛЕДОВАНИЕ И ОПТИМАЛЬНЫЕ РЕШЕНИЯ ПРОБЛЕМ СТРАХОВАНИЯ ПУТЕШЕСТВИЙ В ИСЛАМСКОЙ РЕСПУБЛИКЕ

**Резюме**

*Цель исследования* - В настоящее время индустрия туризма и смежные отрасли, в том числе Иран, признаны одной из основных основ экономики во всех странах мира.Целью исследования является разработка новых научных подходов в направление совершенствования системы страхования путешествий.

*Методология исследования.* В статье исследована роль индустрии туризма и его взаимодействие со страховой отраслью Ирана, использованы сравнительный анализ, логическое обобщение, системный подход, методы анализа и синтеза.

*Прикладная значимость исследования* – выдвинутые автором предложения и рекомендации могут помочь в решении проблем туристического страхования в Исламской Республике Иран.

*Результаты исследования* – анализ проблем в местных страховых компаниях Ирана, а также разработка мер по регулированию отношений между организациями, пострадавшими от санкций, разработка некоторых стратегий по расширению туристического медицинского страхования.

Оригинальность и научная новизна исследования - Новые научные подходы, выдвинутые автором в данном направлении, отличаются своей оригинальностью и направлены на повышение эффективности туристического страхования.

**Ключевые слова:** *индустрия туризма, страховая отрасль, туристическое медицинское страхование, туристический потенциал, страховые компании, страховой полис.*

**Masoud BADİN,**
Doctoral student of the Institute of Economics
Azerbaijan National Academy of Science

## INVESTİGATİON AND OPTİMAL SOLUTİONS OF THE PROBLEMS OF TRAVEL İNSURANCE İN THE ISLAMİC REPUBLİC

**Summary**

The purpose of the research - At present, the tourism industry and related industries, including Iran, are recognized as one of the main foundations of the economy in all countries of the world. The purpose of the research is to develop new scientific approaches in the direction of improving the travel insurance system.

Methodology of the research - In the article, the role of the tourism industry and its interactions with the Iranian insurance industry were investigated, comparative analysis, logical generalization, systematic approach, analysis and synthesis methods were used.

The applied importance of the study - the suggestions and recommendations put forward by the author can help to solve the problems of travel insurance in the Islamic Republic of Iran.

Results of the study – analysis of problems in local insurance companies in Iran, as well as development of measures to regulate relations between organizations affected by sanctions, development of some strategies to expand travel health insurance.

Originality and scientific novelty of the research - The new scientific approaches put forward by the author in this direction differ in their originality and are aimed at increasing the effectiveness of travel insurance.

**Keywords:** *tourism industry, insurance industry, travel health insurance, tourism potential, insurance companies, insurance policy*

Elmi rəhbər: **Elçin Arif oğlu SALAHOV dos.**
E-mail: elchinsalaho@mail.ru

**Sahil Vidadi oğlu MƏMMƏDOV**
Azərbaycan Dövlət Aqrar Universitetinin Magistrantı
E-mail: sahil.mammadov15@gmail.com

# VERGİ İNZİBATÇILIĞININ RƏQƏMSALLAŞDIRILMASI

**Xülasə**

Informasiya texnologiyalarının dünyada baş verən dinamik inkişafı iqtisadiyyatda və dövlət idarəetməsində mövcud münasibətləri dəyişir. Yeni virtual biznes modelləri meydana gəlir, müasir texnoloji qərarlara əsaslanan startaplar yaradılır. Yeni biznesin inkişafını izləyən vergi sistemləri də transformasiyaya uğrayır, yenilənir və dünya standartlarına uyğunlaşdırılır. Belə şəraitdə qüvvədə olan vergi inzibatçılığının rəqəmsal iqtisadiyyatın xüsusiyyətlərinə uyğunlaşması böyük önəm kəsb edir. Məqalədə vergi inzibatçılığının rəqəmsallaşdırılması məsələlərinə baxılır. Vergi inzibatçılığında rəqəmsallaşdırmanın hansı metod və təhlillərə əsaslanaraq həyata keçirilməsinə önəm verilir. Baxılan mövzunun aktuallığı iqtisadiyyatın rəqəmsal transformasiyası prosesində vergitutma üçün yaranan çağırışların və perspektivlərin yüksək əhəmiyyətliliyi ilə şərtlənir. Ölkənin sosial-iqtisadi inkişafında və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında vergilərin mühüm rolunu nəzərə alaraq, onların vaxtında və tam ödənilməsini təmin etmək, vergi bazasını genişləndirmək, vergi ödəyicilərinə xidmət işini beynəlxalq standartlara uyğunlaşdırmaq və vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətləri daha da təkmilləşdirmək kimi mühüm məsələlər ön plana çəkilir.

**Açar sözlər:** *vergi inzibatçılığı, rəqəmsal iqtisadiyyat, rəqəmsallaşma, informasiya kommunikasiya texnologiyaları (İKT), internet, biznes, vergi deklarasiyası.*

**UOT** 330.35
**JEL:** E62

## Giriş

Hal-hazırda kommunikasiya texnologiyaları sosial sferaya əhəmiyyətli dərəcədə təsir edir. Bunun isə öz növbəsində iqtisadi inkişafa güclü təsiri var. Müasir iqtisadi inkişafda müşahidə olunan əsas meyillər: internet şəbəkədə sürətlə inkişaf edən biznes-proseslər; qlobal maliyyə-məlumat mərkəzlərinin və dünya mobil kommunikasiya şəbəkələrinin formalaşdırılması. Bunlar hamısı iqtisadi proseslərə güclü təsir edir və beynəlxalq rəqəmsal iqtisadiyyat formalaşır.

Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində ölkələrarası rəqabət daha da artmışdır. Perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə səciyyəvi olacaqdır. Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir [1].

Rəqəmsal iqtisadiyyat (digital economy) termini ilk dəfə 1995-ci ildə amerikalı alim Nikolas Neqropont tərəfindən işlədilmişdir. Dünya təcrübəsində internet-platformalar və mobil şəbəkələr vasitəsilə həyata keçirilən sosial və iqtisadi tədbirlərin qlobal şəbəkəsi rəqəmsal iqtisadiyyat adlanır.

Rəqəmsal iqtisadiyyatın müvəffəqiyyətlə fəaliyyət göstərməsi üçün üç şərtin olması zəruridir: 1) internet infrastrukturunun olması və ona çıxışın əlçatanlığının təmin edilməsi, proqram təminatının və telekommunikasiyaların olması; 2) elektron biznesin olması, təsərrüfat fəaliyyətinin kompüter şəbəkəsi vasitəsilə həyata keçirilməsi; 3) elektron kommersiyanın olması, yəni əmtəə və xidmətlərin internet şəbəkəsi vasitəsilə satılması [2].

Rəqəmsal iqtisadiyyatda institusional və infrastruktur xarakterli yenilənmənin əsas şərtləri məlumat mühitinin yaradılması, platforma və texnologiyaların inkişaf etdirilməsi, bazar subyektlərinin fəaliyyət sahələrinin səmərəli sahələrarası qarşılıqlı əlaqələrinin təmin edilməsindən ibarətdir.

Yeni növ qeyri-maddi nemətlərə əsaslanan rəqəmsal iqtisadiyyatın aşağıdakı əlamətləri var: biznes proseslərinə böyük həcmdə məlumatların daxil edilməsi (Big Date); yeni formatda olan çox sayda biznes-modellərdən istifadə edilməsi; gəlirlərin hardan əmələ gəldiyini müəyyən etməyin çətin olması.

Yeni yaranan rəqəmsal iqtisadiyyatın üstünlüklərinə aşağıdakıları aid etmək olar: iştirakçılar arasında iqtisadi prosesləri sadə və şəffaf idarə etməyə imkan verən qarşılıqlı əlaqələrin sadə və sürətli olması; bu cür iqtisadiyyat beynəlxalq səviyyədə kifayət qədər asan inkişaf edə bilər, müxtəlif dövlət proseslərinə problemsiz inteqrasiya edə bilər. Bu zaman iqtisadiyyatın rəqəmsallaşdırılması prosesləri keyfiyyət baxımından yeni formatda yaranan biznes modellərlə bağlı vergi inzibatçılığına da yeni yanaşmaların olmasını tələb edir.

Vergi inzibatçılığı vasitəsilə vergi münasibətləri tənzimlənir, vergi ödəyiciləri və vergi inzibatçılığı orqanları arasında qarşılıqlı əlaqələr prosesində yaranan aktual məsələlər həll edilir. Institusional nəzəriyyə vergi inzibatçılığına vergi münasibətlərində vergi ödəyiciləri və vergi inzibatçılığı orqanları arasında qarşılıqlı əlaqələr prosesi, dövlət siyasəti, müvafiq orqanların səlahiyyətləri və vergi sisteminin tənzimlənməsi mexanizmindən formalaşan çoxtərəfli mürəkkəb institut kimi baxır. Rəqəmsal iqtisadiyyat şəraitində vergi inzibatçılığı prosesinə yeni informasiya texnologiyalarının tətbiq edilməsi imkanı yaranır ki, bu da onun keyfiyyətini yaxşılaşdırır və səmərəliliyini yüksəldir. Rəqəmsal mühit şəraitində vergi orqanlarında müasir informasiya texnologiyalarının istifadə edilməsi vergi ödəyicilərinin vergi qanunvericiliyinə əməl etməməsi risklərinin minimallaşdırılmasına, vergi inzibatçılığının səmərəliliyinin maksimallaşdırılmasına və vergi uyğunluğunun 100% yaxınlaşdırılmasına səbəb ola bilər [3].

*Tətqiqatın məqsədi*: Müasir iqtisadi cəmiyyətdə vergi inzibatçılığının düzgün təşkili və rəqəmsallaşdırmanın düzgün yerinə yetirilməsi, həmçinin rəqəmsal iqtisadiyyatın üstünlüklərini araşdırmaq, vergi inzibatçılığının rəqəmsallaşdırılması istiqamətlərini göstərmək və Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi ölkədə vergi sistemini beynəlxalq standartlara uyğunlaşdırmaqla bu sahədə səmərəli inzibatçılığın yaradılmasına nail olmaqdan və ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə təkan verən vergi daxilolmalarının müntəzəm artmasını təmin etməkdən ibarətdir.

Tədqiqat zamanı dünya təcrübəsində istifadə olunan yeni texnologiya üsulları, milli vergi inzibatçılığının dünya vergi sisteminə inteqrasiya metodlarından, həmçinin təhlil, müqayisə, statistik tədqiqat metodlarından istifadə edilmişdir.

Beynəlxalq təcrübəni nəzərə alaraq müasir rəqəmsal texnologiyaların tətbiqi əsasında vergi inzibatçılığının inkişaf etdirilməsinin yeni istiqamətlərinin potensial imkanları vardır. Burada Big Data texnologiyalarının, habelə smart-portallar və təbii sistemlərin (Smart Portal Solutions & Natural Systems) tətbiqinə daha çox diqqət yetirilir. Həmin texnologiyalar vergi sahəsində riskmenecmentin səmərəliliyinin, əməliyyatların şəffaflığının artmasına və vergi qanunvericiliyinə riayət olunmasının vergi ödəyiciləri üçün rahat və asan olmasına zəmin yaradacaq. Müasir informasiya texnologiyalarından istifadə bir çox məsələləri həll edir və vergi inzibatçılığı paradiqmasını kökündən dəyişməyə imkan verir. Bu prosesin əsas üstünlüklərinə vergi inzibatçılığına çəkilən xərclərin azaldılmasını; vergidən yayınma sxemlərinin aşkar edilməsinin tezləşdirilməsini və vergi öhdəliklərinin minimallaşdırılmasını; vergi ödəyicilərinin üzərinə düşən inzibati yükün və inzibati maneələrin azaldılmasını; vergi yoxlamalarının uyğunluq risklərinin azaldılmasını; biznes və vergi inzibatçılığı coğrafiyasının genişləndirilməsini aid etmək olar.

Rəqəmsal iqtisadiyyatın sürətlə inkişaf etməsinə baxmayaraq, vergi prosesinə yeni informasiya texnologiyalarının tətbiq edilməsi dünyada bir çox ölkələrdə çox ləng gedir. Bu isə onların üstünlüklərindən vergi inzibatçılığında tam istifadə etməyə mane olur. "Digital Evolution Index" tədqiqatlarına görə dünya rəqəmsal iqtisadiyyatı reytinqində ilk onluğa inkişaf etmiş ölkələr Norvec, İsvec, İsveçrə, Almaniya, Finlandiya, Sinqapur, Cənubi Koreya, Honkonq, Böyük Britaniya və ABŞ daxildir. Rəqəmsal texnologiyaların tətbiqinin bir çox üstünlüklərinin olmasına baxmayaraq, yeni biznes modellərinin meydana çıxması vergi inzibatçılığı prosesində müəyyən çətinliklər əmələ gətirir. Problemlərdən biri rəqəmsal iqtisadiyyat şəraitində beynəlxalq vergilərdə yeni obyektlərin yaranması ilə bağlıdır. Rəqəmsal texnologiyaların tətbiqi zamanı

ölkələrin çoxunun vergi sistemləri belə bir problemlə qarşılaşır ki, şirkətlərin rəqəmsal kommersiya əməliyyatları artır, lakin vergi yükü olduğu kimi qalır. Beynəlxalq vergitutmada bu problem ilk növbədə ƏDV-nin inzibatçılığında mövcud olan çətinliklərlə bağlıdır. Çünki, ƏDV "təyinat ölkəsi" prinsipinə əsaslanır, xidmətin alıcısının yerini isə dəqiq müəyyənləşdirmək mümkün deyil. Məsələn, əqdlərin bağlanmasını, ödənişlərin edilməsini və s. sürətləndirən personal devaysların (telefon, planşet, noutbuk və s.) istifadəsi zamanı istifadəçilərin və biznes funksiyaların mobilliyi ilə bağlı xidmətin istehlakçısını müəyyən etmək çətindir. Rəqəmsallaşma şəraitində vergi ödəyicilərinin və vergi agentlərinin biznesin aparılmasına əlavə xərcləri yaranır, çünki, yeni İT texnologiyalarının istifadəsinə xərcləri (müasir devaysların alınması, kassa avadanlığının internetə qoşulması və s.) artır. Göstərilən xərclərdən başqa yeni texnologiyaların tətbiqi işçilərin maarifləndirilməsini, öyrədilməsini, xüsusi təşkilatlarla müqavilələrin bağlanmasını tələb edir ki, bunlar da əlavə xərclərə səbəb olur. Digər vacib problemlərdən biri də ondan ibarətdir ki, yeni informasiya texnologiyalarının (İT) vergi inzibatçılığı prosesinə tətbiqi vergi ödəyicilərinin məlumat baxımından təhlükəsizliyinə və dövlətin vergi təhlükəsizliyinə təsir edən amillərdən biri olan yeni vergi risklərinin yaranmasını şərtləndirir. Çox vaxt vergi risklərinin yaranması vergi qanunvericiliyində olan problemlərlə və ya hüquqi normaların keyfiyyətsiz izahı, qeyri-leqal vergi sxemlərinin istifadəsi, səmərəsiz vergi siyasətinin həyata keçirilməsi və s. ilə şərtlənir. Qeyd olunan səbəblər nəticəsində ənənəvi olaraq vergi daxilolmaları azalır [4]. Nəticədə ölkənin və onun subyektlərinin vergi təhlükəsizliyinə xələl gəlir.

Vergi inzibatçılığının rəqəmsallaşdırılmasının yaratdığı problemlərlə yanaşı açdığı geniş perspektivlərini də göstərmək olar. Bunlara dövlətin müxtəlif idarəetmə orqanlarının istifadə etdiyi informasiya sistemlərinin unifikasiyasını; vergi və yığımlar üzrə dövlət xidmətlərinin əlçatan və rahat rəqəmsal servislərinin olmasını; vergi inzibatçılığının səmərəliliyini yüksəldən və istehsalçıların əmtəələrin irəlilədilməsinə nəzarətlə bağlı çəkdiyi xərclərini azaldan blokçeyn texnologiyaların və smart-müqavilələrin tətbiqini; vergi nizam-intizamının yüksəldilməsini; kölgə iqtisadiyyatı və verginin ödənilməsindən yayınmalarla mübarizənin güclənməsini; vergi nəzarətinin səmərəliliyinin və şəffaflığının yüksəlməsini; vergitutmada struktur dəyişiklilklərini aid etmək olar. [5]

Bütün dünyada olduğu kimi, Azərbaycanda da rəqəmsal texnologiyaların vergi inzibatçılığında tətbiqinə boyük önəm verilir və bu məsələlərlə bağlı dünya forumlarında ölkə nümayəndələri iştirak edirlər. Ötən il Avropadaxili vergi inzibatçılığı təşkilatının (IOTA), vergi inzibatçılığının Amerikaarası mərkəzinin (CIAT) və Portuqaliyanın vergi və gömrük orqanının təşkilatçılığı ilə Lissabonda "elektron iqtisadiyyat" üzrə Vergi Sammiti keçirilmişdir. Burada Avropa, Amerika, Asiya və Afrika ölkələrindən olan 76 vergi orqanı və 26 digər təşkilatlar ilə yanaşı Azərbaycanın nümayəndələri də iştirak etmişdir. Sammit rəqəmsal iqtisadiyyatın vergi aspektlərinə və bu sahədə yeniliklərə həsr edilmişdir.

Bizim ölkədə vergi deklarassiyaları elektron formada həyata keçirilir, elektron vergi hesab-fakturası tətbiq olunur, habelə vergi ödəyicilərinə elektron xidmətlər göstərilir.

Bu gün rəqəmsal iqtisadiyyat iştirakçılarının vergi məsuliyyəti ənənəvi iqtisadiyyatda olduğundan xeyli aşağıdır. Bu səbəbdən də vergi inzibatçılığının gələcək on ildə qarşısında duran əsas vəzifələrdən biri vergi siyasətinin düzgün formalaşdırılmasıdır. Vergi siyasəti rəqəmsal iqtisadiyyatda baş verən dəyişikliklərə uyğunlaşdırılmalıdır.

Vergi risklərini azaltmaq və dövlətin vergi təhlükəsizliyini təmin etmək üçün hökümət vergi qanunvericiliyində qeyri-aydınlıqları, qeyri-dəqiqliyi və ziddiyyətləri aradan qaldırmağa və ya minimuma endirməyə yönəldilən tədbirləri həyata keçirməli; qanunvericilik aktlarına edilən dəyişikliklərin ekspertizadan keçirməsini təmin etməli; dəyişikliklərin təsərrüfat subyektlərinin fəaliyyətinə və vergi yükünün kəmiyyətinə təsirini qiymətləndirməlidir.

Azərbaycan Respublikasında vergi inzibatçılığının rəqəmsallaşdırılmasına xüsusi diqqət yetirilir, burada müasir rəqəmsal alətlər və analitik potensial vardır. Bu rəqəmsal texnologiyaların vergi inzibatçılığına tətbiqini genişləndirməyə imkan verəcəkdir. Son illər ölkədə vergi ödəyicilərinin əməliyyatları üzrə risklərin müəyyən edilməsinə və təhlilinə imkan verən rəqəmsal alətlərdən istifadə edilir.

Vergi sistemində işin səmərəliliyinin artırılmasına imkan verən və vergi ödəyiciləri ilə qarşılıqlı əlaqəsini daha rahat edən yeni innovativ texnoloji elementlər daxil edilmişdir. Onlar məlumat şəffaflığını artırır, servis imkanlarını təkmilləşdirir və vergi orqanlarının qismində dövlətin vətəndaşlarla dialoqunu asanlaşdırır.

Rəqəmsal iqtisadiyyat verginin rəqibi deyil, partnyoru olmalıdır və vergi inzibatçılığı və vergi orqanlarının tənzimləyici rolu bu prosesin vacib elementi olmalıdır. Vergilərin ucotu və nəzarətin rəqəmsallaşdırılması vergi sisteminin inkişafının prioriteti olmalıdır.

Vergi inzibatçılığı dövlət idarəçiliyi sisteminin vacib həlqəsidir. Onun nəticəli fəaliyyəti ölkənin iqtisadi təhlükəsizliyini, sabitliyini möhkəmləndirir, sosial-iqtisadi layihələrin həyata keçirilməsinə və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə zəmin yaradır.

Rəqəmsal iqtisadiyyat dövründə iş gərək yeni mütərəqqi mexanizmlərin və vergi alətlərinin tətbiqi, milli vergi inzibatçılığının dünya vergi sisteminə inteqrasiyası hesabına qurulsun. Uçotun, vergi ödənişlərinə nəzarətin tam rəqəmsallaşdırılması, vergi öhdəliklərinə əməl edilməməsi risklərinin təhlilinin intellektual sisteminin tətbiqi vergi inzibatçılığının müasir İT-infrastrukturunun qurulmasını tamamlamağa imkan verir. Vergi ödəyiciləri ilə qarşılıqlı əlaqələrin elektronlaşdırılmasının inkişafı vergi inzibatçılığı proseslərinin maksimal dərəcədə avtomatlaşdırılmasına, inteqrasiya proseslərinin genişlənməsinə, beynəlxalq işgüzar əlaqələrin qurulmasına, ölkələr arasında ticarət münasibətlərinin sadələşdirilməsinə zəmin yaradacaqdır.

**Nəticə**

Vergi inzibatçılığının rəqəmsallaşdırılmasına mane olan problemlərdən biri də internet əlaqənin həmişə əlçatan olmadığı rayonlarda müasir texnologiyaların əlçatan olmaması, interprovayderlərlə və ixtisaslaşmış səlahiyyətli orqanlarla müqavilələrin bağlanması imkanının olmamasıdır. İnformasiya texnologiyalarının bütövlükdə inkişafı, pulsuz proqram təminatının, pulsuz xidmətlərin və vergitutmada hər bir vergi ödəyicisinin yeni İT-sistemlərdən və servislərdən təcrübədə istifadə edə biləcəyi "pilot proqramların" olması tətbiq olunan sistemlərin səmərəliliyinə əmin olmağa və onların işi ilə əlavə xərc çəkmədən tanış olmağa imkan verəcəkdir.

Azərbaycan Respublikasında vergi inzibatçılığının rəqəmsallaşdırılmasına xüsusi diqqət yetirilir, burada müasir rəqəmsal alətlər və analitik potensial vardır. Bu rəqəmsal texnologiyaların vergi inzibatçılığına tətbiqini genişləndirməyə imkan verəcəkdir. Son illər ölkədə vergi ödəyicilərinin əməliyyatları üzrə risklərin müəyyən edilməsinə və təhlilinə imkan verən rəqəmsal alətlərdən istifadə edilir. Ölkədə beynəlxalq təcrübəni nəzərə alaraq müasir rəqəmsal texnologiyaların tətbiqi əsasında vergi inzibatçılığının inkişaf etdirilməsinin yeni istiqamətlərinin potensial imkanları vardır.

Vergi inzibatçılığının səmərəliliyinin artırılmasında vergi auditi işinin təkmilləşdirilməsi və audit xidmətinin az riskli sistem kimi fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə vergi ödəyiciləri haqqında hüquqi və analitik məlumat bazasının vahid kompüter informasiya sisteminə inteqrasiyası, rəqəmsallaşdırma prosesinin surətləndirilməsi, səyyar vergi yoxlamaları üçün vergi ödəyicilərinin seçilməsi prosesinin avtomatlaşdırılması və yoxlamanın nəticələrinin xüsusi meyar əsasında qiymətləndirilməsi nəzərdə tutulur.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bakı şəhəri, 2 fevral 2021-ci il.

2. Челышева Э.А. "Проблемы и перспективы совершенствования налогового регулирования". Научный вестник Южного института менеджмента. 2016, № 1. С. 33–39.

3. Петухова Р.А. "Развитие международного обмена налоговой информацией в процессе деофшоризации экономики". Промышленная политика в цифровой экономике: проблемы и перспективы (ЭКОПРОМ-2017)

4. Селюков М.В. "Исследование концептуальных положений налоговой политики как базового регулятора налогового механизма". Управленческий учет. 2017, № 4. С. 60–70

5. О.В. Кононенко. "Налогообложение в условиях цифровой экономики: вызовы и перспективы". Вестник института экономических исследований 2020, № 1(17)

**Елчин Ариф оглы САЛАХОВ,** доц.

**Мамедов Сахил Видади оглы**
Магистрант Азербайджанский Государственный Аграрный Университет

# ЦИФРОВИЗАЦИЯ НАЛОГОВОГО АДМИНИСТРИРОВАНИЯ

**Резюме**

Динамичное развитие мировых информационных технологий меняет существующие в экономике и государственном управлении отношения. Возникают новые виртуальные бизнес модели, создаются стартапы, опирающиеся на современные технологичные отношения. Трансформируются и налоговые системы, обслуживающие новый бизнес. В такой ситуации большое значение приобретает адаптация существующего налогового администрирования к особенностям цифровой экономики. В статье рассматриваются вопросы цифровизации налогового администрирования. Актуальность рассматриваемой темы обуславливается важностью возникающих в процессе цифровой трансформации экономики вызовов и перспектив для налогообложения. Принимая во внимание важную роль налогов в социально-экономическом развитии страны и улучшении условий жизни населения, решаются такие важные вопросы, как обеспечение их своевременной и полной уплаты, расширение налоговой базы, адаптация обслуживания налогоплательщиков к международным стандартам планируется дальнейшее совершенствование отношений между налоговыми органами и налогоплательщиками.

**Ключевые слова:** *налоговое администрирование, цифровая экономика, цифровизация, информационно-коммуникационные технологии (ИКТ), интернет, бизнес, налоговая декларация.*

**Elchin Arif SALAHOV,**
Assoc.prof.

**Sahil Vidadi MAMMADOV**
Azerbaijan State Agrarian University Magistrate

# DİGİTİZATİON OF TAX ADMİNİSTRATİON

**Summary**

The dynamic development of information technologies in the world is changing the current relations in the economy and public administration. New virtual business models are emerging, startups based on modern technological solutions are being created. Tax systems following the development of new businesses are also undergoing transformation. In such circumstances, it is of great importance that the existing tax administration adapts to the characteristics of the digital economy. The article considers issues of digitalization of tax administration. The relevance of the discussed topic is determined by the high importance of the implications and perspectives for taxation in the process of digital transformation of the economy. Taking into account the important role of taxes in the socio-economic development of the country and improving the living conditions of the population, important issues such as ensuring their timely and full payment, expanding the tax base, adapting the service to taxpayers to international standards and further improving the relations between tax authorities and taxpayers is planned.

**Keywords**: *tax administration, digital economy, digitization, information communication technologies (ICT), internet, business, tax declaration.*

**Elvin Vüqar oğlu ƏLİZADƏ**
Azərbaycan Texniki Universitetinin“ İqtisadiyyat və statistika” kafedrasının dissertantı
E-mail: elvin.alizade@hotmail.com

# RƏQƏMSAL MÜHİTDƏ TRANSAKSİYA XƏRCLƏRİNİN ÖLÇÜLMƏSİNİN METODİKİ ASPEKTLƏRİ

**Xülasə**

Məqalədə rəqəmsal texnologiyaların tətbiqiq şəraitində transaksiya xərclərinin kəmiyyətcə ölçülməsi məsələlərinə baxılmışdır. Sənayedə transaksiya xərclərinin kəmiyyətcə qiymətləndirilməsinin metodiki bazasının formalaşması prosesi tədqiq edilmişdir. Sahədə transaksiya xərclərinin rəqəmsallaşmanın indikatoru olmaq imkanlarına baxılmışdır. Rəqəmsal mühitdə transaksiya xərclərinin kəmiyyətcə ölçülməsinin metodiki təminatını müəyyən edən amillər aşkar edilmişdir. Transaksiya xərclərinin kəmiyyətcə ölçülməsi üsullarının təkmilləşdirilməsi zərurəti əsaslandırılmışdır. Sənayedə transaksiya xərclərinin kəmiyyətcə ölçülməsi metodikasının təkmilləşdirilməsinin bəzi istiqamətləri müəyyən olunmuşdur.

**Açar sözlər:** transaksiya xərcləri, metodika, ölçmə, kəmiyyətcə qiymətləndirmə, sənaye, rəqəmsal mühit, üsullar, natamam informasiya, unifikasiya, maya dəyəri.

**UOT** 385
**JEL:** A12

## Giriş

Rəqəmsal mühitdə, xüsusilə yüksək texnoloji sənaye sahələrində fəaliyyət və inkişaf üçün yüksək dinamizm xarakterikdir. Bunun ilkin səbəbi rəqəmsal mühitin məhz dinamik inkişafa xidmət etməklə, artan müxtəlifliyin koordinasiyası və idarə edilməsindən fayda götürmək üçün, artım iqtisadiyyatı dövründə çətin və ya bəzi hallarda qeyri-mümkün olan əlverişli imkanın yaradılmasıdır. Rəqəmsal mühitdə sənaye fəaliyyətində resurslara qənaətin səciyyələndirilməsində transaksiya xərclərinin təhlili nəticələrindən istifadə imkanları diqqətə layiq nəticələr verə bilər. Qeyd olunan və bir sıra digər səbəblərdən transaksiya xərclərinin dinamikasının rəqəmsallaşma proseslərinin indikatoru olmaq imkanlarının reallaşdırılmasının, haqqında danışılan xərclərin kəmiyyətcə ölçülməsinin metodiki məsələləri hazırda aktual hesab olunur.

## Sənayedə transaksiya xərclərinin qiymətləndirilməsinin metodiki bazasının formalaşması

Sənayedə mövcud təsərrüfatçılıq subyektlərinin fəaliyyət dairəsinin genişlənməsi və onlar arasında əlaqələrin artması şəraitində, haqqında danışılan subyektlərin fəaliyyətinin motivləşdirilməsi kreativ yanaşmalar tələb edir. İstehsal subyektləri arasında qarşılıqlı əlaqələrin məqbul səmərəliliyinin təmin edilməsi müasir iqtisadiyyatın tempi və proporsiyalarını şərtləndirən vacib amil kimi rəqəmsal texnologiyaların tətbiqi məsələlərini kifayət qədər aktuallaşdırır. Qeyd olunan baxımdan, aşağıdakı mövqe ilə razılaşmaq, zənnimizcə məqsədəuyğun sayıla bilər. “Müasir iqtisadiyyat müxtəlif növlü təsərrüfat subyektləri (təsərrüfat fəaliyyəti vahidlərinin) arasında sonsuz sayda qarşılıqlı təsirlərin üzərində qurulur. Bu münasibətlərin müxtəlifliyi, bir tərəfdən insan tərəfindən iqtisadi nemətlərə sonsuz tələbatlarla, digər tərəfdən onların ödənilməsinin sonsuz sayda variantları (üsulları) ilə müəyyən olunur” (1, s.27)

Sürətlə formalaşan və inkişaf edən rəqəmsal mühitdə transaksiya xərclərinin rolu və ona olan münasibətlər ciddi surətdə dəyişir. Ötən əsrin əvvəllərinə, yəni iqtisadi xərc hesab edilənə qədər transaksiya xərclərinin qiymətləndirilməsi prosesində, onların mahiyyətinə münasibətlərin fərqli və birmənalı olmadığı faktı etiraf olunurdu. İnstitusional iqtisadiyyatın banilərindən və görkəmli nümayəndələrindən biri olan R.Kouz transaksiya xərclərinin tərkibini dəqiqləşdirməklə, həmin xərcləri mahiyyətcə şərh etməyə uğurlu cəhd göstərmişdir. R.Kouzun yanaşmasına görə transaksiya xərcləri, ilk növbədə aşağıdakı xərc növləri hesabına formalaşır: informasiya axtarışı, yəni zəruri informasiyanın əldə edilməsi üçün çəkilən xərclər; potensial tərəf-müqabillərlə danışıqların aparılması və onlarla razılaşmaların əldə edilməsi, zəruri

müqavilələrin bağlanması xərcləri; əməli fəaliyyətə başlamaq üçün gözləmə və qiymətləndirmə xərcləri; mülkiyyət hüququnun qorunması xərcləri; qaşılıqlı fəaliyyət zamanı opportunist, başqa sözlə, tərəf-müqabil olan iqtisadi agentin öz məqsədinə çatmaq üçün etik qaydalara riayət etmədiyi davranış halında yaranan xərclər.

İntensivləşən təsərrüfatçılıq əlaqələri fəaliyyətin parametrlərinin korreksiyaya ehtiyacını artırır. Bu məqsədlə, rəqəmsallaşma şəraitində transaksiya xərclərinin təhlilinin əsas nəticələri istifadə edilə bilər. Sənaye sahələrində transaksiya xərclərinin mənbələrinin aşağıdakı kimi fərqləndirilməsi məqsədəuyğundur: "Kənar şəxslərin bu nemətdən istifadəsinə imkan verməmək xərcləri; sövdələşmənin baş tutması şərtləri barədə informasiyanın əldə edilməsi də daxil olmaqla informasiya mübadiləsi ilə əlaqədar xərclər; qeyri-tarazlıq xərcləri" (2, s. 66-67). Məlumat üçün bildirək ki, burada qeyri-tarazlıq xərcləri dedikdə sövdələşmənin optimal variantı tapılana qədər keçən müddətdə qarşılanmalı olan xərclər nəzərdə tutulur.

Müasir rəqəmsal iqtisadiyyatda bu və ya digər fəaliyyətin iqtisadi məqsədəuyğunluğu, ilkin yanaşmada transaksiya xərclərinin yuxarı həddi göstəricisi vasitəsilə qiymətləndirilə bilər. Bir sıra mənbələrdə, belə hesab edilir ki, transaksiya xərclərinin sıfra bərabər olması üçün (təcrübədə belə hala, demək olar ki, təsadüf edilmir) istehsal və gəlirlərin bölgüsü proseslərinə kənar təsirlər olmamalıdır. R.Kouza görə (3, s.386–405) istehsalda resurslardan istifadənin optimal nisbəti, demək olar ki, mülkiyyət hüququnun bölgüsündən asılı olmur.

Sənayedə transaksiya xərclərinin rəqəmsallaşmanın indikatoru olmaq imkanlarının reallaşdırılmasının metodiki və inforamasiya xarakterli məsələləri, xeyli dərəcədə araşdırılsa da, həmin məsələlər təbii ki, hələ də kifayət qədər aktual olaraq qalır. Belə ki, transaksiya xərclərinin yaranmasına və əhəmiyyətli səviyyəyə çatmasını şərtləndirən ilkin səbəb, rəqəmsal mühitin ciddiləşən tələbləri baxımından natamam sayılan informasiya mühitidir. Bu və digər rakurslarda belə bir fikirlə razılaşmamaq mümkün deyildir ki, "rəqəmsal mühitin əsas indikatorlarından biri transaksiya xərcləridir. Mübadilə prosesində mülkiyyət hüququnun bir tərəfdən digərinə verilməsi ilə bağlı olan xərclər kimi transaksiya xərcləri tərəf-müqabillərlə qarşılıqlı münasibətin səmərəliliyinə mane olan amillərin aradan qaldırılmasına sərf olunur. Bu xərclər natamam informasiya mühitində meydana gəlir" (4, s.8).

Reallıqda emal edilən informasiyanın natamamlığının informasiyanın assimmetriyası ilə müşayiət olunması vəziyyəti əhəmiyyətli çətinləşdirir və xüsusilə sənaye sahələrində transaksiya xərclərini artırır. Başqa bir məqamı da qeyd etmək yerinə düşərdi. Məsələ ondadır ki, fəaliyyət inteqrasiyası proseslərinin intensivləşməsi, təcrübədən göründüyü kimi müavilə münasibətlərinin mürəkkəbləşməsi ilə müşayiət olunur. İstehsalın resurs təminatında və məhsulun reallaşmasında tərəfdaşların sayının artması da transaksiya xərclərinin artmasına səbəb olur. Bu baxımdan tədiqiatların nəticələrinə əsaslanan aşağıdakı fikirlə razılaşmamaq çətindir ki transaksiya xərcləri, əksər hallarda öz aralarında müqavilə bağlayan iqtisadi agentlərin sayı ilə düz mütənasibdir (5, s. 39-41).

Məlum olduğu kimi metodiki problemlərin həllində norma və normativlərin mükəmməlliyi həlledici əhəmiyyət kəsb edir. Reallıqda iqtisadi agentlərin öz aralarında bağladığı müqavilələrin sayı artdıqca norma və normativlərin hərtərəfli əsaslandırılması məsələləri daha da aktuallaşır. Artıq institusional iqtisadiyyatın təşəkkülü və inkişafının mövcud təcrübəsi göstərir ki, iqtisadi agentlər arasında bağlanan müqavilələrin əsaslandığı normaların sayı artdıqca transaksiya xərclərinin səviyyəsinin azalması ehtimalı arta bilər.

Sənaye sahələrində transaksiya xərclərinin azaldılması üzrə təsirli tədbirlər, əksər hallarda həmin xərclərin optimal səviyyəsinin tapılması məsələsinin aktualllığını heç də azaltmır. Müasir istehsalın intensivləşməsi və genişlənməsi prosesində, artıq qeyd olunduğu kimi tərəf-müqabillərin sayı artır. Məsələ ondadır ki, həmin artımı məhz transaksiya xərclərinə qənaət meyarı ilə qiymətləndirmək birtərəfli yanaşma olardı. Sahədə məhsul istehsal edən iqtisadi subyektlərin rəqəmsal mühitdə fəaliyyət dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsi, onların əlaqələrinin sayının və müxtəlifliyinin sürətlə artması faktı digər metodiki aspektlərdə də az əhəmiyyət kəsb etmir.

İqtisadi-texnoloji fəaliyyətin ahəngdarlığı və davamlılığının təmin edilməsi sənaye sahələ-

rində transaksiya xərclərinin yaranması səbəblərindəndir. Rəqəmsal sənaye mühitində müxtəlif istehsal və xidmət fəaliyyətləriinin ahəngdarlığı və davamlılığının təmin edilməsi səbəbindən yaranan transakiya xərcləri resursların, o cümlədən informasiya resursları da daxil olmaqla istifadəsi prosesində meydana çıxır. Haqqında danışılan vəziyyət sənayedə transaksiya xərclərinin rəqəmsallaşmanın indikatoru kimi istifadəsinin metodiki və informasiya məsələlərinə diqqəti artırır. Məsələ ondadır ki, istehsalın (xidmətin) resurs aspekti onun səmərəliliyinin qiymətləndirilməsində daim diqqət mərkəzindədir. Həmin səmərəliliyin təmin olunmasında tənzimləmə amilinin rolu xüsusilə qeyd edilməlidir.

Transaksiya xərclərinin həcmi və quruluşunun tənzimlənməsi proseslərini çətinləşdirən vacib amillər sırasında strukturlaşma dərəcəsi amili mühüm əhəmiyyət kəsb edir. Belə ki, olduqca yüksək inkişaf tempinə baxmayaraq, rəqəmsal iqtisadiyyat, hələ ki, institusional və hüquqi tələblərə cavab verən dayanıqlı sistem əmələ gətirə bilməmişdir.

Sənaye sahələrində transaksiya xərclərinin rəqəmsallaşma proseslərinin indikatoru kimi istifadəsi prosesində qarşıya çıxan metodiki problemlər, əhəmiyyətli dərəcədə həmin xərclərin təsnifat əlamətlərinin çox olması və onların vaciblik dərəcəsinə görə düzülməsi barədə tədqiqatçılar və mütəxəssislər tərəfindən birmənalı qəbul edilən yanaşmanın olmaması ilə bilavasitə əlaqədardır. Hesab edirik ki, sənaye sahələrində daxili transaksiya xərclərinin aşağıdakı təsnifatı diqqətə layiqdir: “1) alternativ axtarışı xərcləri; 2) hesablamaların aparılması xərcləri; 3) ölçmələrlə bağlı xərclər; 4) müqavilənin bağlanması xərcləri; 5) mülkiyyət hüququnun qorunması xərcləri; 6) opportunist davranış xərcləri” (6, s. 234-261).

Təcrübə göstərir ki, opportunist davranış xərclərinin müqavilə bağlanana qədər və müqavilə bağlanandan sonra yaranan xərclər kimi fərqləndirilməsi məqsədəuyğundur. Məsələ ondadır ki, müqavilə bağlanana qədər və müqavilə bağlanandan sonra meydana gələn opportunist davranış xərclərinin həm mənbələrində, həm də mahiyyətində əhəmiyyətli fərqlər vardır. Hazırda formalaşan institusional mühitin səciyyəsi ümumilikdə opportunist davranış xərclərinə təsir etsə də, həmin mühitin xarakteristikalarını, konkret zaman intervalında verilən kimi qəbul etməyin mümkünlüyü qəbul edilir. Odur ki, müqavilə bağlanana qədər və müqavilə bağlanandan sonra yaranan opportunist davranış xərclərindəki fərqlərin əsasən qarşılıqlı fəaliyyətin tezliyi, tərəfdaşların münasibətindəki qeyri-müəyyənliyin səviyyəsi, istifadə olunan resursların özünəməxsusluğu ilə, habelə subyektiv amillərlə şərtləndiyini söyləmək olar.

Rəqəmsal sənaye mühitində baş verən transformasiyalar gücləndikdə mülkiyyət hüququnun müdafiəsi xərcləri və bu xərclərdə əqli mülkiyyət hüququnun rolu, əhəmiyyətli dərəcədə artır. Əqli mülkiyyət hüququnun müdafiəsi sistemi təkmilləşdikcə opportunist davranışla əlaqədar xərclərin səviyyəsinin, yüksək ehtimalla azalacağını söyləmək olar.

Transaksiya xərclərinin dinamika təhlili və sənayedə istehsal fəaliyyətinin əsas mərhələlərində həmin xərclərin kəmiyyətcə qiymətləndirilməsi rəqəmsallaşmanın iqtisadi fəaliyyətin hansı istiqamətində daha gəlirli olacağını müəyyənləşdirmək baxımından vacibdir. Artıq qeyd edildiyi kimi, transaksiya xərclərinin dəyişmə vektorunu müəyyən etmək üçün az-çox işlənmiş yanaşma və alqoritmlər mövcud olsa da, həmin xərclərin kəmiyyətcə ölçülməsi kifayət qədər ciddi metodiki və informasiya problemləri ilə qarşılaşır. Hər şeydən əvvəl onu qeyd edək ki, transaksiya xərcləri ehtimallı xarakterə malikdir. Tərəf-müqabillər arasında bağlanan müqavilələrin qeyd-şərtsiz yerinə-yetirilməməsinin bütün məqamlarını qabaqcadan tam dəqiqliklə müəyyən etmək mümkün deyildir. Odur ki, iqtisadi agentin məqsədinə çatmaq üçün zəruri etik qaydalara riayət etmədiyi opportunist davranış halının baş verməyəcəyini istisna etmək qeyri -mümkündür. İnformasiya axtarışı xərclərinə gəldikdə isə onu demək lazımdır ki, get-gedə güclənən informasiya seli şəraitində zəruri verilənlərin tapılaraq tam həcmdə sistemləşdirilməsi xərcləri, rəqəmsal mühitdə belə kifayət qədər böyükdür.

**İndikator funksiyası və transaksiya xərclərinin kəmiyyətcə ölçülməsi**

Sənayedə transaksiya xərclərinin rəqəmsal iqtisadiyyatın səmərəliliyinin qiymətləndirilməsində indikator rolu oynaması üçün, həmin xərclərin qeyri-aşkar təzahürlərinin konkretləşdirilməsinə, metodiki zərurət olduqda detallaşdırılmasına ehtiyac yaranır. Digər, heç də az

əhəmiyyətli olmayan məqam transformasiya xərclərinin transaksiya xərclərindən fərqləndirilməsi və ayrılmasıdır. Məlumat üçün bildirək ki, transformasiya xərcləri maddi resursların məruz qaldığı fiziki dəyişikliklərlə əlaqədardır. Görmək çətin deyildir ki, bu halda texnologiya seçimi mühüm rola malikdir. Müəyyən qeyd-şərtlərlə texnologiya seçimi transformasiya xərclərini şərtləndirir və həmin xərclərin qiymətləndirilməsində texnoloji informasiya axınlarını şərh etmək lazım gəlir. Digər tərəfdən sənaye istehsalında texnoloji təminatın xarakteri transaksiya xərclərinin strukrurunu müəyyən edən amil rolunda çıxış edir. Haqqında danışılan sahədə transformasiya xərclərinin transaksiya xərclərindən fərqləndirilməsi meyarları əsaslandırılarkən, nəzərə almaq lazımdır ki, məhz transaksiya xərcləri sənaye texnologiyalarında seçim alternativlərini məhdudlaşdırır.

İndi isə transaksiya xərclərinin kəmiyyətcə qiymətləndirilməsi məsələsinə qayıdaq. Sənayedə transaksiya xərclərinin rəqəmsallaşmanın indikatoru kimi istifadəsinin metodiki və informasiya problemləri, artıq qeyd olunduğu kimi, ilk növbədə transaksiya xərclərinin kəmiyyətcə qiymətləndirilməsi məsələsinin həlli baxımından aktualdır.

Müvafiq mənbələrdə transaksiya xərclərinin ölçülməsi üçün xronoloji baxımdan göstərilən ilk cəhdlər arasında Harold Demsesin 1968-ci ildə çap olunmuş "Transaksiya xərcləri" adlı məqaləsi qeyd edilir. Bu məqalədə transaksiya xərcləri mülkiyyətin titullarının dəyişməsi xərcləri kimi qəbul edilir (7, s. 33-53). Bu istiqamətdə daha sonra aparılan tədqiqatlar və əldə edilən nəticələr mütəxəssislər və tədqiqatçılar tərəfindən birmənalı qəbul edilməsə də, müəyyən elmi-nəzəri və təcrübi əhəmiyyətə malikdir. Bu baxımdan təşkilatın transaksiya xərclərinin ölçülməsi və kəmiyyətcə qiymətləndirilməsi üşün təklif edilən aşağıdakı yanaşma, zənnimizcə diqqətə layiqdir. Belə ki, bu məqsədlə, "maya dəyərinin iki mərhələli ardıcıl dekompozisiyasından ibarət metodika işlənib hazırlanmışdır - əvvəlcə əsas elementlər üzrə, daha sonra isə elementlərin növbəti bölünmə və növlər üzrə cəmlənmə aparılmaqla transformasiya və transaksiya xərcləri üzrə dekompozisiya nəzərdə tutulur" (1, s. 27-29).

Haqqında danışılan metodika inreqrasiya olunmuş strukturlarda (ölçüsündən asılı olmayaraq kollektiv təsərrüfatdan tutmuş, sahələrarası holdinqlərə və korporasiyalara qədər) transaksiya xərclərinin ölçülməsi və kəmiyyətcə qiymətləndirilməsi məsələsinin həlli üçün ilkin şərt kimi onların konkret məqsədə nail olmaq üçün yaradılmasını və transaksiya xərclərinin azaldılması üçün oxşar üsulların tətbiq edilməsini qəbul edir. İkinci müddəa inteqrasiyanın iki səviyyədə: sahiblik və/və ya texnoloji; struktur-kompozisiya səviyyələrinə bölünməsi və sonuncunun daha az araşdırılmasının bəyan edilməsidir. Transaksiya xərclərinin kəmiyyətcə qiymətləndirilməsi üçün təklif edilən bu yanaşmda, habelə dixotomik bölgüyə (bir xassənin olub - olmaması əlaməti üzrə bölgüyə) deyil, mühit əlaməti (kontinuum) üzrə bölgüyə üstünlük verilməsi nəzərdə tutulur. Başqa sözlə, inteqrasiya olunmuş iqtisadi qurumlarda "... firma - xarici mikromühit" dixotomik bölgüsü yerinə bir tərəfdə (daxili əlaqələrin intensivliyinin maksimal dərəcəsinin olduğu) firma, digər tərəfdə isə daimi daxili əlaqələrin mövcud olmadığı, müstəqil təsərrüfat fəaliyyəti iştirakçıları toplumunun təmsil edildiyi biznes mühitinin durduğu kontinuumdan danışmaq olar. Bu tərəflər arasında isə sahibkarlıq fəaliyyətinin müxtəlif inteqrasiya dərəcəsinə malik iştirakçıları (metafirmalar) – françayzinq şəbəkələri, strateji alyanslar, autsorsinq tərəfdaşlığı, virtual müəssisələr və i.a. durur" (8, s. 56-61).

Transaksiya xərclərinin ölçülməsinin aşağıdakı ardıcıllıqla reallaşdırılan mərhələləri təklif edilir:

1. Siniflər üzrə transaksiya xərcləri növləri çoxluğunun məhdudlaşdırılması.
2. Tam maya dəyərinin elementlər üzrə dekompozisiyası.
3. Transaksiya xərclərinin tədqiqat və/vəya müəssisə səviyyəsində qəbul edilməsi (təsdiqlənməsi).
4. Tam maya dəyəri elementlərində transformasiya və transaksiya elementlərinin fərqləndirilməsi (1, s. 27-29).

Həmin mərhələlərin mühüm altmərhələlərini (elementlərini) aşağıdakı kimi təqdim etmək olar (şəkil 1).

Mikrosəviyyədə transaksiya xərclərinin ölçülməsi üçün təklif edilən yanaşmalardan,

həmin xərcləri növlərə (kateqoriyalara) bölməklə fərqli üsulların tətbiqini tövsiyə edən yanaşma, zənnimizcə diqqətə layiqdir. Həmin üsullara aşağıdakılar aid edilir:

"1) statistik məlumatlardan və fəaliyyətdə olan normativlərdən istifadə etməklə birbaşa hesablama üsulu;

2) mühasibat uçotunun təhlili və yenidən strukturlaşdırılması üsulu;

3) işgüzar oyunlar və ya ehtimallı modellərin ekspert qiymətləndirilməsi sistemi;

4) idarəetmə qərarların qəbulu və "rutin" üzrə firmada formalaşmış stereotiplərin, analogiyaların və əldə edilmiş verilənlərin müvafiq işlənməsini nəzərdə tutan digər subyektiv yanaşmaların təhlili üsulları" (9, s. 60).

**Cədvəl 1**

**Transaksiya xərclərinin ölçülməsi və kəmiyyətcə qiymətləndirilməsinin mərhələləri**

| Mərhələlər | Altmərhələlər |
|---|---|
| 1. Siniflər üzrə transaksiya xərcləri növləri çoxluğunun məhdudlaşdırılması | 1.1. Lokal<br>1.2.İctimai |
| 2. Tam maya dəyərinin elementlər üzrə dekompozisiyası | 2.1. Maddi məsrəflər.<br>2.2. Enerji təminatı məsrəfləri.<br>2.3.Əmək haqqı fondu, bu fonddan vergilər və tutulmalar.<br>2.4. Digər məsrəflər.<br>2.5. Kommersiya xarakterli məsrəflər. |
| 3. Transaksiya xərclərinin tədqiqat və/vəya müəssisə səviyyəsində qəbul edilməsi (təsdiqlənməsi) | 3.1.Alternativ axtarışı xərcləri.<br>3.2. Hesablamaların aparılması xərcləri.<br>3.3. Ölçmələrlə bağlı xərclər.<br>3.4. Müqavilənin bağlanması xərcləri.<br>3.5. Mülkiyyət hüququnun qorunması xərcləri.<br>3.6. Opportunist davranış xərcləri. |
| 4. Tam maya dəyəri elementlərində transformasiya və transaksiya elementlərinin ayrılması | 4.1. Alternativ axtarışı xərcləri.<br>4.2. Hesablamaların aparılması xərcləri.<br>4.3. Ölçmə xərcləri.<br>4.4. Müqavilənin bağlanması xərcləri.<br>4.5. Texniki (spesifikasiya) xərclər və mülkiyyət hüququnun müdafiəsi.<br>4.6. Opportunist davranış xərcləri. |

Görmək çətin deyildir ki, sonuncu (dördüncü) üsul iş prosesinin tərkib hissələri üzrə detallaşdırılması tələb olunduğundan böyük əmək tutumludur. Ümumiyyətlə, transaksiya xərclərinin ölçülməsi və kəmiyyətcə qiymətləndirilməsində unifikasiya imkanları diqqət mərkəzində olmalıdır. Başqa sözlə, transaksiya xərclərinin bütün növləri nəzərə alınmalı, onların uçotu üsulları seçilmiş istiqamətdə bütün müəssisələr üçün yararlı olmalı, mühasibat hesabatları verilənləri üzrə qiymətləndirmə imkanı olmalıdır.

Transaksiya xərclərinin qiymətləndirilməsi üçün təklif edilən metodika T. Saati və K.Kernsin qərar qəbulunun mürəkkəb problemlərinə sistemli yanaşma aləti olan "İyerarxiyanın təhlili üsulu"na əsaslanmışdır. İyerarxiyanın təhlilinin haqqında danışılan üsulunun alqoritmi aşağıdakı kimidir:

1. Məsələnin bir neçə səviyyəli iyerarxiya kimi strukturlaşdırılması.

2. Hər bir səviyyə elementlərinin cüt müqayisəsi.

3. Hər səviyyənin elementləri üçün vaciblik əmsallarının hesablanmsı və mülahizələrin razılaşdırılması vəziyyətinin yoxlanması.

4. Kombinə edilmiş çəkili əmsalın hesablanması.

5. Ən yaxşı alternativin seçilməsi (10).

Şərh edilən alqoritmin təcrübədə reallaşdırılması əməktutmlu olmaqla yanaşı, çoxvariantlı yanaşma tələb edir. Odur ki, burara maşın imitasiya eksperimentlərinin aparılması məqsədəuyğundur.

**Nəticə**

İnteqrasiya proseslərinin intensivləşməsinin institusional bazası formalaşdıqca transaksiya xərclərinin azalma ehtimalı yüksəlir. Başqa sözlə, azad bazar münasibətlərindən inteqrasiya olunmuş qurumlar arasında münasibətə keçid transaksiya xərclərinin səviyyəsində azalma ilə müşayiət olunursa, rəqəmsal texnologiyaların fəal tətbiq olunduğu mühitdə müvafiq inteqrasiya proseslərini səmərəli hesab etmək olar. Bununla belə, inkişafda, daha dəqiq desək istehsal və xidmət fəaliyyətinin genişlənməsi prosesində transaksiya xərclərinin artmağa meyilli olduğu faktı da diqqətdən kənarda qalmamalıdır. Transaksiya xərclərinin ölçülməsi üçün təklif edilən metodikanın mükəmməlliyi məsələsinə gəldikdə isə, təcrübi baxımdan həmin ölçmə prosesinin kəmiyyətcə qiymətləndirilə bilən nəticələrinin əldə edilməsi imkanları, ölçmə üsullarının unifikasiya imkanları ilə kifayət qədər sıx əlaqədardır. Odur ki, tam maya dəyərinin elementlər üzrə dekompozisiyası, həmin elementlərdə transformasiya və transaksiya elementlərinin fərqləndirilməsinə və "İyerarxiyanın təhlili üsulu"na əsaslanan yanaşmaların tətbiqi dairəsinin müəyyən edilməsi inteqrasiya proseslərinin hərtərəfli təhlilindən sonra icra oluna bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1.Кирьянов И.В. Методика количественного измерения трансакционных издержек// Известия Дальневосточного федерального университета. Экономика и управление. 2015. № 4. с. 27-29

2. Эрроу К. Возможности и пределы рынка как механизма распределения ресурсов. THESIS, 1993, Вып 2, с. 53-68

3. Coase, Ronald. The Nature of the Firm // Economica, Vol. 4, No. 16, November 1937 pp. 386–405

4. Balayev R. Ə. Rəqəmsal mühitdə transaksiya xərcləri və rəqabət// Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi xəbərləri. Cild 6, oktyabr - dekabr 2018, s.5-14

5. Эггертссон Т. Экономические поведение и институты. Москва, Дело, 2001, 407с.

6. Шаститко А.Е. Новая институциональная экономическая теория. 3-е изд., перераб. и доп. М.: Экономический факультет МГУ, ТЕИС, 2002. 591 с.

7. Demsetz H. The Cost of Transacting//Quart. J. Econ. 1968.Vol. 82, N 1. P.33-53

8. Котляров И.Д. Внутренняя и внешняя среда фирмы: уточнение понятий. Известия высших учебных заведений. Серия: Экономика, финансы и управление производством. 2012. № 1. С. 56-61

9. Вологин И.С. Методика оценки трансакционных издержек реализации сельскохозяйственной продукции// Вестник ТГЭУ, №1, 2011, с.59-66

10. Саати Т., Кернс К. Аналитическое планирование: пер. с англ. Москва, Мир, 1991. 224 с.

**Эльвин Вугар оглы Ализаде**

## МЕТОДИЧЕСКИЕ АСПЕКТЫ ИЗМЕРЕНИЯ ТРАНСАКЦИОННЫХ ИЗДЕРЖЕК В ЦИФРОВОЙ СРЕДЕ

### Резюме

В статье рассматриваются вопросы количественного измерения трансакционных издержек в условиях применения цифровых технологий. Исследованы процессы формирования методической базы количественного измерения трансакционных издержек в промышленности. Рассмотрены возможности трансакционных издержек стать индикатором цифровизации в промышленности. Выявлены факторы определяющие методическое обеспечение количественного измерения трансакционных издержек в цифровой среде. Обоснована необходимость совершенствования методов количественного измерения трансакционных издержек. Определены некоторые направления совершенствования методики измерения трансакционных издержек в промышленности.

**Ключевые слова:** *трансакционные издержки, методика, измерение, количественная оценка, промышленность, цифровая среда, методы, неполная информация, унификация, себестоимость.*

**Elvin Vuqar ALIZADE**

# METHODOLOGICAL ASPECTS OF MEASURING TRANSACTION COSTS IN THE DIGITAL ENVIRONMENT

## Summary

The article considers the issues of quantitative measurement of transaction costs in the context of the application of digital technologies. The process of forming the methodological basis for the quantitative assessment of transaction costs in industry has been studied. The possibility of being an indicator of digitalization of transaction costs in the field was considered. Factors determining the methodological support for the quantitative measurement of transaction costs in the digital environment have been identified. The need to improve the methods of quantifying transaction costs is justified. Some directions for improving the methodology for quantifying transaction costs in industry have been identified.

**Keywords:** *transaction costs, methodology, measurement, quantification, industry, digital environment, methods, incomplete information, unification, cost.*

**Yaqub Feyzulla oğlu ƏLİFOV** dos.
E-mail: yaqubalifov@gmail.com,

**Təranə Adil qızı BAĞIROVA** b/m.
E-mail: baqirova1972@mail.ru,

**Gülnarə Adil qızı TAĞIYEVA** b/m
E-mail: gulutagyeva@mail.ru,

**Təranə Eyyub qızı ƏLİYEVA** b/m

**Vusal Yaqub oğlu ƏLİFOV** assistent
E-mail: elifovvusal@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

# QLOBAL PROBLEMLƏR VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

**Xülasə**

1960-cı illərdən başlayaraq qlobal problemlərin ziddiyyətlərinin kəskinləşməsi barədə ilk müzakirələr başlanmışdır. Bu problemlər elmi ədəbiyyatların gündəliyinə «qlobalistika» anlayışı kimi daxil olmuşdur. Beynəlxalq iqtisadi tədqiqatların xüsusi bir istiqamətini əks etdirir. Ümumiyyətlə, qloballaşma prosesinin tərəfdarları və əleyhinə olanlar arasında fikir müxtəlifliyi mövcuddur. Lakin bu prosesi artıq geri döndərmək mümkün deyildir. Bu barədə müəyyən nəzəri müddəalar da maraq doğurur. Müasir dünyanın iqtisadiyyatı uzun müddət müxtəlif qüvvə və cərəyanların təsiri altında mürəkkəb və zəif balansa əsaslanırdı. Qeyri-sabit müvazinətlik hökm sürürdü. Son on illiklərdə dünya təsərrüfatı vahid orqanizm şəkli almağa doğru inkişaf etmişdir. Müasir dövrdə bir çox proseslərin baş verməsi, milli mənafelər zəminində toqquşmalar, müxtəlif təsərrüfat strukturlarının yaradılması, iqtisadi qarışıqlığın yeni üsulları daha yüksək dünya iqtisadi birliyinin formalaşmasına yol açır.

Dünya iqtisadiyyatı tədricən dirçəlir. Ölkələrin iqtisadiyyatının strukturu Azərbaycan iqtisadiyyatının strukturundan kifayət qədər fərqlidir. Burada mühüm məqam ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatının ixracda “neft amilindən”, daxili bazarda, o cümlədən, istehlak bazarında isə idxaldan asılılığı daha problemli səviyyədədir

**Açar sözlər:** *iqtisadiyyat, problem, mərkəzi bank, proqram, milli valyuta, idxal, daxili və xarici bazar*

**UOT:** 333.04.7
**JEL:** E29

## Giriş

Müasir dünyanın iqtisadiyyatı uzun müddət müxtəlif qüvvə və cərəyanların təsiri altında mürəkkəb və zəif balansa əsaslanırdı. Qeyri-sabit müvazinətlik hökm sürürdü. Son on illiklərdə dünya təsərrüfatı vahid orqanizm şəkli almağa doğru inkişaf etmişdir. Müasir dövrdə bir çox proseslərin baş verməsi, milli mənafelər zəminində toqquşmalar, müxtəlif təsərrüfat strukturlarının yaradılması, iqtisadi qarışıqlığın yeni üsulları daha yüksək dünya iqtisadi birliyinin formalaşmasına yol açır. Müasir dövrün problemləri dedikdə, tərksilah, istilik-nüvə fəlakəti qorxusu, ətraf mühitin tələf olması, qorxulu xəstəliklər, həyat şəraitinin kütləvi olaraq pisləşməsinin güclənməsi və sairəni nəzərdə tutmaq olar. Bütün dünyada bu kimi problemlərin kəskinləşməsi onlaın həlli barədə qüvvələrin birləşdirilməsi zərurətini irəli sürür, sivil xalqların ittifaqının yaradılmasını zəruri edir. Onların birlikdə optimal inkişaf variantlarında işləmək, şəxsiyyətin, dövlətin, cəmiyyətin mənafelərinin əlaqələndirilməsini nəzərdə tutmaq hallarının vacibliyi özünü göstərir. Müasir dünya təsərrüfatında bir çox ümumi, yerli (məhdud), qlobal, milli mənafelərin qarşılıqlı əlaqə və asılılığı daha da güclənir. Beləliklə, müasir dünya təsərrüfatındakı iqtisadi problemlərin mürəkkəbliyi və kəskinliyi, sivilizasiyanın tipi, məhsuldar qüvvələrin səviyyəsi və xarakteri ilə şərh olunur.

Dünyada beynəlxalq fikir birliklərinin, inteqrasiya yolu ilə ayrı-ayrı ölkələrin ümumdünya iqtisadi kompleksinin yaradılması, vahid bazar məkanının yaradılması, ticarət azadlığına yol açılması və s. problemlərin həlli əsas götürülür.

*Mövzunun aktuallığı.* Dünya təcrübəsi göstərir ki, qlobal problemlər haqqında ilk müzakirələr ötən əsrin ortalarından başlanılmışdır. Müxtəlif sinfin nümayəndələri qloballaşma proseslərinin üstünlüklərini, çatışmazlıqlarını və çıxış yollarını araşdırmışlar. Mövcud iqtisadi problemlərin səbəbləri, ilk növbədə, milli iqtisadiyyatda rəqabət mühitinin formalaşdırılması, institusional və sistemli effektivlik, emal sənayesinin, kənd təsərrüfatının, xidmət sahələrinin, qeyri-xammal ixrac potensialının inkişafı ilə bağlı problemlərdir. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır

*Tədqiqatın məqsədi.* Azərbaycanın iqtisadi problemlərinin həlli istiqamətlərini tədqiq etməkdir.

*Tədqiqatın obyekti.* Azərbaycanda və dünyada iqtisadi problemlərin həlli sistemi seçilmişdir.

*Tədqiqatın metodları.* Tədqiqat zamanı müşahidə, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, məqsədli sistemli yanaşma, qruplaşdırma və digər üsullardan istifadə olunmuşdur.

*Tədqiqat işinin yeniliyi.* Azərbaycanın iqtisadi problemlərinin həlli yollarının stimullaşdırılmsı  və dövlət dəstəyi tədbirləri üzrə prioritetlər müəyyən edilmişdir.

*Tədqiqat işinin tətbiqi əhəmiyyəti.* Məqalədə təqdim olunan nəzəri müddəalar və çıxarılan nəticələr dünyada və Azərbaycanda iqtisadi problemlərin həlli və bu istiqamətin yaxşılaşdırılması strategiyasının müəyyənləşdirilməsində istifadə oluna bilər.

*Tədqiqat işinin iqtisadi səmərəsi*. Azərbaycanın iqtisadi problemlərinin həlli yollarına yönəlmiş tədbirlər, iqtisadçıların nəzəriyyələrinin öyrənilməsi, bu nəzəriyyələrdən çıxarılan nəticələrin tədqiqi, iqtisadi problemlərin azaldılmasının tənzimlənməsi, bu problemlərin həllində maddi-texniki bazanın əhəmiyyətli dərəcədə yenilənməsi, yeni iş yerlərinin açılmasına, dünya əhalisinin gəlirlərinin artmasına imkan verə billər.

**Materiallar və müzakirələr**

Qlobal problemlərin daha çox kəskinləşməsi barədə ilk müzakirələr 1960-cı illərdən başlanmışdır. Bu problemlər elmi ədəbiyyatların gündəliyinə «qlobalistika» anlayışı kimi daxil olmuşdur. Beynəlxalq iqtisadi tədqiqatların xüsusi bir istiqamətini əks etdirir. Ümumiyyətlə, qloballaşma prosesinin tərəfdarları və əleyhinə olanlar arasında fikir müxtəlifliyi mövcuddur. Lakin bu prosesi artıq geri döndərmək mümkün deyildir. Bu barədə müəyyən nəzəri müddəalar da maraq doğurur. Belə ki, qloballaşma barədə ilk dəfə Amerika alimi T.Levit «Bazarların qloballaşması» məqaləsi ilə çıxış etmişdir. Bu prosesi «yeni kommersiya reallığı» adlandırmışdır.

Sonra bu fikir Harvard biznes məktəbinin nümayəndələri tərəfindən inkişaf etdirilmişdir. Bu məktəbin məsləhətçisi Keniçi Ome yazırdı ki, hazırda ayrı-ayrı ölkələrin iqtisadi millətçiliyi mənasızdır. Bu gün güclü «artist» rolu «qlobal firmalara» məxsusdur.

Filosoflar da qloballaşma prosesinə yanaşmada biganə qalmamışlar. Onlar göstərirlər ki, Alman filosofu İmmanuil Kant dünyanın əbədiliyi və vahid təhsil barədə fikir irəli sürmüşdür.

Eləcə də Fransa tarixçisi F.Brodelin belə bir fikrini qeyd etmək maraqlıdır ki, bugünkü qloballaşma prosesi birbaşa olaraq kapitalın beynəlmiləlləşməsinin davamıdır. Brendel həmin dövrü (Genuya, Hollandiya, İngiltərənin misalında) Avropa kapitalizminin bərqərar olması dövrü adlandırırdı.

İnsan cəmiyyəti qarşısında duran ilkin plan bundan ibarətdir; yer kürəsi üzərində sülhün saxlanılması, kimyəvi, bakterioloji, istilik nüvə müharibələrinə yol verməmək, yerli və qlobal silahlı toqquşmaları dayandırmaq, hər tərəfli əlaqələri genişləndirmək. Ən böyük problemlərdən biri də ətraf mühitin pisləşməsinin qarşısının alınması və kosmosun, dünya okeanı ehtiyatlarının birgə istifadə edilməsinə nail olunmasıdır. Ölkələrin istilik-enerji və eləcə də xammal ilə təchiz edilməsi qayğısı ərzaq probleminin həllinə çalışmaq, aclıq, yoxsulluq, kütləvi xəstəliklərin azaldılması problemləri birgə fəaliyyət göstərilməsini zəruri edir. Əmək bazarında olan problemlər - məşğulluq, kütləvi işsizlik inkişaf etmiş və eləcə də inkişaf etməkdə olan ölkələri çox narahat edir.

XX əsrin son onilliklərində cəmiyyət qarşısında çoxsaylı ciddi və mürəkkəb problemlər yaranmışdır. Problemlər bütün dünya ölkələrini, bütün regionlarda yaşayan əhalini əhatə edən, hazırkı vəziyyətinə və gələcəyinə təhlükə yaradan, həlli üçün bütün imkanların birləşdirilməsini, dövlətlərin və xalqların birgə fəaliyyət göstərməsini tələb edən problemlərdir. Onun sayı və əhatə dairəsi müxtəlif formada müəyyən edilir. Bəzən bu problemlərin miqdarı 20-dən yuxarı qaldırılır. Lakin əsas və özünü daha kəskin göstərən problemlər ona yaxındır və aşağıdaki istiqamətlərdə qruplaşdırılır.

1. Siyasi və sosial-iqtısadi xarakterli həlli vacib olan problemlər
2. Təbii-iqtisadi problemlər
3. Sosial xarakterli problemlər

Əksər problemlər bir-biri ilə əlaqədardır. Ona görə də, problemlərin eyni vaxtda bütün ölkələr və regionlarda həll edilməsi zəruridir. Bura ilk növbədə sülh və tərksilah, nüvə müharibəsi təhlükəsinin aradan qaldırılması aiddir. Bu problemlər XX əsrin ikinci yarısında nüvə silahının yaradılması və onların ballistik (qitələrarası) raketlərlə daşınmasının mümkün olması nəticəsində yaranmışdır. Bir neçə onilliklər ərzində "soyuq müharibə" bəşəriyyətin ən birinci, həlli vacib olan problemi olmuşdur.

İki dünya müharibəsinin baş verməsinə baxmayaraq XX əsrin ikinci yarısında hegemonlar arasında ziddiyətlər daha da dərinləşmiş, siyasi münasibətlər gərginləşmişdir. Bu dövrdə SSRİ və ABŞ arasında "soyuq müharibə" şəraiti nüvə silahlarından istifadə etməklə "ulduz müharibələri"nin başverməsi təhlükəsini daha da artırırdı. SSRİ-nin dağılmasına "soyuq müharibə"nin başa catmasına baxmayaraq dünyanın ayrı-ayrı regionlarında müharibələr baş verir, milli-etnik və ərazi münaqişəsi ocaqları hələ də qalmaqdadır.

XX əsrin 90-cı illərində "soyuq müharibə" başa catdıqdan, SSRİ (sonradan Rusiya) və ABŞ arasında ikitərəfli əlaqələr, sonra əməkdaşlıq və dostluq münasibətləri yarandıqdan sonra dünyanı əhatə edən istilik – nüvə münaqişəsi tarixdə qalmışdı. Sonrakı mərhələdə böyük hərbi qüdrətə malik olan ölkələrdə hərbi xərclərin, silahların, o cümlədən nüvə silahlarının azaldılması, silahlı qüvvələrin sayının ixtisar edilməsi başlanmışdır. Bu zaman beynəlxalq gərginliyin azaldılması prosesi getmişdir. Rusiya və NATO arasında yeni münasibətlərin yaranması dünyada təhlükəsizliyin bərpa edilməsi mühüm addımdır.

Bununla yanaşı, hələlik dünyada beynəlxalq təhlükəsizliyin tam bərpa edildiyini demək olmaz. Dünyada silahli qüvvələrin ümumi sayı 20 milyon nəfərdən çoxdur. Silah alveri böyük həcmdə davam edir, nüvə silahı olan ölkələrin sayı getdikcə artır. Dünyada hərbi xərclərin illik məbləgi 1,2 trln. dollardan artıqdır, ayrı-ayrı regionlarda hələ də insanların ölümünə, doğma yurd-yuvalarından qovulmasına, didərgin düşməsinə səbəb olan qaynar nöqtələr-silahlı münaqişə ocaqları vardır. Hazırda milli-etnik, dini, hərbi-siyasi münaqişələr nəticəsində dünyada 75 milyon nəfərdən çox insan öz doğma torpağından qaçqın düşmüşdür.

İkinci, beynəlxalq terrorizm son vaxtlar dünyada mövcud olan və ciddi narahatlıq doğuran problemlərdən biridir. Tarix göstərir ki, beynəlxalq terrorizmin yayılmasının səbəblərindən biri də ölkələr arasında inkişafın qeyri-bərabər getməsi, əhalinin həyat səviyyəsində olan kəskin fərqlər, dini ekstremizm, terror təşkilatları ilə ölkələr arasında olan münaqişələrdir. Bir çox hallarda terror hadisələri çoxsaylı insanların tələfatına və onların qorxu, vahimə içərisində yaşamasına, dağıntılara səbəb olur. 2001-ci il 11 sentyabr Nyu-Yorkda törədilən terror hadisəsi 4000 nəfərdən çox insanın ölümünə səbəb olmuşdur. Silahlı münaqişə rayonları sayılan İraq, Əfqanıstan, Yaxın Şərq və Pakistanda demək olar ki, hər gün baş verən terror aktları yüzlərlə insan həyatına son qoyur.

Bu qrupa daxil olan üçüncü problem inkişaf etməkdə olan ölkələrin geriliyinin aradan qaldırılması və ya qismən inkişafa nail olmaqdır. Hazırda da bu ölkələrdə olan əhalinin xeyli hissəsi yoxsulluq həddindən aşağı səviyyədə yaşayırlar. 1,2 mlrd. nəfər gündəlik 1 dollardan az, 3 mlrd. nəfər əhali 2 dollardan az gəlirə malikdir. Kəmiyyət etibarı ilə Cənubi Asiyada, Afrikada Böyük Səhradan cənubda, Şərqi Asiyada və Sakit okean regionunda yoxsul əhalinin sayı daha çoxdur. Nisbi göstəriçilərə görə Tropik Afrika yoxsulların sayına görə birinci yer tutur. Burundi, Zambiya, Syerra-Leone, Nigeriya, Uqanda, Çad, Niger və s. ölkələrdə ümumi əhalinin 60-70%-i yoxsuldur. Geridə qalmış ölkələrdə aclıqdan, xəstəlikdən, su çatışmazlığından hər il 30-40 milyon adam ölür. Onların 20 milyon nəfərə qədərini uşaqlar təşkil edir.

Azərbaycan iqtisadiyyatının müasir şəraitdə üzləşdiyi problemlər, təəssüf ki, sistemli və kompleks xarakter daşıyır. Belə ki, manatın devalvasiyası, pul-kredit, maliyyə siyasətinin və ümumilikdə ölkənin iqtisadi sisteminin idarəedilməsi və tənzimlənməsi üçün tələb olunan ölkənin strateji valyuta ehtiyatlarının həcminin kəskin şəkildə azalması, xarici geosiyasi və qeyri-münbit qlobal bazar konyukturu amilləri nəticəsində "neft gəlirlərinin", habelə əhalinin real gəlirlərinin sürətlə azalması, iş yerlərinin bağlanması, istehlak bazarında mövcud olan qiymət artımı ilə bağlı problemlər və digər böhran elementləri, sözsüz ki, ölkə iqtisadiyyatının kifayət qədər ciddi problemlərlə üzləşdiyini göstərir [2, s 536].

Ölkə hökumətinin iqtisadi blokunun və Mərkəzi Bankın son 1 il ərzində ölkənin milli valyutasının məzənnəsinin qorunması üçün həyata keçirdiyi tədbirlər, ölkənin strateji valyuta ehtiyatlarının önəmli dərəcədə azalmasına səbəb olmuşdur. Bu istiqamətdə təhlil aparan bir sıra iqtisadçılar, ilk baxışdan iqtisadiyyatlarının quruluşuna görə Azərbaycan iqtisadiyyatına oxşar olan Rusiya Federasiyası və Qazaxıstan iqtisadiyyatlarını misal gətirirlər ki, həmin ölkələrin hökumətləri və Mərkəzi Bankları milli valyutanın məzənnəsinin strateji valyuta ehtiyatları hesabına yüksək səviyyədə saxlanılması siyasətindən əl çəkərək, məzənnə siyasətində liberallaşmaya getmişlər və bununla da strateji valyuta ehtiyatlarının önəmli hissəsini qoruya bilmişlər. Sözsüz ki, bu yanaşmada məntiq var. Amma bir məqamı nəzərdən qaçırmaq olmaz ki, nə qədər oxşar quruluşa malik olsalar da, yuxarıda qeyd edilən ölkələrin iqtisadiyyatının strukturu Azərbaycan iqtisadiyyatının strukturundan kifayət qədər fərqlidir. Burada mühüm məqam ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatının ixracda "neft amilindən", daxili bazarda, o cümlədən, istehlak bazarında isə idxaldan asılılığı daha problemli səviyyədədir. Bu şəraitdə manatın məzənnəsinin maksimum qorunması, hazırkı şəraitdə, ölkə iqtisadiyyatı üçün həlledici rol oynayır. İqtisadi blok tərəfindən milli valyutanın məzənnəsinin qorunması istiqamətində ölkəmiz üçün kifayət qədər böyük həcmdə resursların xərclənməsi barədə qərar qəbul etməsinin əsas səbəbi məhz bundan ibarətdir [3].

Mövcud iqtisadi vəziyyətin yaranmasının başlıca səbəblərinə gəldikdə, burada əsas səbəbi ancaq ölkəyə xammal ixracatından "böyük neft pullarının" gəlməsində və son illərdə qeyri-neft sektorunun dinamik şəkildə inkişaf etməməsində görmək, məsələyə bir qədər səthi yanaşmanın nəticəsidir. Ölkə iqtisadiyyatındakı struktur disbalansın əsas səbəbi, zənnimcə, daha dərindir. Müasir iqtisadiyyatda hətta keyfiyyətli şəkildə istehsal prosesinin qurulması belə, iqtisadi effektivliyin tam təminatçısı ola bilməz [4]. İqtisadiyyatın effektivliyi üçün həm də dayanıqlı satış kanalları, real bazarlar, möhkəm ticarət əlaqələri mövcud olmalıdır ki, iqtisadi sistem dinamik inkişaf etdirilsin. Bu baxımdan ölkə iqtisadiyyatının xammal ixracatına söykənməsi həmin struktur disbalansın əsas səbəbi olmamışdır. Lakin, qeyd etmək lazımdır ki, bu amil həmin problemin daha da dərinləşməsinə xidmət etmişdir.

Mövcud iqtisadi problemlərin digər səbəblərinə gəldikdə, bunlar, ilk növbədə, milli iqtisadiyyatda rəqabət mühitinin formalaşdırılması, institusional və sistemli effektivlik, emal sənayesinin, kənd təsərrüfatının, xidmət sahələrinin, qeyri-xammal ixrac potensialının inkişafı ilə bağlı problemlərdir [1, səh 75-76].

Hazırkı şəraitdə ölkə iqtisadiyyatının mövcud durumu makroiqtisadi səviyyədə sistemli antiböhran tədbirlərinin həyata keçirilməsini zəruri edir. Sözsüz ki, ölkə iqtisadiyyatının dayanıqlı inkişafı üçün həyata keçiriləcək tədbirlər kompleksinin təşkili kifayət qədər irihəcmli və geniş yanaşma tələb edən bir prosesdir. Bununla belə, makroiqtisadi səviyyədə Antiböhran proqramının əsas tezislərini aşağıdakı kimi strukturlaşdırmaq olar**:**

1.Yaranmış vəziyyət ölkədə sosial iqlimin mülayimləşməsi üçün sosial yönümlü tədbirlər kompleksinin həyata keçirilməsini zəruri edir. Bu tədbirlər əmək haqları, pensiya və digər sosial müavinətlərin indeksasiyasını özündə əks etdirməlidir ki, əhalinin geniş təbəqələrinin iqtisadi böhran nəticəsində məruz qaldığı çətinliklərin təsiri maksimum dərəcədə azaldılsın.

2.Ölkədə ən azından daxili və regional bazarlar üçün, rəqabətqabiliyyətli milli istehsal sisteminin formalaşdırılması. Bu məsələ antiböhran tədbirlərinin ən çətin hissəsi hesab oluna bilər və onun həlli mürəkkəb, strukturlaşdırılmış yanaşmanın tətbiqini zəruri edir.Bu istiqamətdə görülən işlər, əsasən, aşağıda göstərildiyi kimi qruplaşdırılmalıdır:

a) ölkədə istehsal prosesinin perspektiv sahələrinin müəyyən edilməsi üçün daxili və xarici regional bazarlarda effektiv marketinq tədqiqatlarının aparılması;

b) idxalın əvəz edilməsi mümkün olan bazar əmtəələrinin, əsasən istehlak əmtəələrinin assortimentinin müəyyənləşdirilməsi və bu əmtəələr üzrə ölkədə tamamilə (istehsalın bütün tsikllərində) idxaldan asılı olmayan istehsal prosesinin təşkil edilməsi;

c) qeyri-xammal ixracı sektoruna dəqiq və şəffaf şəkildə investisiya qoyuluşu;

d) azad İqtisadi Zonaların və digər əhəmiyyətli vergi və güzəştləri nəzərdə tutan proqramların tətbiqi; burada başlıca məqsəd ölkədə aparıcı xarici şirkətlər tərəfindən tələbat səviyyəsi yüksək olan, dünyada tanınmış brend məhsulların istehsalçıları olan şirkətlərin, əsasən, istehlak əmtəələrinin istehsalının təşkili olmalıdır.

3.Ölkənin iqlim şəraitini və bu sahədə böyük ənənələrin və potensialın olmasını nəzərə alaraq, Kənd Təsərrüfatının inkişafına dair geniş proqramın hazırlanması və bu proqramın praktiki tətbiqi. Bu sahənin inkişafı həm qeyri-xammal ixracının inkişafı perspektivləri baxımından, həm də ölkənin daxili bazarının qorunması baxımından ölkə iqtisadiyyatı üçün strateji məna daşıyır.

4.Ölkədə turizm sektorunun inkişafı. Bu sahədə həm antiinhisar və rəqabət mühitinin formalaşması istiqamətində, həm qiymət siyasətində kompleks tədbirlər görülməlidir ki, ölkənin turizm potensialı maksimum şəkildə reallaşdırıla bilsin.

5.Maliyyə sektorunun sağlamlaşdırılması və pul-kredit siyasətinin təkmilləşdirilməsinə dair kompleks tədbirlərin həyata keçirilməsi.

6.Ölkədə sistemli şəkildə antiinhisar tədbirlərinin həyata keçirilməsi. Bu istiqamətdə görülməli işlər kompleks olmalı və təbii inhisarlardan başlayaraq, idxal-ixrac əməliyyatlarına və istehlak bazarının formalaşdırılmasına kimi mövcud olan geniş iqtisadi spektrdə antiinhisar tədbirlərini özündə cəmləşdirməlidir.

7. İqtisadiyyatın dövlət tənzimlənməsi və idarəedilməsi istiqamətində sistemli, struktur və institusional islahatların aparılması. Ölkədə iqtisadi idarəetməyə aid olan qurumların və top-menecerlərin müasir şəraitin tələblərinə uyğunlaşdırılması.

8. İqtisadi çətinliklərə baxmayaraq, ölkədə elm, təhsil və səhiyyəyə dövlət dəstəyinin artırılması. Bu sahələr strateji əhəmiyyət daşıyır və bu sahələrə edilən dövlət dəstəyi dövlətin qüdrətinin göstəricisidir. Eyni zamanda, qeyd etmək lazımdır ki, elmin inkişaf etdirilməsi istiqamətində həm nəzəri, həm də tətbiqi sahədə müsbət nəticələrə nail olunmalıdır ki, bu da ölkə iqtisadiyyatının uzunmüddətli dayanıqlı inkişafına zəmin yarada bilər.

**Nəticə**

Ötən əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır.

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Ə.C.Qasımov, H.A.İsrafilov, E.M.Hacızadə, E.A.Ağayev. "Regionların sosial – iqtisadi inkişaf problemləri". İqtisad Universiteti nəşriyyatı, 2006.
2. A.Ş. Şəkərəliyev, Q.A. Şəkərəliyev. "Azərbaycan iqtisadiyyatı: Reallıqlar və perspektivlər". Bakı, Turxan NPB, 2016, 536 s.
3. https://science.gov.az/az/news/open/17157
4. 29 yanvar 2021-ci il tarixli 1272 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ("Xalq" qəzeti, 30 yanvar 2021-ci il, № 21, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, №1, maddə 42)

**Алифов Я.Ф. доц.**
**Багирова Т.А. с/п.**
**Тагиева Г.А. с/п.**
**Алиева Т.Э. с/п.**
**Алифов В. Я. ас.**

## ГЛОБАЛЬНЫЕ ПРОБЛЕМЫ И ЭКОНОМИКА АЗЕРБАЙДЖАНА

**Резюме**

Начиная с 1960-х годов начались первые дискуссии об обострении противоречий глобальных проблем. Эти проблемы вошли в повестку дня научной литературы как понятие «глобализм». Он отражает особое направление международных экономических исследований. В целом существует разногласие между сторонниками и противниками процесса глобализации. Однако этот процесс нельзя повернуть вспять. Интересны и некоторые теоретические положения по этому поводу. Долгое время экономика современного мира основывалась на сложном и слабом равновесии под влиянием различных сил и течений. Преобладало неустойчивое равновесие. В последние десять лет мировая экономика развивалась в направлении превращения в единый организм. В новое время протекание многих процессов, конфликтов на почве национальных интересов, создание различных хозяйственных укладов, новые методы экономического смешения открывают путь к формированию высшего мирохозяйственного союза.

Мировая экономика постепенно восстанавливается. Структура экономики страны сильно отличается от структуры экономики Азербайджана. Важным моментом здесь является то, что зависимость азербайджанской экономики от экспорта «нефтяного фактора» и импорта на внутреннем рынке, в том числе потребительском, находится на более проблемном уровне.

**Ключевые слова:** *экономика, проблема, центральный банк, программа, национальная валюта, импорт, внутренний и внешний рынок.*

**Alifov Y. F.**
**Bagirova T. A.**
**Taghiyeva G. A.**
**Aliyeva T.E.**
**Alifov V. Y.**

# GLOBAL PROBLEMS AND AZERBAIJAN ECONOMY

**Summary**

Starting from the 1960s, the first discussions about the aggravation of the contradictions of global problems began. These problems entered the agenda of scientific literature as the concept of "globalism". It reflects a special direction of international economic research. In general, there is a diversity of opinion between the supporters and opponents of the globalization process. However, this process cannot be reversed. Some theoretical provisions about this are also interesting. For a long time, the economy of the modern world was based on a complex and weak balance under the influence of various forces and currents. Unstable balance prevailed. In the last ten years, the world economy has developed towards becoming a single organism. In modern times, the occurrence of many processes, conflicts on the basis of national interests, the creation of different economic structures, new methods of economic confusion pave the way for the formation of a higher world economic union.

The world economy is gradually recovering. The structure of the country's economy is quite different from the structure of the Azerbaijani economy. The important point here is that the dependence of the Azerbaijani economy on exports from the "oil factor" and imports in the domestic market, including the consumer market, is at a more problematic level.

**Keywords:** *economy, problem, central bank, program, national currency, import, domestic and foreign market*

**Gulchohra Saleh SALEHZADE**
UNEC School of Design Senior Lecturer.
E-mail: salehzade.gulya@gmail.com

# STİMULATİON OF İNNOVATİON-ORİENTED ECONOMİC DEVELOPMENT AND DETERMİNATİON OF İNNOVATİON PROCESS MANAGEMENT DİRECTİONS

**Summary**

In modern times, the economic development processes in the international world have a serious impact on Azerbaijan. Such influence is clearly reflected in socio-economic development, democratization of society, improvement of public and administrative processes. As the main influencing factor among the development processes, scientific and technical progress innovation factors are of special importance. Thus, it is precisely innovation and scientific-technical progress that acts as a leading force by determining the main development trends of humanity, society, socio-economic processes. In the modern and perspective development of our country, it is closely related to the organization and regular improvement of innovation activity and management of innovation processes in accordance with modern requirements in ensuring continuous social economic growth. The organization and management of the innovation process acts as the main component of the social economic policy of the state. After gaining independence, the direction of implementation of important measures in the direction of integration into global economic development and innovation activity, at the same time, increased the need to further improve the investment-innovation environment in the country.

**Key words:** *innovation, intellectual, economic development, integration*

## Introduction

In terms of full and perfect application and formation of the innovation economy in Azerbaijan, the implementation of radical and fundamental reforms is very important. Accordingly, innovation activity is a new field and a progressive direction in terms of stimulating economic development, which requires the coordination of its functions, criteria, tasks and a sphere that needs a legal basis. Especially in recent years, the works carried out in terms of developing the country's economy and the results achieved have created even more confidence in the development of innovation in our country. Accordingly, It is possible to directly and indirectly apply the Western experience to the innovation stimulation system and use it skillfully to accelerate the progressive changes of our country in the direction of innovation and economic development [2, 52].

The implementation and implementation of the innovation policy is carried out within the general strategy of social and economic development, taking into account the development of scientific and technical potential and industry and resource opportunities in Azerbaijan [8].

In the modern stage of development, the innovation policy of the state in our country should be based on a number of principles. These include:

- ➢ Changing the scientific and technical potential according to the goals of efficient development and economic policy;
- ➢ recognize and accept as a portrait of innovative economic development model;
- ➢ formation of economic mechanisms by the state in connection with the economic growth of innovations becoming an important factor;
- ➢ maximum use of market mechanisms and creation of equal incentives for all economic subjects in terms of activation of innovation activity; [6,102]

From the point of view of more effective stimulation of innovation activities, it is required to ensure the development of innovation processes in the main areas of industry, agriculture and social complexes for the research and implementation of the issues and types we have listed. In this regard, the following are related to the directions of innovation policy determined by the state:

- creation of a system of complex support by the state in connection with increasing the competitiveness of innovation activity and science-intensive products;
- development of small innovation entrepreneurship;
- development of the infrastructure of the innovation process;

- activation of innovation activity and the necessity of participation of various structures of the state;
- selection of identified innovation projects, programs through competition; (5,148)

The innovation policy of the state acts as an integral part of the social economic policy. Ensuring the security of the national economy is the basis of any state's economic policy. The innovation policy implemented by the state is a component of the social economic policy aimed at the management and stimulation of innovation activity. During the implementation of the innovation policy, it is envisaged to create an improved product based on the application of scientific research and scientific and technical innovations of various experimental designer works. In order to stimulate the innovative activity of the state, increasing the competitiveness of local products and the standard of living and quality of the population, as well as implements measures aimed at improving the defense technological and environmental security of the country. At this time, a number of factors appear as the main goal of the state's innovation policy. Let's take a look at them.

- Development and efficient deployment of scientific and technical potential;
- Formation of economic, legal and organizational conditions related to the solution of active social economic development issues. ;
- Ensuring structural changes in the economy;
- It will affect the development of innovation activity, ensuring interaction in various spheres;
- Formation of innovation activity and structure;
- Protection of the interests of national innovation entrepreneurship;
- Training of personnel for innovation activity;
- Implementation of measures related to the stimulation of innovative economic development, determination of priority directions;
- Integration of science and education, development of the system related to the training of scientific personnel at all levels;
- Provision of institutional analysis of innovation processes in public sector organizations;
- Protection of the intellectual property rights of the research organization and the state;
- State support for the widespread dissemination of scientific and technical achievements that are important for the country's economy; [4,201]

Management of innovation processes and stimulation of innovative economic development are also very complex issues, organically connected with the development of technical processes and intellectual potential. All this, in turn, requires a complex approach to innovative development. Developing a concept related to innovative development is considered one of the most urgent issues in every state. The main issues related to the management of innovation activity in our country are as follows:

1. Development of science, production and technological potential, including fundamental sciences and personnel training system;
2. Applying international standards to product quality;
3. Environmental protection;
4. Formation of economic and financial conditions related to the development of innovation activity; [7]

The Republic of Azerbaijan can organize the main mechanism for the management and support of the state authorities of the innovation activity, the development program of the state's innovation activity. Let's take a look at what's included in this program:

- Providing direct support to the creation of basic science-intensive technologies and innovative projects at the expense of special financial resources of the state;
- Implementation of favorable measures for the management of innovation activities for industrial enterprises;
- Implementation of measures related to the creation of preferential regimes for the subjects of small innovation entrepreneurship in the initial period. Examples of these measures include concessions for the rental of buildings and equipment reducing the tax transferred to the state budget and we can attribute accelerated, amortization and so on.

**Scheme 1**

**Stimulation of innovation activity [7, 106]**




In addition to these methods of stimulation that we have listed, the provision of economy, research and work, and the formation of a favorable innovation environment of the infrastructure are very important in the stimulation of innovation activity by the state. This includes issues such as standardization, certification and scientific and technical information services, as well as preparation of scientific and technical development forecasts and evaluation of the negative consequences of innovations. In developed countries, the innovation of these states uses 3 main tools from the process of stimulating the general economic development through the implementation of the interaction of science and industry.

The first of these tools is the state contract. This tool is used when subjects who perform scientific research and a number of other works under the authority of the state the results obtained directly benefit the state. Bin that case, the situation of transferring the obtained product to a third party is not excluded. During the work process during the contract, the government representative has the right to control and make adjustments to the process of work performance.

Another tool is a grant. This tool legalizes another form of relationship between the state scientific research sector. In other words, property, financial services, and other valuable scientific research and development are maintained or stimulated by the state. The execution of works is specified in a special agreement.

The last main tool is an institutional tool, a cooperative agreement. Unlike the grant, this tool does not require immediate benefits or results. But despite this, the state has the right to control the course of work from here. The cooperative agreement acts as an important mechanism for organizing corporate processes between the state and the private sector.

Depending on the current state of the economy, it is considered more appropriate to implement the policy implemented in stages for the development and stimulation of innovation activity. For this, the main goal at the initial stage is to create initial conditions for maintaining positions related to the stimulation of innovation activity. At this stage, a number of issues are expected to be implemented, which include the following

- intensification of the use of natural resources;
- applying more innovations to the areas that form the main gross domestic product in the country and supporting the application of innovation in this sphere. Examples of these areas include ferrous metallurgy, petrochemical and food industry enterprises. ;
- formation of prospective production aimed at in-depth processing of raw materials in different regions of the country and increasing the share of products from the total volume of products [3,102].

Our country faces a number of problems in the process of innovation activity management

and innovation system formation, which include the following:

1. lack of demand from the point of view of commercial application of ETTKI results by the real sector of the economy;
2. lack of information in innovation areas: This refers to the lack of information about the application of new technologies and the sales markets of the innovation product, as well as about investors.
3. lack of developed, normative legal framework, direct and indirect support mechanisms from the state to carry out innovation activities.
4. insufficient development level of innovation entrepreneurship

**The Result**

The suggestions presented in accordance with the results described in different sections of the research work are as follows;

- Eliminating problems related to the financing and commercialization of achievements from the scientific and technical potential of various innovation projects implemented in our country can have a positive effect on innovative economic development.
- In the management and development of innovation processes, interdisciplinary creation of industrial parks, regional innovation centers and national technology parks by using international experience in optimizing relations can increase the dynamism in the development of innovation activities;
- The development of science-intensive fields can play an important role in training highly qualified personnel in fields such as biotechnology, nanotechnology, microelectronics;
- The exchange of new knowledge and technologies in the scientific and technical field, as well as the application of innovation development strategies in our country using the experience of foreign countries, can play an important role in scientific and technological development.
- The creation of centers for the development of new products using the achievements of scientific and technical progress and the creation of special funds that stimulate innovation activity in various departments of production engaged in innovation activity are considered necessary in terms of the formation and development of the national innovation system.

**REFERENCE:**

1. "Azerbaijan 2020: Future vision development concept" Baku. December 29, 2012
2. Aslanzade I.A. "Innovation Management", Baku, 2017
3. Atakishiyev M. Suleymanov G. "Innovation management" Baku 2004
4. Azizova G. State investment-innovation policy. Baku,Iqtisad University‖ publishing house, 2012
5. Huseynova A.D "Analysis of innovation potential in Azerbaijan", Baku, 2013
6. Gasimov F.H "The state of innovation in Azerbaijan and its development prospects", Baku, 2019
7. Taghiyev A.H Innovation Baku, Taknur‖ Publishing House- 2019
8. Goncharenko L.P. "Innovation Policy" Textbook/M. КНОРУС, 2019
9. https://www.stat.gov.az/

**Gülçöhrə Saleh qızı SALEHZADƏ** baş müəllim.
UNEC Dizayn məktəbi
E-mail: salehzade.gulya@gmail.com

**İNNOVASİYA YÖNÜMLÜ İQTİSADİ İNKİŞAFIN STİMULLAŞDIRILMASI VƏ İNNOVASİYA PROSESİNİN İDARƏ EDİLMƏSİ İSTİQAMƏTLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ**

**Xülasə**

Müasir dövrdə beynəlxalq aləmdə gedən iqtisadi inkişaf prosesləri, Azərbaycana da öz ciddi təsirini göstərir. Belə təsir birmənalı olaraq özünü sosial-iqtisadi inkişaf, cəmiyyətin demokratikləşməsi, ictimai və idarə proseslərinin təkmilləşməsində əks etdirir. İnkişaf prosesləri arasında əsas təsir amili kimi, elmi texniki tərəqqi, innovasiya amilləri xüsusi əhəmiyyət kəsb edir. Belə ki, məhz innovasiya və elmi texniki tərəqqi bəşəriyyətin, cəmiyyətin, sosial-iqtisadi proseslərin əsas inkişaf meyllərini müəyyən etməklə aparıcı qüvvə

kimi çıxış edir. Ölkəmizin müasir və perspektiv inkişafında davamlı sosial iqtisadi yüksəlişin təmin edilməsi innovasiya fəaliyyəti və innovasiya proseslərinin idarə edilməsinin müasir tələblərə uyğun təşkili və mütəmadi təkmilləşdirilməsi ilə sıx əlaqədardır. Belə ki, davamlı sossial-iqtisadi yüksəliş ictimai, iqtisadi və sosial həyatda innovasiya fəaliyyətindən və innovativ proseslərin nəticələrindən, niyyətlərindən istifadə edən ölkənin perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsinə, eləcə də intellektual potensialın üzə çıxarılmasına, idarəetmə sisteminin təkmilləşdirilməsinə, innovasiyalı iqtisadiyyatın qurulması və rəqabət qabiliyyətli, elmtutumlu məhsul istehsalının təmin edilməsinə öz müsbət təsirini göstərir. İnnovasiya prosesinin təşkili və idarə edilməsi, dövlətin sosial iqtisadi siyasətinin əsas tərkib hissəsi kimi çıxış edir. Müstəqillik əldə etdikdən sonra qlobal iqtisadi inkişafa inteqrasiya və innovasiya fəaliyyəti istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi istiqaməti, eyni zamanda ölkədə investisiya-innovasiya mühitinin daha da yaxşılaşdırılması zərurətini artırdı.

**Açar sözlər:** *innovasiya, intellekt, iqtisadi inkişaf, inteqrasiya*

**Гульчохра Салех кызы САЛЕХЗАДЕ**
Старший преподаватель Школы дизайна UNEC
E-mail: salehzade.gulya@gmail.com

## СТИМУЛИРОВАНИЕ ИННОВАЦИОННО-ОРИЕНТИРОВАННОГО РАЗВИТИЯ ЭКОНОМИКИ И ОПРЕДЕЛЕНИЕ НАПРАВЛЕНИЙ УПРАВЛЕНИЯ ИННОВАЦИОННЫМ ПРОЦЕССОМ

### Резюме

В современное время процессы экономического развития в международном мире оказывают серьезное влияние на Азербайджан. Такое влияние ярко проявляется в социально-экономическом развитии, демократизации общества, совершенствовании общественных и управленческих процессов. Как основной воздействующий фактор среди процессов развития особое значение имеют инновационные факторы научно-технического прогресса. Таким образом, именно инновации и научно-технический прогресс выступает ведущей силой, определяя основные тенденции развития человечества, общества, социально-экономических процессов. В современном и перспективном развитии нашей страны это тесно связано с организацией и систематическим совершенствованием инновационной деятельности и управлением инновационными процессами в соответствии с современными требованиями в обеспечении непрерывного социально-экономического роста. Таким образом, важно определить перспективные направления развития страны, использующей результаты и намерения инновационной деятельности и инновационные процессы в общественной, экономической и социальной жизни, а также раскрыть интеллектуальный потенциал, усовершенствовать систему управления, построить инновационной экономики и обеспечения производства конкурентоспособной, наукоемкой продукции показывает положительный эффект. Организация и управление инновационным процессом выступает как основная составляющая социально-экономической политики государства. После обретения независимости направление на реализацию важных мероприятий в направлении интеграции в мировое экономическое развитие и инновационную деятельность, в то же время усилило необходимость дальнейшего улучшения инвестиционно-инновационной среды в стране.

**Ключевые слова**: *инновации, интеллектуальные, экономическое развитие, интеграция.*

**İlknur Rahib oğlu RƏCƏBLİ**
Bakı Biznes Universitetinin Doktorantı
Bakı şəhəri, H. Zərdabi küçəsi, 88a
E-mail: irahiboglu@mail.ru

# "DƏMİR YOLLARI" QSC-də YÜKDAŞIMANIN ELEKTRONLAŞDIRILMASININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

**Xülasə**

Hər bir ölkənin inkişafı üçün onun iqtisadiyyatı mühüm rol oynayır. Ölkənin iqtisadiyyatının inkişaf göstəriciləri müxtəlif olur və bu inkişaf göstəricilərindən biri də xidmət sferalarının daim yenilənməsidir. Dəmir yolları da iqtisadiyyatın inkişafı üçün mühüm xidmət sferalarından biri sayılır. Dəmir yollarının tarixinə nəzər salsaq görərik ki, ingilis mühəndisi Riçard Trevitik 1804-cü ildə "Nyu Kastil" adlı ilk lokomotivi hazırladı. Bu buxar mühərrikli lokomotiv 70 sərnişini rahatlıqla ünvana çatdıra bilirdi. Lokomotivin sürəti isə 8 kilometrə bərarbər idi. Lokomotivin kəşfindən sonra qısa bir zamanda o, mühüm nəqliyyat növlərinin birinə çevrildi. 1826-cı ildə isə ABŞ-da dəmir yolu xətti istifadəyə verildi.

**Açar sözlər:** *lokomotiv, inkişaf, iqtisadiyyat, dəmir yolları, nəqliyyat, qiymətləndirmə, konteyner, ətraf mühit.*

**UOT** 33
**JEL:** L 63

## Giriş

Azərbaycan Respublikasında dəmir yolları tarixi dövrünə nəzər salsaq görərik ki, Azərbaycan Respublikasında ilk dəmir yollarının çəkilişinə XIX əsrin 70-ci illərində başlanılmışdır. Azərbaycan Respublikasında dəmir yolları "Qapalı Səhmdar Cəmiyyəti" tərəfindən 1878-ci ildən etibarən ilk dəfə dəmir yolunun təsisinə başlanıldı və ölkəmizdə ilk dəmir yolu 1880-ci ilin 20 yanvarında yaradıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalamşdır. Sərəncamda vaqon və lokomotiv parkının yerləşdirilməsi, elektrik təchizatları, vaqonlarda texniki vasitələrin modernləşdirilməsi və digər mühüm məqsədlərin inkişafı üçün planlar öz əksini tapmışdır.

*Tədqiqatın məqsədi:* Elektronlaşdırma dünya təcrübəsinin öyrənilməsi fonunda Azərbaycan mühitində elektron iqtisadiyyatda yeri, mövcud vəziyyəti və inkişaf istiqamətlərinin müəyyən edilməsi, yeni innovasiya, məhsul və texnologiyaların verə biləcəyi faydaların öyrənilməsi tədqiqatın əsas məqsədini təşkil edir. Bu məqsəddən irəli gələrək elektronlaşmanın əsas anlayışları izah edilmiş, elektronlaşmanın dəmir yolunda vəhdəti araşdırılmış, bu sahədə mövcud olan pozitiv və neqativ cəhətlər baxışdan keçirilmiş, elektronlaşdırmanın imkanları öyrənilmiş, mövcud vəziyyət, problemlər, yeni innovasiyalar tədqiqata cəlb edilmişdir.

*Tədqiqatın informasiya mənbəyi:* Tədqiqatın informasiya mənbəyini Azərbaycan və rus dillərində nəşr edilmiş və son dövrləri əhatə edən iqtisadi, texniki müasir ədəbiyyatlar, elmi jurnallar, Azərbaycanda professorlar tərəfindən tərtib edilən məqalələr, araşdırmalar, İnternet məkanında mövcud olan Azərbaycan və rus resursları təşkil edir

Tədqiqatın elmi yeniliyi: Tədqiqat obyekti olaraq Azərbaycanda dəmir yolunda elektronlaşmanın tədqiqatacəlb edilməsi keçmiş dövrdə praktikada rast gəlinməmişdir. Elektronlaşdırmanın perspektiv istiqamətlərinin müəyyən edilməsi, yeni innovasiya və strategiyalardan, həmçinin elektron ticarət, İnternet və mobil texnologiyalardan istifadəyə dair nəticə və təkliflər verilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti: Elektronlaşdırmanın tətbiq edilməsi təcrübəsinin göstərilməsi,dünyanın aparıcı dəmir yolunun keçdiyi inkişaf yolu, onların tətbiq etdikləri innovasiyalar, hazırladıqları yeni məhsullar və texnologiyalar zəngin təcrübə rolunu oynayır. Elektronlaşdırmanın Azərbaycan təcrübəsinin ümumi mənzərəsinin hazırlanması, onun inkişafı üçün

zəruri iqtisadi-hüquqi bazanın təkmilləşdirilməsi və düzgün idarə edilməsi üzrə təkliflərin verilməsi bu sahənin inkişafı üçün vacibdir. Tədqiqatda prinsiplər əsasında Azərbaycan dəmir yolunun və müəssisənin gələcək inkişafının üfüqləri və istiqamətləri göstərilir.

## Materiallar və müzakirələr

Azərbaycan Respublikasında dəmir yollarına nəzər yetirsək, görərik ki, 1878-ci ildən 2021-ci ilə qədər böyük inkişaf strategiyaları həyata keçirilib və keçirməkdə də davam edir. Respublikamızda dəmir yolları bildiyimiz kimi həm sərnişin daşımaları, həm də yüklərin daşınması ilə fəliyyatə göstərir. Respublikamızda dəmir yol nəqliyyatında törəmə şirkətlər də mövcuddur və bu şirkətlər aşağıdakılardan ibarətdir [1, s-19].

- ADY Ekspress-şirkətininin əsas məqsədi respublikamızda yükdaşımalarının həcminin artırılmasında tranzit yüklərin cəlb olunması üçün ekspeditor rolunu oynayır və bundan əlavə olaraq iri həcmli yüklərin sahiblərinə onlayn şəkildə xidmət göstərir.
- ADY Konteyner-respublikamızda bütün konteyner meydançaları və dəmir yolu konteyner daşımaları ADY şirkəti tərəfindən təchiz olunur. ADY konteyner şirkəti Sumqayıt, Gəncə, Ələt, Astarada konteyner meydançalarında öz xidmətini göstərir.
- AzRus Trans-bu şirkət əsasən Rusiya, Azərbaycan, Gürcüstan, İran, Türkiyə arasında dəmir yolunun payının artırılması məqsədi ilə yaradılmışdır. Bu şirkət də əsasən taxıl və meşə yüklərinin daşınmasında mühüm əhəmiyyət kəsb edir. Şirkət bunlardan əlavə olaraq da, taxıl və taxta ixracının əsas bir hissəsini Azərbaycan Respublikasından olan vaqonlar vasitəsi ilə həyata keçirir.

Ümumilikdə götürdükdə, qeyd edə bilərik ki, yük daşımaları əsasən daşınılan yükün həcminə görə həm də növünə görə müxtəlif cür olur. Azərbaycan Respublikasında dəmir yol nəqliyyatında yük daşımaları yükün növünə görə, ən çox daşınmasına görə və yükün kodlarına görə bir-birindən fərqləndirilir. Dəmir yolundan daşınılan yükün növləri aşağıdakılardan ibarətdir [2, s-55]:




**Şəkil 1 Dəmir yolunda daşınılan yüklərin növləri.**

Tökmə qalaq yüklər dedikdə bunlara misal olaraq, kömür, filiz, meşə, inşaat, gübrə, taxıl və.s. aid edilir. Tökmə yüklərin daşınması əsasən vaqonlarla, platformalar və müxtəlif növ yarımvaqonlar vasitəsi ilə həyata keçirilir. Bu yüklərin daşınmasında əsasən yüklərin tez boşaldılması üçün xüsusi lüklər mövcuddur.

Maye yüklər dedikdə, sözün özündən göründüyü kimi maye şəklində olan məhsullar nəzərdə tutulur. Bunlara misal olaraq, neft, benzin, mazut, mayeləşdirilmiş qazlar, kimya sənaye məhsulları aid edilir. Həm tez alışan, həm də təhlükəli məhsullar da daxil olmaqla bu yüklərin xüsusi bunker tipli vaqonlarda daşınmaları həyata keçirilir.[3, s-4].

Tezkorlanan yüklər dedikdə əsasən qida məhsullarının daşınması nəzərdə tutulur. Qida məhsullarına misal olaraq ət məhsulları, dondurulmuş və yaxuddaki dondurulmamış balıq məhsulları, nəzərdə tutulur. Bu məhsulların daşınması

üçün refrijerator konteynerləri vasitəsi ilə daşınması həyata keçirilir.

Yarımfabrikat yüklərə əsasən boru, rels, metalyayan yüklər aid edilir. Bu yüklərin daşınması özüboşaldan vaqonlar vasitəsi ilə həyata keçirilir. Özüboşaldan vaqonların üstünlüyü əsasən yükün mexanikləşdirilmiş sürətdə boşalması və yüklənməsi çox alternativlidir.

Təhlükəli yüklər dedikdə, əsasən, həm ətraf mühit, həm də əhali üçün təhlükəli və zərərli olan məhsullar nəzərdə tutulur. Bu yüklər əsasən aşağıdakılardan ibarətdir:




**Şəkil 2 Təhlükəli yüklərin növləri**

Azərbaycan Respublikasında dəmir yol nəqliyyat növü yarandığı gündən etibarən yenilənir və inkişaf etdirilir. Dəmir yol nəqliyyatının inkişaf etdirilməsinin nəticəsi dəmir yollarında yükdaşıma xidmətinin elektronlaşdırılması prosesidir. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Nəqliyyat və tranzit yükdaşımaları sektorunun əsasnaməsində də qeyd olunurdu ki, ölkənin dəniz nəqliyyatını, dəmir yollarını, və bundan əlavə olaraq tranzit yükdaşımaları vasitəsi ilə həyata keçirilən zaman müqavilələrin şəffaflaşdırılması və yük daşıma xidmətlərinin elektronlaşdırılması bir pəncərə prinsipinin tətbiqi məsələlərinin həyata keçirilməsini təmin etməkdən ibarətdir. Hazırda Azərbaycan Dəmir Yollarında yük daşımalarının idarə olunması Dəmir Yol Qapalı səhmdar cəmiyyəti tərəfindən sistemləşdirilir. Azərbaycan Dəmir Yollarında yük daşımalarının idarə olunması üçün "ADY Smart" proqram təminatından istifadə olunur. Smart proqramının istifadəsi respublikamızda 2017-ci ilə təsadüf edir. Bu proqramın istifadəsində aşağıdakı funksiyalar vardır ( şəkil 3).

Bununla bərabər sistemdə beynəlxalq daşımalarda yük qatarlarının sərhədlərdən qəbulu və təhvili yerinə yetirilir, qonşu dövlətlərlə məlumat mübadiləsi aparılır və müvafiq sənədlər tərtib olunur. Sistemdə sərhədlərdən qəbul olunan vaqon və yük məlumatlarının daxil edilməsi, müvafiq şöbə tərəfindən məlumatların monitorinqi, yığılmış verilənlər əsasında daşıma tarifinin hesablanması və yekun məbləğinin ekspeditorlara təqdim edilməsi kimi zəncirvari proses formalaşdırılmışdır [5, s-63]. Bundan əlavə proqram təminatında vaqon təsərrüfatına aid funksiyalar – təmir sənədlərinin tərtibi, vaqonların depoya qəbulu və çıxarılması, vaqon məlumatlarının əldə edilməsi kimi funksiyalar öz həllini tapmışdır.

"ADY Smart" proqram təminatı vasitəsilə hazırda yük daşımalarının məlumat mübadiləsi sürətləndirildi və beləliklə, stansiyada həyata keçirilən əməliyyatlara – sənədlərin emalına sərf edilən vaxt azaldıldı. Eyni zamanda, yük daşıma qaiməsinin sistemdə elektron formada tərtib olunması məlumatların rəqəmsallaşdırılmasına və beləliklə düzgünlüyünün təmin olunmasına kömək edir. "ADY"-də rəqəmsallaşdırılma istiqamətində fəaliyyət göstərən bir sıra struktur vahidlər mövcuddur. Rəqəmsallaşdırma layihələrinin planlaşdırılması, təhlili və icrası, həmçinin müxtəlif vahidlərin rəqəmsallaşma tələblərinin araşdırılıb, uzlaşdırılması ilə avtomatlaşdırma və rəqəmsallaşdırma şöbəsi məşğul olur. Təsərrüfat məlumatlarının toplanması və rəqəmsallaşdırılması, statistik hesabatların hazırlanması və digər administrasiyalarla məlumat

mübadiləsinin həyata keçirilməsi əsasən məlumat hesablama mərkəzi departamanti tərəfindən yerinə yetirilir. Bundan əlavə yuxarıda qeyd edilən "ADY Smart" proqram təminatının funksional baxımdan inkişafını və istifadəçilərin rəqəmsal biliklərinin artırılması üzrə işləri yük daşımaları departamentinin "Texniki və innovativ inkişaf "şöbəsi icra edir.




**Şəkil 3 Smart proqramının funksiyaları**

Dəmir yol qapalı səhmdar cəmiyyətində "ADY Smart" proqram təminatında vaqon təsərrüfatına xas funksiyalar da öz həllini tapmışdır. Burada vaqonların nasazlıq və təmir aktlarının yazılması, vaqonların depoya qəbulu və depodan çıxarılmasının uçotu aparılır. Beləliklə, vaqonlarla bağlı məlumatlar rəqəmsal platformada əks etdirilir, hesabatlılıq formalaşır. Həmçinin bu sayədə, vaqonlarla bağlı vahid beynəlxalq-ABD PV-yə məlumatlar etibarlı şəkildə ötürülür. Proqram təminatında hazırlanmış tarif kalkulyatoru müxtəlif vaqon və yük qrupları üzrə yerli və beynəlxalq daşımaların qiymətini hesablayır, eləcə də tətbiq edilən güzəştləri göstərir [10, s-46]. Bu sayədə dəmir yolu daşımalarının ödəniş sistemi avtomatlaşdırılır.

"ADY Smart" proqram təminatı vasitəsi ilə hal-hazırda yük daşımalarının məlumat mübadiləsi sürətləndirildi və beləliklə, stansiyada həyata keçirilən əməliyyatlara əsasən sənədlərin emalına sərf edilən vaxta da qənaət edildi. Bundan əlavə olaraq da, eyni zamanda, yük daşıma qaiməsinin sistemdə elektron formada tərtib olunması məlumatların rəqəmsallaşdırılmasına və beləliklə də düzgünlüyünün təmin olunmasına kömək edir. Proqram təminatında yüklərin və vaqonların izlənməsi, həmçinin yük daşıma ilə bağlı statistikaların formalaşması müxtəlif struktur vahidlərinin informasiya tələbinin qarşılanmasına töhfə verir. 2016-cı ilin sonundan etibarən, Asiya İnkişaf Bankının (AİB) texniki dəstəyi və "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) mövcud vəsaitləri hesabına, Respublikamızın dəmir yolu sistemində korporativ, institusional, maliyyə və insan resursları sahəsində islahatların həyata keçirilməsini nəzərdə tutan "Dəmir Yolu Sektorunun İnkişafı Proqramı"-nın rəqəmsallaşdırılması üçün proqram işlənilib hazırlanmışdır.

**Nəticə**

Elektronlaşma yalnız dəmir yoluna xidmət etmir, o həm də bazarın tədqiqi, müştərilərin arzu, istək və niyyətlərinin öyrənilməsinə xidmət edən güclü alətdir. Ona görə də, elektronlaşdırma anlayışını elektron vasitələrlə, ilk növbədə İnternet vasitəsilə bazarın araşdırılması, məhsul və xidmətlərinbazara doğru irəlilədilməsi (reklamı, təşviqi), satışı və servisi üzrə fəaliyyət kimi qiymətləndirmək lazımdır. Elektronlaşdırma marketinq kommunikasiya sistemində ciddi dəyişiklikdir və hakimiyyətin satıcıdan alıcıya keçməsidir. Elektronlaşdırmanın növləri elm və texnologiyaların inkişafından, onun həyata keçirildiyi texniki vasitə və hallərdən asılı olaraq dəyişir. Bugünkü vəziyyətə görə elektronlaşdırmanın geniş istifadə edildiyi növləri internet

marketinqi, mobil marketinq, e-mail marketinqi, sosial şəbəkə (media) marketinqidir. Bu növlər elm və texnologiyaların inkişafı ilə əlaqədar olaraq müxtəlif istiqamətlərə bölünməkdə və inkişaf etməkdədir.

## ƏDƏBİYYATSİYAHISI:

1.Allahverdiyev S.S. “Nəqliyyat müqavilələri (nəqliyyat qanunvericiliyinin elmipraktiki kommentariyası)”. I hissə. Bakı, Digesta, 2005, 336 s.

2. “Avtomobil yolları haqqında Azərbaycan Respublikasının Qanunu”. Bakı, Nurlan, 2000

3. Əliyev E.Ə. “Azərbaycan Respublikasının nəqliyyat hüququ”. Dərs vəsaiti. Bakı, Hüquq ədəbiyyatı, 2005.

4.Əliyev E.Ə. “Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi”. Dərs vəsaiti. Bakı,Zərdabi LTD, 2008.

5.Əliyev E.Ə.”Beynəlxalq nəqliyyat daşımalarının konvension təsbiti”. Bakı, Hüquq ədəbiyyatı, 2002.

6.Əliyev E.Ə. “Qloballaşma dövründə beynəlxalq nəqliyyat münasibətlərinin hüquqi tənzimlənməsi”. Bakı, 2007.

7.Əliyev E.Ə. “Nəqliyyat hüququnun əsasları”. Bakı, Hüquq ədəbiyyatı, 2004.

8.Əliyev E.Ə. “Yol hərəkətinin beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik”. Dərs vəsaiti. Bakı, Hüquq ədəbiyyatı, 2003.

9. Əliyev E.Ə. “(2006) Qloballaşma dövründə beynəlxalq nəqliyyat daşınmaları: hüquqi aspektləri”. Bakı, 360 səh.

10. Əliyev E.Ə. (2008) “Beynəlxalq daşınmaların hüquqi tənzimlənməsi”. Bakı, 524 səh.

11. Əliyev E.Ə. (2005) “Azərbaycan Respublikasında nəqliyyat hüququ”. Bakı, 520 səh.

12. Qasımov E. (2008) “Nəqliyyat sektorunda davamlı inkişaf”.

13. Allahverdiyev S.S. (2005) “Nəqliyyatla əlaqəli müqavilələr”.

14. Qafarov Z. Əliyev E. “Müasir beynəlxalq nəqliyyat hüququnun Azərbaycan Respublikasında tətbiqi”. Bakı, 2002.

15. Bağırov F. “Ölkənin sosial-iqtisadi inkişafında nəqliyyatın rolunun yüksəldilməsi istiqamətləri” Bakı, 2009.

16. “Azərbaycan Respublikasında avtomobil yolları səbəkəsinin yeniləsdirilməsi və inkişafına dair Dövlət Proqramı” (2006-2015-ci illər).

**Илькнур Рахиб оглы РАДЖАБЛИ**

# АНАЛИЗ ТЕКУЩЕГО СОСТОЯНИЯ ЭЛЕКТРОНИЗАЦИИ ГРУЗОПЕРЕВОЗОК В АО «ЖЕЛЕЗНЫЕ ДОРОГИ»

## Резюме

funksiyasının əsası müəyyən edilmiş məqsədlərə uyğunlaşmaq üçün resurslardan istifadə etməkdir. İnsan resurslarının təşkili ilk növbədə məqsədinizə çatmağınıza kömək edə biləcək işçi qüvvəsini cəlb etmək deməkdir. Təşkilat daxilində insan elementinin idarə edilməsi tapşırıqların verilməsi, səlahiyyətlərin verilməsi, strukturun və iyerarxiyanın müəyyən edilməsi deməkdir. Maliyyə resurslarını təşkil etmək, kapitalınızın məqsədlərə çatmaq üçün istifadə edildiyinə əmin olmaq deməkdir. Təşkilat öz sinfində ən yaxşı müştəri xidməti komandasına sahib olmaq qərarına gələrsə, o, pulunu başqalarına xidmət etməyə meylli insanları cəlb etmək üçün və təlimə xərcləməyə və ya agentlərə xidmət göstərməyi öyrətmək üçün geri çəkilməyə daha yaxşı hazırdır. Fiziki resursların toplanması, yerləşdirdiyiniz yerin effektivliyinə və fiziki aktivlərdən necə istifadə etdiyinizə diqqət yetirir. İcraçı aşpaz, məsələn, proses axını, qida keyfiyyətini yaxşılaşdırmaq və ya təhlükəsizlik risklərini azaltmaq üçün mətbəxi yenidən təşkil edə bilər. İnformasiya resursları məqsədlərə çatmaq üçün təşkilatın biliklərinin mənalı şəkildə istifadə edilməsini və yayılmasını nəzərdə tutur. İşçiləri maliyyə nəticələrinə necə töhfə verdikləri ilə əlaqələndirmək, səhm qiymətlərini proqnozlaşdırmaq və ya yeni məhsullar hazırlamaq üçün şirkətinizin mülkiyyət alqoritmindən istifadə etmək kimi informasiya resurslarından istifadə etməyin bir yoludur [7,8].

Liderlik təşkilat üzvlərinin yüksək performansını stimullaşdırır (Bateman və Snell, 2013). Bu funksiya təşkilatın üzvlərini planınızla əlaqələndirməkdir. Normalda bu, şəxsi səviyyədə birbaşa hesabatlar və ya komanda yoldaşları ilə əlaqə yaratmaq deməkdir. Komanda daxilində fərdləri nəyin hərəkətə gətirdiyini başa düşmək menecerə motivasiya, həvəsləndirmə, səfərbərlik və töhfə vermək istəyini oyatmaq ətrafında strategiyalar hazırlamağa imkan verir. Bir anlığa təsəvvür edin ki, təşkilatın şərtlərini təhlil etdiniz, izləmək üçün bir oyun planı təyin etdiniz və hətta bu istiqamətdə addım atmaq üçün resursları yönəltdiniz. Siz planlaşdırma və təşkilatlanma funksiyalarını uğurla həyata keçirdiniz. Bu ssenaridə siz komandanızın və ya təşkilatınızın necə iştirak edəcəyini nəzərə almadınız. Onlar sizin istiqamətinizlə razılaşırlarmı? Onların prosesdə iştirakları olubmu? Komanda üzvü kimi özlərini dəyərli hiss edirlərmi? Onlar uğurlu nəticədə öz rollarını başa düşürlərmi? Bütün bu suallara menecerin aparıcı funksiya ilə nə dərəcədə məşğul olması vasitəsilə cavab verilir. Şəxsi söhbətlər etmək, bonus strukturu tərtib etmək və ya həyəcanlandırıcı nitq söyləmək təşkilata rəhbərlik hesab edilə bilər [9].

Nəzarət, komandanı məqsədlərə doğru istiqamətləndirmək üçün proseslərin quraşdırılması və hədəflərə doğru fəaliyyətin monitorinqi və ehtiyac olduqda plana dəyişikliklər edilməsidir (Batemen & Snell, 2013). Nəzarət heç də həmişə təşkilatın hər şeydə öz əli ilə edə biləcəyini məhdudlaşdırmaq demək deyil. Biz bunu mikro-idarəetmə adlandıra bilərik ki, bu da öz ifrat formasında nəzarətdir. Sağlam nəzarət prosesləri, təşkilatınızın planlaşdırma prosesində qoyduğunuz məqsədlərə çatmaq yolunda olduğundan əmin olmaq üçün sistemlərin işə salınmasını əhatə edir. Planlaşdırma müqayisə etmək üçün standartlar təyin edir və nəzarət prosesi standarta cavab verib-vermədiyinizi bildirən tablodur. Məsələn, bir ərzaq mağazası büzülməni azaltmağı qarşısına məqsəd qoya bilər (bu, oğurluq, zədə nəticəsində itirilən məhsuldur). Onlar daralma itkisini 50% azaltmaq istədiklərinə qərar verirlər. Bu plana nail olmaq üçün onlar resurslar ayırmalı olacaqlar (nəzarət etmək üçün daha çox işçi, yükləmə dokunu yenidən təşkil etmək). Siz artıq bu addımı təşkilatçı funksiya kimi tanıyırsınız. Daha sonra biz işçilərimizi bonus strukturu hazırlayaraq həvəsləndiririk – məsələn, məqsədə kollektiv şəkildə nail olsaq, hər bir işçi qənaətdə iştirak edir. Orada dayansaq, məqsədə çatdığımızı bilmək üçün heç bir yolumuz olmayacaq. Nəzarət prosesi bizim üçün bunu həll edir. Ərzaq mağazası menecerinin idarəetmə yanaşmasında son addım, hər bir şöbə müdirinin növbənin sonunda azalma itkisi haqqında məlumat verməsi və Excel cədvəlində toplanmasıdır. Bu yolla menecer yükləmə meydançasının yenidən qurulmasının köhnə tənzimləmə altında baş verən zədələnmiş konservlərin sayını azaltdığını görə bilər. Menecer girişdə qarşılayıcı işə götürdükdən sonra daralmanın yaxşılaşmadığını görsə, dəyişiklik edə bilər. Fəaliyyətin monitorinqi nəzarətdə ilk addımdır. Məqsədlərə doğru

irəliləyişi gördükdən sonra növbəti addım dəyişikliklər etməkdir. Beləliklə, nəzarət prosesi həmişə meneceri idarəetmənin planlaşdırma mərhələsinə qaytarır. Nəzarət prosesinin yalnız iki nəticəsi var. Məqsədinizə doğru irəliləyirsiniz və ya performansınızdan yayınırsınız. Hədəfinizə çatsanız, planlaşdırma funksiyası olan yeni hədəflər təyin etməli olacaqsınız. Əgər hədəfinizə doğru irəliləmirsinizsə, ətraf mühiti təhlil etməli və bunun səbəbini müəyyən etməlisiniz. Bu şəkildə idarəetmə funksiyaları, xüsusən nəzarət və planlaşdırma ilə əlaqəlidir və bir-birindən çox asılıdır [10,11].

Thompson, Strickland və Gable (2007) görə, strategiyanın yaradılması vəzifəsi dörd fərqli strategiya növü və ya səviyyəsini əhatə edir ki, bunların hər biri şirkətin ümumi strategiyasının müxtəlif aspektlərini əhatə edir:

1. Korporativ Strategiya şirkətin biznes qurmaq üçün istifadə etdiyi təşəbbüslərdən ibarətdir. Müxtəlif sənayelərdəki əməliyyatlar, korporativ rəhbərlərin inkişafını artırmaq üçün təqib etdikləri yanaşmalar şirkətin şaxələndirdiyi müəssisələr toplusunun birgə fəaliyyəti və vasitələri kəsişən biznes sinerjisini əldə etmək və onları rəqabət üstünlüyünə çevirmək. Yüksək səviyyəli korporativ rəhbərlər adətən korporativ strategiyanın işlənib hazırlanmasında aparıcı məsuliyyət daşıyırlar.

2. Biznes Strategiyası müvəffəqiyyətli olmaq üçün müəyyən bir iş sahəsində performansa, hazırlanmış hərəkətlərə və yanaşmalara aiddir. Əsas diqqət bazara cavabların hazırlanmasıdır ki, burada şərait və bazar mövqeyini gücləndirmək, rəqabət üstünlüyü yaratmaq üçün tədbirlərə başlamaq və güclü rəqabət qabiliyyətlərini inkişaf etdirmək vacibdir. Biznesdə bu səviyyəli strategiya məsul menecer üçündür 12].

3.Funksional sahə strategiyaları tətbiq ediləcək fəaliyyətlərə, yanaşmalara və təcrübələrə aiddir. Müəyyən funksiyaları, biznes proseslərini və ya biznes daxilində əsas fəaliyyətləri idarə etməkdir. Bu səviyyə marketinq kimi təşkilat daxilində funksional şöbələr üçün strategiyaları təmsil edir. Maliyyə, insan resurslarının idarə edilməsi və satınalma. funksiyaların rəhbərlərinə həvalə olunub, onların müvafiq funksional strategiyaları qutusu aparıcı məsuliyyəti ilə şöbələr və ya bölmələrdir.[13]

4. Əməliyyat Strategiyaları nisbətən dar strateji təşəbbüslərə və yanaşmalara aiddir. Əsas əməliyyat bölmələrinin (zavodlar, paylama mərkəzləri, coğrafi bölmələr və spesifik) idarə edilməsi strateji əhəmiyyət kəsb edən əməliyyat fəaliyyətləri ilə bağlıdır (reklam kampaniyaları, spesifik brendlər, təchizat zənciri ilə əlaqəli fəaliyyətlər və veb sayt satışı və əməliyyatları).

Strategiyanın bu dörd səviyyəsi əsasən birdən çox strateji biznes vahidi olan böyük korporativ təşkilatlara aiddir. Tək sahibkarlıq subyektlərində korporativ və biznes səviyyəli strategiyalar adətən bir səviyyəyə – biznes strategiyasına bölünür və bu tip təşkilatlara yalnız üç səviyyəli strategiya qalır; biznes, funksional və əməliyyat. Beckman və Rosenfield (2008) yalnız strategiyanın hazırlanmasında deyil, həm də həyata keçirilməsində ardıcıllığın və ya strateji uyğunluğun vacibliyini vurğulayırlar. Onlar strategiyada uyğunlaşmaya ehtiyacı olan üç kritik elementin olduğunu iddia edən Nath və Sudharshan-a (1994) işarə edirlər; 1) strategiyanın həyata keçirilməsinin strategiya ilə təşkilatın strukturu arasında uyğunluğun əldə edilməsinə yönəldiyi firmaya daxili uyğunlaşma, 2) strategiyanın formalaşdırılması prosesinin firmanın strategiyası ilə mövcud mühit arasında uyğunluğu axtardığı firmadan kənar fəaliyyət göstərir və 3) daxili-xarici uyğunluq, burada strategiyanın formalaşdırılması və həyata keçirilməsi interaktiv elementlər hesab olunur. İdarəetmənin hər hansı digər sahələrində olduğu kimi, strategiyanın icrasında da ölçülənlər yerinə yetirilir. Bunu bir addım irəli etsək, ölçülən və mükafatlandırılan şey daha sürətli həyata keçirilir.

Strategiyanı izah etdikdən və işçi qüvvəsini ona uyğunlaşdırdıqdan sonra yüksək səviyyəli menecerlər instituta daxil olurlar. Tomson, Strickland və Gamble (2007) görə, strategiyanın icra prosesini idarə etmək aşağıdakı əsas aspektləri əhatə edir: Təşkilatı lazımi bacarıq və təcrübə ilə təmin etmək, şüurlu şəkildə qurmaq və strategiyaya dəstək verən səlahiyyətlərin, rəqabət qabiliyyətlərinin gücləndirilməsi, təşkilatlanması və iş səyi [14].

Strateji uğur üçün vacib olan bu fəaliyyətlərə geniş resursların ayrılması. Siyasət və prosedurların effektiv icraya mane olmaq əvəzinə, asanlaşdırdığını təmin etmək. Əsas

biznes fəaliyyətlərini yerinə yetirmək üçün ən yaxşı təcrübələrdən istifadə etmək və davamlı olmağa təkan verməyin təkmilləşdirilməsi. Təşkilat bölmələri vaxtaşırı işlərin necə edildiyini və necə aparıldığını yenidən qiymətləndirməli olur, faydalı Adəyişikliklər və təkmilləşdirmələri səylə davam etdirir. .Şirkət işçilərinin daha yaxşı işləməsinə imkan verən məlumat və əməliyyat sistemlərinin quraşdırılması, onların strateji rollarını günbəgün artırmaq,insanları məqsədlərə çatmağa həvəsləndirmək və lazım gələrsə, strategiyanın uğurlu icrasının tələblərinə daha yaxşı uyğunlaşmaq üçün vəzifələrini və iş davranışlarını dəyişdirmək [15].

Mükafatları və həvəsləndirmələri birbaşa məqsədlərə nail olmaq üçün bağlamaq. Uğurlu strategiyanın icrası üçün əlverişli şirkət mədəniyyəti və iş mühitinin yaradılması. Tətbiqi irəli aparmaq və strategiyanın necə icra olunduğunu təkmilləşdirmək üçün lazım olan daxili rəhbərliyin tətbiqi. Büdrəmə blokları və ya zəifliklərlə qarşılaşdıqda, rəhbərlik onların vaxtında və effektiv şəkildə həll edilməsini və düzəldilməsini görməlidir.

**Nəticə**

Biznes təşkilatlarının idarə edilməsində strateji menecmentin əhəmiyyəti həddən artıq ola bilməz. Təşkilat daxilində kritik istiqamət təyin edən və resurs bölgüsünə rəhbərlik edən strateji vizyonun inkişafı əsasdır. Strategiyanın hazırlanması, effektiv həyata keçirilməsi, monitorinqi, fəaliyyətinin qiymətləndirilməsi və zəruri hallarda düzəldici müdaxilələrin hazırlanması təşkilatlara davamlı rəqabət üstünlüyü yaratmaq və saxlamaqda kömək edə biləcək kritik aspektlərdən bəziləridir. Strategiyanın hazırlanmasında və həyata keçirilməsində direktorlar şurasının rolu da korporativ idarəetmənin çox mühüm tərkib hissəsidir. Buna görə də, təşkilat şuraları və idarəetmə qrupları öz sənayelərində üstün performansı təmin etmək üçün bütün aspektləri ilə strateji idarəetməyə layiq olduğu diqqəti verməlidirlər.

## ƏDƏBİYYAT SİYAHISI

1. Saunders M. and Lewis P. (2012, pages 201-216): “Doing Research in Business &Management – An Essential Guide to Planning Your Project”.

2. Saunders M., Lewis P. and Thornhill A. 2009, Research Methods for Business Students. 5th. Edition, Essex: Pearson Education Limited 3. Thompson Jr., A., Strickland III, A. J. and Gamble J. E. 2007, Crafting & Executing Strategy. 15th Edition, New York: McGraw-Hill Irwin

4. O’Brien F. A. and Dyson R. G.2007, Supporting Strategy, Framework, Methods and Models. West Sussex: John Wiley & Sons Limited

5. Gravetter F. J. and Forzano L. B.2009, Research Methods for the Behavioral Sciences. 3rd Edition, California: Wadsworth

6. Creswell J. W. 2009, Research Design. 3rd Edition, California: Sage Publications.

7. Beckman S. L. and Rosenfielf D. B. 2008, Operations Strategy: Competing in the 21st Century, New York: McGraw-Hill Irwin.

8. Phatak A. V., Bhagat R. S. and Kashlak R. J. 2009,International Management. 2nd Edition, New York: McGraw-Hill Irwin.

9. Rouse, W. B.2001, Essential Challenges of Strategic Management. New York: John Wiley & Sons, Inc.

10. Kim, W. C., and Mauborgne, R. “Blue Ocean Strategy: From Theory to Practice.” California Management Review 47, No. 3 (Spring 2005), pp. 105-121.

11. Mintzberg, H., Ahlstrand, B., and Lampel, J. Strategy Safari: A Guided Tour through the Wilds of Strategic Management. New York: The Press, 1998.

12. Harrison, E. Frank (1999). The Managerial Decision-Making Process (5th ed.). Boston: Houghton Mifflin.

13. McCall, Morgan W., Jr., & Kaplan, Robert K. (1990). Whatever it takes: The realities of managerial decision making (2nd ed.). Englewood Cliffs, NJ: Prentice-Hall.

14. Porter, Michael E. (1980). Competitive Strategy: Techniques for analyzing industries and competitors. New York: Free Press.

15. Porter, Michael E. (1985). Competitive advantage: Creating and sustaining superior performance. New York: Free Press.

**Мирисмаил Насир оглы ОРУДЖЕВ**
Азербайджанский Государственный Экономический Университет (UNEC),
E-mail: o.ismayil@mail.ru

# ОСНОВНЫЕ ФУНКЦИИ УПРАВЛЕНИЯ БИЗНЕСОМ И СПОСОБЫ ИХ ВЫПОЛНЕНИЯ

**Аннотация**

В данной статье стратегическое управление представлено как важная концепция управления бизнесом. Он определяет стратегию и объясняет ключевые концепции стратегического управления; стратегическое видение, цели, формулирование стратегии, реализация стратегии, оценка и инициирование корректирующих действий. Исследование также сосредоточено на аспекте корпоративного управления стратегического управления; роль совета директоров в разработке и реализации стратегии. В этой статье также обсуждаются различные уровни стратегии питчинга; корпоративный, деловой, функциональный и оперативный. Все эти концепции рассматриваются с целью подчеркнуть их важность в эффективном и действенном управлении бизнес-организациями. В динамичной и высококонкурентной операционной среде деловые организации должны осознавать важность разработки и эффективного выполнения стратегий, которые могут помочь им создать устойчивое конкурентное преимущество.

**Ключевые слова:** *Стратегическое управление, видение, цели, стратегия, реализация, оценка*

**Mirismayil Nəsir oğlu ORUCOV**
Azerbaijan State University of Economics (UNEC),
E-mail: o.ismayil@mail.ru

# THE BASİC FUNCTİONS OF BUSİNESS MANAGEMENT AND THEİR WAYS OF EXECUTİNG

**Summary**

This paper presents strategic management as an important business management concept. It defines strategy and explains the key concepts in strategic management; strategic vision, objectives, strategy formulation, strategy implementation, evaluation and initiating corrective action. The research also focuses on the corporate governance aspect of strategic management; role of the board of directors in crafting and executing strategy. The different levels of pitching strategy are also discussed in this paper; corporate, business, functional and operational. All these concepts are examined with a view to highlight their importance in the effective and efficient management of business organizations. In an operating environment that is dynamic and highly competitive, business organizations need to appreciate the importance of crafting and effectively executing strategies that can help them create sustainable competitive advantage.

**Keywords**: *Strategic management, vision, objectives, strategy, implementation, evaluation*

**Turqut Könül oğlu TAĞIZADƏ**
Azərbaycan Dövlət Aqrar Universiteti
E-mail:2001tagizade@mail.ru

# KƏND TƏSƏRRÜFATINDA SIĞORTA SİSTEMİNİN MÖVCUD VƏZİYYƏTİ

**Xülasə**

Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən biri olan aqrar sahənin inkişafı ölkədə iqtisadi inkişafdan, əhalinin həyat səviyyəsinin və rifahının artmasından xəbər verir. Kənd təsərrüfatında əhalinin tələbatlarını ödəmək üçün əsas kənd təsərrüfatı məhsulları və ərzaq məhsullarının istehsalında istifadə olunan xammal istehsal edilir. Əhalinin istehlak mallarına olan tələbatının 70%-dən çoxu kənd təsərrüfatının hesabına ödənilir. Dünya ölkələrinin əksəriyyətində olduğu kimi aqrar sahə dövlətin himayəsi altındadır. Bu sahəyə dəstək güzəştli vergiqoyma, güzəştli kreditlər, subsidiyaların verilməsi ilə yanaşı aqrar sahədə sığorta sisteminin inkişaf etdirilməsi ilə də həyata keçirilir. Azərbaycanda kənd təsərrüfatında həyata keçirilən sistemli islahatlar, sahəyə və investorlara göstərilən dövlət dəstəyi tədbirləri nəticəsində aqrar sahə bu gün ölkə iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindədir. Aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi nöqteyi nəzərindən ən vacib məsələlərdən biri aqrar sığorta mexanizminin formalaşdırılmasıdır. Aqrar sığorta fəaliyyəti aqrar istehsalın artırılmasına, onun inkişafını təmin etməyə, kənd əhalisinin həyat səviyyəsini yaxşılaşdırmağa hədəflənir. Aqrar istehsalın sabitliyinin, gəlirliliyinin təmin edilməsi üçün əsas alət sığorta müdafiəsidir. Məqalədə Azərbaycanda kənd təsərrüfatı sahəsinin mövcud vəziyyəti və inkişaf meyilləri təhlil edilmiş, sahəyə dövlət dəstəyi tədbirləri araşdırılmış və ölkənin kənd təsərrüfatı sahəsində sığorta sisteminin mövcud səviyyəsi təhlil edilmişdir.

**Tədqiqatın məqsədi.** Azərbaycanda kənd təsərrüfatının və kənd təsərrüfatında sığorta sisteminin, bitkiçilik və heyvandarlıqda sığortanın mövcud vəziyyətinin təhlilini aparmaq və qiymətləndirməkdən, aqrar sahədə sığortanın təkmilləşdirilməsi məsələlərinin öyrənilməsindən ibarətdir.

**Tədqiqatin metodu.** Tədqiqatın gedişində təhlil, müqayisə, statistik tədqiqat metodlarından istifadə edilmişdir

**Tədqiqatin nəticələri**. Tədqiqat zamanı aparılan təhlil nəticəsində belə qərara gəlmişik ki, Azərbaycanın kənd təsərrüfatı sahəsi dinamik inkişaf edir, aqrar sahənin sığorta sistemi formalaşır və bu sahəyə dövlət dəstəyi siyasəti yaxşı nəticələr verir.

**Açar sözlər:** *bitkiçilik, heyvandarlıq, ÜDM, artım, dövlət dəstəyi, subsidiya, sığorta, sığorta hadisəsi, siğorta haqqı, sığorta ödənişləri.*

**UOT:** 338
**JEL:** F14

## Giriş

Kənd təsərrüfatı iqtisadiyyatın ən mühüm sahələrdən biridir və Azərbaycan iqtisadiyyatında xüsusi yer tutur. Kənd təsərrüfatında əhalinin tələbatlarını ödəmək üçün əsas kənd təsərrüfatı məhsulları və ərzaq məhsullarının istehsalında istifadə olunan xammal istehsal edilir. Əhalinin istehlak mallarına olan tələbatının 70%-dən çoxu kənd təsərrüfatının hesabına ödənilir. Əhalinin həyat səviyyəsi və rifahı (qidalanmanın ölçüsü və strukturu, adambaşına düşən gəlir, əmtəə və xidmətlərin istehlakı, sosial şərait və s.) çox halda məhz kənd təsərrüfatının inkişafından asılıdır. Elm və texnikanın müasir vəziyyəti imkan verir ki, insan üçün lazım olan istehlak mallarının çoxu torpaqda bitən bitkiçiliyin orqanik maddələrindən istehsal edilsin. Məhz bitki və heyvan mənşəli məhsullar insan orqanizmini enerji ilə təmin edir.

Aqrar sahə ölkə iqtisadiyyatında ikili rol oynayır: bir tərəfdən daxili və xarici bazarlara hazır məhsul çıxarır; digər tərəfdən isə iqtisadiyyatın başqa sahələrinin əmtəə və xidmətlərini istehlak edir. Belə ki, bitkiçilik və heyvandarlıq təsərrüfatları kimya sənayesi müəssisələrində istehsal olunan mineral gübrələrin, bitki və heyvanların xəstəliklərdən və zərərvericilərdən qorunması üçün kimyəvi maddələrin istehlakçısıdır. Kənd təsərrüfatı və qida sənayesi sahələri arasında sıx qarşılıqlı əlaqələr mövcuddur. Çünki, aqrar sahə qida sənayesi üçün xammal istehsal edir və

fəaliyyət istiqamətini onun tələblərinə uyğun olaraq qurur [1, 16 s.].

Kənd təsərrüfatı iqtisadiyyatın digər sahələrini xam malla təmin edir, milli gəliri artırır. Əsas iqtisadi proporsiyalar, ölkə iqtisadiyyatının artımı müəyyən mənada kənd təsərrüfatının vəziyyətindən və inkişaf tempindən asılıdır.

Ölkənin ərzaq təhlükəsizliyi və hətta iqtisadi təhlükəsizliyi müəyyən mənada kənd təsərrüfatının inkişaf səviyyəsindən asılıdır. Bu da onunla bağlıdır ki, həm bəzi ərzaq məhsullarının özü, həm də onların hazırlanması üçün lazım olan xammal kənd təsərrüfatında istehsal olunur. Bu məhsullar isə insanların həyat fəaliyyətinin və işçi qüvvəsinin təkrar istehsalının əsasını təşkil edirlər.

Kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi hökumətin iqtisadi siyasətinin prioritet istiqamətidir. Odur ki, ərzaq təhlükəsizliyinin təmin olunması aqrar sahənin davamlı inkişafını zəruri edir və bu sahədə olan problemlərin həllini şərtləndirir [1].

**Azərbaycanda kənd təsərrüfatının mövcud vəziyyətinin təhlili**

Son illərdə iqtisadiyyatın vacib sektorlarından biri olan qeyri-neft sektorunun inkişafı ilə yanaşı kənd təsərrüfatının da dinamikliyi və dayanıqlığı təmin edilmişdir. Əkin yerləri və su resurslarından səmərəli istifadə olunması sahəsində vacib addımlar atılmışdır. Pambıq, taxıl və digər kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması, maldarlıqda məhsul artımını təmin etmək və dövriyyəyə yeni suvarılan torpaqların cəlb edilməsi üçün ölkədə əkin yerlərinə suyun verilməsi yaxşılaşdırılmışdır. Yeni nasos stansiyaları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilmişdir.

Kənd təsərrüfatı istilik, işıq, vegetasiya dövrünün uzunluğu kimi iqlim şəraitindən istifadə edir və kənd təsərrüfatı bitkilərini yetişdirir, bitkiçilik məhsullarının istehsalı ilə məşğul olur. Lakin bizim ölkədə də dağlıq ölkələrin çoxunda olduğu kimi torpaq sahələri və o cümlədən kənd təsərrüfatına yararlı torpaqlar məhduddur. Belə ki, Azərbaycanda olan 8,6 milyon hektardan bir az çox olan torpaq sahələrinin 4,6 milyon hektarı kənd təsərrüfatına yararlı torpaqlardır. 2016-cı ildə həmin torpaqların strukturunda 1628,3 hektar və ya 41% əkin yerləri, 5,1% çoxillik əkililər, 53,1% biçənək və otlaq-örüş yerləri, 0,8% isə dincə qoyulmuş torpaqlar olmuşdur. 2021-ci ildə isə bu göstərici, müvafiq olaraq 42,9%, 5,7%, 50,6% və 0,8 % olmuşdur.

Ölkədə kənd təsərrüfatı sahəsini inkşaf etdirmək üçün geniş imkanlar vardır. Respublika ərazisində isti və işıqlı günlərin sayı kifayət qədərdir, bu ildə iki dəfə məhsul yığmağa və otlaqlardan demək olar ki, il uzunu istifadə etməyə imkan verir. Bitkiçilik məhsulunun 70%-dən çoxu suvarılan torpaqlardan alınır. Azərbaycanda kənd təsərrüfatının bitkiçilik sahəsi əsasən taxılçılıq, üzümçülük, bağçılıq, tərəvəzçilik, tütünçülük və çayçılıq üzərində ixtisaslaşmışdır. Heyvandarlıq sahəsi isə maldarlıq, qoyunçuluq, quşçuluq, arıçılıq və ipəkçilik üzərində qurulmuşdur. Beləliklə, Azərbaycanda bitkiçilikdə taxıl, üzüm, müxtəlif cür meyvələr və tərəvəz, pambıq, çay istehsal edilir. Heyvandarlıqda isə ət, süd, yumurta, yun istehsal edilir. Belə ki, 2016-cı ildə ölkədə istehsal edilən 60425,2 milyon manatlıq ÜDM-in 5,6%-i kənd təsərrüfatının payına düşmüşdür. 2021-ci ildə isə 92857,7 milyon manatlıq ÜDM-in 5,9%-i kənd təsərrüfatında istehsal edilmişdir. 2016-cı ildə kənd təsərrüfatının 5632,4 milyon manatlıq ümumi məhsulunun 2577,2 milyon manatı və ya 49,2%-i bitkiçilik məhsulları olmuşdur, 3055,2 milyon manatı və ya 50,8%-i isə heyvandarlıq məhsulları olmuşdur. 2021-ci ildə ölkənin kənd təsərrüfatında ümumi məhsul artaraq 9163,4 milyon manat olmuşdur, ondan 4512,0 milyon manatı bitkiçilikdə, 4652,4 milyon manatı heyvandarlıqda istehsal edilmişdir. 2016-cı illə müqayisədə kənd təsərrüfatının ümumi məhsulunda artım 63% təşkil etmişdir. Bitkiçilikdə 2016-2021-ci illər ərzində artım 75%, heyvandarlıqda isə 52% olmuşdur.

Əkin üçün əlverişli ərazilərin və əlverişli temperatur balansının olması Azərbaycanın düzənlik sahələrində heyvandarlıqla müqayisədə məhz bitkiçilikdə daha çox artımın olmasına səbəb olmuşdur.

Ölkəmizdə bitkiçiliyin bir çox sahəsi bağçılıq, tərəvəzçilik, tütünçülük, pambıqçılıq, üzümçülük və s. inkişaf etmişdir. Bu sahələr ixtisaslaşmış sahələr hesab olunur və ölkənin daxili tələbatını ödəyir.

Belə ki, taxılçılıq sahəsi üzrə 2016-cı ildə özünütəminat səviyyəsi 64%, 2021-ci ildə isə

74% olmuşdur (artım 10%); bütün növ tərəvəz məhsulları üzrə müvafiq olaraq 105,4% və 106,6% (artım 1,2%), o cümlədən pomidor üzrə müvafiq olaraq 119% və 121% (artım 2%); bostan məhsulları üzrə müvafiq olaraq 100,2% və 102,6% (artım 2,4%); meyvə və giləmeyvəlilər üzrə 116,4% və 122,9% (artım 6,5%); üzüm üzrə 89,2% və 94,4 % (artım 5,2%).

Yuxarıda qeyd edildiyi kimi, heyvandarlıq sahəsi də Azərbaycanda inkişaf etmişdir. Əhalinin bir çox heyvandarlıq məhsullarına olan tələbatının yarıdan çoxu yerli istehsal hesabına ödənilir. Belə ki, 2016-cı ildə bütün növ ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 87,9%, 2021-ci ildə isə 86,4% (azalma 1,5%) olmuşdur; süd və süd məhsulları üzrə müvafiq olaraq 87,7% və 84,8% (azalma 2,9%); yumurta üzrə müvafiq olaraq 98,8% və 99,1% (artım 0,3%); balıq və balıq məhsulları üzrə 82,3% və 78,2% (azalma 4,1%).

90-cı illərdə Azərbaycanda aparılan aqrar islahatlar nəticəsində ölkədə kənd təsərrüfatı formalaşdırılmışdır. Bu gün ölkəmizin kənd təsərrüfatı sahəsində müxtəlif hüquqi-təşkilatı formaya malik təsərrüfatlar vardır. İslahatlar başlanan dövrdən Azərbaycanın kənd təsərrüfatında dövlət kənd təsərrüfatı müəssisələri, kooperativlər, səhmdar cəmiyyətləri, kəndli ailə təsərrüfatları və fərdi sahibkarların təsərrüfatları kimi təsərrüfatçılıq qaydaları formalaşmışdır. Belə ki, dövlət mülkiyyətində olan kənd təsərrüfatı müəssisələri ilə yanaşı xüsusi mülkiyyətə əsaslanan kənd təsərrüfatı müəssisələri də fəaliyyət göstərir. 2016-cı ildə Azərbaycanın kənd təsərrüfatında 1716 kənd təsərrüfatı müəssisəsi və 1468 fərdi sahibkar təsərrüfatları fəaliyyət göstərirdi. Kənd təsərrüfatı müəssisələrinin 187-i dövlət mülkiyyətində, 1519-u xüsusi mülkiyyətdə, 2-i bələdiyyə mülkiyyətində, 3-ü xarici mülkiyyətdə, 5-i isə birgə mülkiyyətdə olan kənd təsərrüfatı müəssisələri olmuşdur. 2021-ci ildə isə kənd təsərrüfatı müəssisələrinin sayı 32,5% azalaraq 1159-da qalmışdır. Onlardan 113-ü dövlət mülkiyyətində olan müəssisələr (azalma 40%), 1030-u xüsusi mülkiyyətdə olan müəssisələr (azalma 33%), 7-i xarici mülkiyyətdə olan müəssisələr (artım 2,3 dəfə), 9-u birgə mülkiyyətdə olan kənd təsərrüfatı müəssisələri (artım 1,8 dəfə) olmuşdur. Fərdi sahibkar təsərrüfatlarının sayı 2021-ci ildə 910 (azalma 39%) olmuşdur. Kənd təsərrüfatı müəssisələrinin sayının azalması ilə yanaşı bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi artmışdır. Belə ki, kənd təsərrüfatı müəssisəsinin istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahəsi 2016-cı ildə 178,5 hektar olmuş, 2021-ci ildə isə iki dəfə artaraq 344,9 hektar olmuşdur. Fərdi sahibkar təsərrüfatlarının istifadəsində olan kənd təsərrüfatına yararlı torpaq sahəsi 2016-cı ildə 34,5 hektar, 2021-ci ildə isə 32% artaraq 45,6 hektar olmuşdur. Beləliklə, təsərrüfatların sayının azalmasını müəyyən mənada onların böyüməsi ilə izah etmək olar [3].

**Kənd təsərrüfatına dövlət dəstəyi**

Bu gün aqrar sahənin müasir tələblərə uyğun olaraq inkişaf etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə çox işlər görülür. Təsadüfü deyildir ki, 2003-cü ildə Prezident seçildikdən sonra ilk sərəncamlarında aqrar sahənin inkişafına xüsusi diqqət ayrılmışdır. Həmin dövrdən başlayaraq kənd təsərrüfatı əmtəə istehsalçıları torpaq vergisindən başqa bütün vergilərdən azad edilmişdir, onlara müxtəlif subsidiyalar ayrılmağa başlanmışdır (yanacaq və sürtkü materiallarının, gübrələrin istifadəsinə, toxum, heyvandarlıq məhsullarının istehsalına görə və s.). Bu cür tədbirlər bu gün də davam etdirilir.

Belə ki, kənd təsərrüfatı əmtəə istehsalçılarına büdcədən güzəştli kreditlər verilir; kənd təsərrüfatında istifadə olunan istehsal vasitələrinin idxalını təşfiq etmək üçün gömrük güzəştləri tədbiq olunur; Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən lizinq yolu ilə kəndlilərə satılan kənd təsərrüfatı texnikasının və avadanlığının dəyərinin 40%-i büdcədən ödənilir; kənd təsərrüfatı əmlakının və bir sıra sığorta hadisələrinin sığortalanması üzrə hesablanmış sığorta mükafatının 40%-ni dövlət ödəyir. Kənd təsərrüfatı istehsalında istifadə olunan yanacaq və sürtkü materiallarının dəyərinin 50%-nin dövlət tərəfindən ödənilməsi üçün hər hektar əkin sahəsi üçün 50 manat ölçüsündə subsidiya nəzərdə tutulmuşdur; emal müəssisələrinə satılan pambığın 1 kiloqramı üçün 0,1 manat, quru tütünün 1 kiloqramı üçün 0,1 manat, 10 kiloqram nəm tütün üçün 0,5 manat məbləğində subsidiyalar verilir; barama istehsalçılarına emal müəssisəsi qəbul edən 1 kiloqram yaş barama üçün 5 manat subsidiya verilir; şəkər çüğundurunu emal edənlərə verilən hər ton şəkər çuğunduru üçün 4 manat subsidiya verilir. Bundan başqa kənd təsərrüfatı

məhsulları istehsal edənlərə suvarma üçün su güzəştlə satılır, 1000 kv.m. üçün 50 qəpik; lizinq xətti ilə satılan müasir suvarma avadanlığının dəyərinin 40%-i, sənaye istehsalı olan gübrələrin, pestisidlərin dəyərinin 70%-i dövlət büdcəsindən ödənilir. Habelə, toxum və çiling istehsalı və satışı subsidiyalaşdırılır; kənd təsərrüfatı bitkilərinə xüsusən təhlükəli olan ziyanvericilərlə mübarizə və karantin tədbirləri dövlət büdcəsindən maliyyələşdirilir.

Heyvandarlıq sahəsində idxal olunan və lizinq yolu ilə satılan əmtəələrin dəyərinin 50%-i dövlət büdcəsindən maliyyələşdirilir; süni mayalanma infrastrukturu dövlət tərəfindən təqdim olunur və bu yolla alınan hər bala dana üçün 100 manat subsidiya verilir; kənd təsərrüfatı heyvanlarının və quşların xüsusi təhlükəli olan xəstəliklərinin diaqnostikası və müalicəsini dövlət təmin edir; arıçılıqla məşğul olanlara hər arı ailəsi üçün ildə 10 manat subsidiya verilir. Fermerlər bu dövlət dəstəyi tədbirlərindən yararlanaraq inkişaf edirlər.

Hal hazırda 44-günlük Vətən müharibəsi nəticəsində erməni işğalından azad edilmiş torpaqlarda kənd təsərrüfatı sahələrinin inkişafı həyata keçirilir. Belə ki, 2021-ci ildə Qarabağ iqtisadi rayonunda 850 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilmişdir, o cümlədən, bitkiçilik məhsulları 399 milyon manat, heyvandarlıq məhsulları 451 milyon manat; Şərqi Zəngəzur iqtisadi rayonunda isə 84,4 milyon manatlıq kənd təsərrüfatı məhsulları, o cümlədən 6,5 milyon manat bitkiçilik, 77,9 milyon manat heyvandarlıq məhsulları istehsal edilmişdir.

**Kənd təsərrüfatında sığorta sisteminin mövcud vəziyyəti**

Kənd təsərrüfatı istehsalı çox böyük risklərlə bağlıdır. Bu həm sahənin təbii-iqlim və hava şəraitindən asılılığı ilə, həm də burada istehsal vasitələri qismində canlı orqanizmlərdən istifadə ilə əlaqədardır. Köppenin təsnifləşdirilməsinə uyğun olaraq dünyada mövcud olan 11 iqlim tipindən 9-u Azərbaycanda var. Azərbaycan ərazisinin çox hissəsi subtropik qurşaqda yerləşir. Burada yarımsəhra, subtropik, orta və soyuq iqlim vardır. Ölkənin coğrafi yerləşməsi aqrar sahənin, o cümlədən aqrar sığortanın da inkişafı üçün böyük imkanlar açır.

Bütün dünyada olduğu kimi Azərbaycanda da iqlim şəraitinin dəyişməsi müşahidə edilir və bunun özü də risklərin minimallaşdırılmasını tələb edir. Risklərin daha səmərəli şəkildə minimallaşdırılması mexanizmlərindən biri də aqrar sığorta sisteminin olmasıdır.

Kənd təsərrüfatı bitkiləri və çoxillik əkinlər sığortalanarkən sığorta obyekti məhsul və onun yetişdirilməsinə sərf edilən xərclər olur. Sığortalama bütün bitki növlərinə - payızlıq bitkilərə, bağlara, giləmeyvəliklərə, üzümlüklərə, istixanalara, tinglik təsərrüfatlarına və i. a. şamil edilir.

Bu sahədə sığortalanmanın könüllü forması üstünlük təşkil edir. Müqavilənin bağlanmasının əsas şərtlərindən biri təsərrüfatların aqrotexniki tələblərə əməl etmələridir [2, s.178]

Heyvandarlığın sığorta vasitəsilə müdafiəsi kənd təsərrüfatında məhsul istehsalçılarının əsas və dövriyyə fondlarının tərkib hissəsi olan heyvanların ölməsi, məhv olması və məcburiyyət qarşısında kəsilməsi nəticəsində dəyən zərərin ödənilməsinə, təbii fəlakət və digər əlverişsiz hadisələr nəticəsində heyvandarlıq məhsullarının azalması ilə əlaqədar kompensasiyaların ödənilməsinə yönəldilmişdir [2, s.182].

Azərbaycanda aqrar sahədə sığorta sisteminin təşkili və inkişaf etdirilməsi, bazar strukturunun formalaşdırılması və nəzarət məqsədilə ölkə prezidentinin 19 avqust 2019-cu il tarixli sərəncamına əsasən Azərbaycanın Aqrar Sığorta Fondu yaradılmışdır. Fondun sığorta haqqlarının yığılmasına icazə verilməsi qanunu 2020-ci il 1 yanvardan qüvvəyə minmişdir. Hal-hazırda fond 48 məhsul və 29 risk üzrə sığorta təminatı təqdim edir. 1 yanvar 2021-ci il tarixə Fondun aktivləri 7,979 milyon manat təşkil etmişdir. Bu aktivlərin 437 min manatı fondun öhdəlikləri hesabına, 7,542 milyon manatı isə balans kapitalı hesabına formalaşdırılmışdır. Fond maliyyə hesabatına uyğun olaraq işinin birinci ilini 1,458 milyon manat ziyanla başa vurmuşdur. Fermerlərə dəstək məqsədilə sığorta ödənişlərinin 50%-ni dövlət ödəyir.

Fondun məlumatlarına görə 2021-2022-ci illərdə bitkiçilik üzrə 55024 aqrar sığorta müqaviləsi bağlanmışdır, onlardan 41529-u (75%) taxıl və arpa əkinləri üzrə olmuşdur. Ümumilikdə bu günə qədər fond ölkə üzrə əkin

yerlərinin 23%-ni sığortalamışdır. 450 min hektar sığortalanmış əkin sahəsinin 370 mini buğda və arpa əkinləridir [3].

2021-2022-ci ilin əkin mövsümündə bitkiçilik üzrə yığılmış sığorta haqlarının məbləği 11,5 milyon manat olmuşdur. 2021-ci ildə 2020-ci illə müqayisədə aqrar sığorta bazarında 5,5 dəfə artım müşahidə edilmişdir. Növbəti ildə aqrar sığorta obyektlərinin sayının artması gözlənir. Bu, əsasən və ilk növbədə meyvə bağları olacaqdır. Sığortaya cəlb olunan kənd təsərrüfatı heyvanlarının sayı da artacaqdır. Bununla da aqrar sığorta mexanizmi genişləndirilmiş olacaqdır.

2021-ci ildə Azərbaycanda aqrar sığorta fondu sığorta halları üzrə 152 min manat ödəniş etmişdir. Onlardan 29 min manat məhsul sığortası üzrə, 123 min manat isə kənd təsərrüfatı heyvanlarının sığortası üzrə olmuşdur. 2021-ci ildə fond 18836 heyvan sığortalamışdır, yığılan sığorta mükafatlarının məbləği isə 5,89 milyon manat olmuşdur. 2021-ci ildə fondun cəmi sığorta mükafatları 11 milyon 261 min manat olmuşdur. Fondun aqrar sığorta bazarında payı 2021-ci ilin nəticələrinə görə 92% olmuşdur. Heyvandarlıq üzrə sığorta təminatının ölçüsü 59 milyon manat olmuşdur [3].

2021-ci ilin dekabr ayında Nazirlər Kabineti sığortalanmalı olan kənd təsərrüfatı bitkilərinin sayını 14-dən 41-ə qədər artırdı. İndi digər bitkilərlə yanaşı xurma və nar ağacları da aqrar sığortaya cəlb olunan bitkilərin siyahısına daxil edilmişdir. Xurma ixracı Azərbaycana 126 milyon ABŞ dolları, nar ixracı isə 18 milyon ABŞ dolları gətirmişdir [3].

2022-ci ildə dövlətin köməyi ilə aqrar sığorta fondu aqrar sığorta mexanizmi vasitəsiylə xurma bağlarının və nar ağaclarının güzəştli sığortalanmasına başlamışdır. Aqrar sığorta meyvə məhsulunu, o cümlədən nar və xurmanı, dolu, yanğın, zəlzələ, torpaq sürüşməsi, çovğun, sel, yağış, ildırım, donvurma zamanı və üçüncü şəxslərin hərəkətləri nəticəsində dəyən ziyandan qoruyur [3].

**Nəticə**

Aqrar sahə burada həyata keçirilən sistemli islahatlar, aqrar sahəyə və investorlara göstərilən dövlət dəstəyi tədbirləri nəticəsində bu gün ölkə iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindəndir.

Azərbaycanda formalaşan aqrar sığorta sistemi Türk Respublikasının kənd təsərrüfatı sisteminin təcrübəsinə əsaslanır. Aqrar sığorta vasitəsiylə fermerlər kənd təsərrüfatı heyvanlarını, əkin yerlərini, əkililərini və bitkiçilik məhsullarını ən aktual risklərdən və güzəştli şərtlərlə sığortalaya bilərlər. Aqrar sığorta mexanizminin tətbiqi həm fermerləri və sahibkarları dəstəkləyəcək, həm də kənd təsərrüfatını biznesin ən təhlükəsiz sferasına çevirəcək, bu sahəyə investisiyaları artıracaq və bütövlükdə kənd təsərrüfatının daha da inkişaf etməsi üçün zəmin yaradacaq.

Azərbaycanda kənd təsərrüfatının sığortalanmasının təşviqi məqsədilə dövlət kənd təsərrüfatında sığortanı stimullaşdırır. Bu sahədə dövlətin vəzifələri aşağıdakılardan ibarətdir:

1. Dövlət tərəfindən sığortalamaya yardım üçün zəruri olan şərtlərin, qaydaların hazırlanması və təsdiqi;
2. Sığortaya cəlb edilən və buna dövlət tərəfindən yardım göstərilən obyektlərin, sığortalanan risklərin və sığorta haqqının hansı hissəsinin büdcə vəsaiti hesabına ödəniləcəyinin müəyyənləşdirilməsi;
3. Sığorta tariflərinin müəyyən edilməsi;
4. Hesablanmış sığorta haqqının bir hissəsinin büdcə vəsaiti hesabına ödənilməsi;
5. Dövlət yardımı hesabına aparılan sığorta işləri üzrə sığortalananların sığortaçılar üzrə hesabatının aparılması.

## ƏDƏBİYYAT SİYAHISİ:

1. R. R. Mustafayeva, A.N.Hətəmov, M.H.Həsənova, F.V.Süleymanov. “Aqrar iqtisadiyyat”. Ali məktəb tələbələri üçün dərslik. Bakı, Mütərcim, 2022, 304 səh.
2. E. R. İbrahimov, M. C. Hüseynov, E. A. Salahov, Y. Ə. Abbasova. “Sığorta işi”. Ali məktəb tələbələri üçün dərslik. Bakı.
3. https://www.stat.gov.az
4. https://asf.gov.az/
5. https://www.insur-info.ru/press/171983/

**Тургуд Кёнуль оглы ТАГИЗАДЕ**

## НАСТОЯЩЕЕ ПОЛОЖЕНИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА И СИСТЕМЫ СТРАХОВАНИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

Развитие аграрной отрасли, являющейся одной из ведущих отраслей экономики Азербайджана, говорит о росте экономического развития, уровня жизни и благосостояния населения страны. Аграрная отрасль в Азербайджане, как и в большинстве стран мира, находится под опекой государства. Поддержка этой отрасли осуществляется как посредством субсидирования, льготного кредитования и налогообложения, так и развитием системы страхования в аграрной отрасли. В настоящей статье анализируется существующее положение и тенденции развития отрасли сельского хозяйства в Азербайджане, исследованы меры государственной поддержки отрасли и проанализировано существующее положение системы страхования в отрасли сельского хозяйства страны.

**Ключевые слова:** *растениеводство, животноводство, ВВП, рост, государственная поддержка, субсидии, страхование, страховой случай, страховые взносы, страховые выплаты*

**Turqut Kenul TAGHİZADEH**

## PRESENT SITUATION OF AGRICULTURE AND AGRICULTURAL INSURANCE SYSTEM IN AZERBAIJAN.

**Summary**

The development of one agricultural sector, which is one of the leading sectors of the Azerbaijani economy, speaks of an increase in economic development, living standards and well-being of the country's population. The agricultural sector in Azerbaijan, as in most countries of the world, is under the care of the state. This industry is supported both through subsidizing, preferential lending and taxation, as well as through the development of an insurance system in the agricultural sector. This article analyzes the current situation and development trends of the agricultural sector in Azerbaijan, examines the measures of state support for the industry and analyzes the current situation of the insurance system in the country's agricultural sector.

**Key words:** *crop production, animal husbandry, GDP, growth, state support, subsidies, insurance, insured event, insurance premiums, insurance payments.*

**Həsən Sarif oğlu HƏSƏNOV**
Gəncə Dövlət Universitetinin doktorantı

# COVİD-19 BÖHRANINDAN SONRA FİSKAL SİYASƏTİN İSTİQAMƏTLƏRİ

**Xülasə**

İnkaredilməz faktdır ki, COVİD-19 qlobal iqtisadiyyata ciddi təsir göstərmişdir. Pandemiya təkcə qlobal sağlamlıq böhranına deyil, həm də iqtisadi yavaşlama və tənəzzülə səbəb oldu. Bu, qlobal sağlamlığa ciddi təsir göstərərək, bu sahədə böhran yaratdı və eyni zamanda, iqtisadi aktivliyin kəskin azalmasına səbəb oldu. Bundan əlavə, pandemiyanın ölkələrdə məşğulluğa, iqtisadi sabitliyə, sosial rifaha, ümumiyyətlə, ÜDM-ə (Ümumi Daxili Məhsul) və əksər digər sahələrə zərərli təsir göstərdiyini qeyd etmək lazımdır. Bununla yanaşı, bütün dünyada dövlət maliyyəsinin əhəmiyyətli dərəcədə pisləşməsinə səbəb olan pandemiya bir daha sübut etdi ki, ölkələr kapital tarazlığını qorumaq, böyümə və davamlılığı təmin etmək üçün yaxşı işlənmiş və effektiv maliyyə siyasətinə malik olmalıdırlar. Hökumətlər öz iqtisadi vəziyyətlərini bərpa etmək üçün effektiv və səmərəli siyasətlər qurmağa diqqət yetirirlər. Bu məqalə, ilk növbədə, COVİD-19-un dövlət maliyyəsinə mənfi təsirlərinin müəyyən edilməsinə, ölkələr üçün müvafiq və effektiv vergi və fiskal siyasətlərin müəyyən edilməsinə yönəlib. Bundan əlavə, məqalə pandemiyanın zərərli təsirlərinin azaldılması və uzunmüddətli perspektivdə tamamilə aradan qaldırılması üçün dövlət maliyyəsində mühüm siyasətlərin formalaşdırılmasına öz töhfəsini verir.

**Açar sözlər:** *COVİD-19, ÜDM, iqtisadi artım, davamlılıq, iqtisadi tənəzzül, işsizlik səviyyəsi, vergi və fiskal siyasət.*

**UOT:** 336
**JEL:** E62

## Giriş

Müasir ssenaridə hökumətin nəzarəti olmayan azad bazar sürücüsüz hərəkət edən avtomobilə bənzəyir. Qeyd etmək lazımdır ki, şərtlər əlverişli olduğu müddətcə müəyyən siyasətlərin tətbiqi asan görünə bilər, lakin iqtisadiyyatda möəyyən qədər durğunluq və geriləmə yarandıqdan sonra düzəlişlərin tətbiqi çox çətinləşir. COVİD-19 pandemiyasının son sarsıntıları göstərdi ki, qeyri-sabit bir zamanda iqtisadiyyatı idarə edərkən düzəlişlərin həyata keçirilməsi və əhalinin saxlanması üçün ehtiyatlı fiskal siyasət həyata keçirmək olduqca vacib bir məsələdir [1]. Hər bir ölkədə hökumət bir növ maliyyə siyasəti aparırdı; bəziləri həvəsləndirilmiş xərclər, bəziləri isə iqtisadiyyatın tədarük tərəfinə diqqət yetirirdi. Pandemiyanın şoklarından yuxarı qalxan iqtisadiyyatla həddindən artıq yüklənən iqtisadiyyat arasındakı əsas fərqlərdən biri effektiv maliyyə siyasəti idi. COVİD-19 pandemiyası qlobal sağlamlıq böhranı ilə nəticələndi və iqtisadi fəallığın yaxın tarixdə misli görünməmiş kəskin azalmasına səbəb oldu. Cəmi bir neçə ay ərzində COVİD-19 pandemiyası sağlamlıq böhranından qlobal iqtisadi böhrana çevrildi və qlobal ÜDM-də 2008-ci ildəki qlobal maliyyə böhranından daha böyük azalmaya səbəb oldu. COVİD-19 pandemiyası dünya dövlətlərinin maliyyə sistemlərində əhəmiyyətli dərəcədə pisləşməyə səbəb oldu. Bu məqalə əsasən dövlət fiskal siyasət strategiyalarının işlənib hazırlanması ilə bağlı çətinlikləri və imkanları nəzərdən keçirir. Qeyd etmək lazımdır ki, məqalənin əsas məqsədi ölkələrin fiskal siyasətinin davamlılığını, tarazlığını və inkişafını təmin etmək üçün vergi siyasətinin hərtərəfli şəkildə necə tərtib oluna biləcəyinin müəyyən edilməsini nəzərdə tutur.

## Fiskal siyasətin mahiyyəti

Fiskal siyasət dövlətin gəlir və xərcləri özündə cəmləşdirən iqtisadi proqramlarından ən yaxşı şəkildə istifadəsini əks etdirir. Bu, dövlət təsərrüfat planlarının gəlir mənbələrini və onların necə xərclənməsini, dövlət işçilərinin əmək haqqı və müxtəlif xidmət layihələri kimi ən mühüm xərc tendensiyalarının hansı olduğunu iqtisadi tarazlığın ən yüksək səviyyəsinə nail olmağa yönəltməklə həyata keçirilir. Qeyd etmək lazımdır ki, fiskal siyasət dövlətin iqtisadi fəaliyyətə müdaxiləsinin ən mühüm vasitələrindən biri hesab edilir. Bu ölkənin maliyyə-təsərrüfat fəaliyyətinin aparılması üçün hökumət tərəfindən hazırlanmış əsaslar, standartlar və çərçivələri nəzərdə tutur. Buna görə də, fiskal siyasət ümumi iqtisadi sabitliyi qorumaq və onun problemlərini həll etmək üçün dövlətin milli iqtisadiyyata təsir metodudur. Fiskal siyasət iqtisadi inkişafa nail olmaqda və iqtisadi sabitliyə mane olan problemlərin aradan qaldırılmasında iqtisadi idarəetmənin ən mühüm

alətlərindən biridir. Buna əlavə olaraq qeyd etmək lazımdır ki, fiskal siyasət iqtisadi artıma təsir göstərə bilən ən mühüm siyasətlərdən biri kimi çıxış edir və milli iqtisadiyyatda qarşıya qoyulan hədəflərə nail olmaqda vacib əhəmiyyət kəsb edir. Bu, xüsusilə müxtəlif alətlər vasitəsilə hökumət tərəfindən asanlıqla idarə olunan iqtisadi artım tempini yüksəltmək baxımından xarakterizə olunur [2].

Qeyd etmək lazımdır ki, vergitutma, xərclərin bölüşdürülməsi, dövlət borcuna və məcmu gəlirə nəzarət fiskal siyasətin əsas alətləri hesab edilir. Hökumətin fiskal siyasətə təsir etmək üçün iki dəyişəni var: vergitutma və hökumət xərcləri. Vergitutma dedikdə, hökumətin xalqın əlində olan birdəfəlik nağd pulu artırdığını və ya azaltmasını tənzimləyən alətlərdən istifadə etməsi nəzərdə tutulur. Habelə, hökumət xərcləri hökumətin iqtisadiyyatın vəziyyətinə birbaşa və ya dolayısı ilə təsir edən ictimai infrastruktur işlərinə və digər sosial rifah sxemlərinə investisiya qoyduğu xərcləri nəzərdə tutur [3]. Xərcləri stimullaşdırmaq üçün hökumət vergi endirimlərini elan edə bilər və iqtisadiyyat yüksək inflyasiya ilə üzləşdikdə hökumət yeni vergilər elan edə və ya mövcud vergilərin səviyyəsini qaldıra bilər. Mənfi artım dövründə ictimaiyyət və investorlar iqtisadiyyata inamını itirə bilər ki, bu da öz növbəsində istehsalın və tələbin azalması ilə nəticələnə bilər. Buna qarşı çıxmaq üçün hökumət özəl sektora düşən sərmayələri aradan qaldırmaq və bazarda tələb yaratmaq üçün xərcləri artıra bilər. Hökumət iqtisadiyyatda resursların istifadəsinə birbaşa və dolayı yolla təsir göstərir. İqtisadiyyatın məhsulunu və ya ümumi daxili məhsulu (ÜDM) xərclərə görə ölçən milli gəlir uçotunun əsas tənliyi bunun necə baş verdiyini göstərməyə kömək edir: [4]

$$ÜDM = C + I + G + NX$$

Sol tərəfdə ÜDM - iqtisadiyyatda istehsal olunan bütün son məhsul və xidmətlərin dəyərini əks etdirir. Sağ tərəfdə məcmu xərclərin və ya tələbin mənbələri - özəl istehlak (C), özəl investisiya (I), hökumət tərəfindən mal və xidmətlərin satın alınması (G) və xalis ixrac (NX) var. Bu tənlik hökumətlərin iqtisadi fəaliyyətə (ÜDM) təsir etdiyini, G-yə birbaşa nəzarət etdiyini və vergilərdə, transfertlərdə, xərclərdə dəyişikliklər vasitəsilə C, I və NX-yə dolayı təsirini açıq şəkildə göstərir. Hökumət xərclərinin artması ilə məcmu tələbi birbaşa artıran fiskal siyasət adətən genişlənmə və ya "boş" adlanır. Bunun əksinə olaraq, fiskal siyasət daha az xərcləmə yolu ilə tələbi azaldırsa, çox vaxt daralma və ya "sıx" hesab olunur.

**COVİD-19-un iqtisadi və sosial sahədə yaratdığı problemlər**

İlkin olaraq qeyd etmək lazimdır ki, COVİD-19 bütün dünyada iqtisadi artımın yavaşlamasına səbəb oldu. Davamlı zəif iqtisadi artım dövrləri vergi daxilolmalarını zəiflədir və xərcləmə təzyiqlərini aradan qaldırmağı, dövlət borcunun dayanıqlığını qorumağı, ümumiyyətlə, əhalinin həyat səviyyəsini yaxşılaşdırmağı çətinləşdirir. COVİD-19 böhranı uzunmüddətli məhsuldarlığa müsbət təsir göstərə bilər, məsələn, rəqəmsallaşmanın sürətləndirilməsi, xüsusən də xidmət sektorlarında kiçik və orta biznes tərəfindən rəqəmsal texnologiyaların mənimsənilməsi kimi sahələrə müsbət təsir göstərə bilər. Buna baxamayaraq, böyük tənəzzüllər məhsuldarlığa, o cümlədən əmək bazarına daxil olanların məhsuldarlığına uzunmüddətli və mənfi təsir göstərir [5]. COVİD-19 böhranı dövlət maliyyəsində əhəmiyyətli dərəcədə pisləşməyə səbəb oldu və bu, vergi və xərc siyasətlərinə yenidən baxılmasını tələb edir. Saxlama tədbirləri, hökumət xərclərinin artması və vergi daxilolmalarının azalması büdcə kəsirinin və dövlət borcunun artmasına səbəb olub ki, bu da ÜDM-in faizi olaraq son bir neçə onillikdə ən yüksək səviyyəyə çatıb. Borc üzrə cari faiz ödənişləri əksər ölkələr üçün aşağı istiqraz gəlirliyi və uyğunlaşdırılmış pul siyasəti səbəbindən idarə oluna bilsə də, yüksək borcun saxlanması faiz dərəcəsi artımlarına və iqtisadi artımın ləngiməsinə qarşı həssaslığı artırır və borcun çevrilməsi risklərini artırır. Pandemiyanın dövlət maliyyəsinə təsirləri ilə yanaşı, ölkələr artıq bir çox uzunmüddətli struktur problemlərlə üzləşmişdirlər. Bunlara iqlim dəyişikliyi, əhalinin qocalması, rəqəmsallaşma və avtomatlaşdırmanın sürətlənməsi, iqtisadi artımın yavaşlaması, eləcə də bərabərsizliklərin artması daxildir. Pandemiya diqqəti uzun müddətli davam edən bu problemlərin bir çoxundan müvəqqəti olaraq uzaqlaşdırsa da, COVİD-19 böhranı artan bərabərsizliklər, qeyri-adekvat sosial təhlükəsizlik şəbəkələri, səhiyyə və rəqəmsal infrastruktura qeyri-bərabər çıxış kimi əvvəllər mövcud olan bir sıra struktur zəifliklərini də üzə çıxardı. Qeyd etmək lazımdır ki, pandemiya səhiyyə sistemləri üzərindəki əhəmiyyətli yükə əlavə olaraq, təsirlənmiş ölkələr üçün böyük iqtisadi nəticələrə səbəb oldu [6]. COVİD-19 pandemiyası vaxtından əvvəl ölümlər, iş yerlərində da-

Heyvandarlıq gündəlik əmək tələb edən, kənd təsərrüfatında çalışanların məşğulluğunun davamlığını təmin edən, bütün istehsal dövrü ərzində məhsulların satışından pul vəsaitlərinin daxil olmasına imkan verən və əhalinin ərzaq məhsullarına tələbatının ödənilməsində bilavasitə iştirak edən ən mühüm kənd təsərrüfatı sahələrindəndir. İqtisadi proseslərdəki dəyişikliklər, müasir istehsal şəraiti, iqtisadi amillər və müxtəlif istiqamətli inkişaf meylləri heyvandarlıq məhsulları istehsalının iqtisadi səmərəliliyinin qiymətləndirilməsini, bu sahədə mövcud ehtiyatların aşkara çıxarılmasını zəruri edir [2, s.77]. İstehsal həcminin və adambaşına ərzaqla təmin olunmanın elmi əsaslandırılmış rasional normaları ilə müqayisəsi göstərir ki, hələ də bəzi heyvandarlıq məhsullarının istehsal səviyyəsi tam şəkildə daxili tələbatı ödəmir. Üstəlik, ət və ət məhsullarının ümumi ehtiyatlarında istehsalın payının əhəmiyyətli dərəcədə artması müşahidə olunsa da, bu növ məhsulun adambaşına hesablanmış orta istehlakı qiymətlərin yüksək səviyyəsi baxımından əhalinin bütün təbəqələri üçün, xüsusilə alıcılıq qabiliyyəti aşağı olan istehlakçılar üçün əlçatan deyil. Ona görə də, bu məsələlərin kompleks araşdırılması zərurəti özünü əhəmiyyətli şəkildə büruzə verir.

## Materiallar və müzakirələr

Araşdırmalar göstərir ki, heyvandarlıq sahələrinin inkişaf tendensiyaları onun struktur dəyişikliklərindən asılı olaraq iqtisadi səmərəliliyini şərtləndirir. Bu baxımdan daxili istehsalın idxal olunan məhsulların rəqabətindən qorunması üçün effektiv tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Kənd təsərrüfatında heyvandarlıq sahəsi üzrə məhsuldarlığa, qiymətlərin formalaşmasına, maliyyə nəticələrinə və gəlirlilik səviyyəsinə müxtəlif amillər təsir göstərdiyindən ilk növbədə istehsal xərclərinin tərkibinə və strukturuna nəzər yetirilməsi vacib məsələlərdən hesab edilir. Kənd təsərrüfatının inkişafı konsepsiyasının həyata keçirilməsi çərçivəsində heyvandarlığın rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətləri də prioritetlərdən hesab edilir.

Məlumdur ki, kənd təsərrüfatında bəzi istehsal sahələri, xüsusilə heyvandarlığın əsas istiqamətləri tam texnoloji dövrə malikdir. Bu, istehsal və emaldan hazır məhsulun satışına qədər olan müddəti əhatə etməklə, istehsalın iqtisadi səmərəliliyinin artırılmasına imkan verir. Ona görə də, yeni istehsal münasibətlərinin formalaşdırılmasında innovativ texnologiyaların istifadəsinin genişləndirilməsi başlıca prioritet kimi özünü göstərir [3, s.62]. Onu da qeyd etmək lazımdır ki, heyvandarlıq bitkiçilikdən fərqli olaraq aşağı rentabelliyə malikdir. Aydındır ki, heyvandarlıq əhəmiyyətli

investisiyalar tələb edir və istehsal dövrü uzun olduğuna görə sərmayəni tez bir zamanda geri qaytarmaq mümkün deyil. Eyni zamanda, seleksiya işləri, texnoloji proseslərin davamlı təkmilləşdirilməsi və onların vaxtında həyata keçirilməsi, yem rasionunun əsaslandırılmış şəkildə hazırlanması hesabına heyvandarlığın inkişafı aqrar siyasətin də tərkib hissəsi kimi özünü göstərir. Məlumdur ki, istənilən sahənin iqtisadi strategiyası istehsal potensialından nə dərəcədə səmərəli istifadə olunmasından asılıdır, eləcə də, onun bərpası və modernləşdirilməsi də ərzaq problemini həll edir. Təbii ki, qeyd olunanlar özünü istehsalın səviyyəsində və strukturunda büruzə verir.

Kənd təsərrüfatının ümumi məhsulunun strukturuna nəzər saldıqda məlum olur ki, kənd təsərrüfatı müəssisələrində heyvandarlıq məhsullarının xüsusi çəkisi 9%-11,4% aralığında dəyişmişdir. Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə isə heyvandarlıq daha yüksək paya malik olmuşdur – 88,6%-91% [cədvəl 1].

**Cədvəl 1**

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu, faktiki qiymətlərlə, yekuna görə faizlə [5]**

| İllər | Cəmi | o cümlədən | | Cəmi | o cümlədən | |
|---|---|---|---|---|---|---|
| | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları |
| | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları | | |
| 2017 | 9,8 | 7,9 | 11,4 | 90,2 | 92,1 | 88,6 |
| 2018 | 9,4 | 8,2 | 10,4 | 90,6 | 91,8 | 89,6 |
| 2019 | 9,1 | 8,6 | 9,6 | 90,9 | 91,4 | 90,4 |
| 2020 | 9,9 | 10,9 | 9,0 | 90,1 | 89,1 | 91,0 |
| 2021 | 9,7 | 10,4 | 9,0 | 90,3 | 89,6 | 91,0 |

Heyvandarlıq məhsulları istehsalının artımı təbii olaraq özünütəminetmə səviyyəsinə ciddi təsir göstərir. Məhsul növləri üzrə göstəricilərin təhlilindən aydın olur ki, yumurta istisna olmaqla digər məhsullarla tələbatı tam şəkildə ödəmək mümkün olmamışdır. Bütün növ ət və ət məhsulları ilə özünütəminetmə göstəricisi 82,5%-86,4%, süd və süd məhsulları ilə 83,5%-86,7%, balıq və balıq məhsulları ilə 78,2%-83,1% təşkil etmişdir [cədvəl 2].

**Cədvəl 2 [5]**

**Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz**

| Məhsullar | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|
| Bütün növ ət və ət məhsulları | 84,7 | 82,7 | 82,5 | 84,5 | 86,4 |
| mal əti və ət məhsulları | 86,3 | 85,1 | 86,1 | 87,4 | 91,9 |
| qoyun və keçi əti və ət məhsulları | 98,0 | 98,1 | 97,6 | 97,3 | 98,2 |
| donuz əti və ət məhsulları | 5,6 | 5,5 | 5,3 | 4,7 | 4,8 |
| quş əti və ət məhsulları | 79,7 | 75,9 | 74,6 | 79,0 | 79,6 |
| Süd və süd məhsulları | 86,1 | 86,7 | 86,3 | 83,5 | 84,8 |
| Yumurta | 100,5 | 101,5 | 101,8 | 100,0 | 99,1 |
| Balıq və balıq məhsulları | 81,2 | 83,1 | 82,2 | 81,7 | 78,2 |

Qeyd etmək lazımdır ki, heyvandarlıq məhsulları istehlakının artması və özünütəminetmə səviyyəsinin yüksəlməsi əmtəələrin bölgüsü zəncirində effektivliyin təmin olunması ilə bilavasitə əlaqəlidir. Belə ki, bir tərəfdən yerli istehsalın stimullaşdırılması, digər tərəfdən daxili bazarın qorunması müsbət tendensiyaları şərtləndirən əsas amillər sırasındadır. Bunlar, nəticə etibarilə heyvandarlıq məhsulları istehsalının genişlənməsinə imkan yaradır, ticarət şəbəkəsində istehlakçıların tələbatını əhəmiyyətli dərəcədə artırır ki, bu da daxili bazarın inkişafında mühüm rol oynayır. Heyvandarlığın inkişafında müəyyən qeyri-mütənasibliklərə də rast gəlinir. Belə ki, ayrı-ayrı kənd təsərrüfatı heyvanlarının yetişdirilməsinin iqtisadi və bio-

loji xüsusiyyətlərində fərqliliklər, heyvandarlıq məhsullarının istehsalı üçün təbii-iqlim şəraiti, istehsal və bazar infrastrukturunun inkişaf səviyyəsi, istehsalın kapital tutumu və s. bu sahənin inkişafına ciddi təsir göstərir. Qeyd edilən məsələlər həmçinin, istehsal potensialından istifadənin səmərəliliyini, ayrı-ayrı sahələrin gəlirinin səviyyəsini və investisiya cəlbediciliyini şərtləndirir. Bu, o deməkdir ki, adı çəkilən amillər əsasən heyvandarlıq məhsulları bazarının strukturunu və rəqabət mühitinin səviyyəsini formalaşdırır, istehlakçı üçün heyvan mənşəli məhsullara tələbatın həcmini müəyyən edir və nəhayət, özünütəminetmə imkanlarını formalaşdırır.

Özünütəminetmə səviyyəsinin yüksəlməsi təbii olaraq istehsalın iqtisadi səmərəliliyi ilə birbaşa bağlıdır. Bu baxımdan səmərəliliyi yüksəltmək üçün aşağıdakı tədbirləri məqsədəuyğun hesab etmək olar: məhsuldarlığın yüksəldilməsi; məhsulların keyfiyyətinin yaxşılaşdırılması; onların cins tərkibinin yaxşılaşdırılması; istehsal edilmiş və satılmış məhsulların maya dəyərinin aşağı salınması və s. Material ehtiyatlarının çatışmazlığı şəraitində aşağıdakıları təmin edən resursa qənaət edən texnologiyalardan istifadə etmək də əsas tədbirlərdən hesab oluna bilər: texnoloji əməliyyatların birləşməsi; heyvanların xəstəliklərdən qorunması üçün inteqrasiya olunmuş sistemlərin tətbiqi; gənc heyvanların yetişdirilməsi və kökəldilməsi üçün intensiv texnologiyalardan istifadə edilməsi; heyvandarlıqda əmək proseslərinin rasional təşkili və s.

Ümumiyyətlə, heyvandarlıq məhsulları istehsalının iqtisadi səmərəliliyinin qiymətləndirilməsi müxtəlif göstəricilər üzrə aparılır: ümumi məhsulun dəyəri, ümumi gəlirin məbləği, hər nəfərə düşən mənfəət, əsas istehsal fondları, istehsal olunan məhsullara çəkilən xərclər, istehsal olunan və satılan heyvandarlıq məhsullarının rentabellik səviyyəsi və s. Heyvandarlıq məhsullarının ayrı-ayrı növləri üzrə istehsalın müqayisəli iqtisadi qiymətləndirilməsi onun ən səmərəli növlərini müəyyən etmək məqsədi ilə həyata keçirilir: kənd təsərrüfatı heyvanlarının məhsuldarlığı; bir işçiyə düşən natural və dəyər ifadəsində ümumi məhsul, əmək məhsuldarlığı, istehsal xərcləri, 1 sentner məhsulun satış qiyməti, 1 sentner məhsula düşən mənfəətin məbləği; istehsalın gəlirlilik səviyyəsi və s. Beləliklə, heyvandarlıq məhsullarının iqtisadi səmərəliliyinin qiymətləndirilməsi və müqayisəsi onlardan ən effektivinin seçilməsini nəzərdə tutur. Bu zaman reallaşdırılan tədbirlərin iqtisadi səmərəliliyinin müəyyən edilməsi metodologiyası, iqtisadi mənfəətin bu tədbirlərə çəkilən xərclərin müqayisəsinə əsaslanır. Əslində, zərər məhsuldarlığın və məhsulun keyfiyyətinin aşağı düşməsindən yaranan itkilərdən ibarətdir. Bilavasitə itkilərə karantin tətbiq edilməsi, heyvanların yetişdirilməsi, xərclərinin artması və s. ilə əlaqədar olaraq, dolayı itkilər əlavə edilir.

İstehsalın iqtisadi səmərəliliyini yüksəltmək üçün bir çox hallarda istehsalçılar köməkçi sənaye istehsalını inkişaf etdirməyə çalışırlar. Hazırda aqrar sahədə emal məhsulları istehsalının iqtisadi səmərəliliyinin qiymətləndirilməsi məsələləri nisbətən kölgədə qalmışdır. Bu baxımdan, kənd təsərrüfatında qeyd edilən istiqamətdə istehsal aşağıdakı xüsusiyyətlərə malikdir: məhdud emal həcmi, məhsulları daha təbii və əhali üçün təhlükəsiz edən bahalı resurslar, konservantlar almaq imkanlarının zəif olması; hazır məhsulların aşağı differensasiya dərəcəsi, hazır məhsulla iri pərakəndə satış şəbəkələrinə daxil olmaq imkanlarının aşağı səviyyəsi və s. Qeyd edilənləri nəzərə alsaq, müasir şəraitdə heyvandarlıq məhsullarının istehsalı və satışında geniş təkrar istehsala əsaslanan iqtisadi səmərəliliyin tədqiqi böyük əhəmiyyət kəsb edir.

Heyvandarlıq məhsulları istehsalının artırılmasının, keyfiyyətinin yaxşılaşdırılmasının və rəqabət qabiliyyətinin yüksəldilməsinin səmərəli yollarından biri mövcud obyektlərin müasirləşdirilməsinin həyata keçirilməsi ilə əlaqəlidir. Modernləşdirilmiş müəssisələrdə iş rejimlərinə avtomatlaşdırılmış idarə olunan aqreqatların tətbiqi, o cümlədən balanslaşdırılmış rasionların hazırlanması və onların normalaşdırılması, mikroiqlim parametrlərinin tənzimlənməsi üçün innovativ texnologiyanın tətbiqi məhsuldarlığın artırılmasına, xərclərin azaldılmasına, istehsal həcminin artmasına kömək edir. Modernləşməni həyata keçirərkən, istehsal potensialından istifadəyə xüsusi diqqət yetirmək vacibdir. Bu, istehsalın həcminin artırılması, keyfiyyətin və əmək məhsuldarlığının yüksəldilməsi, bu əsasda idxalın əvəz-

lənməsi, eləcə də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün zəruri şərtlərdəndir.

Qeyd edilənlərdən məlum olur ki, heyvandarlıqda qabaqcıl texnika və texnologiyaların tətbiqi, modernləşdirmənin uğurla həyata keçirilməsi və heyvandarlıq istehsalının səmərəliliyinin yüksəldilməsi məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyəti üçün iqtisadi şəraitin yaxşılaşdırılmasına yönəlmiş kompleks tədbirlərin həyata keçirilməsi labüddür. Kənd təsərrüfatı məhsulları istehsalçılarının səmərəli fəaliyyəti üçün iqtisadi şəraitin yaradılması aşağıdakılara yönəldilməlidir: zəruri istehsal xərclərinin ödənilməsinə şərait yaradan və geniş təkrar istehsal üçün rentabellik əldə etməyə imkan verən təminatlı qiymətlər sisteminin tətbiqi; güzəştli maliyyələşdirmənin tətbiqi, kredit resurslarının və istehsal olunan məhsulların keyfiyyəti nəzərə alınmaqla subsidiyaların artırılması; kənd təsərrüfatı istehsalçıları üçün istehlak olunan resurslara - elektrik enerjisinə, yanacağa, tikinti materiallarına, baytarlıq preparatlarına qiymət limitlərinin müəyyən edilməsi; sosial, tibbi və təhsil proqramlarının həyata keçirilməsi, yol tikintisi, kənd yerlərinin abadlaşdırılması və s.

Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi sistemində məhsulların satışı üçün kanalların seçilməsinə xüsusi yer verilməlidir. Bazar şəraitində müəssisələrin kənd təsərrüfatı məhsullarını ən səmərəli sahələrdə satmaq imkanları genişlənmişdir ki, bu da öz növbəsində təsərrüfat fəaliyyətindən əlavə gəlir əldə etməyə kömək edir, eyni zamanda, ölkənin inkişafına və kənd təsərrüfatı məhsulları ilə etibarlı təminatına imkanlar açır. Yüksək məhsuldar əməyin motivasiyası da mühüm əhəmiyyət kəsb edir ki, bu da əsasən onun ödənilməsi səviyyəsi ilə müəyyən edilir. Ona görə də, əməyin ödənilməsinin və stimullaşdırılmasının təşkilini daim təkmilləşdirmək tələb olunur. Bazar iqtisadiyyatı şəraitində nəinki minimum əmək və kapital məsrəfləri ilə məhsul istehsal etmək, həm də onları uğurla satmaq vacibdir. Ona görə də, prioritet istiqamət emal və ticarət müəssisələri ilə inteqrasiya, marketinq xidmətinin təşkilidir. Məlumdur ki, kənd təsərrüfatı əsas istehsal amilləri, torpaq və əmək vəsaitləri ilə kifayət qədər təmin olunmuşdur. Bu baxımdan istehsal potensialından daha dolğun və rasional istifadəni təmin etmək zərurəti yaranır. Bu isə mövcud ehtiyatlardan səmərəli şəkildə istifadə etməklə heyvandarlığın əsas sahələrində mənfəət əldə etməyin mümkünlüyünü təsdiq edir.

*Tədqiqatın elmi yeniliyi* – tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir: heyvandarlıqda məhsuldarlığa təsir edən amillərin innovativ üsullarla əlaqəsi müəyyən edilmişdir; istehsalın optimallaşdırılması ilə bağlı imkanlar aşkara çıxarılmışdır; istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinə təsir edən amillər arasında əlaqə müəyyən edilməklə sistemləşdirilmişdir; istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi ehtiyatları aşkara çıxarılmışdır.

*Tədqiqatın tətbiqi əhəmiyyəti* – tədqiqatın nəticələrindən heyvandarlığın inkişafı ilə bağlı tədbirlər kompleksinin müəyyən edilməsində, iqtisadi səmərəliliyin yüksəldilməsi problemlərinin həllində və bu istiqamətdə inkişaf strategiyasının hazırlanmasında istifadə oluna bilər.

*Tədqiqatın iqtisadi səmərəsi* – əldə edilmiş nəticələr heyvandarlıq məhsulları istehsalı ilə özünütəminetmə potensialının müəyyənləşdirilməsinə, bazarın yerli məhsullarla təminatının yaxşılaşdırılmasına, iqtisadi səmərəliliyin yüksəldilməsinə təsir edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

1. “Azərbaycan Respublikasında heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 21 avqust 2015-ci il.

2. Тихомиров А.И. “Экономическая эффективность развития подотраслей животноводства “ Экономика сельского хозяйства России. 2018. № 1. С. 76-84.

3. Нечаев В.И. Направления научно-технического прогресса в животноводстве / В.И.Нечаев, Е.И. Артемова, И.А. Бурса, А.К.Кочиева / Монография. Краснодар: КубГАУ. - 2011. - 218 с.

4. Полянский С.Я. “Особенности формирования эффективной системы управления сельским хозяйством в современных условиях: макро- и микроэкономические аспекты”. В сборнике: научные труды московс-

кого университета имени С.Ю. Витте. М. 2013. - С. 220-229.
5. www.stat.gov.az

**Фарид Шакир оглу ВЕЛИЕВ**
Азербайджанский Государственный Аграрный Университет
E-mail: ferid.veliyev.89@mail.ru

## ВОЗМОЖНОСТИ ПОВЫШЕНИЯ ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ ПРОИЗВОДСТВА ПРОДУКЦИИ ЖИВОТНОВОДСТВА

**Резюме**

Цель исследования- определить имеющийся потенциал в направлении повышения экономической эффективности животноводческого производства и подготовить предложения в этом направлении. Метод исследования – в ходе исследования использовались методы анализа и группировки.

Результаты исследования - в результате исследования выявлены существующие проблемы в животноводстве, определены пути их решения, а также осмыслены возможности, связанные с повышением экономической эффективности.

**Ключевые слова:** *экономическая эффективность, производство, спрос, предложение, качество.*

**Farid Shakir oghlu VALİYEV**
Azerbaijan State Agrarian University
E-mail: ferid.veliyev.89@mail.ru

## POSSIBILITIES OF IMPROVING THE ECONOMIC EFFICIENCY OF LIVESTOCK PRODUCTS PRODUCTION

**Summary**

The purpose of the research is to determine the existing potential in the direction of increasing the economic efficiency of livestock production, and to prepare proposals in this direction.

Research method - analysis and grouping methods were used during the research.

The results of the research - as a result of the research, the existing problems in animal husbandry were revealed, the ways to solve them were determined, and the opportunities related to increasing the economic efficiency were interpreted.

**Keywords:** *economic efficiency, production, demand, supply, quality.*

**Əsli Alı qızı QURBANOVA,** i.f.d
Azərbaycan Dövlət Aqrar Universiteti

**Ayşən Vüqar qızı MƏMMƏDOVA**
Azərbaycan Dövlət Aqrar Universitetinin magistrantı
E-mail: aysenmemmedova39@gmail.com

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA İNVESTİSİYA MÜHİTİNİN FORMALAŞMASININ ƏHƏMİYYƏTİ

**Xülasə**

Tədqiqatlardan və iqtisadi ədəbiyyatla tanışlıqdan aydın olur ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına qoyulan investisiyalarda kapital mühüm rol oynayır. Bu səbəbdən iqtisadi münasibətlər sistemində kapital qoyuluşları anlayışından tez-tez istifadə olunur. Onun mahiyyətinə müxtəlif yanaşmalar var. Ədəbiyyatda kapital qoyuluşlarından danışarkən, bir qayda olaraq, bilavasitə əsas kapitala yönəldilmiş vəsaitlər nəzərdə tutulur. Son zamanlar kapital qoyuluşları investisiyalara bərabər tutulur. İnvestisiyalar əsas fondların təkrar istehsalı və bərpası xərcləri kimi müəyyən edilir.

**Açar sözlər**: *investisiya, Qarabağ, Şərqi Zəngəzur, inkişaf, layihələr, maddi-texniki baza, kapital qoyuluşları.*

**UOT:** 338
**JEL:** J21

## Giriş

Arasdırmalar va iqtisadi ədəbiyyatlarla tanışlıqdan aydın olur ki, Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında investisiyalarda mühüm rol kapitala məxsusdur. Onun üçün də iqtisadi münasibətlər sistemində kapital qoyuluşu anlayışından tez-tez istifadə edilir. Onun mahiyyəti barədə müxtəlif yanaşmalar mövcuddur. Ədəbiyyatlarda kapital qoyuluşundan danışdıqda bir qayda olaraq əsas vəsaitlərin birbaşa yönəldilən vəsait hissəsi nəzərda tutulub. Son vaxtlar isə kapital qoyuluşu investisiya ilə eyniləşdirilir. İnvestisiya dedikdə isə əsas fondların təkrar istehsalına va habelə bərpasına çəkilən xərclər kimi başa düşülür.

Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında investisiya mühiti isə kapital qoyuluşuna nisbətən daha geniş anlayışdır. Odur ki, investisiya anlayışının müəyyən edilməsində iqtisadçılar arasında fikir ayrılığı mövcuddur. Bir qrup iqtisadçılar "investisiya" və "əsaslı vəsait qoyuluşu" anlayışlarını eyniləşdirirlər. Onlar öz fikirlərini bununla əsaslandırırlar ki, işğaldan azad olunmuş torpaqlarda investisiya mühitinin formalaşması müəssisənin əsas kapitala pul vəsaitinin avans edilməsi ilə bağlı institusional fəaliyyətdir. Onların fikrincə, fəaliyyətin gücləndirilməsi istehsalın artımına, müəssisələrin səmərəli fəaliyyətinə şərait yarada bilər.

Qeyd etmək lazımdır ki, "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu"nda Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarına "kapital qoyuluşu" - əsas fondların yaradılmasına, təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya yönəldilməsi və kapital qoyuluşları şəklində həyata keçirilir. Başqa

sözlə, işğaldan azad olunan bu zəngin torpaqlara kapital qoyuluşu əsas kapitala (əsas vəsaitə), o cümlədən yeni tikintiyə, fəaliyyətini itirmiş müəssisələrin genişləndirilməsinə, yenidən qurulmasına və texnika ilə silahlanmasına, maşın, avadanlıq, alət, inventar alınmasına, layihə - axtarış işlərinə və digər məsrəflərə qoyulan investisiyadır. Bu tərif əsas götürülərsə, onda dövriyyə vəsaitinə qoyulmuş investisiya kapital qoyuluşu hesab edilə bilməz. Kapital qoyuluşu bina və qurğular ucaldıldığı zaman tikinti-quraşdırma işlərinə, maşın və avadanlıqların alınması, quraşdırılması və sazlanmasına, layihə axtarış işlərinə, torpaq sahələrinin ayrılmasına və tikinti ilə əlaqədar olan köçürmələrə sərf olunan məsrəflərdir. Odur ki, investisiya mühitinin formalaşması təsərrüfatların, müəssisələrin inkişaf

istiqamətlərinin müəyyən edilməsində və səmərəliliyin yüksəldilməsində xüsusi əhəmiyyət kəsb edir.

Yenidən qurma zamanı investisiya qoyuluşlarının həyata keçirilməsinin zəruruliyini müxtəlif amillər şərtləndirə bilər. Lakin, ümumilikdə bu amilləri əsasən aşağıdakı üç qrupa bölmək olar: mövcud maddi-texniki bazarın yeniləşdirilməsi, istehsal fəaliyyəti dairəsinin genişləndirilməsi, yeni fəaliyyət növlərinin mənimsənilməsi. Həmin amillər ayrı-ayrılıqda spesifik xüsusiyyətlərə malik olsalar da, son nəticədə onlar istehsal fəaliyyətinin artan tələbatının ödənilməsinə yönələn proporsionallığın təmin olunmasına imkan yaradır.

Araşdırmalardan aydın olur ki, iqtisadiyyatda həmçinin Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyəti obyektlərinə investisiya müxtəlif formada həyata keçirilir. Pul vəsaitinin qoyulması xüsusiyyətinə görə investisiyanı portfel (maliyyə) və real investisiyaya bölürlər.

Bizim fikrimizcə, Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında investisiya cəlbediciliyinin müəyyən edilməsinin son yanaşması daha aktual və dəqiq sayılır, çünki, bu, investisiya layihəsinin innovasiya üstünlüklərini nəzərə almağa imkan verir. İnvestisiya mühitinin formalaşması investora əlavə mənfəət gətirən, o cümlədən investisiya formasının riskini azaldan əlverişli investisiya və innovasiya şərtlərinin, eləcə də üstünlüklərinin məcmusudur [ 2, səh. 25].

Bütün bu qeyd edilənlər bölgənin iqtisadi inkişafi üçün investisiyanın mühüm rol oynadığını və iqtisadiyyatın maliyyələşdirilməsinin həm xarici, həm də daxili münasibətləri arasında optimal nisbətin gözlənilməsinin vacib olduğunu sübut edir.

Qeyd edək ki, son illər ölkəmizdə aparılan bir çox tədqiqatın nəticəsi kimi vurğulanır ki, müasir dövrdə yerli xammal resurslarının səmərəli şəkildə dövriyyəyə cəlb olunması, sənaye və kənd təsərrüfatının inkişaf etdirilməsi, bu sahələrin investisiya cəlbediciliyinin artırılması çox vacibdir. Çünki, sənaye və kənd təsərrüfatının inkişaf etdirilməsi respublikamızın iqtisadi təhlükəsizliyinin təmin olunmasının başlıca şərti olduğunu nəzərə alaraq, Azərbaycan müstəqil dövlət olaraq ilk növbədə çox güclü və hər cəhətdən ölkənin ümumi milli mənafelərinə cavab verən istehsal sahələrinin dayanıqlı inkişaf durumunu təmin etməlidir. Bunun üçün isə qeyd edilən resurs potensialından səmərəli istifadə olunması, bütün ehtiyatların səmərəli şəkildə dövriyyəyə cəlb olunması çox vacibdir.

Araşdırmalar göstərir ki, Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında investisiya mühitinin formalaşmasına və onun ödənilmə müddətinə təsir edən amillərdən biri də ekoloji tarazlığın pozulması və ətraf mühitə müharibənin vurduğu ziyandır. Ətraf mühitin mühafizəsi məsələsi kənd təsərrüfatı sahəsi üçün daha mühümdür. Çünki, burada istehsal bilavəsitə ətraf mühitlə bağlıdır. Elmi-texniki tərəqqinin sürətlənməsi təbiətlə kənd təsərrüfatı arasında qarşılıqlı əlaqəni dərinləşdirir, kənd təsərrüfatında istehsalın ətraf mühitə təsirini gücləndirir. Bu, özünü müxtəlif istiqamətdə büruzə verir. Torpaqdan istifadənin intensivliyinin artması bir tərəfdən torpaqəmələgəlmə prosesini pozur, digər tərəfdən isə torpaqların külək və su erroziyasına məruz qalmasına şərait yaradır.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatının son nəticəsi bir çox istehsal və qeyri-istehsal sahələrindən asılı olduğuna görə kənd təsərrüfatına qoyulan investisiyalar lazımi səmərə vermәz. Kənd təsərrüfatına investisiya qoyuluşları nisbətən geniş ərazilərdə həyata keçirildiyinə görə bu sahələrdə təbii, ekoloji və digər amillər nəzərə alınmalıdır. Belə ki, nisbətən geniş ərazilərdə külək, su eroziyasının, torpaqların şoranlaşmaya məruz qalmaları ehtimalı artır. Həmçinin mineral gübrələrin, zəhərli kimyəvi maddələrin ətraf mühiti çirkləndirməsi, bununla da flora və faunaya ziyan dəyməsi ehtimalı artır. Son nəticədə bu amillər istehsala qoyulan vəsaitin ödənilmə səviyyəsinə bilavəsitə təsir göstərir. Odur ki, işğaldan azad olunmuş bu ərazilərdə kənd təsərrüfatına investisiyalar cəlb edilərkən bu xüsusiyyətlər nəzərə alınmalıdır. Dövlətin aqrar sahənin maraqlarına uyğun həyata keçirdiyi investisiya siyasəti həm qeyri-neft sektorunun inkişafına, həm də dünya bazarına alternativ ixracın genişlənməsinə əlverişli şərait yaradır.

Bildiyimiz kimi Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında investisiya mühitinin formalaşması iqtisadiyyatın sabitləşdirilməsinin və perspektiv inkişafının əsas vasitələrindən biri kimi çıxış etməklə real ümumi kapitalın artırılmasında, iqtisadi səmərəliliyin stimullasdırılmasında, rəqabətqabiliyyətli milli iqtisadiyyatın

formalaşdırılmasında mühüm rol oynayır. Ondan istifadə nəticəsiinin və yığım səviyyəsinin yüksəldilməsi real istehsalın canlandırılmasının, iqtisadiyyatın yeni sektorlarının yaradılması və inkişafının əsas təməli olmaqla böhranlı hadisələrin aradan qaldırılmasına və ölkənin milli sərvətinin artırılmasına zəmin yaradır.

İnkişaf etməkdə olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi royonlarnda birbaşa investisiya axını keçmiş dövrdə yadellilər tərəfindən zəbt olunması səbəbindən aşağı səviyyədə qalıb. Birləşmə şəklində transsərhəd əməliyyatların canlanmasına və ərazi bütövlüyünün yenilənməsi nəticəsində bu qrupa daxil olan regionların ümumi XBİ daxilolmaları 28% təşkil edir.

İnkişaf etməkdə olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında transmilli müəssisələrin investisiyaları, həm də bütün zamanların ən yüksək səviyyəsinə çatdı.

Regional kontekstdə qlobal investisiya tendensiyalarının öyrənilməsi kimi rayonların investisiya siyasəti sahəsində tədbirlərin əksəriyyətinin olduğunu göstərdi. Əvvəllər investisiyaların liberallaşdırılması, həvəsləndirilməsi və asanlaşdırılması məqsədi daşıyırdı. 2020-ci ildə "Zəfər" çaldıqdan sonra, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya siyasəti tədbirlərinin 80%-dən çoxu hədəflənib, belə ki, investisiyaların idxalı üçün şəraitin yaxşılaşdırılması və məhdudiyyətlərin yumşaldılması istiqamətində mühüm addımlar atılıb. Xüsusən investisiya prosedurlarının və tədbirlərin sadələşdirilməsinə diqqət yetirilmişdir. Konkret sektorlarda liberallaşma, yeni investisiya məhdudiyyətləri mövcuddur. İlk növbədə milli təhlükəsizliklə bağlı narahatlıqlar və strateji sənayelər (nəqliyyat, enerji və müdafiə kimi) çatışmazlıqlar mövcuddur.

Həvəsləndirmək üçün nisbətən az tədbirlər həyata keçirilir və davamlı inkişaf üçün vacib olan sektorlara xarici və milli investorlar tərəfindən investisiyalar yatırılır. Ancaq bu kimi sektorlarda özəl investorların iştirakının artırılması və infrastruktur kimi davamlı inkişafın açarı olacaq tədbirlər planı həyata keçirilməlidir. Bu sahədəki məqsədlər üçün investisiyalarda mövcud kəsir nəzərə alınmaqla, davamlı inkişafa görə ilk növbədə mütəxəssislərə diqqəti artırmaq lazımdır və bunun üçün əsas olan sektorlara investisiya qoymaq, davamlı inkişafın təmin edilməsini diqqət mərkəzində saxlamaq şərtdir [17].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi regionlarında islahatların aparılması yollarınının araşdırılması davam edir və beynəlxalq investisiya sazişləri imzalanır. 2021-2022-ci ildə 31 yeni investisiya müqaviləsi bağlanmışdır və həmin müqavilələr özündə davamlı inkişafla bağlı müddəaları ehtiva edir. İnvestorlar mövcud fəaliyyətdən artan narazılığı nəzərə alaraq qlobal rejimi, eləcə də bu sahədə müasir imperativlər və investisiya landşaftının davamlı inkişafı və təkamülü, ən azı 50 rayon üzrə baxılması və yenidən nəzərdən keçirilməsi prosesinə başlamışlar. Belə ki, Türkiyə, Fransa, Norveç və Avropa İttifaqı (Aİ) yenilikçi yanaşmalar təklif edir [17].

Sonra, regionun investisiya cəlbediciliyini öyrənmək və gərək duyulan rayonların hər il dərc olunan reytinqinə "İndeks birbaşa xarici investisiya (Xarici Birbaşa İnvestisiya Güvən Index, FDICI)" beynəlxalq konsaltinq şirkətinin "A.T. Kerni"[84], dünyada investisiya əhval-ruhiyyəsinin perspektivlərini təhlil edir.

Birbaşa xarici  və yerli investorların etimad reytinqi "A.T. Kerni" 2021-ci ildən bəri dünyanın hər yerindən şirkətlər arasında sorğu əsasında illik dövriyyəsi ən azı 0,5 milyard dollar olan reytinq əks etdirir, investisiyaların real həcmlərini və perspektivlərini göstərir: siyahıdakı ölkələr 1 birbaşa xarici investisiyaların ən böyük həcmini təşkil edir.

İnvestisiya Güvən İndeksi məlumatların istifadəsinə əsaslanır və dünyanın aparıcı korporasiyalarının liderlərinin sorğularının öz verilənlər bazamızdan, Respondentlər liderlər arasından seçilir. Yüksək səviyyəli rəhbərlik və regional biznes liderləri təyin olunur. Bir neçə yüz iştirakçı şirkətlər 30-a yaxın ölkəni təmsil edir və hamısını əhatə edir.

İnkişaf etməkdə olan Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında növbəti illərdə fəaliyyətə başlayan xarici və yerli şirkətlərin 70%-dən çoxu investisiyaları artırmağı planlaşdırır. Top menecerlərin 39%-i inkişaf etməkdə olan iqtisadi regionlara investisiya qoymaqda maraqlıdır. İnvestorlar, bu səbəbdən siyahıdakı inkişaf etməkdə olan rayonların siyahısını genişləndirdi və əvvəlki illərlə müqayisədə uğur əldə etmək imkanı yarandı. Baxmayaraq ki, şirkətlərin top menecerləri ilk növbədə siyasi və iqtisadi riskdən narahatdır. Belə ki, inkişaf etməkdə olan

Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında qeyri-sabitlik, tez-tez atəşkəsin pozulması onları da bərk narahat edir. [84].

Məlumdur ki, Respublikamız kifayət qədər inkişaf etmiş iqtisadiyyata və güclü bir qanunvericilik sisteminə malik olan ölkədir. Azərbaycan dövlətinin investisiya mühiti olduqca parlaq və cəlbedici xüsusiyyətə malikdir. Bu gün ölkəmiz iqtisadiyyata xarici kapitalın cəlb edilməsi baxımından əvvəlinci yerlərdədir. Xüsusən də “Dəmir yumruq” la Zəfər əldə etdikdən sonra Azərbaycan hökumətinin əla nəticələr əldə etməsi faktı oldu. Dövlətimiz iqtisadiyyatını inkişaf etdirmək üçün düşmən tapdağından azad olunmuş Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında abadlaşdırma işlərini aparmaq və digər yeniliklər etmək üçün ölkəyə investisiya axınının stimullaşdırılmasını, ümumiyyətlə, gücləndirilməsi istiqamətində əsaslı işlər görməlidir.

Azərbaycanın investisiya siyasətinin ən mühüm prioritetləri 2020-ci ildən etibarən Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarına investisiyaların cəlb edilməsi, o cümlədən ölkəmiz üçün xarici investisiyaların stimullaşdırılmasının genişləndirilməsi, vətəndaşların əlavə iş yerləri ilə təmin edilməsi və iqtisadiyyatın bərpasının təmin edilməsindən idarətdir. Xüsusilə, bu məqsəd proqramı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən açıqlanıb. Bu baxımdan hökumətin əsas prioriteti, yerli potensial investorlara maksimum dəstək vermək, yaratmaq və təmin etmək kimi effektiv investisiya təşviqləri, o cümlədən vergi güzəştləri şəklində bank kreditləri, innovativ qrantlar və s. təkliflərin olunmasını nəzarətdə saxlamaqdan ibarətdir.

Ölkəyə qoyulan sərmayələrə gəlincə, Azərbaycan buna əməl edir və regionu tərk edən xarici investorların maksimum stimullaşdırılması siyasətindən həssas investisiyalara nəzarət etmək hüququnu özündə saxlayır. İnvestisiyaların dövlət tənzimlənməsinin əsaslarını, eləcə də, Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarındakı fəaliyyətləri gözdən keçirək [20].

Bu günə qədər investisiyanın dövlət tənzimlənməsi Azərbaycandakı fəaliyyətlər sərmayə cəlb etməyi hədəfləyir. Azərbaycan şirkətləri və xarici şirkətlər, məsələn, Rika şirkətləri Azərbaycanda ştatın federal quruluşuna görə tənzimləmə istiqamətlərini, xarici investisiya məsələlərini iki səviyyədə həyata keçirir: at federal və əyalət səviyyələri. Bununla belə, federal səviyyədə bir qayda olaraq, ümumi tələblər müəyyən edilir və xüsusi reseptlər ərazisində layihələrdə xarici investorların iştirakı ilə bağlı müvafiq qərarlar, yerli hökumətlər tərəfindən təsis edilir. Beləliklə, xarici sərmayələrin cəlb edilməsi istiqamətində işlər aparılır və hər bir dövlət tərəfindən müstəqil şəkildə uzunmüddətli kontraktlar bağlanılır. Qarabağ və Şərgi Zəngəzur iqtisadi zonalarında investorları cəlb etmək üçün xüsusi proqramlar işlənib hazırlanıb, layihələr imzalanıb. Ancaq, onu da qeyd etmək lazımdır ki, həm yerli, həm də xarici sərmayələrə görə, hakim Praktikada dövlət fəal rol oynamır. Ölkənin Qarabağ və Şərgi Zəngəzur iqtisadi regionunun iqtisadi inkişaf məqsədlərini müəyyən etmək yerli administrasiyaların rəhbərliyi müstəqil şəkildə müəyyən edilir və hər ikisi vasitəsilə sənaye inkişafının perspektivli sahələrinə dövlət və borc vəsaitləri təyin edilir. Azərbaycanda aparılan siyasət, prinsipcə, fərdiliyi təmin edir və aşağıda müzakirə olunacaq istisnaları özündə birləşdirir:

- bərabər təmin edilməsi;
- xarici və milli investorlar üçün biznes şəraiti.

Bununla belə, islahatların həyata keçirilməsində müəyyən məhdudiyyətlər var, müəyyən sənaye sahələrində şirkətlərin kapitalına xarici investisiyalar daha keyfiyyətli formada yatırımlar etməlidir. Azərbaycan iqtisadiyyatı, hansı səbəblərdən qurulur, milli təhlükəsizlik və ya "həssas sənayeləri" qorumaq və "kritik infrastrukturunu" möhkəmləndirmək olduqca vacib amildir. Əsas məhdudiyyətlər aşağıdakı fəaliyyət sahələri üçün müəyyən edilir [20.səh.78]:

1) yurisdiksiyada olan şirkətlərlə aparılan bütün əməliyyatlar xarici dövlətlərin milli təhdidinə görə sərmayələri demək olar ki, tamamilə məhdudlaşdıran Azərbaycanın təhlükəsizliyi, Azərbaycan müdafiə sənayesi;

2) xarici şirkətlərin layihələrdə iştirakına məhdudiyyətlər;

3) plutoniumun istehsalı və emalı ilə bağlı, əməliyyat, nüvə reaktorları və tullantıların utilizasiyası;

4) əcnəbi gömrük brokeri kimi işləmək üçün lisenziya yalnız ortağı olduqda ala bilər;

5) Azərbaycan vətəndaşıdır, onun artıq oxşar sənədi var və ona bu sahədə işləməyə icazə vermək;

6) lisenziyası olan şirkətdə xarici iştirak və radiotezliklərdən istifadə 20%-dən çox olmamalıdır.

7) investor Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarından əldə etdiyi iqtisadi faydanı əsaslandırmalıdır və məhsul istehsal edəcək şirkətin yaradılması, o cümlədən

onun bu məqsədlər üçün ayırdığı vəsait elmi və tələb olunan məhsul və ya xidmətin tədqiqi və istehsalı;

8) xarici iştiraklı şirkətlər xüsusi mükafat ala bilməzlər, istehsal və emalda maliyyə yardımı və subsidiyalar da həmçinin;

9) yaradılmasında xarici kapitalın iştirakına məhdudiyyətlər, hava və dəniz nəqliyyatı sahəsində səhmdar cəmiyyətləri:

Bu müddəaların həyata keçirilməsi üçün düzəlişlərə Azərbaycanda Xarici İnvestisiyalar üzrə Komitə (CFIUS) cavab verir. Azərbaycan işğaldan azad olunmuş Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının abadlaşmasına dəstək üçün müxtəlif proqramları fəal şəkildə həyata keçirir və investisiya yatırımının həyata keçirilməsinə şərait yaradır. Bu dəstəyin arxasında duran əsas fikir investoru həvəsləndirməkdir və prioritet fəaliyyət sahələrinə, eləcə də sosial sahələrə investisiyalar qoymaqdır.

Xaricilərin cəlb edilməsi sahəsində Azərbaycanın siyasətindən danışarkən, investisiya mühitinin yaxşılaşdırılması istiqamətində investisiyalara yönəlmiş tədbirlərə diqqət yetirmək lazımdır. 2021-ci ilin sentyabrında Azərbaycan Respublikası qanun layihəsini təsdiqlədi. Belə ki, Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında iş yerləri yaratmaq üçün xarici investisiyaların cəlb edilməsini təmin etdi. (2021-ci il Azərbaycan İşlərinə Qlobal İnvestisiya Aktı). Qanunun əsas vəzifəsi aşağıdakı müddəalara əsaslanır. [20]:

1) Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarına birbaşa xarici investisiyaları cəlb etmək qabiliyyəti regionun uzunmüddətli perspektivlərini bilavasitə müəyyən edir və iqtisadi artım, qlobal rəqabət qabiliyyəti və təhlükəsizlik sistemidir;

2) xarici investisiyaların cəlb edilməsi və iş yerlərinin yaradılması Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında inkişaf üçün əsas milli prioritetlərdir, regionun iqtisadiyyatı, maneələri qaldıraraq həyata keçirilməlidir və potensial investorlar üçün həvəsləndirmə sisteminin yaradılmasını təmin edir;

3) Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında açıq investisiyalara dair öhdəliyini saxlamaq siyasəti regiondakı şirkətlər üçün bazarlarda imkanlar yaradır;

4) Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının birbaşa xarici investisiyaları cəlb etmək, saxlamaq və təkmilləşdirmək səyləri yerli vətəndaşların həyat standartlarına uyğun olmalıdır.

Bundan əlavə, Azərbaycan beynəlxalq inkişafını davam etdirir, investisiya sahəsində əməkdaşlıq əlaqələrini möhkəmləndirir, yəni yekun ikitərəfli investisiya müqavilələri imzalayır. 2023-cü ildə Transatlantik Azad Ticarət Ərazisi (TAFTA) və ya Transatlantik Ticarət və İnvestisiya Tərəfdaşlığı (TTIP) yaradılması istiqamətində ən fəal işlər görülməkdədir.

Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarında investisiya mühitinin yaxşılaşdırılması istiqamətində yuxarıda göstərilən bütün xüsusiyyətlər nəzərə alınmaqla, Azərbaycan siyasətində Azərbaycan hökumətinin olduğu qənaətinə gəlmək olar. Respublika təkcə sənayeyə deyil, həm də digər sahələrə nəzərəçarpacaq təsir göstərə bilir. Belə ki, ticarət və inflyasiya prosesləri, həm də milli təhlükəsizlik sferasında bütövlükdə dövlət regionlara və yerli hökumətlərə iqtisadi cəhətdən müstəsna müstəqillik verdi. Ərazi bütövlüyü uğrunda mübarizə aparmaqla yanaşı, həmçinin mal və xidmətlərin ixracı, xaricilərin cəlb edilməsi, sahibkarlıq kapitalı və buna uyğun olaraq xaricilərə nəzarət, investor, öz iqtisadiyyatının böyüməsini təşviq etmək və aparmaq, fiskal siyasət sahəsində stimullaşdırıcı tədbirlər və s. həyata keçirir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Aslanzadə İ. “İnvestisiya layihələrinin təşkili və idarə olunması”. Bakı, 2000.
2. İbrahimov F. “Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyalar və onun milli iqtisadiyyatın dirçəlməsində rolu”. Elmi-tədqiqat işi. Bakı, 2007.
3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi. Azərbaycan Respublikasının

2021-ci il gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri. Bakı, avqust 2021, 107 s.

4. Azərbaycan Respublikasının İqtisadi İnkisaf Nazirliyi. 2021-ci il üzrə fəaliyyət haqqında hesabat. Bakı, fevral 2021, 177 s.

5. "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu". Bakı, 2020.

6. Hüseynov T. H. "Azərbaycanda investisiyalar". Bakı. 2009

**Гурбанова Асли Али кызы** кандидат экономических наук, доцент
Азербайджанский Государственный Аграрный Университет

**Мамедова Айшан Вугар кызы** Магистрант
Азербайджанский Государственный Аграрный Университет
E-mail: aysenmemmedova39@gmail.com

## СУЩНОСТЬ ФОРМИРОВАНИЯ ИНВЕСТИЦИОННОГО КЛИМАТА В КАРАБАХСКОМ И ВОСТОЧНО-ЗАНГЕЗУРСКОМ ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ

### Резюме

Из исследований и знакомства с экономической литературой видно, что капитал играет важную роль в инвестициях в экономических районах Карабаха и Восточного Зангезура. По этой причине в системе экономических отношений часто используется понятие капитальных вложений. Существуют разные подходы к его сущности. В литературе, когда говорят о капитальных вложениях, как правило, имеют в виду средства, направляемые непосредственно в основные фонды. В последнее время капитальные вложения приравниваются к инвестициям. Инвестиции определяются как затраты на воспроизводство и восстановление основных фондов.

**Ключевые слова:** *инвестиции, Карабах, Восточный Зангезур, развитие, проекты, материально-техническая база, капитальные вложения.*

**Gurbanova Asli Ali,** PhD in Economics, ass.prof.
Azerbaijan State Agrarian University

**Mammadova Aishan Vugar**
Master student
Azerbaijan State Agrarian University
E-mail: aysenmemmedova39@gmail.com

## THE ESSENCE OF THE FORMATİON OF THE İNVESTMENT CLİMATE İN THE KARABAKH AND EAST ZANGEZUR ECONOMİC REGİONS

### Summary

From research and acquaintance with the economic literature, it is clear that capital plays an important role in investments in the economic regions of Karabakh and East Zangezur. For this reason, the concept of capital investments is often used in the system of economic relations. There are different approaches to its essence. In the literature, when talking about capital investments, as a rule, they mean funds directed directly to fixed assets. Recently, capital investments are equated to investments. Investments are defined as the costs of reproduction and restoration of fixed assets.

**Key words:** *investments, Karabakh, East Zangezur, development, projects, material and technical base, capital investments.*

## MÜNDƏRİCAT

**Mehdiyeva Gülsurə Yusif qızı**
İqlim dəyişmələri ilə bağlı Azərbaycanın beynəlxalq əməkdaşlığı.................................... 5

**Cəfərova Rumella Telman qızı**
Azərbaycanda invstisiya siyasəti və tikinti sektoruna investisiyaların özüməməxsusluğu........................................................................................................ 11

**Mustafayev Elçin Ramiz oğlu**
Günəş enerjisindən istifadənin iqtisadi və sosial-iqtisadi səmərəliliyinin qiymətləndirilməsi metodları ......................................................................................... 17

**Gülalıyev Emil Çingiz oğlu**
Minimum əmək haqqının gəlir bərabərsizliyinə təsiri (panel analiz metodu)..................... 23

**Əliyev Arif Nail oğlu**
Sahibkarlığın determinantları və onun ölçülməsinə müxtəlif yanaşmalar.......................... 29

**Məmmədov Fizuli Əziz oğlu, Abbasova Şəhla Rauf qızı, Quliyeva Yasəmən Kamal qızı**
Azərbaycan Respublikasında yüngül sənaye sektorunun inkişafına təsir edən amillərin qiymətləndirilməsi ………………………………………………………………… 35

**Quluzade Xəlil İlqar**
Əmək bazarı və onun determinantları.......................................................................... 40

**Aşurbəyli-Hüseynova Nigar Pirverdi qızı**
İnkişaf etməkdə olan ölkələrin valyuta rejimi seçiminin xüsusiyyətləri………………….. 48

**Əlifov Yaqub Feyzulla oğlu, Əlifov Vüsal Yaqub oğlu**
Ərzaq təhlükəsizliyi və işğaldan azad olunmuş ərazilərin inkişaf perspektivləri ……………….. 54

**İbrahimli Çingiz Allahyar oğlu**
Elektron ticarət logıstıkasının iqtisadi artıma təsiri ………………………………………. 61

**İsmayılov Fazil İsmayıl oğlu**
Ərzaq təhlükəsizliyinin təmin edilməsində qiymət mexanizminin rolu……..…….......... 71

**Badin Məsoud**
İran İslam Respublikasında səyahət sığortasının problemlərinin araşdırılması və optimal həll yolları ................................................................................................................... 77

**Salahov Elçin Arif oğlu, Məmmədov Sahil Vidadi oğlu**
Vergi inzibatçılığının rəqəmsallaşdırılması……………………………………………… 83

**Əlizadə Elvin Vüqar oğlu**
Rəqəmsal mühitdə transaksiya xərclərinin ölçülməsinin metodiki aspektləri 88 ……………

**Əlifov Yaqub Feyzulla oğlu, Bağırova Təranə Adil qızı, Tağıyeva Gülnarə Adil qızı, Əliyeva Təranə Eyyub qızı, Əlifov Vusal Yaqub oğlu**
Qlobal problemlər və Azərbaycan iqtisadiyyatı…….…………………………………….. 95

**Salehzade Gulchohra Saleh**
Stimulation of innovation-oriented economic development and determination of innovation process management directions ……………………………………………. 102

**Rəcəbli İlknur Rahib oğlu**
"Dəmir Yolları" QSC-də yükdaşımanın elektronlaşdırılmasının mövcud vəziyyətinin təhlili ………………………………………………………………………………… 107

**Hamidli Fergana Nowruz**
Characteristic aspects of monetary regulation of sustainable economic growth in Azerbaijan in the post-oil era………………………………………………………… 113

**Babayev Məhərrəm Ramiz oğlu**
Iqtisadiyyatin dövlət tənzimlənməsində vergilərin rolu………………………………… 119

**Abdurakhmanov Kamran Vahid**
Main directions of demographic processes and labor market ……………..…………… 226

**Əliyev Kamil Müşfiq oğlu**
Azərbaycanda idxal-ixrac əməliyyatlarının təkmilləşdirilməsi istiqamətləri…………… 234

**İmanova Gültəkin Musa qızı**
Yüngül sənaye müəssisələrində keyfiyyət menecmenti sisteminin tətbiqinin səmərəliliyi 240

**Niftaliyev Sultan Gurban**
Regulation of cryptocurrencies in different countries ……………………………………. 247

**Orucov Mirismayil Nəsir oğlu**
Biznesin idarə edilməsinin əsas funksiyaları və onların icra yolları……………………… 253

**Tağızadə Turqut Könül oğlu**
Kənd təsərrüfatında sığorta sisteminin mövcud vəziyyəti……………………………… 259

**Həsənov Həsən Sarif oğlu**
COVİD-19 böhranından sonra fiskal siyasətin istiqamətləri…………………………… 265

**Novruzlu Behbidalı Valeh oğlu**
Təşviq konsepsiyası və beynəlxalq təşviq siyasətləri……………………………………... 271

**Vəliyev Fərid Şakir oğlu**
Heyvandarlıq məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi imkanları..... 279

**Qurbanova Əsli Alı qızı, Məmmədova Ayşən Vüqar qızı**
Qarabağ Və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya mühitinin formalaşmasının əhəmiyyəti……………………………………………………………………………… 284

**AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ**

Azərbaycan Texnologiya Universiteti

# İNNOVASİYALI İQTİSADİYYAT VƏ MENECMENT

№ 3 2022

**Baş redaktor:**

Süleymanov Akif Şamil oğlu t.e.d., professor

**Redaksiya heyəti**

**Baş redaktorun müavini:**
Gülalıyev Mayıs Gülalı oğlu i.e.d., dos.

**Məsul katib:**
Həmzəyeva Jalə

Hacıyeva Nüşabə, i.f.d., dosent
Qurbanova Xatirə, i.f.d, dosent
Qarayev Maarif , f.f.d., dosent
Hümbətov Yusif, i.f.d., dosent
Əhmədova Mətanət, t.f.d., dosent

**GƏNCƏ – 2022**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb: Reyestr №4155**

**Azərbaycan Texnologiya Universitetinin Elmi Şurasının qərarı ilə çap olunur**

**Jurnal aşağıdaki Beynəlxalq elmi məlumat bazalarına daxildi:**

*International Scientific Indexing (ISI), International Institute of Organized Research (I2OR), Journal factor, Cite factor, Academic Scientific Journals, Scientific Indexing Services*

**Print** – 2616-8626

*Innovasiyali iqtisadiyyat və menecment №3, 2022, - 290 səh.*

©Azərbaycan Texnologiya Universiteti

Redaksiyanın ünvanı: AZ2011, Azərbaycan, Gəncə ş. Şah İsmayıl Xətai prospekti 103
Azərbaycan Texnologiya Universiteti Tel: +(994-22) 57-56-29,
Faks: +(994-22) 57-29-61 E-mail: info@atu.edu.az, uteca.iem@gmail.com

© Azərbaycan Texnologiya Universiteti 2022